AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN TARİXİ POEMALARINDA ƏDƏBİ ŞƏXSİYYƏTLƏRİN BƏDİİ OBRAZI

**İxtisas:** 5716.01- Azərbaycan ədəbiyyatı

**Elm sahəsi:** Filologiya

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün**

**DİSSERTASİYA**


İddiaçı: _________ **Sitarə Hüseyn qızı Əlizadə**

Elmi rəhbər:_________**Fərman Yunis oğlu Xəlilov**
Filologiya üzrə elmlər doktoru


**NAXÇIVAN - 2024**

# MÜNDƏRİCAT

**Giriş.......................................................................................................3**
**I FƏSİL. AZƏRBAYCAN ƏDƏBİYYATINDA EL SƏNƏTKARLARINA VƏ ORTA ƏSRLƏR ŞAİRLƏRİNƏ HƏSR OLUNMUŞ TARİXİ POEMALARIN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ ...............................12**
1.1. Azərbaycan ədəbiyyatında tarixi poemanın təşəkkülü və əsas inkişaf mərhələləri........................................................................................12
1.2. Azərbaycan aşıqlarına həsr olunmuş tarixi poemalarda el sənətkarlarına poetik ehtiram........................................................................................15
1.3. Tarixi poemalarda orta əsrlər ədəbiyyatımızın klassiklərinin bədii obrazı.........37
**II FƏSİL. XIX ƏSR-XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN ƏDƏBİYYATI NÜMAYƏNDƏLƏRİNİN BƏDİİ OBRAZI TARİXİ POEMALARDA......76**
2.1. XIX əsrin ədəbi şəxsiyyətləri tarixi poemalarda...............................................76
2.2. XX əsrin əvvəlləri realist ədəbiyyatımızın klassiklərinə həsr olunmuş tarixi poemaların əsas xüsusiyyətləri.....................................................................105
**III FƏSİL. SOVET DÖVRÜNÜN ƏDƏBİ ŞƏXSİYYƏTLƏRİ TARİXİ POEMA MÜSTƏVİSİNDƏ........................................................................................139**
3.1. Repressiya qurbanlarının xatirəsinə poetik ehtiram.........................................139
3.2. Ədəbi şəxsiyyət və lirik-epik düşüncə.............................................................155
**Nəticə.......................................................................................................167**
**İstifadə edilmiş ədəbiyyat siyahısı.................................................................170**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan xalqı dünya-bəşər mədəniyyətinə çoxsaylı görkəmli şəxsiyyətlər bəxş etmişdir. Çoxəsrlik inkişaf tarixinə malik olan Azərbaycan ədəbi ənənələri həm də yetirdiyi çoxsaylı ədəbi şəxsiyyətlərlə dünya mədəni xəzinəsinin zənginləşməsinə töhfələr vermişdir. Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətayi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, habelə dünya mədəniyyət tarixi üçün əlahiddə mövqe təşkil edən Məhsəti Gəncəvi, Natəvan, Heyran xanım, Qönçəbəyim kimi qadın şairlərin və başqalarının yaradıcılıqları, ədəbi şəxsiyyətləri və mühitləri Azərbaycan xalqının zəngin mədəni-tarixi mühiti və milli-mənəvi dəyərlərinin öyrənilməsi baxımından olduqca zəruridir. Çünki bu tanınmış şəxsiyyətlərin yetişməsi üçün zəngin bir mədəni mühit və tarixi-mənəvi şərtlər tələb olunduğu kimi, onların yetişməsi və fəaliyyəti də dövrə, zamana və onun inkişaf istiqamətinə təsirsiz qalmamış, mədəni zənginliyin formalaşmasında müstəsna xidmətlər göstərmişlər. Bu ədəbi şəxsiyyətlər həm Azərbaycan, həm də dünya xalqları tərəfindən mühüm xidmətlər göstərmiş şəxsiyyətlər olaraq dəyərləndirilmiş, Nizami Gəncəvi "dünya ədəbiyyatının korifeyi", Nəsimi "intibah şairi", Məhəmməd Füzuli "qəlb şairi", Hüseyn Cavid "sülh və humanizm şairi" və b. olaraq qiymətləndirilmiş, müxtəlif nöqteyi-nəzərlərdən öyrənilmələri zərurətə çevrilmişdir. Təsadüfi deyil ki, milli-mədəni irsin ağır sütunlarını təşkil edən belə ədəbi şəxsiyyətlərə poetik ehtiram və dəyər olaraq sonrakı yaradıcı nəsillər tərəfindən qiymətli əsərlər, o cümlədən çoxsaylı poemalar həsr edilmişdir. Bu ədəbi şəxsiyyətlərə həm öz zamanlarında, həm də sonralar həsr edilən ədəbi əsərlərin, hətta kiçikhəcmli bədii mətnlərin mövcud olması Azərbaycan mədəni tarixinin müəyyən mərhələsi və ədəbi ənənələrinin öyrənilməsi üçün etibarlı mənbələrə çevrilmiş, ədəbi yaddaş və gələcəyə dərin stimul qaynağı təşkil etmişdir. Klassik irsin milli-mədəni dəyər və yaddaşda tutduğu əhəmiyyətli yerdən irəli gəlmişdir ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra keçmiş ədəbi təcrübə və mədəni xəzinəni təşkil edən

klassik irsimizin görkəmli nümayəndələri və ədəbi mənbələrinə qarşı protekultçuluq mövqeyindən yanaşılaraq "zərərli abidələr" olaraq öyrənilməsinə qadağalar tətbiq edilmişdir. Həm də bu zərurətdən irəli gələrək Azərbaycan şair və yazıçıları klassik irsin əbədiyaşar şəxsiyyətlərinə və onların yetişdiyi əhəmiyyətli mədəni dövrə həsr edilən poemalar ərsəyə gətirməklə ədəbi yaddaşımızı zənginləşdirmiş və hifz etmişlər. Tariximizin və mədəniyyətimizin ən böyük hamisi olan Ümummilli Lider Heydər Əliyev çox tutarlı olaraq qeyd etmişdir ki: *"Tariximizdə hər bir şəxsiyyətin öz yeri var... Tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq*" [163]. Ulu öndərin vaxtilə Nizami Gəncəvinin yuvarlaq olmayan 840 illik yubileyinin keçirilməsi haqqında Sovet rəhbərləri ilə danışıqları zamanı *"Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır"* [164] kimi yanaşması da ədəbi-tarixi şəxsiyyətlərimizə qayıtmaq ehtiyacını özündə tam mənasında ehtiva etmişdir. Həmçinin sovet dövründən etibarən Azərbaycan xalqının müdrik oğlu Heydər Əliyev Füzuli yaradıcılığına türk dünyasının ortaq dəyəri olaraq yanaşmış və birləşdirici dəyər olaraq qiymət vermişdir. Ümumiyyətlə, ədəbi şəxsiyyətlər həm də xalqlar arasında etibarlı mədəni-mənəvi körpü olaraq mühüm xidmətlər göstərmiş, müxtəlif mədəniyyətlər və xalqların dostluğunda əhəmiyyətli rol oynamışlar. Elə bu zərurət və milli-mədəni əhəmiyyətin ifadəsidir ki, ölkəmizdə ədəbi şəxsiyyətlərin yubileylərinin keçirilməsi bir ənənə təşkil etmiş, ölkəmizdə 2019-cu il "Nəsimi ili", 2021-ci il "Nizami Gəncəvi ili" elan edilmiş, 2024-cü ildə M.Füzulinin anadan olmasının 530 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalanmışdır və s. *"Azərbaycanda tariximizin görkəmli səhifələrini yad etmək, tariximizi bugünkü və gələcək nəsillərə daha da geniş anlatmaq, xalqımızın, millətimizin tarixini dünyaya nümayiş etdirmək"* [164] məqsədi ilə həyata keçirilən bu tədbirlər sayəsində xalqımızın milli düşüncəsi daim oyaq tutulmuşdur. Bu mənada Azərbaycan xalqının mühüm tarixi və mədəni dövrlərini, onun görkəmli xidmətləri ilə yaddaşlara yazılmış ədəbi şəxsiyyətlərini mövzu edən tarixi poemaların ciddi elmi təhlil və tədqiq predmetinə çevrilməsi aktuallıq kəsb edir. Ədəbiyyatşünasların da qeyd etdiyi kimi, ədəbiyyatın əhəmiyyətli janrlarından olan ədəbi şəxsiyyətlərə həsr edilmiş tarixi poemalarda tarixi şəxsiyyətlərimiz, qəhrəmanlıqlarla və faciələrlə dolu olan uzaq və

yaxın keçmişimiz bu janrın güzgüsündə daha aydın əksini tapmaq imkanı əldə etmişdir. Çoxsaylı Azərbaycan ədəbiyyatı klassiklərinin tarixi poema janrına gətirilməsinə güclü maraq hər şeydən əvvəl mənəvi tələbatla, poetik şəxsiyyətlərin xalq taleyinə daxili yaxınlıqları ilə bağlı olmuşdur. Bu cəhətdən mövzunun aktuallığı və əhəmiyyəti həm də ondadır ki, klassik irsimizin çoxsaylı görkəmli simalarının həyat, yaradıcılıq və fəaliyyətləri müxtəlif yanaşmalar aspektindən öyrənilmə müstəvisinə gətirilmiş, ciddi elmi təfərrüatları ilə tədqiq və təhlil edilmiş, eyni zamanda Azərbaycan ədəbiyyatı və mədəniyyətinin müxtəlif əhəmiyyətli dövrləri araşdırılmaqla mühüm bir vəzifə həyata keçirilmişdir. Bu tədqiqat əsərində də böyük mütəfəkkir sənətkarlara həsr edilən tarixi poemaların müəyyənləşdirilərək ədəbi təhlilə cəlb edilməsi həm bu mövzuda mövcud olan ədəbi külliyyatın ümumiləşdirilməsi baxımından əhəmiyyət kəsb edir, həm də həmin ədəbi şəxsiyyətlərin obrazları vasitəsilə ədəbi mətnlərdə ifadə edilən mühüm tarixi fikir, ideya və ideallların, vacib çağırışların ayrıntıları ilə öyrənilərək ortaya çıxarılması aktuallıq nümayiş etdirir. Çünki təhlil obyektinə çevrilmiş tarixi poemalarda ədəbi şəxsiyyətlər və onları əhatə edən tarixi-mədəni hadisələr vasitəsilə şair və yazıçılarımız özlərinin fikir və düşüncələrini ifadə etmək kimi mühüm missiya ortaya qoymuş, ədəbiyyatı milli mücadilə, xalqın milli oyanışı, mübarizə ideallarının təbliği və xalqın mücadiləyə hazırlığı istiqamətində istifadə etmişlər. Sovet dövründən fərqli olaraq, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra klassik ədəbi irsin yeni ədəbi-tənqidi müstəvidə, milli konsepsiya və azərbaycançılıq mövqeyindən öyrənilməsi və dəyərləndirilməsi ədəbiyyatımızın görkəmli simalarının bədii obrazının yaradıldığı tarixi mövzulu əsərlərin də öyrənilmə zərurətini artırmışdır. İnsanları tərbiyə vasitəsi olaraq da ədəbi şəxsiyyətlərin obrazlarının yaradıldığı tarixi poemaların öyrənilməsinin əhəmiyyəti böyükdür. Belə ki, ədəbi şəxsiyyətlərin obrazının yaradıldığı tarixi poemalar ədəbi-tarixi, bədii-estetik dəyəri ilə də ədəbiyyatın tərbiyə rolunda mühüm faktor olaraq çıxış edir. Görkəmli ədəbi şəxsiyyətlərin bədii obrazının yaradıldığı poemaların tarixi və milli dəyərlər baxımından yenidən öyrənilməsi həm də onların geniş oxucu kütləsinə çatdırılması, kütləviləşməsi və təbliği baxımından öz əhəmiyyətini qoruyub saxlamaqdadır ki, bu

da ədəbi şəxsiyyətlərin obrazının yaradıldığı əsərlərin öyrənilməsini bir daha diqqət mərkəzinə gətirir.

Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Məmməd Rahim, İslam Səfərli, Rəsul Rza, Zeynal Xəlil, Əliağa Kürçaylı, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Əli Kərim, Cabir Novruz, Qabil, Məmməd Araz, Söhrab Tahir, Fikrət Sadıq, Nəriman Həsənzadə, Musa Yaqub, Abbas Abdulla, Zəlimxan Yaqub, Ələkbər Salahzadə, Eldar Baxış, Rüstəm Behrudi və digər müəlliflər tərəfindən yazılmış tarixi poemaları təhlilə cəlb etmək təkcə görkəmli sənətkarlarımızın tale yolunun, şəxsiyyətinin bədii təcəssümünü araşdırmaq baxımından deyil, həmçinin onların yaşayıb fəaliyyət göstərdikləri dövrün gerçəkliklərinin sənət dili ilə işıqlandırılması məsələlərini aydınlaşdırmaq, bütövlükdə ədəbi şəxsiyyətlərin obrazının bədii ədəbiyyatda yaradılması ilə bağlı bir sıra problemləri incələmək cəhətindən də əhəmiyyətli və faydalıdır. Bu mənada dissertasiya üçün seçilən mövzu özünəməxsus aktuallığa malikdir.

Azərbaycan ədəbiyyatşünaslığında həm ümumən poema janrı və poema nümunələrinin, həm də ayrıca ədəbi şəxsiyyətlərin əks olunduğu tarixi poema örnəklərinin öyrənilməsi ciddi problem və mühüm vəzifə olaraq durmuş, bu sahədə diqqətəlayiq əməli addımlar atılmışdır. Nüfuzlu ədəbiyyatşünaslar Azadə Rüstəmovanın “Azərbaycan epik şeirinin inkişaf yolları” [103], Əliyar Səfərlinin “XVII-XVIII əsrlər Azərbaycan epik şeiri” [115] kimi fundamental nəşrlərilə yanaşı, Rafiq Yusifoğlunun “Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri” [123], Xəlil Rzanın “Tarixi-romantik poema” [106], Lətifə Qocayevanın “Rəsul Rzanın poemalarında süjet və qəhrəman” [79], Vaqif Yusiflinin “Şəhidliyin zirvəsi: Azərbaycan ədəbiyyatında Nəsimi obrazı” [126], Gülşən Behbudun “Rəsul Rza poemalarının bədii xüsusiyyətləri” [133] kimi, o cümlədən digər müəlliflərin tədqiqat əsərlərində ədəbi şəxsiyyət və poema janrının bəzi mühüm məsələlərinə toxunulmuş və bəhs edilmişdir. Bu əsərlərdə müəlliflər daha çox ayrı-ayrı ədəbi şəxsiyyətlərin bədii obrazları haqqında fikirlərini ifadə etməyə çalışmış, sırf tarixi poemalarda ədəbi şəxsiyyətlərin obrazları məsələsi haqqında az və ya yarımçıq şəkildə bəhs edilmişdir. Dissertasiya işində klassik və müasir ədəbiyyatımızın

görkəmli simalarının bədii obrazının yaradıldığı tarixi mövzulu poemalar dövrlər, mərhələlər üzrə sistemli şəkildə ilk dəfə olaraq tədqiq və təhlil olunur. Bütövlükdə Azərbaycan tarixi poemalarında ədəbi şəxsiyyətlərin bədii obrazının işlənmə səviyyəsi araşdırılan dissertasiya işi ədəbi, tarixi dəyəri ilə aktuallıq kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.** Ədəbiyyatımızda müxtəlif dövrlərdə yaşayıb-yaratmış şair, yazıçı və dramaturqlara həsr olunmuş çoxsaylı tarixi poemalar və onlar haqqındakı elmi-ədəbi materiallar tədqiqatın əsas obyektini təşkil edir. Araşdırmanın predmeti Azərbaycan ədəbiyyatında ədəbi şəxsiyyətin bədii obrazı probleminin tədqiqidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində tarixi poemalarda ədəbi şəxsiyyətlərin obrazlarının necə yaradıldığı və hansı ədəbi-estetik məsələlərin ehtiva edildiyi təhlil və tədqiq problemi olaraq qarşıya məqsəd qoyulmuşdur. Bu məqsədi reallaşdırmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Azərbaycan ədəbiyyatında poema janrının təşəkkülü və inkişafı tarixində ədəbi şəxsiyyətlərin obrazlarının yaradıldığı tarixi poemaların yeri və rolunu aydınlaşdırmaq, konkret bədii nümunələri müəyyənləşdirmək, tədqiqat müstəvisinə gətirməklə təhlil etmək;
- Poemalarda hansı ədəbi şəxsiyyətlərin obrazlarının yaradıldığını müəyyənləşdirmək, əsərləri təhlil yolu ilə ədəbi şəxsiyyət obrazlarının ədəbi-estetik məzmun və mahiyyətini ortaya çıxarmaq;
- Tarixi poemalarda yaradılmış ədəbi şəxsiyyətlərin bədii obrazlarını tarixilik və bədii şərtilik, reallıq və irreallıq prinsipləri çərçivəsində tədqiqata cəlb etmək, ədəbi şəxsiyyət və zaman, ədəbi şəxsiyyət və tarixi-mədəni mühit, tarixi dövr, müasir reallıq, müəllif mövqeyi kimi məsələləri tədqiq edib müəyyənləşdirmək;
- Ortaya qoyulmuş elmi problemə mövcud elmi-nəzəri və tənqidi nöqteyi-nəzərdən yanaşaraq səbəb-nəticə məsələlərini ortaya çıxarmaq;
- Ədəbi şəxsiyyətlərin obrazlarının yer aldığı poemaların təhlili fonunda milli-ictimai tarix, yaddaş və düşüncənin qorunması, saxlanması və gələcək nəsillərə ötürülməsi məsələlərini, habelə milli tarixi düşüncə və idealların formalaşması, milli şüurun oyanışı və müstəqilliyin əldə edilməsi, habelə milli dəyərlərin yaşadılması

kimi mühüm missiya və məsələlər kontekstində araşdırmaq, bədii nümunələri azərbaycançılıq, milli dövlətçilik, türkçülük və dünyəvilik konsepsiyası əsasında tədqiqata cəlb etmək;

- Ədəbi şəxsiyyətlərin obrazlarının yaradıldığı poemaların tədqiqatı prosesində ədəbi şəxsiyyət, bədii obraz, qəhrəman və tarixi reallıq məsələlərinin həllinə sənətkarların necə nail olduğuna elmi cəhətdən aydınlıq gətirmək;
- Tədqiqata cəlb olunan bədii nümunələrin dil-üslub xüsusiyyətlərini, mövzu və ideyasını, sənətkarlıq məziyyətlərini, həmçinin əsərlərdə tarixilik prinsipinin gözlənmə səviyyəsini dəqiqləşdirmək.

**Tədqiqat metodları.** Dissertasiyada müasir Azərbaycan ədəbiyyatşünaslığının müvafiq təcrübəsinə və nailiyyətlərinə istinad olunaraq analiz və sintez, induksiya və deduksiya, müqayisəli, abstraktlaşdırma, təsviretmə və b. tədqiqat metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində görkəmli ədəbi şəxsiyyətlərin obrazlarının yaradıldığı tarixi poemaların tədqiqata cəlb olunması nəzərdə tutulmuşdur. Aparılan tədqiqatlar nəticəsində aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

- Görkəmli ədəbi şəxsiyyətlərin obrazının yaradıldığı tarixi poemalar sistemli şəkildə, dövrlər, mərhələlər üzrə tədqiqata cəlb olunur;
- Orta əsrlər dövründə yaşayıb yaradan görkəmli ədiblərin bədii obrazının yaradıldığı tarixi poemalar tarixi qaynaqlar, ədəbi mənbələr əsasında müqayisəli şəkildə təhlil olunur, bədii nümunələr tarixilik və müasirlik prinsipinə uyğun olaraq, öyrənilir, tarixdəki şəxsiyyətlə əsərdəki şəxsiyyət müqayisəli şəkildə araşdırılır;
- Görkəmli ədəbi simaların obrazının yaradıldığı tarixi poemalar görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti, irsinin öyrənilməsi, təbliğinin əsas vasitəsi kimi təqdim olunur;
- Təhlilə cəlb olunan bədii nümunələrdə tarixi reallıq və müəllif mövqeyi, müasir gerçəklik problemi tarixi qaynaqlar, ədəbiyyatşünaslığın dəyərləndirmələri, müəllifin fərdi təfəkkürü nəzərə alınmaqla araşdırılır;
- Görkəmli ədəbi şəxsiyyətlərin obrazının yaradıldığı tarixi poemalarla yanaşı,

ədəbi simalara həsr olunan, ithaf olunan bədii nümunələrdə ədəbi qəhrəmanın yaradıcılığından bəhrələnmə faktları diqqət mərkəzinə çəkilir, hadisələrin inkişafında yaradıcı bəhrələnmənin meyarı müəyyənləşdirilir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan tarixi poemalarında ədəbi şəxsiyyətlərin bədii obrazının tədqiq edildiyi dissertasiyada aşağıda ümumiləşdirildiyi kimi bir sıra elmi yeniliklər əldə edilmişdir:

- İlk dəfə tədqiqatda ardıcıl, əhatəli və sistemli olaraq ədəbi şəxsiyyətlərin obrazlarının yaradıldığı poemalar müəyyənləşdirilmiş, mövzu-məzmun, ideya-estetik və problematik məsələlər kontekstində təhlil və tədqiq edilmişdir;
- Bu günə qədər tarixi poemalarda obrazları yaradılan ədəbi şəxsiyyətlərdən bəhs edən ayrı-ayrı əsərlər olsa da, ilk dəfə bu tədqiqat əsərində ədəbi şəxsiyyətlərin bədii obrazının tarixi poemalarda işlənmə problemi sistemli şəkildə yer almış, tədqiq və təhlil olunmuşdur;
- Tədqiqat işində tarixi poemalarda əks etdirilən ədəbi şəxsiyyətlərin obrazları şəxsiyyət, zaman, tarixi dövr, müasir gerçəklik və müəllif mövqeyi kontekstində tədqiqata cəlb edilərək əhatəli və təfərrüatlı elmi qənaətlər ortaya qoyulmuşdur;
- Dissertasiyada ədəbi şəxsiyyətlərin obrazlarının yaradıldığı tarixi poemalar təhlil olunarkən tarixi gerçəklik və bədii şərtilik, reallıq və irreallıq, tarixilik və sərbəst yanaşma və s. kimi problemlər geniş elmi müstəviyə çıxarılmış, bədii nümunədə tarixi həqiqət və yazıçı təxəyyülünün rolu müəyyənləşdirilmiş, ədəbiyyatşünaslıqdakı məsələyə münasibətdəki meyar əsas alınmışdır;
- Dissertasiyada ilk dəfə ümumi şəkildə Azərbaycan ədəbi şəxsiyyətlərinin obrazlarının əks olunduğu tarixi poemalar ədəbi-estetik və xronoloji-problematik məsələlər işığında qruplaşdırılaraq tədqiqata cəlb olunmuşdur;
- Ədəbi şəxsiyyətlərin bədii obrazının yaradıldığı tarixi poemalar öyrənilərkən əsərlərin dil-üslub xüsusiyyətləri, sənətkarlıq məziyyətləri də təhlil obyektinə çevrilmişdir;
- Dissertasiya işində ədəbi şəxsiyyətlərin obrazları yaradılan bədii nümunələr ədəbiyyatşünaslığın, ədəbi-tənqidin də fikirləri nəzərə alınaraq tədqiq olunmuş, həmçinin sovet dövrü tədqiqatlarına da müstəqillik dövrünün meyarları ilə aydınlıq

gətirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Seçilmiş mövzunun tədqiqi görkəmli söz ustadlarının obrazının Azərbaycan tarixi poemalarında bədii təcəssümünün araşdırılması, ümumiyyətlə, aid nümunələr timsalında ədəbi şəxsiyyyətin bədii obraz səviyyəsində təqdiminin müvafiq yol və vasitələrinin müəyyənləşdirilməsi baxımından özünəməxsus əhəmiyyətə malikdir.

Dissertasiya işindən bu istiqamətli tədqiqat işlərində istifadə oluna bilər. Ədəbi şəxsiyyətlərə tarixi poema həsr etmiş bir sıra görkəmli şairlərin yaradıcılığının tədrisi və tədqiqi zamanı da dissertasiyadan istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 31 yanvar 2017-ci il tarixli (protokol №05) iclasında təsdiq olunmuşdur. Mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Filologiya Problemləri üzrə Elmi Şuranın 16 may 2018-ci il tarixli (protokol № 05) iclasında qeydiyyata alınmışdır. Dissertasiyanın əsas müddəaları müəllifin çap etdirdiyi 15 elmi məqalə və konfrans materialında öz əksini tapmışdır. Bunlardan 1 məqalə və 1 konfrans materialı xaricdə çap olunmuşdur, 2-si Respublika Elmi konfrans materialı, 1-i beynəlxalq yerli konfrans materialı, 10-u yerli məqalədir. Nəşr olunmuş məqalə və konfrans materialları dissertasiyanın fəsil və paraqraflarını əhatə edir.

Tədqiqatın nəticələri haqqında C. Məmmədquluzadənin 150 illik yubileyinə həsr olunmuş "Dünyada sözdən böyük yadigar yoxdur" mövzusunda Respublika elmi konfransında (Naxçıvan, 2019), "XX əsr Naxçıvan ədəbi mühiti" mövzusunda Respublika elmi konfransında (Naxçıvan, 2020), Humanitar və ictimai elmlər üzrə I Beynəlxalq elmi konfransında (Bakı, 2020), 7-ci Beynəlxalq İqtisadiyyat və Sosial Elmlər Konfransında (7th International Conference on Economics and Social Sciences, Kyrenia, TRNC) məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla**

**dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi "Giriş", 3 fəsil, "Nəticə" və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın "Giriş" hissəsi 9 səhifə – 16122 işarə, I fəsil 64 səhifə –105773 işarə, II fəsil 63 səhifə – 109249 işarə, III fəsil 28 səhifə – 46437 işarə, "Nəticə" 3 səhifə – 4242 işarə olmaqla işin ümumi həcmi istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 169 səhifə – 281827 işarədir.

# I FƏSİL
# AZƏRBAYCAN ƏDƏBİYYATINDA EL SƏNƏTKARLARINA VƏ ORTA ƏSRLƏR ŞAİRLƏRİNƏ HƏSR OLUNMUŞ TARİXİ POEMALARIN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

## 1.1. Azərbaycan ədəbiyyatında tarixi poemanın təşəkkülü və əsas inkişaf mərhələləri

Köklü ənənələrə malik olan poema janrı Azərbaycan ədəbiyyatında zəngin inkişaf yolu keçmişdir. Ədəbiyyatımızda poema janrının yaranma tarixindən söhbət düşəndə ilk növbədə Xaqaninin "Töhfətül-İraqeyn" poeması yada düşür. Bu janr sonrakı dövrlərdə Nizami, Füzuli yaradıcılığı ilə əhəmiyyətli dərəcədə zənginləşmiş, keçən əsrin görkəmli söz ustadlarının yaratdığı nümunələrlə yeni inkişaf mərhələsinə qədəm qoymuş, yeni ədəbi istiqamət və mövzu rəngarəngliyi qazanmışdır. Ədəbiyyatşünas Vüqar Əhməd poema janrı ilə bağlı mülahizələrini bu şəkildə ümumiləşdirir: *"Poema sözün əsl mənasında şeirin avanqardıdır, poetik fikrin dərinlik, vüsət və əzəmət ölçülərini ağır çəkidə təmsil edən bir janrdır"* [141].

Araşdırmalar göstərir ki, XX əsrin 30-cu illərindən etibarən milli-mənəvi dəyərlərimizin öyrənilib qiymətləndirilməsi, zaman-zaman bu dəyərləri yaratmış, yaşatmış klassiklərimizin irsinin mənimsənilməsi zəminində mövzu, ədəbi qəhrəman baxımından yeni məzmunlu və strukturlu tarixi poemalar yaranmışdır. Azərbaycan ədəbiyyatında epik şeirin inkişaf yolunu tədqiq edən ədəbiyyatşünas Əliyar Səfərli vurğulayır ki, "*İnsan və onun həyatını daha dolğun əks etdirməyə imkan verən epik formaların uzunömürlü olması, xalqlardan-xalqlara, əsrlərdən-əsrlərə keçib yaşaması isə onların özünün münasib və əlverişli forma olmasından irəli gəlirdi*" [115, s.6]. Poema janrının daha işlək forma olması, zamandan-zamana forma, şəkil olaraq təkmilləşərək dövrün tələblərinə asanlıqla uyğunlaşması janrın tarixi

təkamülünü şərtləndirmişdir. Sovetlər dönəmində ümumilikdə lirik şeirin inkişaf dinamikası, sovet gerçəkliyinin təsiri ilə lirikanın ədəbi-ictimai hadisəyə çevrilməsini professor Cəlal Abdullayev bu fikirlə şərtləndirir: *"Bütün sovet ədəbiyyatında olduğu kimi, lirik şeirin müasir problemlərindən biri məhz insan uğrunda mübarizədən, onun daxili aləmini təsvir və tərənnümdən ibarətdir"* [1, s.101]. Poemanın - epik şeirin də bütün zamanlarda işlək bir janr kimi statusunu qorumasının kökündə duran, göstərilən faktor professorun genezisində şərhini doğru şəkildə aşkarlayır.

Orta əsrlərdə və XIX-XX yüzilliklərdə yaşayıb-yaratmış müxtəlif söz sənətkarlarına həsr olunmuş çoxsaylı tarixi poemaların bir qismi haqqında Azərbaycan ədəbiyyatının ədəbi yekunlarına həsr olunmuş materiallarda poema janrının mövzu və struktur xüsusiyyətlərinə də diqqət yetirilmiş, bu janrın inkişafı müzakirə obyektinə çevrilmiş, sonrakı dövrlərdə "Ədəbi proses" məcmuələrində problemə münasibətdə Y.Qarayevin, Ş.Salmanovun, Ş.Alışarlının konseptuallığı ilə seçilən araşdırmaları diqqət çəkmişdir.

Qeyd edək ki, tarixi poemalarda hadisə və əhvalatların seçilməsi hansı cəhətdən aktualdırsa, ədəbi qəhrəmanın şəxsiyyəti, taleyi, mühiti, müasirləri, dünyagörüşü, yaradıcılığı barədə ifadə olunan poetik qənaətlər, lirik-epik düşüncələr də o cəhətdən əhəmiyyətlidir və mühüm səciyyə daşıyır. Müxtəlif dövrlərdə yaşamış şair və yazıçıların bir obraz-qəhrəman kimi bədii inikasının xarakterik xüsusiyyətlərini yaratmış müəlliflərin poemaları mövzu və dövrün tarixi hadisələrini konkret məzmunlarda əks etdirmək baxımından, eyni zamanda əsərlərin bədii xüsusiyyətləri və sənətkarlıq məsələlərinə görə ədəbiyyatımıza bəxş etdikləri uğurlu ədəbi nümunələr kimi əhəmiyyətlidir. Xaqani, Nizami, Nəsimi, Füzuli, Vazeh, Axundov və digər klassiklərimiz haqqında böyük sənətkarlıqla yaradılmış tarixi poemalar elmi-ədəbi fikrimizi zənginləşdirən mənbə rolunu oynamışdır.

Müasir Azərbaycan ədəbiyyatının mövzu, ideya, obraz, kompozisiya, bədii təsvir vasitələri baxımından zənginləşməsində və inkişafında mühüm rol oynamış M.Ə.Sabir, C.Məmmədquluzadə, C.Cabbarlı, S.Vurğun, R.Rza haqqında yazılmış tarixi poemalarda isə ədəbi şəxsiyyətlərin xarakterinin bədii əksi zaman və məkan müstəvisində bədii həllini tapmışdır. Tarixi təşəkkülünün yeni mərhələsində poema

janrında mövzu axtarışları yeni tarixi mövzulu poemaların yaranmasına zəmin yaratmışdır. Qeyd olunur ki, *"Müasir poema yalnız xalis müasir mövzu ilə kifayətlənmir, tarixə və tarixi şəxsiyyətlərə tez-tez müraciət edir. Lakin son illərin məlum hadisələri bir sıra sənətkarlarımızı daha dərindən düşündürmüş və onlar bu ictimai-siyasi hadisələri ən bitkin epik lövhələrlə təhlil etmək üçün poemanın imkanlarından olduqca peşəkarlıqla istifadə etmişlər"* [140]. Bu mənada yaxın tarixi keçmişimizin ədəbi şəxsiyyətlərinin həyatı və fəaliyyətinin tərənnümü onlar haqqında yazılmış əsərlərin əsas qayəsini təşkil etməkdə, onların yaradıcılığının ədəbiyyatımızda fərqli istiqamətdə inkişafını və orijinal poetik fərdlər kimi mövcudluğunu göstərməkdə və dünya ədəbiyyatı xəzinəsinə töhfə verməkdədir. Bədii-estetik fikrimizin zənginləşməsində əhəmiyyətli yerlərdən birini tutan, keçmiş təcrübəyə əsaslanaraq özünəməxsus mövzuları əks etdirən tarixi poema janrının yaranması ədəbiyyatşünaslıqda mühüm hadisələrdən biri kimi bəhs edilmişdir. Hətta ədəbiyyatşünaslıqda bu barədə müxtəlif fikirlər səsləndirilmişdir. Bu baxımdan ədəbiyyatşünas Gülxani Pənahi yazır: *"Azərbaycan sovet tarixi poemasını ilk dəfə Hacı Kərim Sanılı yazıb. Onun "Namus davası", "Zülmün sonu", "Novruz və Gülarə", "Qurub qaçaqları" poemalarını məharətlə qurulmuş süjetləri, xarakter aləmləri, bitkin tabloları ilə işlədiyi qeyd edilir"* [100, s.57]. Fərqli fikirləri nəzər aldıqda belə qənaət hasil olur ki, ədəbi fikir tariximizdə tarixi mövzulu poemaların da uzunmüddətli inkişaf yolu, özünəməxsus təcrübəsi formalaşmışdır.

Buna görə də müasir dövrdə Azərbaycan ədəbiyyatında poeziyanın inkişafı üçün çox zəngin ilkin qaynaqlar və ədəbi-mədəni şərait mövcuddur. Ədəbiyyatşünas alim G.Əliyevanın qeyd etdiyi kimi, *"Səkkiz yüz ildən çoxdur ki, Azərbaycan xalqı öz milli-mənəvi dəyərləri və poetik inciləri ilə dünya mədəniyyət xəzinəsini zənginləşdirməkdədir"* [37, s.156].

Ədəbi-nəzəri fikirdə poema janrının çağdaş dövrdəki inkişafını, forma axtarışlarını, mövzu dairəsini şərtləndirən tədqiqatlarda fikir belədir: *"Şeirin müasir prosesini şərtləndirən obyektiv amillər, bugünkü poemanın da taleyinə təsirsiz qalmamışdır. Lirik poema, poema-sənəd, poema-reportaj, poema-müraciət assosiativ kompozisiya əsasında qurulan poema-monoloq və s. bu kimi formalar son dövrlərin*

*Azərbaycan poemaları üçün səciyyəvidir"* [140]. Janrın forma və məzmun axtarışlarında əhəmiyyətli yeri tarixi mövzulu poemalar təşkil edir. Tarixi poemaların təhlili göstərir ki, bu əsərlərdə lirik-epik ənənələr və obrazların bədii inikasına fərqli müəllif münasibətinin üzə çıxarılması, klassik irsə üz tutmalarda fərdi yaradıcılıq prinsiplərinin, dil, üslub, ədəbi-bədii vasitələrin müəyyənləşdirilməsi başlıca məqsəd daşıyır. Bu da ilk növbədə onunla izah olunur ki, ədəbiyyatımızda bədii obraz-qəhrəman səviyyəsinə ucaldılan görkəmli şair və yazıçılarımıza müxtəlif dövrlərdə bir neçə söz ustadımız müraciət etmiş, sənətkarlıq baxımından fərqli, daha mükəmməl əsərlər yaratmağa cəhd etmiş və buna da nail olmuşdur. Azərbaycan ədəbiyyatında indiyədək yaradılmış onlarca tarixi poemalarda şairlərimiz ədəbi şəxsiyyətlərin bədii obrazlarını ədəbi qəhrəman, ədəbi qəhrəman və zaman, ədəbi qəhrəman və milli ictimai-siyasi problemlər, ədəbi şəxsiyyətin tarixi siması və obraz xüsusiyyətləri baxımından yaratmışlar. Aşağıda tarixi poemaların mövzu təsnifatını verərkən söylədiyimiz bu tezis öz təsdiqini bir daha tapacaqdır.

Azərbaycan ədəbiyyatının bir çox məşhur nümayəndələri haqqında digər ədəbi janrlarda olduğu kimi, epik və epik-lirik janrda da ən müxtəlif nəsil şairlər tərəfindən çoxsaylı tarixi poemalar yazılmışdır. Bu tarixi poemalar arasında böyük söz ustadlarının, qüdrətli ədəbi şəxsiyyətlərin bədii obrazlarının yaradıldığı bir sıra poemalar da yer almışdır.

## 1.2. Azərbaycan aşıqlarına həsr olunmuş tarixi poemalarda el sənətkarlarına poetik ehtiram

Azərbaycan tarixi poemalarında xalqımızın uzun əsrlər boyu yaratdığı zəngin bədii düşüncə nümunələri içərisində özünəməxsus sənətkarlıq xüsusiyyətləri ilə fərqlənən aşıq yaradıcılığına və bu qədim sənətin ən görkəmli nümayəndələrinin poetik obrazının canlandırılmasına da yer ayrılmışdır. Çünki tarixin çox qədim dövrlərindən başlayaraq inkişaf edib bu günümüzə zəngin bədii irslə gəlib çatan aşıq sənəti mədəniyyətimizi əlvanlaşdıran ustad aşıqlarımızın fədakar yaradıcılığı sayəsində mümkün olmuşdur.

Buna görə də Azərbaycan aşıqları, onların rəngarəng yaradıcılığı ədəbiyyatımızın ən görkəmli bədii söz ustalarının şeirlərində vəsf edilərək onlara poemalar həsr olunmuş, sənətkarların həyatı, mühiti, dövrün bir sıra ictimai-siyasi, sosial-mədəni prosesləri bədii planda canlandırılmışdır. Məmməd Rahimin "Sarı Aşıq", Hüseyn Kürdoğlunun "Aşıq və Yaxşı", Hüseyn Arifin "Dilqəm", İslam Səfərlinin "Ələsgər" tarixi poemalarında el sənətkarlarının şəxsiyyəti, taleyi, mühiti, müasirləri, dünyagörüşü, yaradıcılığı barədə müəlliflərin poetik qənaətlərinin, lirik-epik düşüncələrinin araşdırılması və qiymətləndirilməsi aktuallıq kəsb edir.

Xalq şairi Məmməd Rahim XVII əsrdə yaşayıb-yaratmış, *"cinaslı xalq bayatılarının məharətli ustadı"* [33, s.192] kimi tanınan dəyərli el sənətkarı Sarı Aşığa eyni adda poema həsr edərək geniş elmi-mədəni ictimaiyyətə o qədər də məlum olmayan aşığın həyat və yaradıcılığını tanıtdırmağa cəhd etmişdir. Qeyd edək ki, müxtəlif mənbələrdə Sarı aşığın adı, təvəllüdü, yaşadığı yer, həyatı, yaradıcılığı, təxəllüsü ilə bağlı əsər yazılan dövrdə o qədər də əsaslı məlumat yox idi. Sarı Aşıq haqqında mənbələri və dillər əzbəri olan rəvayətləri sistemləşdirib elmi dövriyyəyə çıxaran folklorşünas alim Məhərrəm Qasımlı aşıq haqqındakı məlumatları *"...ümumiləşdirmiş və dəqiqləşdirmişdir"* [76, s.20-21].

"Sarı Aşıq" lirik-epik poemasında hadisələr əsər müəllifinin fikir və düşüncələrini ifadə edən epik qəhrəman ətrafında cərəyan edir. Əsərin qəhrəmanı Sarı Aşıq poemanın ilk bölmələrində baş verən hadisələri sanki kənardan izləyir, ancaq qəddarlığı ilə xalq arasında gizlicə Yaman bəy adlandırılan Kərim bəyə, xalqın igid oğulları Qələndərə, cıdırda Kərim bəyə qalib gələn Zəfərə onun münasibəti fonunda, xüsusilə sevgilisi Yaxşı ilə görüşlərdə həmişə müəllifin diqqət mərkəzində dayanır.

M.Rahim Sarı Aşıq haqqında yazacağı poemanın ideya məzmununu və süjetini qəhrəmanlıq və məhəbbət dastanlarına xas elementlərdən istifadə etməklə elə qurmuş, elə poetik tərənnüm formasına üz tutmuşdur ki, əsərin ayrı-ayrı bölmələrində danışılan əhvalatlar, obrazların qarşılıqlı münasibətləri ustad aşığın fəaliyyətini, yaşadığı ağır dövrü tam dolğunluğu ilə oxucuya çatdıra bilsin.

"Müqəddimə"də coşqun Həkərinin sağ tərəfində, Zəngəzur mahalının Güləbird kəndi yaxınlığında şeirləri dillər əzbəri olan ustad aşıq Sarının yaşadığından söz

açılır, sevdiyi dilbərin adının Yaxşı olduğu, onunla ilk tanışlığı poetik dillə təsvir olunur:

*Çoxuna ruh verir sözlərilə o,*
*Qəlbini el üçün çıraq eyləyir.*
*Bəzən od götürür gözlərilə o,*
*Özünü qəmlərə ortaq eyləyir* [101, s.229].

Poemada "Cıdır" adlanan ikinci bölməyə *"Hələlik eşqdən çalmayım qələm, Düşündürür məni elin haləti",* - fikri ilə başlayan müəllif Güləbird kəndində varlı, olduqca zülmkar, xalq qanını tökməkdə mahir olan Yaman bəydən – Kərimdən söz açır, XVII əsr Azərbaycan reallıqlarını, Azərbaycan insanının məişət şəraitini geniş epik lövhələrlə, tarixi mənbələrə uyğun şəkildə oxucuya çatdırır.

Cıdırı qələbə ilə başa vuran dostlar Sarı Aşıq, Qələndər və Zəfər məclis qurub camaatı şənliyə dəvət edir, saz çalınır, ortalıq coşur ("Təntənə"). Bu məqamda M.Rahim Sarı Aşığı xalqın sevimlisi, onun qəlbinə, ürəyinə yaxın olan sənətkar kimi təqdim edir, aşığın xalq arasında hörmət və məhəbbətlə qarşılandığını, xalqın şən və qəmgin günlərində hamı ilə birlikdə sevinib-kədərlədiyini önə çəkir. Sarı Aşıq xalqın dərdi, kədəri ilə kədərlənən, onun sevinc və fərəhi ilə qürrələnən, bütün varlığı ilə xalqa bağlı olan şəxsiyyət kimi poemada təqdim olunur. Aşıqla bağlı olan mənbələrdə də sənətkarın xalqa olan dərin məhəbbəti əksini tapır. Bu məqamlar əsərdə tarixilik və bədiilik prinsiplərini doğruldan cəhət kimi önə çıxır. Qeyd edək ki, Sarı Aşıq haqqında biri-birindən fərqlənən müxtəlif fikirlər hələ də qalmaqdadır. Belə ki, mərhum professor Sədnik Paşayev aşıq haqqında qeydlərində "Sarı Aşıq haqqında hələlik ilk yazılı məlumat Qaradağinin "Təzkireyi-Qaradaği" əsərindəki qeydidir" [mənbə] fikrini ifadə edir, eyni zamanda professor vurğulayır ki, aşıq haqqında ən müxtəlif fikirlər vardır: "Qaradaği "Təzkireyi-Qaradaği" əsərində onun adının Qurbanəli, Salman Mumtaz Abdulla, Əmin Abid Qərib, Bəhlul Bəhcət isə Sarıca Nəbi olduğunu göstərirlər. Aşıq Ələsgərə görə onun adı Yetimdir. Aşıq Ələsgər məşhur bir təcnisində "*Fərhad Şirin sevdi, Yetim Yaxşı yar*"- deyir. Lələnin bayatılarından məlum olur ki, onun adı Budaqdır. Bu adların hər birinin özünə görə mənası var. Aşığa Nəbi adını hər bir hadisəni qabaqcadan bilməsinə görə veriblər.

Bizcə, ikinci ad Abdulla yox, Abdaldır. Aşıq Abdal dərviş kimi gəzəndir, obanı-oymağı dolaşandır. Professor M.H.Təhmasibə görə, *onun adı elə Sarıdır. Əgər onun adı Sarı olsaydı, ona Aşıq Sarı deyərdilər, Sarı Aşıq deməzdilər*" [142]. Göründüyü kimi, Sarı Aşıqla bağlı olan, hətta təzadlı məqam yaradan fikirlərlə tanış olan M.Rahim aşığın dolğun bədii portretini yaratmışdır. Xalqın aşığa olan sevgisini ifadə etmək üçün müəllif onun bayatılarından və qoşmalarından yeri gəldikcə, mətnin ruhuna uyğun olaraq, istifadə etməklə əsərə canlılıq qatmışdır:

*Mənalı söz kimi cavahir hanı?*
*Sarını dinləyib qulaq asdıqca*
*Dostlar unudurdu geniş dünyanı* [101, s.233].

Poemada xalqımızın müqəddəs bayramı olan Novruzun gəlişi, təbiətin əlvan gül-çiçəyə büründüyü bir gündə M.Rahim Sarı Aşığı Yaxşıyla qarşılaşdırır:

*İndisə gec deyil, qoşa sevgili*
*Həkəri boyunda gəlsin üz-üzə.*
*Aşıq cəh-cəh vurub ötsün bülbülü,*
*Fərəh bağışlasın bu sevda bizə...* [101, s.234]

Sarı Aşıqla sevgilisi Yaxşının çox az davam edən xoşbəxt anlarını şair poetik çalarlarla ifadə edir:

*Dağlar da, daşlar da dinlədi mat-mat...*
*Sevgidən yaranıb bütün kainat.*
*Eşqdir aləmin əzəl mayası.*
*Eşqin məftunudur qoca təbiət.*
*Eşq ilə silinir qəlblərin pası.*
*Var olsun dünyada təmiz məhəbbət...* [101, s.236].

Burada Sarı Aşığın sevgisi, iztirabları, məşuqəsinə olan sonsuz eşqi, ülvi məhəbbəti müəllif tərəfindən aşıq poeziyası ruhunda, incə hisslərlə ifadə olunmuşdur. M.Rahim Sarı Aşığın sevgisindən qaynaqlanan ruh yüksəkliyinin onun yaradıcılığına necə təsir etdiyini "Dəvət" bölümündə Təbrizdən gələn qonaq aşıqla deyişməsində daha canlı şəkildə təsvir edir:

*İndi verim sənə yalnız bir sual*

*Araz gözəllikdə cahanda təkdir.*

*Fikir dünyasına qəvvas olub dal!*

*Söylə, onun suyu neçə sənəkdir?* [101, s.237]

suala cavabında Sarı Aşıq belə deyir:

*Sən çağır Arazı dayansın bir az.*

*Səslə, qulaq asıb axmasın Araz*

*Neçə sənəkdir o, sayıb deyərəm,*

*Verdiyin sualı həll eləyərəm* [101, s.237-238].

Sarı Aşığın cavabında onun sənətdəki üstün məziyyətləri, eşq ilə cuşa gələn ilhamı müqabilində məğlub qonaq öz sazını qalib aşığa uzadır:

*Belə iş tutmaram mən heç bir zaman*

*O, sənin sazındır götür yenə, al*

*Ürəkdən qoşma de, bir "Kərəmi" çal.*

*O, sənin olmuşdur, yenə sənindir* [101, s.238].

Sarı Aşığın qonaq aşığa olan münasibəti, ehtiramı onun yüksək əxlaqi keyfiyyət sahibi, geniş dünyagörüşlü, hazırcavab söz sərrafı olduğu gerçəyini bir daha təsdiqləmiş olur. Deyişmədən sonra vəcdə gələn Sarı Aşıq:

*Məni qorxutmayır nə xan, nə paşa.*

*Eşqə tutulmağın aləmi vardır,*

*Yalnız gözəlliyə, hüsnə qailəm.*

*Gözümdə şux gözəl pərvardigardır.*

*Allahım sənəmdir, ona mailəm.*

*Kəbəm, Kərbəlam da sənəmdir ancaq* [101, s.239],

deyərək eşqdə sədaqətini, cəsarətini, ilahi sevgidə mərtəbəsini, kamil düşüncəsini bəyan etmiş olur. Şair bu məqamı xüsusi həssaslıqla təsvir etməklə xalq sənətkarının xalqa, onun həyatı, məişəti, adət-ənənəsinə bağlılığını təsdiq etmiş olur ki, bu da tarixi mövzulu əsərlərdə şəxsiyyət və mühit konsepsiyasının bariz göstəricisidir.

Poemanın sonrakı bölmələri Yaman bəyin əvvəlcə Sarı Aşığın bu sözlərini bəhanə edib onu sevgilisi Yaxşıdan ayırmasına ("Yaman bəyin yanında"), sonra onun tədbiri ilə Zəfərin öldürülməsinə ("Nakam cavan", "Son mənzil", "Dəfn"), bütün bu

faciələrin səbəbkarı kimi ictimai quruluşun və dövranın ittihamına həsr olunmuşdur. Dövranın qəlbini sal buza, qatil dünyanın günahını dəryaya bənzədən müəllif yoxsul kəndli oğlunun qətlinə üsyan edir, ədalət axtarır, ümidsizliyini ürək yanğısı ilə dilə gətirir:

*Ey insan, onu sən heç axtarma gəl,*
*Qüvvət də, qüdrət də varlılardadır.*
*Baş vurma heç yerə, nahaq varma, gəl,*
*Əsirdir ədalət, çoxdan dardadır* [101, s.242].

Əsərdə Sarı Aşıqla Yaxşının nakam məhəbbəti də zəmanənin fitnə-fəsadı, insan hüquqsuzluğunun təzahürü kimi qiymətləndirilir. İki sevən gəncin azad və bərabər olmaq tələbi, könül və sevgi dünyasında qovuşmaq istəyi, ən ali insan hissinin ifadəsi o dövrün mövcud gerçəklikləri fonunda iztiraba, nisgilə, dözülməz dərdə çevrilir.

Qəhrəmanlıq dastanlarında olduğu kimi, “Sarı Aşıq” poemasında da ədalətsizliyə, zülmə qarşı etiraz motivlərinə geniş yer verilmişdir. M.Rahim Zəfərin dostu, intiqam hissi ilə yanıb tutuşan Qələndərin dilindən *“Namərdəm, intiqam almasam əgər*” [101, s.243], - deyir və əsərin “Qələndərin qisası” bölməsində Qələndərin Güləbirdi tərk edərək dağlara çəkildiyini, lakin Yaxşının aləmə göz yumduğunu, dostu Sarının halının pərişan olduğunu eşitdikdə dağlardan enib kəndə gəldiyini, bəydən qisas aldığını təsvir edir:

*Açıldı yer-yerdən atəş dalbadal*
*– Bu, nakam Zəfərin qisasıdır, al!*
*Bu da ki, Yaxşının, aşıq Sarının.*
*Bu da anaların göz yaşlarının* [101, s.251].

Poemanın sonrakı bölmələri (“Yaxşını qaçırdılar”, “Yaxşı xəstədir”, “Ölüm rüzgarı”) rəzalətin yenə də taxta çıxaraq bu dəfə Yaxşının bəxtinə qılınc çalmasına, təmiz sevdanın zorla pozulmasına, zavallı qızın əsarətə düşməsinə həsr olunmuşdur. Eşqi dara çəkilən Yaxşı sevgilisindən xəbər tuta bilmir, dərdə tutularaq boran vurmuş təzə gül kimi solub məhv olur, əbədi olaraq həyata göz yumur.

*Müşkül görməmişəm bu müşkül kimi.*

*Dilindən uçduqca ürək sözləri,*
*Onun hər kəlməsi Sarıdan olmuş.*
*Nəhayət, yumulmuş qara gözləri*
*Yerlər qan ağlamış, göylər tutulmuş...* [101, s.249].

"Sındırılan saz", "Son ziyarət", "Vida" bölmələrində M.Rahim bu ağır fəlakətin Sarı Aşığa təsirini, onun Yaxşının qəbri üstə keçirdiyi hissləri təsvir edir. Bu gen dünyada tənha qalan, doğma vətəndə qəribə çevrilən Sarı Aşığın həyatdan üz döndərməsi bir insanın dünyaya – cəmiyyətə üsyanı kimi qəbul olunur. Çarəsizliklə:

*Getdin qoyub məni yalnız arada,*
*Neyləyim indi bu matəmsərada?..* [101, s.252].

nidasını dilə gətirən, alışıb yanan aşığın gücü yalnız ona yetir ki, zalım fələyə:

*Mənim əvəzimə səndən əminəm*
*Şeirlərim alar intiqamımı...* [101, s.253].

söyləsin. Dünya gözlərində zülmətə dönən Sarı Aşıq pəjmürdə halda vəsiyyət məqamında məşhur

*Mən aşıq tərsinə qoy,*
*Tər təni tərsinə qoy,*
*Yaxşını qibləsinə,*
*Aşığı tərsinə qoy* [101, s.253].

bayatısını yazır, nifrət etdiyi zalım dünyaya qarşı etiraz olaraq zəhər içir və çəkdiyi zülmə son verir. Xalq aşığın vəsiyyətinə əməl edərək onu Yaxşının yanında dəfn edir, ruhuna rəhmət diləyir və adına dastan qoşulur. Aşıqların dilindən düşməyən "*"Yaxşı və Aşıq" dastanı folklorumuzda yeni hadisə kimi qiymətləndirilir, ustad sənətkarlar haqqındakı dastan yaradıcılığı üslubunu qorumaqla "Qurbani", "Abbas və Gülgəz" və s. tipli dastanlar silsiləsini zənginləşdirir"* [15, s.10-11].

Müəllif ədəbi qəhrəmanının nakam taleyini bədii planda işləyir, Sarı Aşığın həyatının, yaradıcılığının və dövrünün hər bir məqamını böyük həssaslıqla canlandırır və verilən hər informasiya aşığın həyatı, dövrü ilə bağlı mənbələrlə əsasən səsləşir. Poema nikbin sonluqla bitir, M.Rahim Sarı Aşıq və Yaxşının timsalında eşq hünərinin məğlubedilməzliyini, ellərin bu sevgini dastan etdiyini, onların saf

məhəbbətini yaşatdığını təsdiqləyir. Aşığın sənətinə olan böyük marağın nəticəsidir ki, *"1989-ci ildə Laçın rayonunun Güləbird kəndində XVII əsrdə yaşamış bayatı ustadı Sarı Aşığın xatirə muzeyi istifadəyə verilmişdir*" [141]. 1992-ci ildə erməni işğalına məruz qalan Laçın rayonunda bütün maddi-mədəniyyət abidələri ilə yanaşı, Sarı Aşığın da adını daşıyan muzey dağıdılsa da, bu gün aşığın kəndi də işğaldan azad olunmuşdur.

El sənətkarı Sarı Aşığın yaradıcılığının və onun nisgilli məhəbbətinin tərənnümü Hüseyn Kürdoğlunun (1934-2003) da poetik düşüncəsində yer almışdır. 1993-cü ildə yazılmış "Aşıq və Yaxşı" poeması [69] Azərbaycan tarixi poemaları içərisində şeirin forma və məzmun xüsusiyyətlərinə, poeziyamızın forma axtarışlarından bacarıqla istifadəyə görə seçilən dəyərli ədəbi nümunədir.

Qeyd edək ki, Azərbaycan aşıq ədəbiyyatında qüdrətli söz sərrafı, bayatı ustası kimi adını tarixin yaddaşına yazan Sarı Aşığın yaradıcılığının araşdırılması XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, əsərlərində zəngin xalq poeziyasının, aşıq sənətinin ənənələrini davam və inkişaf etdirən Hüseyn Kürdoğlunun əsas tədqiqat sahələrindən olmuş, o, illər boyu aşığın bayatılarını toplayıb çap etdirmişdir [113]. H.Kürdoğlunun səmərəli fəaliyyətinin nəticəsidir ki, Sarı Aşığın irsi sistemli şəkildə tərtib olunaraq nəşr olunmuşdur. Aşığın həyatı və dövrünə tam mənası ilə vaqif olan müəllifin həm tərtibçilik fəaliyyəti, həm də bədii yaradıcılıq nümunəsini göz önündə tutan akademik Bəkir Nəbiyev yazırdı: *"Sarı Aşığın bu kitabında onun bir çox əsərləri təhriflərdən təmizlənmiş halda, ustadın öz üslubi xüsusiyyətlərini və ifadə vasitələrini saxlamaq şərtilə bərpa olunmuşdur*" [88, s.21-30]. Hüseyn Kürdoğlu yaradıcılığında Sarı Aşıq mövzusuna elmi-ədəbi fikrimizdə bir sıra müraciətlər olmuşdur ki, bu mənada professor Qəzənfər Paşayevin mülahizələri də maraq doğurur: *"Hüseyn Kürdoğlunun şair fəhmi, Sarı Aşığın yaşadığı coğrafi mühitin özəlliklərinə, xalqın düşüncə tərzinə, leksikonuna dərindən bələdlik ona Sarı Aşığın bayatılarının nəşrindəki qüsurları aradan götürməyə yardımçı olmuşdur*" [97, s.110]. Həmin əsərdə alim xüsusi vurğulamışdır ki, *"Hüseyn Kürdoğlu bayatı janrında poema yazmış ilk və yeganə şairimizdir. Şairin bayatı-*

*xoyrat janrında yazılan və çap olunan iki lirik poemasından biri "Aşıq və Yaxşı" poemasıdır"* [97, s.112].

"*Aşığın adından yazılmış 13 məktub və Yaxşı tərəfindən ona verilmiş cavab şəklində nəql olunan, "Yaxşının vəsiyyəti", "Aşığın fəryadı", "Aşığın son nəğməsi" və "Aşığın türbəsi" başlıqları ilə tamamlanan və bitkin məzmun kəsb edən* "*Aşıq və Yaxşı" poeması sırf xalq poeziyası əsasında ərsəyə gəlib*" [77, s.5-8] - deyən professor Qasım Qasımzadə təsdiq edirdi ki, H.Kürdoğlunun yaradıcılığında *"...klassik poeziya ənənəsinin yaşamağa qadir xüsusiyyətlərini də, Sarı Aşıq bayatılarının həmişə duzlu-təravətli gözəlliyini də tapırıq*" [77, s.5-8].

Aşıq və Yaxşının, ürəklə ürəyin "kağızda görüşdüyü" poemada onların məktubla bir-birindən hal-əhval tutması, Həkərinin sahilində görüşmələri, nahaq qan üstündə "dostun düşmənə dönməsilə" müqəddəs sevgilərinə qadağa qoyulması, Sarı Aşığın tərki-vətən olub didərgin düşməsi, Yaxşının həsrətinə dözməyib dünyanı tərk etməsi, qoşma və bayatıda dövrün ictimai prosesləri, zülmə, əsarətə qarşı mübarizə, məhəbbət duyğuları, həyat, sevgi haqqında müdrik və fəlsəfi düşüncələr dərin məzmun və mətləblər ifadə edir:

*Ala gözlü göyərçinim, qanad aç,*
*Apar, yetir bu kağızı yara sən.*
*Al qanımla özüm məlhəm eylərəm,*
*Yapalaqdan alsan əgər yara sən* [69, s.447].

Aşıq göyərçindən yanan ürəyinə məlhəm ola biləcək Yaxşının cavabını tez ona çatdırmasını diləyir. Həm məktubda, həm də onun cavabında göyərçinə müraciət sevgililərin ümidi və pənahı kimi qiymətləndirilir. Yaxşının cavabı Aşığın dərdini daha da dözülməz edir:

*Yamanlıq eyləyir Yaman qardaşım,*
*Bir ev dustağıyam, axır göz yaşım.*
*Qılınc altındadır bəlalı başım,*
*Gedir hər sözümüz Yamana yetir* [69, s.449].

Yamanın anasının ona yalvarıb rəhm etməsinə, Aşıqla Yaxşının eşqinin ilahi tərəfindən verildiyini xatırlatmasına, "*ağ olma Allaha*" deməsinə o əsla məhəl qoymur:

*Atamın qəbrinə and içmişəm mən,*
*Qoymaram qovuşsun Aşığa Yaxşı* [69, s.472].

H.Kürdoğlu bu müqəddəs sevgiyə qadağa qoyulmasının səbəbini dövrün ictimai münasibətlərinin təsiri kimi qiymətləndirir, məişət zəminində bir obanın digərinə yersiz düşmənçiliyini və bunun doğurduğu nəticələri Yaxşının dilindən ifadə edir:

*O vaxtdan qılınclar girməmiş qına,*
*Qan olmuş əllərə qoyulan xına.*
*Məgər günahkarıq biz o qırğına,*
*Bəs nədən sevgimiz qadağan olmuş?*! [69, s.453].

Növbəti məktubunda Aşıq Yaxşıya hələ zülmətin caynağının qanlı olduğundan, işığın zəfərinin çətinliyindən, bütün xilqətin bağrının yara bağladığından şikayət edir, "Bu xəstə dünyanın loğmanı gərək" qənaətinə gəlir, xeyirlə şərin mübarizəsində insan eşqinin təntənəsinə inanır:

*Çoxsa da fələkdən şikayətimiz,*
*İbrətdir aləmə hekayətimiz.*
*Bizim bu ilahi məhəbbətimiz,*
*Yaxşıya döndərə yamanı gərək* [69, s.455].

Poema müəllifi Aşığın hər məktubunda və Yaxşının ona cavabında qoşmanın məzmununa uyğun, mənaca onu tamamlayan bayatılar dilə gətirir ki, bu məqamlar əsərin təsir gücünü artıran fakt kimi diqqətəlayiqdir. Dövrün ictimai səciyyəsinin ifadə edildiyi sözügedən üçüncü məktubda dövrdən, zəmanədən şikayət motivləri ümumxalq düşüncəsi müstəvisinə qaldırılaraq xalq yaradıcılığından seçilmiş bayatıda ön plana çıxarılır:

*Yol azmış ana dünya,*
*Qorxuram yana dünya.*
*Uymuş iblisə bəşər,*

*Susamış qana dünya* [69, s.455].

Cəmiyyətdəki bütün naqisliklər, insanların ən ülvi hissləri üzərində zorakılıq halları konkret ictimai məzmun kəsb edir və əsər boyu bu motivlər obrazların taleyində özünü büruzə verir. Klassik poeziyanın qoşma və bayatı kimi kamil və mürəkkəb şeir formaları H.Kürdoğlu yaradıcılığında özünəməxsus işləklik qazanır. Bu da ondan irəli gəlir ki, *"El ruhunun daşıyıcıları aşıqlar, aşıq mühiti Hüseyn Kürdoğlunun yaradıcılığının bədii-estetik tutumunu formalaşdırmışdır*" [97, s.22]. Müəllifin təsvirində Sarı Aşıq həm də vətəninin dar məqamında, erməni kor Məlikin keşişləri toplayıb torpaqlarımıza basqına gəldikdə cəsur döyüşçü kimi canlanır. Özünü bu savaşın bir əsgəri sayan, qılıncı sazın əkiz qardaşı hesab edən Aşıq bütün dövrlər üçün əhəmiyyətli olan, bu günümüzlə səsləşən sözləri dilə gətirməklə milli təəssübkeşliyini nümayiş etdirir:

*Yaddan çıxmalıdır köhnə nifaqlar,*
*Yoxsa yurdumuza bayquşlar ağlar.*
*Matəmə bürünər anamız dağlar,*
*Qanla cavab verək bu qana gərək* [69, s.481].

Ədib şəxsiyyətin ömür və sənət yolunu millilik və tarixilik müstəvisində dəyərləndirən Sarı Aşığın Yaxşıya məktubunu mətn daxilində verir və şeirdən də aydın olur ki,

*Ey gözümün işığı,*
*Evimin yaraşığı.*
*Vətənin dar günündə*
*Döyüşçü bil Aşığı!* [69, s.482].

bayatısını dilə gətirən aşıq bütün varlığı ilə vətən, torpaq aşiqidir. Xalq arasında böyük nüfuz sahibi olan Aşıq bu çağırışı ilə xalqı səfərbər edir. Qarabağı və ətraf ellərimizi özlərinin hesab edən namərd qonşulara Aşığın münasibəti bu gün də çağırış kimi səslənir. Tarixi Azərbaycan torpaqlarını cırtdan məlikliklərə qatmaq istəyən, təəssüf ki, zaman-zaman buna nail olan erməni quldurlarına Aşığın cavabı həm də H.Kürdoğlunun əsərin yazıldığı zaman və məkan müstəvisində yazıçı mövqeyinin ifadəsi baxımından əhəmiyyət daşıyır. Qarabağ ağrısını əyani şəkildə yaşamış

H.Kürdoğlu yurdlarımızın işğalından sonra ölkənin ayrı-ayrı bölgələrinə səpələnən, qaçqınlıq taleyi yaşayan insanların, əsir düşənlərin el-oba həsrətini, ata-ana məzarının düşmən tapdağı altında qalmasının acısını, onların qəriblik, didərginlik dərdini ifadə etmişdir. Akademik İ.Həbibbəyli şairin yaradıcılığına bu aspektdən yanaşaraq vurğulayır ki, *"Hüseyn Kürdoğlunun və onun ədəbi nəslinin yaradıcılığında həyatın adiliklərindən çox milli ideyalar, vətəndaşlıq mövqeyi, taleyüklü məsələlər öz əksini tapmışdır* [50, s.8].

Əsərdə torpağa bağlılıq, vətənin müqəddəsliyi, yurd üçün candan keçmək xisləti həm aşıq Sarı, həm də əsgər Sarının timsalında vətən oğullarının başlıca həyat amalı kimi səciyyələndirilir:

*Sazımdan cəngilər səs saldı dağa,*
*Şimşək qılınclardan od yağa-yağa.*
*Məlikin qafası düşdü torpağa,*
*Təpiklər altında qalıb xar oldu* [69, s.485].

Bu sətirlər tariximizin qəhrəmanlıq salnaməsi kimi səslənir, xalqı milli mübarizəyə ruhlandırır. Milli ruhun ifadəsinə çevrilən mübarizə motivləri mətn daxilində müəllifin uğurlu bədii seçimi kimi diqqəti cəlb etməklə yanaşı, oxucuya da yüksək milli hisslər aşılayır.

Əsərdə yağı düşmən üzərində zəfər motivi həm də obrazların ruhunda müəyyən pozitiv dəyişikliyə səbəb olan amil kimi dəyərləndirilir. Zəfər mübarizəsində öndə duran Aşıq, onun savaşdan qələbə ilə qayıtmasından fərəhlənən Yaxşı qəlblərində "eşqimiz bəxtiyar oldu", - deyə düşünürlər. H.Kürdoğlunun təsvirində bu "bəxtiyarlıq" motivi milli düşüncəyə xidmət simvoluna çevrilir. Yaralı Aşığa Yamanın köməyi, ona məlhəm verib sağaltması onun ürəyində mərhəmət oyandığını göstərir. Aşığın 11-ci məktubunda bəşəriyyət üçün fəlakət olan müharibələr, onları doğuran səbəblər hiddətlə pislənir, insanları birgə yaşayışa, sülhə çağırışı bayatı sədaları altında tərənnüm olunur, əsərin humanist qayəsini aşkar şəkildə ortaya qoyur:

*Baxdım sel olmuş qana,*
*Can verən min bir cana.*

*Ah, neçin insan oğlu*
*Qatil olur insana* [69, s.485].

Poemada vətən dərdi Aşıqla Yaxşının nisgili ilə həmahəng səslənir, Yamanın inadından dönməyərək Aşığa "Tərk eylə bu mahalı sən!" [69, s.487] təkidi sevgililərin nakam eşqinin sonluğunu yaxınlaşdırır. İran, Turan ellərinə üz tutan Aşığın qürbətdə əli yardan üzülü Arzu dağından, gümüşqanad Həkəridən, isti beşiyi Güləbirddən imdad diləməsini, Yaxşını dağa-daşa, anasına tapşırmasını H.Kürdoğlu "Salamat qal, salamat" rədifli qoşmada fikrə son dərəcə genişlik və dərin hisslər verməklə qələmə almışdır. Bu həssaslığın yaratdığı yüksək poetik duyum misralarda titrək, kövrək bir həyəcanın ifadəsinə çevrilir.

Bu hisslər Aşığın karvanbaşı ilə göndərdiyi sonuncu məktubunda daha təsirlidir. Kəbəsi Arzu bulağı, qibləsi yarının qaşlarının tağı olan Aşıq Yaxşını "sal qayadan çağlayan çeşməyə" bənzədir, qürrələnir, yol gözləyən gözlərinin ağına "qan sağılmasından" dərdlilərə dərd paylayır:

*Ağ alnımdan zaman neçə yol salıb,*
*Dərd bilənlər məndən gəlib dərd alıb.*
*Dörd il keçib, deynən bircə il qalıb*
*Bu sürgünün başa yetən çağına* [69, s.493].

Aşığın bu məktubuna yollara baxa-baxa həsrətdən kor olan Yaxşının yerinə anası dil cavabında karvanbaşıya qızının can üstə olduğunu bildirir və onun vəsiyyətini çatdırır:

*Çağır imdadına Xızır Zindəni,*
*Gəl, Arzu dağına sən tapşır məni.*
*Gözümün yaşından dörd il nəm olan*
*Vətən torpağına sən tapşır məni* [69, s.495].

H.Kürdoğlu Yaxşının vəsiyyətini, onun ölümündən sonra Aşığın fəryadını və son nəğməsini, faciəli məhəbbət sonluğunu ürəyinin hökmü ilə incə duyğular və dərin fəlsəfi kədərlə tərənnüm etmişdir. Yaxşının məzarı önündə Sarı Aşıq diz çökür, məzarı başında pərvanələr kimi dolanır. Yaxşının ölümündən sonra Aşıq çox yaşamır. Aşığın vəziyyəti "gözündən Həkəri axdı", "göz yaşları daşları əritdi",

“üstünə qəm qoşunu töküldü”, “bəxti qara boyandı” və s. kimi təsirli ifadələrlə təsvir olunur – dünyanın bükə bilmədiyi Aşığın dizi Yaxşının ölümü ilə büküldü. Əsəri Aşıq və Yaxşının nakam məhəbbətini vəsf edən dastan da adlandırmaq olar. Elə bir dastan ki, burada Sarı Aşığın bənzərsiz kəlamları, dərin mətləbləri ifadə edən bayatıları hər bənddə və misrada duyulur, şairin ustadı qarşısında yaradıcılıq hesabatı kimi səslənir, bayatıya çevrilib yaddaşlara həkk olunur:

*Baxar bu dağlar bizə,*
*Vaysınar, ağlar bizə.*
*Eşq ilə yaşayanlar*
*Bir dastan bağlar bizə* [69, s.502].

Poemanın finalında Aşıqla Yaxşının məhəbbətinin dünyanı dəyişdirmək qüdrətində olduğu ideyası önə çəkilir. Ömrünün axırlarında insan eşqinin aliliyi, ülviyyəti ilə mələyə çevrilən, könlünə nur düşən Yaman Aşığa türbə ucaldır, onun nakam məhəbbət dastanını əbədiyyətə qovuşdurur:

*Yaxşı qəbrinə də baş çəkir hərdən,*
*Nakam qoyduğunu salmır nəzərdən.*
*Şükür xaliqə ki, ayrılıb şərdən,*
*İndi qəlbindəki imana bir bax!* [69, s.503]

Rəvayətə görə, Sarı Aşıq vəsiyyət edir ki, öləndə onu atına sarısınlar, at gedib harada dayansa, onu orada dəfn etsinlər. Belə də olur, at gedib dağın döşündə elə yerdə dayanır ki, Həkərinin sağ sahilində Sarı Aşığın məzarı, sol tərəfində Yaxşının məzarı üz-üzə dayanır:

*Yamanla yaxşı yarı,*
*Dünyadan yaxşı yarı.*
*Bu tayda Aşıq yatır,*
*O tayda Yaxşı yarı* [69, s.504].

Özünəməxsus üslubi çalarları, dil, ifadə imkanları ilə seçilən, fərqli təsvir-düşüncə modeli yaradan H.Kürdoğlu oxucunu Sarı Aşığın poetik aləminə götürərək aşığın bədii obrazını onun yaradıcılığı və yaşadığı dövrün ab-havası fonunda canlandırır. Poemada Sarı Aşıq yar həsrətlisi, sevgisi uğrunda məşəqqətlər çəkən,

vətənin dar günündə telli sazı od püskürən, bayatıları qılınc qurşayan, hər sözü bir xəzinə olan eşq, sənət, torpaq, el fədaisi kimi təqdim olunur.

Azərbaycan klassik estetik-bədii fikrinin aparıcı janrlarından biri olan poema janrının XX əsrdəki inkişafında forma axtarışları, mövzu əlvanlığı xüsusilə diqqəti cəlb edir. Öz yaradıcılığı ilə şifahi xalq ədəbiyyatına, aşıq sənətinə yaxın olan Hüseyn Arif (Hüseynzadə) (1924-1992) ötən əsrin 60-cı illərindən başlayaraq “Dilqəm” poeması üzərində işləmiş, 1972 [55], 1978 [56] və 1984-ci ildə [53] əsərdən parçalar dərc etdirmişdir. Poemanın son variantının bölmələri ilə tanışlıq onu göstərir ki, gerçək adı Yəhya bəy olan, sevgilisinə ömürlük həsrət qalandan sonra Dilqəm kimi tanınan aşığın iztirablarının kədərli hekayətini təsvir etməyə başlamazdan əvvəl H.Arif aşıq poeziyasının tarixi inkişaf yolunu öyrənmiş, daxilən özündə güc toplayaraq Dilqəmin faciəsini qələmə almışdır. Əsərin ilk misraları da şairin fikrinin, düşüncələrinin bütövlükdə “Dilqəm”lə məşğul olduğunu göstərir:

*“Dilqəmi” üstündə köklənib sazım*
*Qəlbimdə Dilqəmdir, başımda Dilqəm* [53, s.47].

Poemanın ərsəyə gəlməsində H.Arifin bələdçisi “Dilqəmi”nin lent yazısı və şairin uşaqlıq illərindən ustad aşıqlardan eşidib yaddaşında sazladığı hekayətlər olur. Aşıq Ədalətin ifasında bu yanıqlı saz havasını təkrar-təkrar dinləyən şair yəqin edir ki:

*Babalartək tanıda*
*Bilməsək babaları.*
*Deyin, mənası nədir,*
*Xalqa faydası nədir*
*Zəhmətin, əziyyətin?* [53, s.55]

H.Arif poemanın “Dilqəmi Dilqəm ağladar” bölməsində ədəbi qəhrəman Yəhya bəyə üz verən müsibətin dərinliyini – qonur gözlü Telli xanımın geri dönməməsinin ağrısını, ardınca xallı Dilqəm atının bu kədərə dözməyərək ölməsini, indiyədək görünməmiş, eşidilməmiş faciəni, ömürdən ömür alan dəhşəti kəskin hisslərlə, emosional ovqatla təsvir edir. Ədəbiyyatda atın, itin sahibinə vəfasına dair, dar məqamda onun köməyinə çatmasına, çətinlikdən qurtarmasına, yaralanmış igidin

yanını kəsdirməsinə aid nümunələr çoxdur. Lakin sahibinin dərdindən qəhr olan, göz yaşı axıdan, yanıb külə dönən, sıxıntıdan bağrı çatlayan at obrazının yaradılması H.Arifin poetik tapıntısı kimi böyük dəyərə malikdir:

*Dözməyib bu müsibətə,*
*Boğulub, sıxıldı Dilqəm.*
*Son dəfə fəğan qoparıb,*
*Əbədi yıxıldı Dilqəm* [53, s.59].

Vəfalı atı qarşısında diz çökərək gözlərindən qan-yaş tökən Yəhya bəy ərzi-halında özünü, sənətdəki missiyasını, ləqəbini bu şəkildə ifadə edir:

*Götürüb xatabənd sazı,*
*Bir söz söylədi o gecə.*
*Dilqəm! – deyə ləqəbini*
*Bəyan eylədi o gecə* [53, s.60].

Həmin gündən Telli dağı yalan olur, Dilqəmi Dilqəm ağladır. Mövzuya uyğun olaraq, əsərdə qüssə, kədər notları üstünlük təşkil edir. Bu xüsusu nəzərdə tutaraq professor Camal Mustafayev qeyd edir ki, *"Şairin başladığı bu poema kədərli bir hekayətə çevrildi. Ona qədər şeirinə xas olmayan qəm motivləri gətirdi*" [85, s.7]. Qeyd edək ki, həqiqətən, əsərdə Dilqəmdən istifadə olunmuş şeirlər də müəllif poeziyası ilə həmahəng səslənir, poemanın qəm ruhunu daha da qüvvətləndirir, oxucuda yetərincə hiss-həyəcan yaradır, əsərdəki psixoloji ovqatı gücləndirir, eyni zamanda tarixilik və bədii şərtilik prinsiplərinə uyğunluğu ilə diqqəti cəlb edir:

*Könül həmdəmini itirən kəsi*
*Nə ocaq qızdırır, nə od isidir.*
*Dünyanın dünyadan ağır itkisi*
*Ailə itkisi, yar itkisidir* [53, s.64].

H.Arif Dilqəmi daim düşünən, dərdlərini şeirlə mahir ifadə edən el sənətkarı kimi təqdim edir, insanın alışıb yanan çağında şairliyin, söz qoşub dərdini dilə gətirməyin haraya çatdığını vurğulayır. Söz demək, saz çalmaq, dərdini bəyan etmək, fəğanını, fəryadını elə çatdırmaq istəyini Dilqəm sazbəndə bidirir, ona saz düzəltməsini xahiş edir.

Söz-sənət dünyasına “xoş xəbərlər şairi” kimi gələn H.Arifin taleyində, qismətində vaxtsız oğul itirmək də varmış. Bir şair kimi öz kədərini də Dilqəmin qəminə qatan müəllif poemaya sonradan əlavə etdiyi, ədəbi qəhrəmanına hesabat ruhunda yazdığı “Qınama, ustad” bölməsində özünü “kədər şairi” adlandırır, haqlı olaraq təsdiqləyir:

*Yaralı Dilqəmə yanmaqdan ötrü*
*Ürək yanmalıydı, can yanmalıydı.*
*Yüz nakam aşiqi anmaqdan ötrü*
*Bir kədər şairi yaranmalıydı* [53, s.71].

“Kədər şairi” yarandı və o, bir xalqın kədərini, “Dilqəm” dastanını qərinələrdən keçirərək bugünkü nəsillərə çatdıra bildi. Bu incə, lirik kədər müəlliflə obraz arasında qırılmaz bağlarla körpü yaratdığı kimi, müəlliflə oxucu arasında da lirik-emosional mühit formalaşdırır. Rastlaşdığı müsibətdən sonra bədbinləşən şair dünyanın sevinc və həvəsini unudur, özünü dar qəfəsdə hiss edir. Bir müddət yaradıcılıq susqunluğu, həyatdan üzüdönüklük yaşayan H.Arif sazını yenidən Dilqəm eşqinə, Arif eşqinə dilləndirir, bir şair kimi özünü “Dilqəm” də tapır.

XX əsrin ikinci yarısında coşğun yaradıcılığı ilə diqqəti cəlb edən, nəğməkar şair adını qazanmış İslam Səfərli yaradıcılığında xalq yaddaşına, xalq yaradıcılığına dərin bağlılıq vardır. Nəğməkar şairin yaradıcılığında aparıcı yerlərdən birini də poemalar təşkil etdiyi kimi, onun poemaları da mövzu dairəsi, sənətkarlıq məziyyətləri ilə diqqəti cəlb edir. İstedadlı şairin 1959-1962-ci illərdə qələmə aldığı “Ələsgər” [114] poeması aşıq poeziyasının bütün növlərində oxucuları ovsunlayan əsərlər yaratmış ustad Aşıq Ələsgərə həsr olunmuş qiymətli bədii sənət nümunəsidir.

İ.Səfərlinin dilimizin zəngin ifadə vasitələrindən məharətlə istifadə edərək aşıq şeiri formalarında ecazkar nümunələr yaratmış gözəllik vurğunu, həyat aşiqi, saf və ülvü hisslər tərənnümçüsü dədə Ələsgər yaradıcılığına müraciət etməsi, ona nəsillərin yaddaşında əbədiyaşar söz abidəsi ucaltması tam qanunauyğun haldır. Şairin “Ələsgər” poeması haqqında ədəbiyyatşünaslıq tədqiqatlarında maraqlı qeydlərə rast gəlirik: *“Şair bu poemanı bütün Göyçə mahalını qarış-qarış gəzmiş, aşığın şagirdləri, müasirləri ilə söhbət etmiş, məlumat toplamışdır. Ona görə də “Ələsgər”*

*poeması fərdi tərcümeyi-haldan kənara çıxan bütöv bir dövrü, onun ağlı-qaralı günlərini, buxovlanmış sevgisinin iztirablarını göstərən bir əsərdir"* [143]. Çünki əsl xalq poeziyasına xas olan sadəlik və dərin məna, şirinlik və axıcılıq, səmimi poetik duyğular və gözəlliyin tərənnümü kimi bədii-yaradıcı xüsusiyyətlər İ.Səfərli poeziyası ilə haqq aşığı Ələsgər müdrikliyi arasında birbaşa səsləşmə təşkil edir. Buna görə də *"İ.Səfərli məhz aşığın yaradıcılığının ümumi mənzərəsini göstərmək məqsədilə aşıq şeiri şəkillərindən bol-bol istifadə edib"* [82, s.140].

Poemanın yazılmasında başlıca məqsəd Ələsgərin doğulduğu, böyüyüb boya-başa çatdığı, məclislər qurduğu Göyçə mahalını, onu dilə gətirən, sazında-sözündə dillənən dövrün poetik mənzərəsini yaratmaqdan, qeyr-adi istedad sahibi olmuş, aşıqlıq sənətinin zirvəsinə ucalmış aşıq Ələsgərin bədii obrazını yaratmaqdan ibarət olmuşdur. Söhbətə aşığın dünyaya gəlişilə başlayan, yaşadığı illərinin ağrı-acı ilə dolu tablosunu yaradan, ayağı yer tutandan söz qoşub nəğmə oxumasından danışan şair ilk sətirlərdən Ələsgərin fitri istedadının qaynağını müəyyənləşdirir, onun atasının dilindən bu sözləri dilə gətirir:

*Babamın sözqoşan olub keçmişi,*
*Şeirlər deyərdi hərdən dədəm də.*
*Deyincə sözünü Alməmməd kişi*
*Oğlunun şən səsi axdı bu dəmdə* [114, s.104].

Ələsgərin el şənliklərində məclislər aparması, dinləyiciləri heyran etməsi, ailəsinin kəskin maddi ehtiyacı üzündən Kəblə Qurbanın evində nökərçilik etməsi, Səhnəbanuya qarşı nakam məhəbbət macərası, dövrün ziddiyyətləri ilə üz-üzə gəlməsi bir tərəfdən XIX əsrdə Azərbaycanın sosial-iqtisadi vəziyyəti haqqında bitkin fikir formalaşdırır, digər tərəfdən də əsərin dinamik inkişaf xəttini müəyyənləşdirir. Aşağıdakı misralarda kiçikyaşlı Ələsgərin yaşından böyük düşüncələri, dövranın zülmləri qarşısındakı çarəsizliyi emosional ovqatda təsvir olunur.

*Bəzən min acıya tablaşır ürək,*
*Neçin hakim olur insan insana?*
*Ələsgər düşündü: "Daha neyləmək,*
*Gedim nökər olum Kəblə Qurbana*" [114, s.107-108].

Ələsgərin taleyi dövrün, zəmanənin yaratmış olduğu qaçılmaz reallıqlarla sıx vəhdətdə verilir. Dədə Ələsgərin obrazını yaradan İ.Səfərli poema üzərində işləyərkən əsərə dövrün ruhunu gətirmək üçün Göyçə mahalını gəzib dolaşmış, aşığın şagirdləri, müasirləri, tanışları ilə görüşmüş, material toplamışdır. Nəticədə aşıq Ələsgərin fərdi bioqrafiyası, yaradıcılıq göstəricilərilə kifayətlənməyərək dövrün canlı salnaməsini yarada bilmişdir. Poemanın sənətkarlıq xüsusiyyətlərini dəyərləndirən xalq şairi Qabilin gəldiyi qənaətə görə, *"əsər xalq ruhunda, canlı, sadə dildə, doğma şeirimizin qırılmaz, pozulmaz ahəngində yazılmışdır. Buradakı əksər ifadələrdə, obraz və təşbehlərdə oxucuda konkret təsəvvür yarada bilən bir əyanilik vardır*" [72]. Əsərin təkcə iki səhifəsindən gətirilən nümunələr deyilənlərə misaldır. Müəllif Pullu Məhərrəmin alverdən döndüyünü görən qulluqçuların çaxnaşmaya düşdüyünü əks etdirdiyi *"mis qazan kimi" (O evə çatmamış qulluqçu-nökər /Dəydi bir-birinə mis qazan kimi)* [105, s.112], yaxud lirik qəhrəmanın Səhnəbanunu vəsf edərkən işlətdiyi *"Zərrin bir tac kimi" (Qədəmin dəydikcə gül bitirir yer, Zərrin bir tac kimi cilalanmısan")* [114, s.113] təşbehləri oxucuda müvafiq olaraq narahatçılıq və heyranlıq hissləri, əhvalı yaradır.

On üç hissədən ibarət olan poemada Ələsgər-Səhnəbanu məhəbbət xətti əsas yer tutur. Pencər yığan qızların dağ döşünə çıxmaları, gözəlləri görən axar suların kiriməsi, Ələsgərin də saz alıb onlara qoşulması, şux gözəllərin birdən ağ yelə dönüb sevgililərdən uzaqlaşmaları, iki sevən könlün görüşməsi lirik-romantik duyğular oyadır, dərdə düşmüş aşığın dərdinin üstünə dərd gəlir, müəllif bu dərdi ifadə etməkdə acizləşir:

*Bu gözəllik ilahəsi*
*Ələsgəri qul eylədi.*
*Əskilmədi dərdi-səri,*
*Bol dərdini bol eylədi* [114, s.118].

İ.Səfərli yaradıcılığa ilk məhəbbəti Səhnəbanuya olan eşqini tərənnüm etməklə başlayan Ələsgərin yaşadığı dövrün ictimai quruluşundakı ədalətsizliyə, çar məmurlarının və onların yerli əlaltılarının amansızlığına qarşı çıxdığını, xalqın mənafeyini müdafiə edərkən heç kimdən çəkinmədiyini göstərməklə aşığın əsl

vətəndaş mövqeyini ortaya qoymuşdur. Pullu Məhərrəmin pristavın şərəfinə düzəltdiyi məclisdə saz çalıb, söz demək fürsəti əldə edən aşıq Ələsgər cəsarətlə “Çıxıbdır” rədifli qoşmasını söyləyir, pristavın, naçalnikin, qazının, axundun, koxanın, kəttanın “zatı çıxıbdır” deməkdən çəkinmir, xalqın dözülməz vəziyyətinə, yoxsulluğun son həddə çatmasına, artan vergilərin onsuz da ağır olan həyatı daha da ağırlaşdırdığına etiraz səsini ucaldır.

*Bu söz ildırımtək vurdu məclisi,*
*Bir an heç kimsənin çıxmadı səsi.*
*Deyir, söz şilləsi yaman tərs olar.*
*Yerində mıxlanıb qaldı qonaqlar* [114, s.124].

Aşıq Ələsgərin telli sazına, şeiriyyətinə, mənalı sənətinə, məhəbbətinə alqış dastanı söyləyən poema müəllifi əsərinin əsas ideyasını belə ifadə etmişdir:

*Saz necə dilləndi gör sinəsində,*
*Güldü, telli sazın telləri güldü.*
*Aşıq Ələsgərin zəngulələsində*
*Sanki Azərbaycan elləri güldü* [114, s.134].

Fikrin davamında qəlbinin telinə tel bağlayan İ.Səfərli ilhamının gücü ilə aşığı vəsf edir, Səhnəbanunun zorla əmisi oğluna yar edilməsi xəbəri dəhşətli ildırım kimi Ələsgərin məhəbbətini odlara yaxır, sevgilisi də qara bağlayır. İş o yerə çatır ki, aşığı Səhnəbanunun toy məclisində çalıb-oxumağa çağırırlar. Bu yerdə Aşıq Ələsgərin məşhur “Gedibdir” rədifli qoşmasını xatırladan müəllif aşığın dərdini “Gedir” rədifli qoşmasında aşkar edir:

*Gəl, gəl! Ürəyini ərit şam kimi,*
*Gözün baxa-baxa yar əldən gedir.*
*Kükrə bu meydanda gur ilham kimi,*
*Kaman əldən gedir, tar əldən gedir* [114, s.140].

Poemada Aşıq Ələsgər obrazını yaradarkən müəllif onun qəlbini məngənə tək sıxan zəmanəyə qarşı kəskin mövqeyindən danışaraq haqq aşığının dövrün mərd igidlərinin qəhrəmanlığını dastana çevirdiyini də yaddan çıxarmır. Aşıq Ələsgərin Göyçə mahalında igidliyi ilə ad-san qazanmış Dəli Alıyla münasibəti xalqın dərdinin

çəkilməsi baxımından əsərdə vəhdət yaradır və təsirli, yaddaqalan məqam kimi diqqəti cəlb edir. Xalq şairi Qabil də təsdiqləyirdi ki, *"Əgər Ələsgər xalqın incə zövqünü, sözünün və musiqisinin qüdrətini təmsil edirsə, Dəli Alı onun vuran qolunu, haqq-ədalət yolunda hər cür vuruşa qadir olduğunu göstərir"* [72].

Elin Alıya, Alının isə elə bağlılığının hikmətini yaradan İ.Səfərli xalqın igid oğlunu çətin sınaqlar qarşısında təsvir edir. Toy məclisindən Səhnəbanunu qaçırıb Aşıq Ələsgərə qovuşmasını əvvəlcədən düşünən Dəli Alı məclisin gedişində aşığa həqarət gördükdə:

*Öpün Ələsgərin durduğu yeri!*
*Kim səcdə etməsə bu sənətkara,*
*Anası bu toyda geyəcək qara!..*
*Birinci pristav baş əysin buna,*
*Yoxsa bələd deyil Dəli Alının*
*Kim olduğuna?!* [114, s.143], - deyir.

Toy mağarı alt-üst edilir, lakin Aşıq Ələsgərin eşqini dövrün bəlasından qorumaq mümküm olmur, Səhnəbanunun gəlin köçərkən namərdcəsinə öldürülməsi iki sevən ürəyin birini əbədi söndürür, Ələsgərin qan-yaş tökməsindən Göyçə də qara bağlayır, ana torpaq boynuna sarılaraq Səhnəbanunu öz mehriban qoynuna alır. İlk məhəbbətinin faciə ilə bitməsi aşığı çox sarsıdır, Ələsgər at minib, saz götürüb ölkəni dolaşır. Tezliklə aşığın şöhrəti hər tərəfə yayılır, o, aşıqlarla deyişir, dərdini, kədərini yollara səpə-səpə ağızlarda dastan olur, neçə aşıq məclisinin məhəbbətini qazanır, yüz sehrli qıfılbəndin mənasını açır, nəhayət, nakam gedən eşqini salamlayıb Göyçəyə dönür. XX əsrin əvvəllərində, 1905 və 1918-ci illərdə erməni fitnə-fəsadı ilə xalqımızın tarixində baş vermiş faciələr yüz yaşını haqlamaqda olan dədə Ələsgəri sarsıtmış, üç il qaçqınlıq taleyi yaşamış aşıq yenə də zəmanədən acı-acı şikayətlənməli olmuşdur. Lakin poemada buna münasibət bildirilməmiş, əksinə, hakim ideologiyanın tələbinə uyğun olaraq, ermənilərlə dostluq daha geniş tərənnüm edilmişdir. Mövcud vəziyyət baxımından bu faktın əsərin mənəvi dəyərinə təsirsiz ötüşmədiyini qeyd etməmək mümkün deyil.

Baxmayaraq ki, ədəbi qəhrəmanının həyat və fəaliyyətinin sonrakı dövrünün poetik mənzərəsini yaradan İ.Səfərli ustad aşığın, həqiqətən, elin havadarı olduğunu, milli zəmində düşmənçilik edən, bir dəyirmanı olan iki kəndin bu dəyirmandan istifadə etməsi üçün el ağsaqqallarının məsləhəti ilə hamının hörmətini qazanmış dədə Ələsgərin elin sözünü yerə salmayaraq bir müddət dəyirmançılıq etdiyinin, xalqın o ağır günlərində, həm də o yaşında bu əziyyətə qatlaşdığının səmimi ifadə olunması əsərin yaxşı işlənmiş hissələrindəndir:

- *Ah, oxuyan Ələsgərdi!*
*Demək, daha yol açıqdı.*
*Ağlaşmadı arvad-uşaq,*
*Tövşümədi bir sinə də,*
*Sanki Göyçə mahalının*
*Qəlbi vurdu bir sinədə* [114, s.153].

Zəmanənin çətin sınaqlarından şərəf və mətinliklə çıxmış Aşıq Ələsgərin kamillik dövrü yaradıcılığının təsviri poemada daha mükəmməl şəkildə qələmə alınmışdır. Poema boyu Ələsgər müdrikliyi, kamilliyi, sənəti xalqa bağlılığından güc alır fikrinə inam aparıcı xətt kimi önə çıxır. Əsərin zəif cəhəti kimi vurğulanmalıdır ki, el sənətkarının müxtəlif dastanlarda dövrün tanınmış aşıqları ilə deyişmələri, onun aşıqlıq sənətinin zəngin xüsusiyyətlərini əks etdirən sonrakı fəaliyyəti açıqlanmır, daha çox Ələsgərin yaşayıb fəaliyyət göstərdiyi dövrün ictimai eybəcərlikləri, çar rejiminin mənfi cəhətlərinin qabardılması ön plana çəkilir ki, çar dövründən fərqli olaraq, sovet dönəmindəki "inkişaf" daha qabarıq görünsün. Bu da təbiidir ki, sovet rejiminin tələbi idi, İslam Səfərli də poemada bu cəhətləri qabartmışdır. Poema 105 il ömür sürmüş, sazı və sözü ilə 80 ildən artıq aşıq sənətinə xidmət etmiş, "*min illik bir ənənənin axarında öz sözünü demiş, heç kəsi təkrar eləməmiş, qeyri-adi bir söz sənəti yaratmış"* [66, s.20] haqq aşığı dədə Ələsgərin əbədi var olacağının təsdiqlənməsilə sona çatır:

*Əlində telli saz, alnında vüqar,*
*Ağ günlər eşqinə coşdu Ələsgər.*
*Dünyada necə ki, saz var, şeir var,*

*O da yaşayacaq dünyalar qədər!...* [114, s.154].

Oxucuları qarşısında bu fikrin əminliyini ifadə edən, "Ələsgər" poemasını da *"Janr baxımından şeirlərini ənənəvi poetik formaların yaradıcı şəkildə davam etdirilməsi əsasında"* [51, s.6] yaradan İ.Səfərli Azərbaycan aşıq sənətinin ən nəhəng simalarından olan, uzun ömrünün sevinci damlanı, kədəri isə dəryaları xatırladan, şeiriyyəti və söz səltənəti ilə nəsilləri heyrətə gətirən Aşıq Ələsgərə poetik ehtiramını bildirmişdir.

Belə qənaətə gəlmək olar ki, M.Rahimin, H.Kürdoğlunun, H.Arifin və İ.Səfərlinin tədqiqata cəlb etdiyimiz tarixi mövzulu poemalarında Sarı Aşıq, Dilqəm, Aşıq Ələsgər kimi el sənətkarlarımıza poetik ehtiram bir tərəfdən tarixi poemalarda xalqın mədəni həyatında parlaq xarakteri ilə seçilən yaradıcı şəxslərin şəxsiyyəti və yaradıcılığına məhəbbətlə bağlıdırsa, digər tərəfdən dərin məzmunlu zəngin sənət növü kimi ayrı-ayrı aşıqlarımızın həmişə öz milli xüsusiyyətlərini qoruyub saxlayan sənətkarlıqları ilə əlaqədardır.

### 1.3. Tarixi poemalarda orta əsrlər ədəbiyyatımızın klassiklərinin bədii obrazı

Azərbaycan ədəbi-mədəni fikir tarixində orta əsrlər dövrü çox zəngin ənənələrin möhkəmləndiyi, klassik ədəbi dəyərlərin, estetik-nəzəri təfəkkürün təşəkkül tapdığı dövr kimi sonrakı əsrlərdə ədəbi fikrin inkişafının təməli rolunu oynamışdır. Milli etnik təfəkkürdə tarixi köklərə bağlılıq, xalq müdrikliyinin ifadəsi olan dəyərlərin yaşadılması, klassik ənənələrdən yaradıcı şəkildə bəhrələnmə XX əsr ədəbiyyatımızda da mühüm etnomədəni kult kimi yaşadılmışdır. Nəticə etibarilə, klassik ədəbiyyatımızın görkəmli şəxsiyyətlərinin həyatı və mühiti mövzu edilən, bədii obrazları yaradılan əsərlərin, o cümlədən poemaların öyrənilməsi həm də onların irsinin öyrənilməsi, tədqiqi və təbliği baxımdan mühüm əhəmiyyət daşıyır.

Azərbaycan ədəbiyyatının mühüm bir mərhələsini təşkil edən orta əsrlərdə klassiklərimizin yaradıcılığında öz təsdiqini tapan janrlar sistemi içərisində poema janrının zəngin ədəbi təcrübəsi formalaşmış, XIX və XX əsrlərdə ədəbiyyatımıza

gələn modern eksperimentçilik nəticəsində orta əsrlərdən bəri tabulaşmış janrlar sistemində də forma axtarışlarına gedilmişdir. Bu səbəbdəndir ki, XX əsr Azərbaycan ədəbiyyatında poema janrı forma və məzmun, ideya-sənətkarlıq cəhətdən olduğu kimi, mövzu dairəsi etibarilə də zənginləşmişdir. XX əsr Azərbaycan poemasında tarixi mövzu əsas istiqamətlərdən biri olduğu kimi, tarixi mövzulu poemalarda da klassiklərimizin həyatı və mühitinin, yaradıcılığının əks etdirilməsi mühüm cəhət kimi ədəbi-nəzəri fikrin diqqətini cəlb etmişdir. Xalqımızın mənəvi-əxlaqi dəyərlərini formalaşdıran ustad şairlərimizin yaradıcılığı, onların zəngin və həmişə aktuallığını qoruyan bədii irsi dərindən öyrənilmiş, bədii obrazı ayrı-ayrı müəlliflərin tarixi poemalarında geniş lövhələrdə əks etdirilmiş, bu zaman ədəbi şəxsiyyətin tarixi simasının qorunması diqqət mərkəzində saxlanılan əsas məqam olmuşdur. Belə ki, tarixi mövzulu əsərlərdə şəxsiyyətin tarixdəki siması, ədəbi əsərdəki obrazı və yazıçının şəxsiyyətə fərdi yanaşma prizması və yazarın yaşadığı dövrün ədəbi-bədii kriteriyaları müstəvisində əsərin dəyərləndirilməsi başlıca faktora çevrilmişdir.

XX əsrin müxtəlif onilliklərində qələmə alınmış tarixi poemalarda Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai və Məhəmməd Füzuli kimi intibah və orta əsrlərin sonrakı dövrünün görkəmli ədəbi şəxsiyyətlərinin obrazı yaradılmışdır. Dünya mədəniyyətini söz inciləri ilə zənginləşdirmiş bu poeziya klassiklərindən bizi əsrlər ayırsa da, onların əsərləri müasir dövrdə də sevilə-sevilə oxunur, keçmişdə olduğu kimi, bu gün də oxuculara zövq verir, onlarda yüksək humanizm, insana məhəbbət aşılayır. Dünya xalqlarına da yaxşı tanış olan poeziya nəhənglərimizi ədəbi qəhrəman kimi təsvir edən şairlər onların yaradıcılığını bütün dövrlər üçün ədəbi hadisə kimi dəyərləndirirlər. Poetik ilhamı xalq həyatından, onun mənəvi dəyərlərindən və tarixi keçmişindən qaynaqlanan Mirvarid Dilbazi 1940-1945-ci illərdə XII əsr Azərbaycan poeziyasının istedadlı simalarından olan ilk qadın şairə Məhsəti Gəncəviyə həsr olunmuş "Məhsəti" [31] tarixi poemasını yazmışdır. Məhsəti obrazının dövrün qüdrətli şairəsi, mükəmməl savada malik insan, qadın hüquqlarının müdafiəçisi, xalqın savad alması yolunda cəfa çəkən sənətkar kimi təqdim olunduğu əsər klassik epik şeiri formasında yazılmışdır. Bu fakta diqqət yetirən akademik Rafael Hüseynov qeyd edir ki, *"Bütün*

*poema məsnəvi şəklindədir, 11 hecalı misralardan ibarətdir. Arada əruzla yazılmış qəzəllər əsərə bir həzinlik gətirir..."* [58, s.96]

Poemanın əvvəlində müəllif "mükəddər fikrə gedərək" oxucunun diqqətini səfərbər etmək üçün onu real həyatdan ayırır və uzaq əsrlərə – Məhsəti dünyasına aparır, əsərin sonunda da şairə bu ədəbi gedişdən istifadə edir. Oxucu ilk misralardan könlü qan ağlayan, yanıqlı dərdini kamanda dilləndirən füsunkar qadın obrazı ilə rastlaşır, bu motiv əsər boyu davam edir, onun ideya məzmununu tamamlayır. Açılan mənzərədən – cildlərlə əlyazmalardan, dəstə-dəstə qalaqlanmış kağızlardan o anlayır ki, eşitdiyi səs bir şair qızın zəmanəyə üsyan səsidir.

Müəllifin poema qəhrəmanı ilə dialoqu formasında verilən ilk hissədə qadınlığın faciəsi ifadə olunur, Məhsəti dövründə qadına münasibət, qadının ictimai həyatdakı yeri məsələləri mənbələrə uyğun şəkildə təsvir olunur.

*Dedim: nə yaraşır sən kimi cana*
*Gecələr şam kimi sübhətək yana?!*
*Aç mənə bu sirri, söylə görüm bir*
*Sən kimsən, etdiyin bu fəryad nədir*? [31, s.175]

İlk misralardan başlayaraq M.Dilbazi *"...böyük rübai ustasının əməl və arzularını, Vətən həsrəti ilə alışıb-yanan şairənin obrazını bədii boyalarla əks etdirmişdir"* [39, s.40].

Poemada başlıca olaraq ədəbi obraz Məhsətinin dövrün tanınmış şairi Xətib oğlu ilə münasibətləri və ictimai münasibətlər üzərində fikir mübadilələri, onların yeni üsulla məktəb açmaq düşüncələri, şairənin ərinə orta əsr qadınının vəziyyətindən şikayətləri yer alır.M.Dilbazi Məhsətinin duyğular aləmini, onun bəzən ümidsizliyə qapanmasını, dini ideologiyanın hakim olduğu dövrdə dünyəvi hisslər tərənnüm edən gözəl rübailər yazmasını önə çəkməklə kifayətlənmir, onu daha böyük amallar düşündürdüyünü dilə gətirir. Məhsətini dövrün mütərəqqi görüşlü sənətkarlarından biri kimi qiymətləndirən müəllif onu millətin taleyini düşünən, onun xoş gələcəyi üçün əməli işlər görən, xalqın dərdini çəkən el anası obrazında təqdim edir. Qəlbi səmimi duyğuların, millətini qaranlıqlardan qurtarmaq istəyinin canlı ifadəsi olan bu bənddə Məhsətinin şair və el anası kimi xarakteri yaradılır.

M.Dilbazi şair təxəyyülünün nəticəsi kimi əsərdə dövrün böyük şairlərini – şeir dünyasının şöhrəti Xaqanini, sənət asimanında gövhər sayılan Fələkini, Əbül-Ülanı, ustad Beyləqanini Məhsətinin evində təşkil etdiyi ədəbi məclisdə görüşdürür. Məclisdə iştirak edən, “söhbəti qısa və aydın olan” gənc Nizamiyə Məhsəti üz tutaraq

*İzləyib məftunun olmuşam, inan.*
*Sən hələ Məşriqdə yenicə yanan*
*Günəşsən, Nizami, dur yanıma gəl!*
*Qoy bizim sənətə yeni bir təməl* [31, s.196].

onun sənətini yüksək qiymətləndirir. Tarixdən məlumdur ki, Məhsəti, həqiqətən, *“ətrafına gənc şairləri toplamışdı və yalnız Azərbaycan və Şərq ədəbiyyatında deyil, bütövlükdə dünya ədəbiyyatındakı ilk şair məclislərindən birini yaratmışdı”* [59, s.9] fikri poemada göstərilən, lakin *“heç bir tarixi əsasa malik olmayan”* [58, s.96] məclisə şamil oluna bilməz.

Müəllif yüksək istedad sahibi olan, mərdliyi, sadə insanlarla səmimi rəftarı ilə ad-san qazanmış, “*ömrünün müəyyən müddətini Sultan Mahmud Səlcuqi və Sultan Səncər sarayında keçirmiş*” [125, s.36] Məhsətinin Sultan Səncərlə qarşılaşmasında şairəni əsrin mütərəqqi fikirli söz ustadı kimi təsvir edir, onun hökmdar sınağından ləyaqətlə çıxdığını iftixar hissi ilə nəql edir, ədəbi qəhrəmanının mənəvi ucalığını, qüdrətini nümayiş etdirir. Şah Məhsətini qələminin küfr saçmasında, məclislər düzəldib söz deməsində günahlandırır, cavabında:

*Xalqa xidmət edir mənim qələmim,*
*Qapımı yad deyil, dost açır mənim.*
*Şah bunu bilsin ki, mən sənətkaram,*
*Sənət olan yerdə daima varam* [31, s.206].

ondan eşitdiyi sözlər həqiqət olsa da, sultanı cəza verməkdən döndərmir:

*Şah dedi: gəl, vəzir, ağlımı alma,*
*Yenə ortalığa qan sözü salma.*
*Yaz ki, tərk eyləsin bu gün Gəncəni* [31, s.207].

Məhsəti şahdan onu doğma Gəncədə öldürməyi, vətəndən uzaqlaşdırmamağı xahiş edir:

*Məhsəti söylədi: bu doğma Gəncə*
*Ömürdən, gündən də şirindir məncə.*
*Şairin allahı vətəndirsə gər,*
*Vətəndə ölməkdən o nə itirər?* [31, s.207].

Məhsətinin Sultan Səncərlə görüşü, Gəncədən ayrılması, Xətib oğlu ilə vidalaşması səhnələri poemada ən səmimi təsir bağışlayan, lirizmi və dramatizmi ilə seçilən, oxucu qəlbini riqqətə gətirən ifadələrlə işlənmişdir. Xətib oğlunun Məhsətidən:

*Gəl, ey bəxt ulduzum, usan bu ahdan,*
*Aldığın töhfələr nə oldu şahdan?* [31, s.211]

sualına:

*Məni, Xətib oğlu, öldürür kədər!*
*Şahın əmri budur, sürgün olam tək* [31, s.211].

eşitdiyi cavab onu "*elə bil yüz il qocaltdı*". Əsərdə xalqın Məhsəti ilə vida görüşünə gəlməsi, yolda şairənin səba yeli ilə, Gəncəyə uçan durnalarla dərdləşməsi qürbətə getmək məcburiyyətində qalan insanın qüssəsi səmimi hisslərlə, inandırıcı şəkildə verilmişdir:

*Durnalar səslənir dağlar dalından.*
*Məhsəti söyləyir: ey qatar-qatar,*
*Gəncə torpağına uçan durnalar,*
*Siz də Məhsətidən bəxtiyarsınız,*
*Özünüz hakimi-ixtiyarsınız* [31, s.215].

Məhsəti aylarla yol gedərək Zəncanı, Xorasanı keçib "üçüncü yazda" uzaq Hicazda məskunlaşır, qocalmış və xəstə halda qürbətdə yaşamalı olur. Akademik R.Hüseynovun "*Mənbələrdə Məhsətinin Hicaza getməsi haqqında heç bir məlumata rast gəlmirik*" [58, s.96] fikrini nəzərə alsaq, poemadakı bu epizodun da müəllifinin bədii təxəyyülünün məhsulu olduğunu təsdiqləyə bilərik. Gözündə min qüssə, könlündə fəğan qürbətdə vətən həsrətindən yanıb qovrulan şairə doğma elini qaranquşlardan xəbər alır. M.Dilbazi poema qəhrəmanının dərdini, fəryadını qoca Şərqin dərdi, kədəri ilə müqayisə edir.

Əsər Məhsətinin Nizamiyə məktub yazması və ondan aldığı cavabla bitir. İki böyük sənətkarın məktub-cavab formasında dilləndirilməsi dövrün səciyyəsini müasir nəsillərə olduğu kimi çatdırmaq məqsədi güdür. Yad ellərdə fəraqdan yanan Məhsəti məktubunda şah saraylarını sənətkarın qəbri adlandırır, həmkarına "*Günəşsən, üzünü tutmasın bulud*" [31, s.219], - deyə nəsihətini çatdırır. Məhsətiyə cavab göndərən Nizami şairənin xilası üçün şaha müraciət edir:

*Ayrı bir təmənna gətirdi məni,*
*Anasız qoymasın şahım Gəncəni.*
*Böyük Məhsətini qaytar, amandır!*
*Anasız bir xalqın bəxti yamandır* [31, s.223]

Dahi Nizami xahişinə məhəl qoyulmadıqda pərişan geri dönür. Sultan Səncərin vəfatından sonra şairə Gəncəyə qayıdır, Gəncədə yanan nur Gəncədə də sönür. Xalqımızın sevimli şairəsi, incə qəlbli Məhsəti Gəncəvi yaşayıb-yaratdığı Gəncə torpağında da əbədiyyətə qovuşur. Tarixi həqiqətlə ədəbi reallığın eyniyyəti yazarın uğuru kimi qiymətləndirilə bilər.

*Hıçqırıq, göz yaşı nə çox göründü,*
*Hər yandan matəmli bir sükut endi.*
*Ürək dərd əlindən eylədi fəğan,*
*Böyük Məhsətini öldürdü zaman...* [31, s.231].

Elmi-ədəbi fikrin poemaya münasibəti birmənalı olmamışdır. Ədəbi tənqiddə də vurğulandığı kimi, *"...sənətkarlıq və tarixi faktla işləmək baxımından poetik imkanlarını tam ifadə edə bilməsə də, Mirvarid Dilbazinin poeması yarandığı dövrdə böyük şöhrət qazanmışdı*" [4, s.43]. Qeyd edək ki, M.Dilbazinin Məhsəti dünyasını canlandırarkən bəzi hallarda tarixi gerçəkliklə uzlaşmayan epizodları əsərin süjetinə daxil etməsi poema qəhrəmanının dövrü, müasirləri, həyatı və yaradıcılığı ilə bağlı bir çox tarixi-filoloji faktların indiyədək dəqiqləşdirilməməsi, onların rəvayət halında mövcud olması ilə izah olunur, məhz elə bu səbəbdən də müəllifə qarşı hər hansı bir irad irəli sürmək çətindir.

Gözəl rübailəri ilə Azərbaycan klassik poeziyasına qadın ürəyinin hərarətini gətirmiş Məhsəti Gəncəvi obrazı ədəbiyyata zərif məhəbbət lirikası, ana, vətən

mövzularının müəllifi kimi daxil olan Nigar Rəfibəyli yaradıcılığında da öz ifadəsini tapmışdır. Bir vaxtlar ədəbiyyatşünas Əli Nazim də qeyd etmişdi ki, *"Azərbaycan qadınlarının faciəli keçmişi, ...ümumiyyətlə, qadın vüqarı, ana ülviyyəti Nigar xanımın ən çox qələmə aldığı, ən çox tərənnüm etdiyi motivlərdən biri, bəlkə də birincisidir"* [65, s.183].

Qeyd edək ki, poemanın mövzu müxtəlifliyi kontekstində müqayisə zamanı dramatik poema ictimai şüurun fəal inkişafı mərhələləri ilə şərtləndirilən ədəbi həyatın daha intensiv inkişafı dövründə özünü büruzə verən uğurlu bədii formadır. Eyni zamanda bu fakt poetik yaradıcılığın növü olaraq janrın xüsusi göstəricisi kimi də çıxış edir. "Məhsəti" [102] poemasının dramatik janr üslubunda yazılması, onun məzmununun real tarixi mətn əsasında qurulması, müəllifin hadisələrə dramatik münasibətilə şərtləndirilir. 1940-cı ildə qələmə alınmış və dramatik poemadan bir parça şəklində çap olunmuş əsər XII əsrdə yaşayıb-yaratmış Məhsəti Gəncəvinin həyatının bir məqamına – atasının onu zorla Şirvan xanı ilə ailə qurmasına razı etməyə çalışarkən şairənin öz arzusunu ifadə etməsi, çəkdiyi iztirab, böyük Nizami ilə dərdləşməsinə həsr olunmuşdur. Poema tamamlanmasa da, bu şəkli ilə maraqlı süjet və kompozisiya xüsusiyyətlərinə malikdir. Müəllif dramatik vasitələrlə dövrün insan və cəmiyyət münasibətlərində yaratdığı ziddiyyətləri və onların müxtəlif təzahürlərini Məhsəti obrazında ifadə edir.

N.Rəfibəyli öz əsəri ilə müasir oxucunu Məhsətinin dərdli dünyası ilə tanış edir, könlü viran edilmiş şairənin əzablarını ona çatdıra bilir. Əsər Məhsətinin öz otağında oturub şeir yazması və "kimiyəm" rədifli qəzəlini dilləndirməsi ilə başlanır. Dramatik poemanın süjeti üç istiqamət üzrə inkişaf edir. Əvvəlincidə Məhsətinin Həmayillə söhbəti, digərində xanla görüşü, sonuncuda isə Nizami ilə dövranın dərdlərindən şikayəti nəql olunur.

Həmayilin yuxusunun təsvir edilməsi əsərdə xüsusi məna yükü daşıyır. O, qarışıq yuxu görür, onu böyük həyəcanla Məhsətiyə danışır:

*Gördüm qara bulud aldı göyləri,*
*Sis, duman bürüdü bütün hər yeri.*
*Bir qara div çıxıb səni apardı,*

*Yox olub göylərin dibinə vardı,*
*Ağladım dalınca, çırpındım yerdə,*
*Sən isə yox oldun dərin göylərdə...* [102, s.245]

Bu psixoloji ağırlıq Məhsətidə də hiss olunur, o, ürəyinin nədən tutqun olduğunu bilməsə də, sinəsində çulğayan dərddən əzab çəkir. Şairənin gəncliyinin xəzana dönməsinin səbəbi onun atalığı xanla dialoqunda açıqlanır. Xanın qızına müraciətlə dediyi

*Neçin, gözəl maral, dalğınsan belə,*
*Yenə kim toxunmuş bir incə gülə...* [102, s.246]

sualına Məhsəti talesizliyini ana məhəbbətindən məhrum olması, atalığının ona zülmü, mənhus sarayın onun üçün cəhənnəmə dönməsi ilə, həyatda tənhalığı ilə cavab verir.

N.Rəfibəylinin poeması kompozisiya baxımından bir sıra fərqli xüsusiyyətlərə malikdir. Əsər bir-birini tamamlayan hissələrə bölünmüşdür, həm də hər epizod müəllif remarkası ilə müşayiət olunur, hadisələrin inkişaf ardıcıllığı təmin edilir. Dramatik poemada əsərin əsas ideyasını əks etdirən monoloqların rolu daha böyükdür, ona görə ki, monoloqlarda bir sıra hissi-emosional ovqat halları obrazın ruh halının təzahürünə xidmət edir. Qeyd edək ki, Məhsətinin Həmayil, ögey atası xan və Nizami arasında baş verən dialoqu daha çox monoloq xarakteri daşıyır, ədəbi qəhrəmanın düşüncələrini əks etdirir. Xüsusilə Məhsətinin xanla söhbətində qarşılaşan tərəflər öz mövqelərini ortaya qoyurlar.

N.Rəfibəyli Məhsətinin Nizami ilə görüşündə də əsas fikri şairənin düşüncələrinə yönəldir. Əsərdə Məhsəti gəncləşdirilmiş, Nizami isə şairəyə "qızım" deyəcək qədər yaşlı verilmişdir. Düşünürük ki, müəllif N.Rəfibəyliyə tarixi faktla belə sərbəst rəftar ona görə lazım olmuşdur ki, Nizaminin daha qüdrətli sənətkar olduğunu təsdiq etsin, ədəbi qəhrəmanına isə çətin məqamında onun vasitəsilə təsəlli verə bilsin. Bu mənada Məhsəti Nizamiyə müraciətlə halını izhar edərək deyir:

*Əzəldən bədbaxtdır bir qız övladı...* [102, s.251].

Nizaminin cavabı daha çox maraq doğurur:

*Səni yetişdirən bu ana torpaq*

*Sənin sənətinlə abad olacaq* [102, s.253].

Əsərin finalı qaneedici detallarla dövrün sosial-tarixi gerçəkliyini əks etdirir. Cahangirin vurulması və baş verənlərə Məhsətinin *"Bunca dərdlə insan etməzmi fəryad?!"* [102, s.253] üsyanı ilə bitən bu bədii parça sevən qəlbin kədərli məqamlarını oxucuya çatdırır.

M.Dilbazinin və N.Rəfibəylinin Məhsəti Gəncəviyə həsr olunmuş "Məhsəti" poemaları XII əsrin qüdrətli Azərbaycan şairəsinin şəxsiyyəti və yaradıcılığı haqqında oxucuda tarixi-filoloji faktları və rəvayətlər əsasındakı məlumatları dolğunlaşdırmaq baxımından əhəmiyyətli dərəcədə bitkin fikir formalaşdırır. Hər iki sənətkar Məhsəti obrazına fərqli situasiyada yanaşmış, poemalarda fərdi yaradıcılıq xüsusiyyətləri nümayiş etdirsələr də, onlar ədəbi qəhrəmanının azad sevgi həsrətini, qadın hüquqzuzluğundan şikayətini eyni yanğı ilə tərənnüm etmişdir. Məhsəti dünyasına səyahət şəklində qurulan poemalarda ədəbi şəxsiyyətin tarixi siması tarixi reallıqlara müəllif müdaxiləsi ilə müəyyən qədər dəyişdirilsə də, bu yaradıcı təxəyyülün imkanı kimi qiymətləndirilə bilər.

Azərbaycan ədəbiyyatında tarixi poemanın mövzu dairəsində intibah dövrü Azərbaycan ədəbiyyatının zirvəsi olan mütəfəkkir şair, dahi Nizami Gəncəviyə həsr olunan bədii nümunələrin xüsusi çəkisi vardır. Şərq intibahının görkəmli siması olan Nizami Gəncəvinin həyatı, sənəti, dövrünün qələmə alındığı poemalarda mütəfəkkir şəxsiyyətin obrazı tarixdəki şəxsiyyətin reallıqları ilə, əsasən, uyğundur. Qeyd edək ki, M.Dilbazinin, N.Rəfibəylinin poemalarında da Nizami Gəncəvinin obrazı yaradılmışdır və dahi şairin elmi-ədəbi fikirdəki mövqeyi aydın şəkildə bədii planda işlənmişdir. Əsas qəhrəmanın Nizami olduğu tarixi poemalar içərisində Zeynal Xəlilin "Şairin yuxusu", Novruz Gəncəlinin "Şairin arzusu" və Balaş Azəroğlunun "Nizami Gəncəvi" poemaları da mövzu dairəsi, sənətkarlıq xüsusiyyətləri, dil, ifadə imkanları ilə diqqəti cəlb edən bədii nümunələrdir.

Zeynal Xəlil "Şairin yuxusu" dramatik poemasının ilk variantını 1940-cı ildə Nizaminin 800 illik yubileyi ərəfəsində 8 şəkildə mənzum dram formasında yazmış, əsər 1975-ci ildə "Azərbaycan" jurnalında "Gəncə qartalı" [63] adı ilə çap olunmuşdur. Sonrakı illərdə yenidən əsərə müraciət edən müəllif ona proloq və

epiloq yazmış, Zaman baba və Aydoğdu obrazlarını da süjetə daxil etmiş, əsər 1978-ci ildə "Şairin yuxusu" [62, s.164-249] adı ilə nəşr olunmuşdur.

Qeyd edək ki, əsərdəki bu dəyişiklik onun obrazlar sistemində və ideya məzmununda əhəmiyyətli yeniliyə səbəb olmuşdur. Əgər "Gəncə qartalı"nda süjet birbaşa ədəbi qəhrəmanın obrazının, dövrünün, müasirlərinin təsviri və üzləşdiyi amansızlıqla xarakterizə olunurdusa, "Şairin yuxusu"nda hadisələrin inkişafı məzmun və ideya baxımından əsas mahiyyət daşıyan yuxu motivi üzərində qurulmuşdur. Əsərin bu səpkidə yenilənməsi onun məzmununa da təsir etmişdir. İlkin variantda Məhəmməd saray şairi kimi təqdim olunur, sarayda baş verən çəkişmələr və xəyanətlər onu məhv edirdisə, sonuncuda dövrün səciyyəsi kimi anılan saray intriqaları, xəyanət, iftira, böhtan Nizaminin yuxusu kimi verilir, əsər nikbin sonluqla bitir.

Z.Xəlil əsərin əvvəlindən Nizaminin pərişan, fikirlərinin dağınıq olduğunu qəmli, kədərli hisslərlə bəyan edir, onun bu halı Məhəmmədi incidir, atasının neçə vaxtdır yazıb-yaratmaması onu düşündürür. Proloqda Nizaminin bədbinliyi bir tərəfdən onun uzun müddət dostu Xaqanidən xəbər tuta bilməməsi ilə, digər tərəfdən qorxunc yuxu görməsi ilə izah olunur. Nizami həyəcan keçirir, zəmanədən şikayətini dilə gətirir:

*Ah, görüm zamanın kor olsun gözü,*
*Onun da qəlbində qaldı hər sözü!..*
*Orda bir xaqan var, burda bir xaqan,*
*Gəncə bir zindandır, Şirvan bir zindan!.. [62, s.168]*

Şairin dövrana, saraya, hökmdara qarşı bu bənddəki bədbinlik motivi Nizamilə yanaşı, əsərdə əsas obrazlardan sayılan və müəllif düşüncələrinin ifadəçisi olan Xaqanidə də əsər boyu müşahidə olunur. Nizami Gəncəvinin və Xaqani Şirvaninin dostluğu, onların vətən sevgisi, mövcud rejimə qarşı vətənpərvərlik mübarizəsi əsərdə geniş lövhələrlə əks etdirilir.

I şəkildə söhbət Şirvan hökmdarından saraya dəvət alan Məhəmmədin ağlı, zəkası və şairliyi ilə burada hörmət və nüfuz qazanmasından, saray xanımlarından Əhsitan şahın qızı Hicranın məhəbbətinə qarşılıq verməsindən, şahın arvadı İntizarın

da onu əldə etmək üçün cəhd göstərməsindən gedir. Rəssam Qürur Məhəmmədlə Nizamidən danışır, şeirinin Şirvandan Təbrizə qədər yayıldığını fəxrlə bildirir. İlk iki şəkildə Nizami iştirak etməsə də, obrazların ona münasibətində şairin böyük dühası mənalı çalarlarla açıqlanır.

Nizami obrazını dövrün gerçəkliyi fonunda yaradan müəllif Şirvan şahı Əhsitanın zülmkar əməllərini, yırtıcı xüsusiyyətlərini, qan tökmək hərisliyini göstərir, onu quduz canavara bənzədir. Şahın rəssamdan qeyri-adi tablo yaratmağı tələb etməsi oxucuda ikrah hissi doğurur:

*Gündə əmr eləyir mənə Əhsitan,*
*Gərək yaradasan bir qanlı meydan.*
*Orada görünə baş üstündə baş,*
*Qandan yaqut kimi parlaya hər daş!* [62, s.170]

Əsərin II şəklində Əhsitan vəzirə atası Məniçöhrün rəşadətindən, anası Tamaranın sədaqətindən, özünün tarixə düşməsindən böyük bir dastan yazılmasını tələb edir:

*O zaman əbədi yaşayaram mən,*
*Baxaraq dastanın hər bir sözünə.*
*Gördükcə bunları güc gələr mana,*
*Olar ömrüm üçün gözəl bir ayna!...* [62, s.179]

Bu məqsədlə Nizaminin saraya gətirilməsi qət olunur. Sonrakı səhnədə şahın könlünü açmaq üçün Dərbəndi şeir oxuyur, Əhsitan eşitdiyi sözlərin cavahirat olduğunu təsdiqləyir, Xaqani oxunan şeirin Nizaminin “Sənsiz” rədifli qəzəli olduğunu söyləyir:

*O sözlər əvvəldən tanışdır mənə,*
*Qardaşım Nizami yadıma düşdü...* [62, s.181]

Xaqani ardınca zindandan, verilən cəzadan əsla çəkinməyərək əsl sənət, ədəbiyyat haqqında mülahizələrini ifadə edir və poemada verilən bu sətrlərlə bu dövrdəki saray mühiti arasındakı ziddiyət ortaya qoyulur:

*Təriflər deməklə yaranmır sənət,*
*Ona qəlb lazımdır, bir də məhəbbət!..* [62, s.183]

Əsərdə bu tablonun yaradılmasında əsas məqsəd Əhsitanı ibrət almağa, qan tökməkdən çəkinməyə, xalqı firavan yaşatmağa, qurub-yaratmağa çağırışdan ibarətdir. Z.Xəlilin bu mövqeyi Nizaminin *"Adil Nuşirəvan ilə vəzirin hekayəti"ndəki "Vəzir söylədi: – ey dövrün tacidarı! Öyüd xoşlamış olsan, anladaram əsrarı"* [92, s.99] sözlərilə yaxından səsləşir. Şəkildə özünü görməyən Əhsitanın rəssamı ağır cəzalandırması onun qəddarlığının daha bir təzahürüdür.

Şahla söhbətdə Nizami xalqın xoşbəxtliyini, ellərin firavan yaşamasını, rəiyyətlə xoş rəftar edilməsini önə çəkir, hökmdarın ədalətli olmasını, elmə, savada meydan açmasını diləyir. Şahın Nizamiyə vədləri cavabsız qalır, dövranın gərdişindən zillət çəkən xalqın ağır həyatı şairi də sarsıtmışdır:

*Çoxdan gileyliyəm mən zəmanədən,*
*Bu, dövran deyildir, qara zindandır.*
*Əlində boğulan yazıq insandır!..* [62, s.196]

Şahın Nizamidən fars dilində yazılmalı olan dastan haqqında fikrini soruşduqda ondan düşüncəli və ağır bir tərzdə aldığı cavab əsər qəhrəmanının əsl xarakterini ortaya qoyur:

*Mən türkəm, deyiləm sırğalı bir gül,*
*Ölərəm, bu əmri etmərəm qəbul.*
*Türkün qılıncı tək itidir sözü,*
*Əfsus, öz qədrini bilməyir özü!..*
*Şahnamə yazmağı bacarmıram mən,*
*Çünki tərif demək gəlmir əlimdən* [62, s,197].

Nizami obrazının bir şair və vətəndaş kimi xarakterinin açılması əsərdə başlıca yer tutur. Çətin sınaqlarla üzləşən şair həqiqət yolunda cəsarət, dözüm, müdriklik nümayiş etdirir. Nizamini oğluna həsrət qoyacağı ilə hədələyən şah onun qətiyyəti ilə qarşılaşır: "*Nə etsən etginən, qorxmayıram mən, Çünki yaralıyam çərxi-fələkdən..."* [62, s.198]. Şair Z.Xəlil Nizaminin məğlubedilməzliyini ifadə edən sözlərindən sonra Əhsitanın özündən çıxaraq *"Gərək əllərimi boyasın al qan"* deməsini şair sözü qarşısında hökmdarın aciz qalması kimi mənalandırır. Lakin şahın gücünü göstərməsi üçün yeni məqam yaranır. Vəzirin təkidi ilə Dərbəndi Məhəmmədi Əhsitanın ailəsinə

xəyanət etməsində günahlandırır. Şair oğluna qurulan tor onu dar ağacına daha da yaxınlaşdırır.

Xaqaninin evində vaqe olan V şəkildə müəllif Nizaminin yeni portret cizgilərini yaradır – şair insanlıq dərdini duyan, dünyanın gözünü sözlə açan sənətkar kimi verilir, onun dastanları aləmi nurlandıran günəşlə müqayisə olunur. Dövrün ictimai eybəcərlikləri Məhəmmədi həbs etməyə gələn əsgərlərlə Nizami və Xaqaninin dialoqlarında daha aydın şəkildə görünür. Əgər birinci əsgər humanistlik göstərərək şah fərmanına etirazını bildirir, zalım şahın hərəkətlərini qəbul edə bilmir və

*Adamın ürəyi gəlməyir, vallah,*
*Bilmirəm nə deyim, bu zalım şaha!..*
*Bu cürə oğlana zindan yaraşmaz* [62, s.208],

deyirsə, digər əsgərlər şah fərmanının icrasını gecikdirməyi ağıllarına belə gətirmir, şahın nökəri kimi onun əmrinə müntəzir olaraq ona sadiqlik göstərir, Nizamini, Xaqanini dinləmək istəmirlər. Xaqani cəlladları dayandırmaq üçün:

*Amandır, dəyməyin, son pənahına,*
*O bir ilhamdır ki, verilmiş ona!..*
*Onunla yaranmış böyük əsərlər,*
*Deyin ki, tapmadıq, yoxmudur hünər?..* [62, s.211] - deyir.

Poemada zorla oğlundan ayrılan Nizaminin ata fəryadını, zəmanənin şairə qarşı amansızlığını, hakim dairələrin ədalətsizliyini Z.Xəlil elə təsirli, kədərli ifadələrlə vermişdir ki, onu həyəcansız oxumaq mümkün deyil:

*Dağıldı hər ümid, uçdu hər dilək,*
*Açmışdır qapımı amansız külək!*
*Ah, neçin doğuldum bu dünyada mən,*
*İnsan bir cəsəddir, zəmanə kəfən!*
*Heç kəs oğul dərdi görməsin aman,*
*Sinəmdə ağlayır sanki bir ümman!* [62, s.212]

VI şəkildə şahın arvadı İntizar Məhəmmədin günahsız zindana düşdüyünü etiraf edir, peşmançılıqdan əzab çəkdiyini, şahdan onu azad etməsini diləyir. Müəllif bu səhnədə

də Əhsitanın qəddarlığını, zülm verməkdən zövq aldığını, Nizamiyə itaət etmədiyi üçün cəza verdiyini dövrün tipik hökmdarının əməlləri kimi önə çıxarır.

Şair Z.Xəlil Nizami obrazını canlandıran zaman dövrün təfəkkürünü özündə ehtiva edən sofiliyə münasibəti məsələsinə də toxunur. VII şəkildə Nizaminin Sofi Həsənlə görüşündə şair sofiliyin, əxiliyin bir məslək olaraq əzəldən ona dar gəldiyini söyləyir, azadlıq üçün insana daha təsirli yolların gərəkli olduğunu təsdiqləyir:

*İnsan qılınc çəkib vuruşsun gərək!*
*Hər zülmə döş gərib açmasa meydan,* -
*Haqqı tapmayacaq bu yazıq insan!..* [62, s.227]

Qeyd edək ki, sofilik XII əsrin əvvəllərində Azərbaycanda sinfi mübarizənin dini-ictimai hərəkat formalarından idi. Bu cərəyan xalq kütlələrinin apardığı mübarizəyə dini xarakter verirdi. Cərəyanın sol cinahı olan əxilər varlı təbəqəyə qarşı mübarizə aparır, ehtiyacı olanlara kömək edirdilər [144]. Nizami Sofi Həsəni dövrün tələbini anlamağa çağırır, məqsədə yetmək üçün "dağları yarmağı" tövsiyə edir.

Sonuncu şəkildə Məhəmmədin asılması üçün 2-ci və 3-cü əsgər və 2 məzarçının hazırlıq işləri görməsi canlandırılır. Məzarçılar onun aqibətinə acıyır, kəndlilərin dayağı olduğunu, vergilərin artırılmasına imkan vermədiyini minnətdarlıqla xatırlayır, zülmkarın da bir gün öz əməllərinin qurbanı olacağına inanırlar. İntizarın köməyi ilə Məhəmməd Hicranla birlikdə zindandan qaçır, çaya atılaraq məğrur bir ölümlə kama çatırlar. Sonda isə İntizar Əhsitan şahı öldürür:

*Gözümdə qoydunsa mənim kamımı,*
*Mən aldım qılıncla intiqamımı! [62, s.246]*

Tarixi faktlarda əksini tapmayan, şair təxəyyülünün gücünə yaradılan bu səhnələr, xüsusilə İntizarın hərəkəti Nizami və Xaqani tərəfindən yüksək qiymətləndirilir,

Xaqani

*Qoy görsün o ulduz, qoy görsün o ay,*
*Can verir müstəbid..., dağılır saray!..* [62, s.245]

deyirsə, Nizami "Bilirdim, bilirdim zaman gələcək, Qanla dövran sürən, qanla öləcək!", sözləri ilə ədalətin zəfər çaldığını elan edir.

Dramatik poemanın epiloqunda təsvir edilənlərin Nizaminin yuxusu olduğu aşkarlanır:

*Bu yuxu deyildir, bu bir dəhşətdir,*
*Sənin gördüklərin bir fəlakətdir* [62, s.246].

Nizami dövrünün yuxu kimi təqdim olunması bir tərəfdən hadisələrin xarakterini və obrazların daxili aləmini göstərməkdən, digər tərəfdən psixoloji amil kimi müəllifin XII əsr gerçəkliyinin sadəcə yuxuya bənzətməsi, real həyatda belə zülmün olmaması istəyindən irəli gəlir. Finalda azadlıqsevər insanların mübarizəsinin var-dövlət, şan-şöhrət əsirləri, hakimiyyətin gücünə aldananlar, insanla münasibətdə zorakılıq yolunu tutanlar üzərində təntənəsi kimi təsvir olunur.

Azərbaycan ədəbiyyatının görkəmli siması, mütəfəkkir şair Nizami Gəncəvinin bədii obrazı tarixi mövzulu roman və povestlərdə olduğu kimi, poemalarda da uğurla yaradılmışdır. Nizami sənətinin ecazkar aləminə səyahət edərək dahi sənətkarın mükəmməl obrazının yaradıldığı dəyərli bədii nümunələrdən olan Novruz Gəncəlinin “Şairin arzusu” poeması öz bədii məziyyətləri, estetik ideyası, tərbiyəvi əhəmiyyəti, dili, üslubi imkanları, struktur quruluşu, qaldırdığı ictimai, ədəbi problemlərin əhatə dairəsi ilə ədəbiyyatşünaslığımızın diqqətini cəlb etmişdir. Poema 1946-cı ildə, dahi şairin anadan olmasının 800 illik yubileyi ərəfəsində qələmə alınmışdır. Poemanın yazılmasında məqsəd orta əsrlərin mistikası fonunda dünya ədəbiyyatına tamamilə yeni bir poetik səs, nəfəs gətirmiş Nizami obrazını onu əhatə edən ictimai mühitlə, müasirləri ilə sıx təmasda yaratmaq olmuşdur.

Müqəddimə və iki hissədən ibarət olan poemada bütün parçalar Gəncənin füsunkar təbiətinin təsviri ilə açılır. Poema təbiətin öz gözəlliyi, əzəməti, təravəti ilə insanın ruhunu oxşadığı bir dövrdə Nizaminin şahdan məktub alması ilə dərin düşüncəyə dalması, oğlu Məhəmmədin ondan kədərinin səbəbini soruşması ilə başlanır.

*Quşların kəsilmir sevimli səsi.*
*Oturmuş eyvanda şair, odur, bax,*
*Nədənsə gülməyir onun çöhrəsi.*
*Əlində qələmi dalmış xəyala,*

*O, hansı arzunun olmuş əsiri?* [62, s.277].

Nizaminin bir ağır dərdi də Xaqaninin Şirvanı tərk etməsidir. Xaqani Şirvani keşməkəşli bir ömür yolu sürmüşdür. Onun övladlarının vaxtsız ölümü atanın ürəyinə dağ çəkmiş, şahın zülmü də onu cana gətirmişdir. Şair ailədə və hökmdarla münasibətdə taleyinə düşən bu ağrı və əzabı özünəməxsus bir tərzdə öz əsərlərində əks etdirmiş, həyat hadisələrini bədii həqiqət səviyyəsinə yüksəltməyi bacarmışdır. Xaqaninin bu müşkül halı həm Z.Xəlilin "Şairin yuxusu"nda, həm də N.Gəncəlinin "Şairin arzusu"nda özünü dolğun şəkildə göstərir:

*Azadlıq carçısı olan zamandan*
*Oldu hədiyyəsi bir qara zindan, –*
*Gəldi Əhsitanın əlindən cana,*
*Əlvida söylədi gözəl Şirvana* [62, s.279].

Bu parçada Nizaminin oğluna nəsihətini verməklə müəllif şairin on beş yaşlı Məhəmmədi bir tərəfdən həyata hazırladığını və eyni zamanda Əhsitan şahla görüşdən əvvəl sanki onunla vidalaşdığını göstərir. Yüksək əxlaqi dəyərə malik bu nəsihətin əsərdə verilməsi onun məna zənginliyini artırır. Çünki *"Nizaminin müxtəlif əsərlərində öz əksini tapmış oğlu Məhəmmədə nəsihəti... nəsihətnamə janrında yazılmış dəyərli poetik nümunədir və əsrlərdir yeni nəsillərin yetişib formalaşmasına öz töhfəsini verir"* [46].

Əsərdə Əhsitan Nizami ilə Gəncədə görüşür, qasid şahın tələbini Nizamiyə çatdıranda Nizami Xaqaninin məktubunu xatırlayır:

*Mən mahnıtək yayarkən ədaləti hər yana*
*Şah Əhsitan əmr edib saldı məni zindana.*
*Baş götürüb gedirəm, dostum, bu gün Təbrizə*
*Məndən sənə vəsiyyət – uyma şirin bir sözə...* [62, s.281]

Qeyd edək ki, "Şairin arzusu" poemasında Xaqani iştirak etmir, yalnız xatırlanır, ancaq bu ədəbi cəhd hökmdarın söz ustadlarına münasibətini göstərməklə əsərin məzmununu şair və zaman problemi baxımından xeyli dərinləşdirir.

N.Gəncəli Nizaminin Əhsitanla görüşünü, şahın ondan "Leyli və Məcnun"u yazmağı tələb etməsini və əsərin necə işlənməsi haqqında tələb irəli sürməsini, şairin

arzu olunan əsəri ana dilində yaratmaq arzusunu, bu zəmində əsərin konfliktini, obrazlar arasında dialoqu birinci hissədə təsvir etmişdir. Nizaminin hökmdara cəsarətlə arzusunu bildirməsi şairin doğma dilə vurğunluğunu tam mənası ilə ifadə etməklə yanaşı, Nizami sənətinin milli əsasını da müəyyənləşdirmiş olur. Əsərdə ana dilində yazmağın üstünlükləri, şairin doğma dildə yaradarsa "Leyli və Məcnun"un bütün əvvəl yazdıqlarına kölgə salacağına yəqinliyi inandırıcı verilsə də, Əhsitanın fars dili ilə müqayisədə türk dilinə, türk xalqına etinasız və laqeyd yanaşması, Nizaminin eşitdiklərindən qəlbinin od tutması, arzusunun puç olması cavabsız qalmışdır:

*– Nədir türk dilinə səndə bu həvəs?*
*Xalqın fars xalqına tay ola bilməz!..*
*Türk dili yaramaz şah nəslimizə,*
*Əksiklik gətirər türk dili bizə*! [62, s.285]

Əsərin bu məqamında yar alan  situasiyaya bir neçə aspektdən yanaşmaq doğru olar. Belə ki, müəllif sovet rejiminin hakim olduğu dönəmdə tarixi gerçəkliyə müraciət etməklə mövcud kontekstə də münasibətini ifadə etmək istəmişdir. Müəllif Nizaminin Şah Əhsitanın fars dili ilə bağlı səsləndirdiyi fikrə qarşı Nizminin qətiyyətli münasibəti və cavabı vasitəsilə qorxulu dövr olmasına baxmayaraq öz milli kökünə olan bağlılıq məsələsini qabartmış və ictimailəşdirmişdir. Bununla da həçinin Nizaminin məhz türk şairi olduğu qənaətini şair üsyankarlığı ilə ifadə etmişdir.

Xalqın çəkdiklərini, şairin qəlbini dərd, qəm yediyini dilə gətirən, onu gələcək günlərin tək şairi adlandıran, əsərin fars dilində yazılsa belə, xalqın tükənməz sərvəti olacağına inam ifadə edən müəllif antiteza yolu ilə xeyirlə şərin, gecəylə gündüzün, ağla qaranın qabaqlaşdığını, o dövrə xas olan gücün, hökmün ədalət üzərində üstünlüyünü göstərir.

İkinci hissədə N.Gəncəli Nizami ilə Məhəmməd arasında şairin qəmli, qüssəli halda yeni əsərin yaranması, onun oxuculara necə təsir edəcəyi haqda düşüncələrini qələmə alır. "Leyli və Məcnun"un hər beytindəki "fəğan səsindən dağ dinlərsə göz yaşı axıdacağının" fərqinə varan Məhəmmədə müəllif Nizaminin:

*– Oğlum, düz deyirsən, bədbinkən, əsər*

*Necə yazılarsa oxuyan küsər.*
*Oğlum, mən istədim öz dilimizdə*
*Yazam bu sevdiyin "Leyli Məcnun"u,*
*Lakin ölkəmizdə, öz elimizdə*
*Nə edim, bacara bilmədim bunu,*
*Mən həmdəm istədim bu xoş niyyəti,*
*Şah mənə bəxş etdi qəmi, möhnəti* [62, s.289].

sözləri ilə cavab verir. Yüksək ictimai məzmun, bəşəri ideyalar, fəlsəfi düşüncələr, ruhani məhəbbət aşılayan "Leyli və Məcnun"un yazılması prosesini müəllif Nizaminin sözləri ilə – "Dünyada yazılan qalacaq ancaq!" qənaəti ilə bitirir. Beləliklə, poemanın başlıca ideyası – Nizaminin türk dilində yeni əsər yaratmaq arzusu hökmdarın "Leyli və Məcnun"un fars dilində yazılması tələbinə qarşı şairin etirazı təkcə onun ana dilinə sonsuz bağlılığını deyil, həm də xalqın dilində yazılacaq əsər qarşısında indiyədək yazdıqlarının kölgədə qalacağını, onların "günəş də olsalar, süst görünəcəkləri"ni təsdiqləyir. Poemada Nizaminin hisslərinin səmimiliyi, ifadə tərzi, fikir və mülahizələrinin sadə və anlaşıqlı dildə yazılması əsərə yüksək estetik-bədii məziyyətlər qatır.

N.Gəncəli hökmdar qarşısında Nizaminin həyəcanlarını, şairin ürək titrəmələrini ifadə edən pafosun tərifə ehtiyacı olmadığı qənaətinə gəlir. Bu mənada poema müəllifi əsərin ruhuna hopdurduğu dövranın məşəqqətlərini hökmdar özbaşınalığında, şair iztirablarında görür, bu qarşıdurmada arzusu baş tutmayan şairin qəlb yanğısı duyulur.

Nizami obrazının yaradıldığı "Şairin yuxusu" ilə "Şairin arzusu" poemalarının oxşar struktur xüsusiyyətləri olduğu kimi, fərdi, fərqli cəhətləri də vardır. Belə ki, bu iki peoamaya müqayisə zəminində yanaşsaq, qənaət formalaşar ki, Nizaminin "yuxu"su "arzu"larının əlçatmaz olduğu ictimai mühitin, hakim quruluşun gerçəklərini daha aydın təsəvvür etməyə imkan verir. Fərqli olaraq "Şairin arzusu" poemasında təbiət kultu daha qabarıq görünür. Belə qənaət formalaşır ki, təbiət təsvirləri qəhrəmanların xarakterinin, hadisələrin, müəllif fikrinin başa düşülməsində mühüm rol oynayır. Müəllifin yüksək yaradıcı təfəkkürünün nəticəsidir ki, təbiəti

insanın fövqündə təsvir etməklə əsərin fəlsəfi mahiyyətini artırır. Yüksək estetik-bədii dəyərə malik olan hər iki poema intibah dövrünün nəhəng siması olan Nizami Gəncəvi sənəti və şəxsiyyətinə ucaldılmış möhtəşəm abidə məqamındadır. Poemanın estetik-bədii yükü təbiətdən gəlir fikrini təsdiq üçün akademik Məmmədcəfər Cəfərovun "Estetik zövq" adlı məqaləsindəki fikrə nəzər salaq: *"Estetik gözəlliklərin tükənməz mənbələrindən biri təbiətdir. İnsanın təbiətdən aldığı zövq sonsuz, nəhayətsizdir. Təbiət insan üçün həm müəllim, həm sağlamlıq, həm də tükənməz estetik zövq mənbəyidir"* [26, s.13].

Orta əsrlər ədəbi-estetik, bədii-fəlsəfi fikir tariximizin görkəmli siması olan, həyatı və fəaliyyəti daha çox əfsanələr içərisində gizlənərək günümüzə gəlib çatan İmadəddin Nəsimi irsi və şəxsiyyətinə müraciətlə çoxsaylı tarixi mövzulu poemalar qələmə alınmışdır. Nəsimi şəxsiyyəti və irsinə ölkə səviyyəsində də daim diqqət və qayğı olmuş, ölkə Prezidenti 15 noyabr 2018-ci ildə Nəsiminin 650 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamış, 2019-cu il "Nəsimi ili" elan olunmuşdur. Sərəncamda Azərbaycanın böyük şairi, ustad Nəsiminin poetik irsi belə xarekterizə olunur: *"İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir"* [145]. Artıq altı yüz ildən çoxdur ki, *"Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin adı Yaxın Şərqdə mərdlik, fədakarlıq və iradə rəmzi kimi hörmətlə çəkilir, məsləki uğrunda dara çəkilib, dərisi soyulan, son nəfəsində belə öz sözündən dönməyən bu mərd insanın faciəli ölümü şairlərin şeirində, aşıqların sazında tərənnüm edilir"* [24, s.3]. Azərbaycan və dünya ədəbiyyatında öz fəlsəfi dünyagörüşü və yaradıcılığı ilə ölməzlik zirvəsinə ucalmış Nəsimi inandırırdı ki, həqiqətə gedən yol Yaradana məhəbbətdən başlayır, dünyada yalnız bir əbədi varlıq – Allah mövcuddur, bütün yerdə qalanlar isə məkan və zamana sığan müvəqqəti və ötəri (fani) varlıqdır. "*Yalnız Allah məkan və zamandan kənardır. O, məkan və zamana sığa bilməz, çünki onların yaradıcısı O özüdür. Dünyada mövcud olan bütün varlıqlar Allahın yer üzündə təzahürü, Onun varlığının zahiri sübutudur"* [130, s.115]. Şair-mütəfəkkirə həsr olunmuş tarixi poemalarda şairin xələflərini Nəsiminin

bədii surətini yaratmağa sövq edən əsas amil, bir tərəfdən onun dərin və sarsılmaz inamı, gələcək nəsillər üçün işıqlı ideal sahibi olmasıdırsa, digər tərəfdən öz həqiqətini və təriqətini yalnız poeziyasının gücü ilə deyil, həm də bəşəriyyət üçün seçdiyi yoldan əsla dönməzliyi, insanlığa nümunə olabiləcək cəsarətli ölümü olmuşdur.

Nəsimi obrazının yaradıldığı, öz poetik səciyyəsi, ideya-bədii xüsusiyyətləri ilə diqqəti cəlb edən əsərlər içərisində Qabilin "Nəsimi", Rəsul Rzanın "Son gecə", Nəbi Xəzrinin "Mənim babam baxan dağlar", Musa Yaqubun "Şirvan alverçisi və Nəsimi", Ələkbər Salahzadənin "Od heykəli" poemaları fərqlənir.

Rəsul Rza həm ədəbi-publisistik yaradıcılığında, həm də 1973-1974-cü illərdə sərbəst şeir tərzində qələmə aldığı "Son gecə" poemasında Nəsimidən bəhs etmiş, onun obrazını [100] yaratmışdır. Poemanın əvvəlində bir neçə bənddən ibarət olan və Suriyanın Hələb şəhərinin görkəmini, vaxtilə Nəsiminin həbsdə qaldığı qalanı, uyuduğu məzarı təsvir edən hissədən sonra R.Rza qoca tarixlə həmsöhbət olur. Təsvir olunan gecənin – Nəsiminin əbədiyyətə qovuşacağı gecənin bütün ağrılı anlarını canlandıraraq, qəlbən onun düşüncələrinin mahiyyətinə varır. Poemada tarixi hadisələrin, mütəfəkkir şairin son dəqiqələrinin epik məcrası başlayır. R.Rza şeirinin forma xüsusiyyətləri, onun quruluşu, vəzn və qafiyə sistemi əsərdə fərqli üslubda özünü göstərir. Digər əsərlərində olduğu kimi, "Son gecə"də də *"...sərbəst şeirdə mövcud olan daxili ahəng fikir və məzmunun yaratdığı ahəng şəklində meydana çıxır"* [2, s.173].

Poema müəllifi "ət yeyib, qan içib xumarlanan yırtıcıya" bənzətdiyi qalanı gözdən keçirir, əsrlər boyu "nəsil-nəsil insan səsinin susdurulduğu" bu məhbəsdə, bu daş qəfəsdə Nəsiminin son gecəsini, onun xəyalən vətəninə gəlişini, Bakı, Şirvan, Naxçıvan, Təbrizlə görüşü, dostları, yaxınları yad etməsi poemada lirik-psixoloji ovqatda təsvir olunur:

*Şirvanın yastı yolları.*
*Su daşdı, basdı yolları.*
*Vətən uzaq, ömür qısa,*
*Cəlladlar kəsdi yolları* [107, s.120].

R.Rza poemada dustaq Nəsimi ilə gözətçi qoca Nicat arasında gedən söhbət-dialoqu təxəyyülündə canlandırır. Qoca Nicat şam gətirir, qərib şair "Ağrımaz" rədifli son şeirinin incikli sətirlərini kağıza düzür. Qocanın: "*Ya şeyx, niyə tövbə etmədin*? [107, s.125] sualına Nəsiminin kəskin cavabı onun öz idrakından heç bir şərtlə dönməyəcəyini bildirir. Hətta öldürüləcəyini yəqin bilən şair son anında öz təriqətini yaymaqda davam edir, onun cavabı qoca Nicatı qəflət yuxusundan ayıldır, o, Nəsiminin dediklərinə bir həqiqət kimi inanmağa başlayır:

"Qoca!

*Böyük həqiqətə,*
*doğru sözümə*
*tövbə deyimmi?..*
*İndi bir can üçün*
*dediklərimdən dönüb*
*tövbə edimmi?*" [107, s.126]

Belə olduqda gözətçi qoca Nicat Nəsimini azad etməyin başqa yolunu düşünür, onu məhbəsdən gizlicə qaçırmaq istəyir:

*"Al gey mənim libasımı!*
*Çıx zindandan...*
*Bu da açar!*
*Qala xəndəyi yanında*
*səni gözləyir dostlar.*
*Sabah, ölüm səhərində*
*məni görərlər*
*sənin yerində"* [107, s.129]

Nəsimi müqabildə "*Ölümdən qorxmayanın bu tədbirə nə ehtiyacı?",* deyir. R.Rza Nəsiminin həyatının son gecəsini qələmə almaqla, həm də şair-mütəfəkkirin ağlasığmaz fədakarlığını inandırıcı şəkildə təqdim etməyə müvəffəq olmuşdur bu misralarla – *"Həqiqət ölümə baş əyməyib, əyməyəcək*!". R.Rza "Son gecə" poemasında Nəsimi şəxsiyyətinin və yaradıcılığının başlıca xüsusiyyətlərini,

mahiyyətini dərindən hiss etmiş və yüksək poetik ümumiləşdirmələrlə şəxsiyyəti bütöv halına sala bilmişdir.

Yaradıcılığında poema janrının əsas yer tutduğu, qələmə aldığı *“poemaların bu janrın imkanlarını genişləndirən və ədəbiyyatımıza yeni poema strukturu və janrları gətirən”* [146] Nəbi Xəzri 1976-cı ildə ulu Nəsimi ilə söhbət şəklində “*Mənim babam baxan dağlar” poemasını* [87, s.9] yazmışdır. Poemada təkcə xələf şairin öz sələfi ilə deyil, eyni zamanda XX yüzillikdə inkişaf yoluna qədəm qoymuş Azərbaycanın öz böyük oğlu Nəsimi ilə “görüşünün” poetik təsviri qələmə alınır, Nəsimi yaradıcılığı XX əsr təfəkküründə qiymətləndirilir.

Nəsimini Günəşə bənzədən müəllif qürbətin acı nisgilini, qəmini, kədərini özünəməxsus poetik duyumla ifadə edərək işığa həsrət hücrədə divarların qaranlıq qucağında qərq olduğunu, Nəsiminin - Günəşin zülmət hücrədə yuxuladığını, onun nurunun hələ də Azərbaycan torpağında olduğunu təsdiqləyir.

Ayrı-ayrı sətirlər orta əsrlər dövrü Azərbaycanın üzləşdiyi dağıntı və əzabların bütün dəhşətini hiss etməyə, xüsusilə XIV-XV yüzilliklərdə xalqımızın xarici işğalçıların basqınlarına fasiləsiz məruz qalması, bütün bunlara Nəsiminin münasibəti müqabilində başına gətirilənləri anlamağa yönəlmişdir. Nəsiminin doğma xalqı qarşısında başlıca xidmətlərindən biri də ondan ibarətdir ki, o ilk dəfə olaraq çox sevdiyi Azərbaycan dilində əsl poeziyanın mükəmməl incilərini yaratmış, Azərbaycan ədəbi dilinin əsasını qoymuş, əksər əsərlərini doğma dildə qələmə almışdır. Əlamətdar haldır ki, üsyankar şairin uğrunda mübarizə apardığı amallar həyatda öz təsdiqini tapmış, çox arzuları həqiqətə çevrilmişdir.

On üç hissədən ibarət olan poemanın 7-ci hissəsində ulu Nəsiminin son anında baxdığı dağlara N.Xəzri baxır, bu dağlarda əsrin qəmi, faciəsi əks olunur, qərinələr keçsə də, onlar uca şahid kimi məğrur dayanıb, gündüzlər günəşi ilə, gecələr ay və ulduzları ilə şairin ölməzliyini bugünkü nəsillərə çatdırır. Nəsiminin son günlərinin, dəhşətli qətlinin bu gün yeganə canlı şahidi olan dağlar poema müəllifi tərəfindən sorğuya çəkilir, ittiham olunur, eyni zamanda bu dağlar göylərin, yerlərin sirrinin daşıyıcıları kimi tərənnüm edilir.

Nəsimi və Hələb şəhəri arasında əlaqə qurmağa çalışan müəllifə tarixi gerçəklik kömək edir. Tarixdən məlumdur ki, 1394-cü ildə Fəzlullah Nəiminin Əlincə qalasında qətlindən sonra hürufi tərəfdarlarına qarşı amansız təqiblər başladıqda Nəsimi də doğma vətəni tərk edib Türkiyəyə üz tutmuş, onun bir çox şəhərlərini dolaşdıqdan sonra İraqda, Suriyada, digər ərəb ölkələrində təriqətlərini yaymaqda davam etmiş, dövrün tanınmış şairləri, alimləri və sadə insanları ilə görüşmüşdür. Nəsimi qəzəlini xalq arasında səsləndirən, özünü əsərin müəllifi kimi qələmə verən və asılmasına qərar verilən gənci xilas etmək naminə üzə çıxan şair Hələb şəhərində amansızcasına edam olunmuşdur. Xələfinin bu cəsur addımını əsas götürən N.Xəzri haqlı olaraq:

*Axı sənin nə günahın,*
*O hökmüydü əsrin, Hələb!*
*O ölməzdir, sən ölməzsən!*
*Tarixlərdən gələn səssən,*
*Sən mənimçün müqəddəssən,*
*Göz üstədir yerin, Hələb!* [87, s.135]

qənaətinə gəlirdi.

Nəsiminin vətən həsrətini, sevgisini tərənnüm edən Musa Yaqubun *"Şirvan alverçisi və Nəsimi*" [121] poeması da ədəbi-bədii dəyəri ilə seçilir. M.Yaqub qısa poemada Nəsimi timsalında qürbətdə ömür sürüb, qürbətdə də vəfat edən didərgin şairlərimizə sanki ağı deyir. Poetik təxəyyülün gücü ilə Musa Yaqub Hələbdə Nəsimi ilə Şirvanlı ipək alverçisini görüşdürür ki, bu görüşdə əsrlərin nisgili, həsrəti, ağrısı, əzabı, vətənsizliyi dilə gəlir. Əksliklərdən böyük ideya, düşüncə hasil olan poemada Nəsiminin bəşəri duyğuları fonunda Şirvan alverçisinin miskin vəziyyəti rezonans yaradır:

*Şair vətən deyir,*
*ona can deyir,*
*Qoca hey alverdən,*
*qazancdan deyir.*
*Duymayır şairi, qoca duymayır,*

*O yanıb odlanır, qoca pul sayır* [121, s.292].

Qoca şairi "duymayınca" o, vətənin qoxusunu Şirvan torpağında bitən çiçəklərdən, güllərdən ərsəyə gəlmiş bir arşın ipək alıb köksünə sıxmaqla duyur.

Yaradıcılığında sərbəst şeirlərin mühüm yer tutduğu Ələkbər Salahzadənin sərbəst şeir formasında, 1969-cu ildə qələmə aldığı "Od heykəli" lirik-romantik poeması Nəsimi şəxsiyyətini yeni poetik obraz və fərqli ifadə vasitələri ilə kəşf etməyə yönəlmişdir. Müəllif Nəsiminin körpəliyindən başlayaraq qətlinədək keçən ömrünü poetikləşdirir, onu günəşə can atan varlıq kimi təsvir edir:

*...Günəş göyə qalxırdı,*
*O bir evdən çıxırdı.*
*Günəş*
*ona tellərini uzadırdı,*
*O – günəşə əllərini* [112, s.93].

Poemada "İnsan-Günəş" tandemini dəyərləndirən F.Abdurəhmanova *"Təbiət (dünya!) ilə özündə daxili böyüklük, fikir və arzu prosesini təcəssüm etdirən insan arasındakı bütövlüyün vəhdətini ifadə etməyi"* [3, s. 43] Ə.Salahzadə poeziyasının predmetini şərtləndirən əsas amil kimi qəbul edir.

9 kiçik parçadan ibarət olan poemada Ə.Salahzadənin özünəməxsusluğu əsasən assosiativlikdən bacarıqla istifadə etməklə Nəsimi obrazında yeni çalarlar kəşf etmək, öz yanaşmalarında söz və ifadələrə qeyri-adi məna verməkdə özünü göstərir:

*...Günəş yerdən,*
*uşaq evdən çıxmışdı,*
*baş-başa gəlmişdilər.*

yaxud:

*Günəşin telləri*
*üz gözünə saçılmışdı,*
*uşaq*
*gözləri ilə*
*günəşə açılmışdı.*
*Qaynayıb qarışdı günəşlə uşaq*! [112, s. 94-95]

Poetik mətndə Nəsiminin Günəşlə müqayisəsi müəllifin öz lirik qəhrəmanını dünya ilə əlaqədə göstərmək istəyindən irəli gəlir. Bu münasibətdə başlıca məqsəd qaranlıq, zülmət gecədən sonra cahanı işıqlandıran Günəş kimi, Nəsiminin də insanı kamillik nuruna qərq etmək istəyini göstərməkdir. Şeriyyətinin məna yükü, poetik təsiri ilə fərqlənən Ə.Salahzadə əsərdə Nəsiminin Nəsimi zirvəsinə ucalmasını poetik dildə vermişdir:

*Gedirəm yol kimi,*
*uçuram yel kimi –*
*çatmıram!*
*Gedirəm sel kimi, çay kimi,*
*səhrada qalıram –*
*çatmıram*! [112, s.99-100]

Poemanın ən təsirli yeri Hələb şəhərinin bir meydanında "qayadan qopan, qayadan çapılan bir insan-heykəlin" ətrafında "əli, ürəyi, gözü bıçaqlı", "ülgüc baxışlı", "qızıl qanla meydan sulayan cəlladın" bu heykəli diri-diri soyması səhnəsidir. Metafora və təşbehdən istifadə edən müəllif meydanda baş verənləri belə canlandırır:

*Cəlladın gözündə*
*bir kafir, bir qərib, bir yad soyulur.*
*Qızarır, alışır, yanır bir bədən,*
*torpaqdan püskürmüş bir od soyulur,*
*Soyulur, soyulur bir od heykəli,*
*odlu gözlərində səssiz ildırım,*
*təpədən-dırnağa heykəl, sıldırım*! [112, s.104-105]

Ə.Salahzadə əsər boyu romantik pafos yaratmaq məqsədi ilə əfsanə və nağıl motivləri ilə həyat reallıqları arasında vəhdət yaradır. İnsanın heykəlləşməsi, heykəlin isə canlanaraq sıyrılıb qalxması əslində Nəsiminin ölməzliyinin təcəssümü kimi dərk olunur və hər bir reallıqda əfsanənin və əfsanədə isə reallığın iştirakı labüdləşir.

Xalq şairi Qabilin 5 aprel 1964 – 10 may 1973-cü illər ərzində çoxşaxəli və mürəkkəb yaradıcılıq axtarışları nəticəsində yazdığı "Nəsimi" poeması təkcə

mütəfəkkir şairə həsr edilmiş bədii nümunələr içərisində deyil, bütövlükdə Azərbaycan ədəbiyyatında ən dəyərli əsərlərdən biridir. Ədəbiyyatşünas Vaqif Yusiflinin qənaətinə görə, ədəbiyyatımızda *“Nəsimi obrazını ən dolğun şəkildə, özü də lirik-epik planda Qabil yaratmışdır”* [126]. Əsər 1976-cı ildə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür.

Poema üç hissədən ibarətdir. Birinci hissə 1970, ikinci hissə 1972, sonuncu hissə 1974-cü ildə “Gənclik” nəşriyyatında işıq üzü görmüş, tam şəkildə isə 1980-ci ildə “Yazıçı” nəşriyyatında çap edilmişdir. *“Nəsimi ömrünün bədii salnaməsini qələmə alan müəllif onu doğma xalqının həyatı, mədəniyyəti və azadlıq uğrundakı mübarizəsiylə bağlı götürmüş, şairin dövrünü, mühitini orta əsr Azərbaycanı və Şərq koloriti fonunda əlvan, canlı, dramatik lövhələrlə, inandırıcı epizodlarla göstərmişdir*” [73, s.4].

“Geniş oxucu kütləsinə müəllifin də poema kimi təqdim etdiyi əsərin sonradan əsaslı olaraq mənzum roman adlandırılmasına üstünlük verilmişdir” [44, s.60]. Akademik B.Nəbiyev bu xüsusda yazmışdır: *“Qabilin əvvəlcə poema kimi düşünülmüş “Nəsimi”si bu janrın hüdud və imkanlarını aşıb keçmiş, orijinal mənzum roman kimi ədəbiyyatımızın qiymətli nümunələri sırasına daxil olmuşdur. Əsəri xalq tarixinin ideoloji, siyasi və hərbi keşməkeşlərlə dolu olan çox mürəkkəb bir dövrünün mənəvi-əxlaqi problemlərini, rəngarəng insan xarakterlərini zəngin epik lövhələrdə, axar-baxarlı poetik bir dillə, ümumiləşdirmələr yolu ilə canlandırdığı üçün mən onu mənzum roman hesab edirəm”* [89, s.8]. Professor Tofiq Hacıyev isə əsərin dastana yaxınlığını qeyd etmişdir: *“Qabilin poeması dastançılıq cizgiləri ilə dolğunlaşır və Qabilin Nəsimisi qəhrəmanlıq dastanının obrazıdır, poema dastan epikliyi ilə səciyyələnir”* [147].

Əlbəttə, əsərdə çoxşaxəli süjet xəttinin, mürəkkəb kompozisiya quruluşunun, zəngin tarixi, ictimai və siyasi hadisələrin varlığı, müxtəlif insan xarakterlərinin və talelərinin fərqli həyat və amal məqamlarında təsviri onun məhz mənzum roman janrında yazıldığını, yaxud dastan strukturunda qurulduğu fikirlərini doğurur.

Əsər Azərbaycan ədəbiyyatşünaslığında böyük ədəbi hadisə kimi qarşılanmışdır. Ə.Məmmədovun da təsdiqlədiyi kimi, M.Cəfər, B.Nəbiyev, B.Vahabzadə,

N.Xəzri, Anar, Elçin və bir çox digər alim, şair və ziyalılarımız "Nəsimi" poemasının əhəmiyyətindən, Qabil təxəyyülündən, onun daxili aləmindəki mərdlik, bahadırlıq pafosu və ölməzlik əzminin ştrixlərindən və bir çox məziyyətlərindən danışaraq onun bizdə öz keçmişimizə, ümumən ədəbiyyatımıza, xalqımızın qəhrəmanlığına, azadlıq uğrunda apardığı mübarizəyə dərin bir məhəbbət oyatdığını vurğulamışlar [83].

Nəsiminin bədii obrazının yaradıldığı bu irihəcmli əsərdə hadisələrin xronoloji ardıcıllığını saxlamaq, baş verənləri inandırıcı və əyani şəkildə təqdim etmək, dövrün psixologiyasını düzgün çatdırmaq, oxucuları hadisələrin iştirakçısına və şairin həmsöhbətinə çevirmək məqsədilə müəllif adından təqdim olunan başlıqlar istisna olmaqla, bütövlükdə nəqlolunma bilavasitə Nəsiminin öz dilindən aparılır, bu da onun bədii təsir gücünü artırır və "*Qabil də nəsimiləşir*" [126].

Poemada xüsusi məzmun ardıcıllığı ilə xarakterizə olunan vahid süjet xətti var, həm də əsər boyu süjetin inkişafına nail olmaq üçün başlıqlar sətir ötürmə şəklində bir-birilə əlaqələndirilir, yəni məzmun etibarı ilə əvvəlki başlıqdakı müəyyən misralar növbəti bölümün adlandırılmasına və hadisələrin ardıcıllığına rəvac verir və vahid süjet xəttinin dinamikasına nail olunur. Əsərin ilk misralarından müəllif Nəsimini olduğu kimi təqdim etməyə üstünlük verir. Nəsimi görüşünə gəlmiş xələfinə:

*...Mən kiməm ki, kim?*
*Nəkarəyəm özüm, nəçidir şeirim*
*Babam Nizaminin yanında, oğlum?!*
*Nəvəm Füzulinin yanında, oğlum?!*
*Günəşmi söyləyim, aymı onlara?..*
*Onların kəlamı dillərdə gəzər*
*"Xəmsə"si, divanı əllərdə gəzər.*
*Bəs məndən nə qalıb sizə yadigar?..*
*Məni nə həvəslə salmısan yada,*
*Məni xatırladan nə var dünyada?* [73, s.8]

– deyə üz tutur.

Poemanın bölmələrində Nəsimi qəzəllərindən istifadə olunması Qabilin estetik-bədii təfəkkürünün zənginliyindən xəbər verir. Şamaxıdan Bakıya, Bakıdan Təbrizə,

Təbrizdən Konyaya, Konyadan Ağ saraya, Ağ saraydan Bağdada, Bağdaddan Hələbə gedilən yolda Nəsiminin əqidə mübarizəsinin geniş mahiyyəti çoxsaylı orta əsr mənbələrində, təzkirələrində olduğu kimi verilsə də, sənətkarın obrazyaratma məharəti, təxəyyül genişliyi öz sözünü deyir.

Müəllif şeirimizin ən müxtəlif ölçülərindən – heca və əruz vəznlərindən, xalq şeirinin, aşıq poeziyasının geniş növlərindən bacarıqla istifadə edərək əsərdə maraqlı obrazlar sistemi yaratmışdır. Şair-ədəbiyyatşünas Xəlil Rza "Nəsimi" poemasının heca və əruz vəznlərində yazıldığını, "*müxtəlif ölçü, bölgü və bəhrlərdən*" [106] ustalıqla istifadəni yüksək qiymətləndirmişdir. Əsər boyu Qabil Nəsimi obrazını dövrünün real tarixi simalarının görüş və fikirləri fonunda təsvir etmişdir. Əsərin bu məziyyətini qabardan Əliağa Kürçaylı Qabilin "Nəsimi" əsərini "talelər poeması" [65] adlandırır.

Qabil əsərin I hissəsini əsasən İmadəddinin Şamaxı həyatına, "Ənəlhəqq" adlanan bölümdə Fəzlullah Nəimi ilə ilk tanışlığına həsr etmişdir. Ustada o "şair" kimi təqdim olunur:

*Gəldi, qənşərimdə durdu müəllim,*
*Döndü Fəzlullaha, güldü xəfifcə.*
*– Mənim şair balam – İmadəddinim! –*
*Qürurla səsləndi bu sözlər necə.*
*Hüseynidir təxəllüsü cavanımın,*
*Xaqanisi zühur edib Şirvanımın!* [73, s.43]

Bu görüşün sonunda Nəimi Nəsimiyə hürufizmin gələcəyini tapşıraraq deyir:

*Səninlə qovuşur əbədiyyətə,*
*Səndə sabahını görür Nəimi.*
*Bahar nəsimi saç küllü xilqətə,*
*Bu gündən çağrılsın adın Nəsimi!* [73, s.50]

Əsərdə "Həndəvər", "Cavidannamə", "Ehkamçı", "Balıqçı nəğmələri", "Atəşpərəst", "Bəzirganlar", "Xanəgah" və digər başlıqlarda Nəsiminin qəzəllərindən də istifadə etməklə müəllif bütün canlıların ən yüksəyi, külli kainatın döyünən ürəyi

hesab olunan şairin idrakının mahiyyətini, gücünü inandırıcı şəkildə təsvir edir. Nəiminin Əlincə qalasında qətlindən sonra Nəsimi Təbrizə üz tutur.

Əsərin II hissəsində müəllif qəhrəmanını insanlarla daha çox ünsiyyətdə təsvir etməklə hürufi düşüncədəki ideaila həyatdakı real olan arasındakı sanki uçurumu göstərir, hardasa Nəsiminin faciəli şəkildə öldürülməsinə zəmin hazırlayır. Poemada Nəsimi haqqında olan mənbələrdəki fərqli fikirlərdən də süjetin inkişafı naminə bəhrələnən müəllif qaynaqlarda birmənalı şəkildə təsdiqini tapmayan Nəiminin qızı Fatimə və onun nişanlısı Cavid obrazlarına da yer ayırır, papaqçılığın hürufilər arasındakı şərti simvolikasına özünəməxsus yozum verir.

Kəlamı üsyanla dolu, beytinin mənası dərin olan Nəsimi hürufilərin təzə peyğəmbərinə çevrilir, Nəiminin qətlilə ağlayan gözlər Nəsimi vəsliylə çağlamağa başlayır. Təbrizdə Qazi Nurullahın fitvasıyla hürufilər təqib olunur.

Qabil Nəsimi yaradıcılığını və onun vəhdəti-vücud, hüsni-mütləq fəlsəfəsini Konyada, Ağ sarayda, Bağdadda, Hələbdə geniş xalq kütləsi axarında təsvir edir. Eyni zamanda Əli ül-Əla ilə Nəsiminin görüşündə Allahın, ilahi gözəlin, "kamil insan" konsepsiyasının mahiyyətinə varılır. Nəsiminin təbirincə, həqiqəti, Allahın varlığını dərk etməyən kim olursa olsun, hansı mövqeni tutursa tutsun, o heç vaxt məqsədə nail ola bilməz. Qabil bu müdrik fəlsəfənin ədəbi qəhrəmanla ünsiyyətdə olan müxtəlif zümrə nümayəndələrinə necə sirayət etdiyini, onların həmməsləkə çevrildiklərini, seçdikləri yoldan dönməzliyini inandıcı şəkildə təsvir etmişdir.

Əsərin "Qaraman", "Ozanlar", "Şirvanlı Murad", "Zəhra", "Ağ saray", "Çisr-Müseyib" və digər başlıqları qəhrəmanın Bağdad dövrü fəaliyyətinin detallarını ortaya qoyur. Nəsimi Bağdad dövrü fəaliyyətində amallarını belə ifadə edir:

*Mənəm insan, mənəm allah,*
*Etiqadım, inamım haqq.*
*Cahan Tur dağı, mən agah,*
*Sən də agah ol, Qaraman.*
*Mən Nəsimi Şirvaniyəm*
*Ruhun yüksək məqamiyəm*
*Bu məqamın... məramiyəm.*

*Tanış olaq, gəl Qaraman!* [73, s.258-259]

Müəllif xalq yaddaşında kultlaşmış inamlar vasitəsi ilə Nəsiminin Bağdada gəlişinin uğursuz olacağını detallarla bədii mətndə mənalandırır. Bağdada sarı könülsüz uçan durnaların səfinin pozulması, onların qanad saxlamaları, göz yaşı tökmələri, havanın çiskinə, dumana bürünməsi detalları bu qəbildəndir.

Lakin tarixi qaynaqlardan da məlum olduğu kimi, Nəsiminin Bağdada getməsi həm tarixi zərurət, həm də Nəsimi dönməzliyinin təzahürü idi. Xalq yazıçısı, professor Elçin Əfəndiyevin "*tiplər və xarakterlər poeması"* [45, s.539] adlandırdığı Qabilin "Nəsimi" poemasında ədəbi obraz kimi şairin dini-fəlsəfi, bəşəri, humanist yaradıcılığının və dünyagörüşünün mahiyyəti bütün əsər boyu mənalandırılır, bu məziyyət müəllif tərəfindən ozan Gümrahla ozan Əmrahın deyişməsində sonuncunun dilindən daha obrazlı ifadə olunur:

*– Nəsimidir – zərrə-ümman vəhdəti,*
*Nəsimidir – nəsim-tufan vəhdəti,*
*Nəsimidir – piri-cavan vəhdəti,*
*Nəsimidir – allah-insan vəhdəti,*
*Sualının cavabını al görək!* [73, s.266]

Ozanların deyişməsində Nəsimi obrazı "sözünün əvvəl-axırı "ənəlhəqq", "həm allah, həm insan" olan, özündə "aləmin sirrini agah" görən, lakin heç də ilahiləşdirilməyən real şəxs kimi dəyərləndirilir. Poemada müəllif təxəyyülünün gücünə yaradılan epizodlar da vardır. Şirvanlı Muradla tanışlıq, onun qızı Zəhra ilə vüsala qovuşduqdan sonra Muradın xeyir-duası ilə Nəsiminin Zəhra ilə birlikdə Şamaxıya qayıtması təxəyyülün tarixə müdaxiləsi olsa da, Qabil bu səhnələri inandırıcı təsvir edə bilmişdir. Ancaq Bağdaddan gələn bir xəbər – hürufi təlimiylə qanadlanan Fədanın burda qiyam qaldıraraq ələ keçməsi – Şamaxı karvanını Bağdada yönəldir. Nəsimi çarə tapmaq, Fədanı xilas etmək üçün tədbir düşünür, Qaraqoyunlu Qara Yusifinköməyinə ümid bağlayır. Onunla görüşə gedərkən Nəsimi diri-diri basdırılıb daşqalaqla öldürülməli olan bir qadını xilas edir və Qara Yusifdən səngər cəzasını ləğv etməsini xahiş edir:

*Əmir dedi: – Xahişin rəsmləşər bu saat.*
*"Nəsimi əfvi" kimi ağızda-dildə gəzər,*
*Canına, vicdanına dua edər camaat,*
*Qorxulu nağıllarda qalar ancaq səngər...* [73, s.346]

Fədanın azad olunması üçün Qara Yusifin əmrilə Hələbə məktub yazılır, lakin qazi onları qabaqlayaraq Hələb müftisinə gizlincə məktubunda:

*Nəsimi başçısıdır bütün hürufilərin.*
*Gəliniz məktubda da Nəsimidən danışaq,*
*Onun müqabilində Fəda-gəda oyuncaq.*
*Fəda bir dam içində bir danə olsun gərək* – [73, s.350]

deyə xəbərdarlıq edir. Qazi məktubunda Nəsiminin Şirvandan Bağdadacan dünyanı qarışdırdığını, ondan qurtarmağın yollarını bildirir.

Nəsiminin əbədiyaşarlığını vurğulamaq məqsədilə Qabil "Mədaində son gecə" adlı başlıqda "ədalət toxumunu allahdan alıb dünyaya səpən" Ənuşirəvanın, "insanlara igidlik bəxş edən" Nemanın, "dilində "yox" kəlməsi olmayan, səxavətilə fərqlənən Pərvizin səslərini ucaldır, o bağdan, o gücdən, o əliaçıqlıqdan əsər-əlamət qalmadığını, onların tarixdə yalnız adlarının qaldığını hesab edənlərin yanıldıqlarını bəyan edir, seçilmiş insanların öz əməllərilə daim ucaldıqlarını və əsrlər boyu yaşayacaqlarını təsdiqləyir, Nəsimini də onların arasında görür.

Müəllif burda o yanaşmanı əsas götürür ki, ağıllı adamlar əməlləri ilə həqiqəti dərk etməyə çalışır və ona nail olduqda öz əbədiyyətlərini təmin edirlər. Nəsimi də əqidəsində dönməzlik nümayiş etdirərək əbədiyyətə qovuşmuş, ölməzlik qazanmışdır. Qabil zaman-zaman təsdiqləyir ki, Nəsimi bu əzab yolunu bilərəkdən seçərək taleyi ilə barışmış, Allaha olan məhəbbətinə – öz nəsibinə qovuşmuşdur. Elə buna görə də Zəkəriyyə meydanında edam edilmək üçün həbs olunmuş insanların xilası naminə irəli çıxan şair etiraf edərək özünü ələ verir:

*İmadəddin Nəsimi Şirvani mənəm, baxın!*
*Bu günahsız, bu sadiq insanları buraxın.*
*Onlar mənim şeirimlə vəcdə gəliblər ancaq,*
*Hər adamın işimi böylə dastan bağlamaq?*

*Ənəlhəq şüarıyla iqlimlər aşmışam mən,*
*Ənəlhəq vüqarıyla ellər dolaşmışam mən.*
*"Həqbin" mənim kəlamım, mən – allah, allah da mən,*
*Cəlladlar! Əl götürün siz bu mərdanələrdən* [73, s.381].

Sonda Nəsimi iki "günaha" görə – "bəni-insanı ərşi-əlaya qaldırdığına" və "dinə asi kəsildiyinə" görə edam olunur.

Hürufi poeziyasının, eyni zamanda hürufizm fəlsəfi hərəkatının liderlərindən olan Nəsimi hikmətindən ilham alan Qabil əsərdə şairin bədii obrazını onun insan azadlığı, amalları uğrunda çəkdiyi cəfanı bütün dramatikliyi ilə oxucuya çatdıra bilmiş, dilimizin ədəbi-bədii vasitələrindən bacarıqla istifadə etməklə poetik abidə-obraz ucaltmışdır.

Azərbaycan ədəbiyyatında poema janrının spesifik tarixi inkişaf yolu olmuş, "Xaqani Şirvaninin "Töhfətül-İraqeyn" poeması ilə başlanan bu janr Nizami, Fizuli epoxasını yaşamış, XX yüzilliyin 20-30-cu illərindən etibarən daha geniş yayılmış və daha sürətlə inkişaf etmişdir" [116, s.119]. Ötən dövr ərzində *"Nadir şəxsiyyətin və ya nadir hadisənin yüksək pafosla tərənnümünə həsr olunan poemanın*" [96, s.135] ədəbiyyatımızda müxtəlif nümunələri yaradılmışdır.

Rəsul Rzanın "Füzuli" (1958), "Uzaq yollardan gələn" (1958), Bəxtiyar Vahabzadənin "Şəbi hicran" (1959), Mirmehdi Seyidzadənin "Şairin gəncliyi" kimi dahi şair Məhəmməd Füzuliyə həsr olunan poetik nümunələr, Qabilin "Nəsimi", Söhrab Tahirin "Karvan gedir", Musa Yaqubun "Şirvan alverçisi və Nəsimi", Şah İsmayıl Xətaiyə həsr olunan Eldar Baxışın "Çaldıran döyüşü" kimi bu səpkili poemaları orta əsr görkəmli ədəbi şəxsiyyətlərinə həsr olunan maraqlı bədii nümunə kimi ədəbi yaddaş hadisəsinə çevrilə bilmişdir. Düzdür, say, xronologiya etibarilə yanaşsaq orta əsr şəxsiyyətlərinə həsr olunmuş çoxsaylı poemalardan bəhs etmək olar, amma tədqiqatımızda, əsasən ədəbi-tənqidin, ədəbiyyatşünaslığın yüksək dəyər verdiyi, oxucu yaddaşında qalan, ictimai-ədəbi fikir hadisəsinə çevrilən əsərlərin təhlil və tədqiqinə daha çox yer verəcəyik.

Klassik ədəbi irsin öyrənilməsi, təbliği, yaşadılmasının bir vasitəsi də klassiklərimizin həyatı və fəaliyyətinin bədii planda işlənməsidir. Klassik irsə,

yaddaşa qayıdışın vacibliyini vurğulayan ədəbiyyatşünas Yaşar Qarayev yazır ki, *"...Yalnız yaddaş olan yerdə tamlıq var, əsrlər və nəsillər arasında bağlılıq var"* [74, s.7]. Əlbəttə, bu bağların öyrənilib tədqiq edilməsi bir tərəfdən ədəbi şəxsiyyətlərimizin müasir dövrdə daha yaxından və daha dolğun tanıdılmasına xidmət edirsə, digər tərəfdən onların parlaq obrazını yaratmış görkəmli sənətkarlarımızın yaradıcılıq xüsusiyyətlərinin dəyərləndirilməsi məqsədini güdür.

Digər əhəmiyyət kəsb edən məsələ isə odur ki, *"Klassik irsə üztutmalar əsrlər öncə olduğu kimi davam etməkdədir, ancaq bu köklər və budaqlar bağlantısı xeyli yeni şəkillər qazanmış, başqalaşmışdır"* [37, s.5]. Yəni klassik irsə münasibətdə yeni faktların ortaya qoyulması ilə yanaşı, klassiklərimizə sovet dönəmində formalaşdırılan ideoloji yanaşmalar da milli dövlətçilik konsepsiyası çərçivəsində yenidən dəyərləndirilməlidir. Ötən əsrin ortalarından başlayaraq geniş şəkil alan tarixi poemalarda ədəbi şəxsiyyətlərin canlandırılması ənənə halını almışdır. Bu dövr ərzində xalqımızın mənəvi dəyərlərinin, böyük ədəbi şəxsiyyətlərinin zəngin ədəbi-bədii irsinin dərindən öyrənilib dəyərləndirilməsi ciddi şəkildə qarşıya qoyulmuş, ayrı-ayrı klassik Azərbaycan şairlərinin şəxsiyyəti və yaradıcılığı, onların ümumbəşəri humanist ideyaları və amalları haqqında müxtəlif səpkidə və məzmunda tarixi poemalar yazılmışdır.

Görkəmli Azərbaycan şairi, mütəfəkkiri Məhəmməd Füzuli irsi uzun əsrlər boyu nəinki Azərbaycan dünya poeziyasının əvəzsiz xəzinəsi kimi ədəbi prosesə öz təsirini göstərmişdir. Füzuli sənətkarlığı çoxsaylı elmi tədqiqatlara mövzu olduğu, nəsillərin bəhrələndiyi dəyərli mənbə olduğu kimi, qüdrətli sənətkar irsinin qorunması, yaşadılması, təbliği istiqamətində əhəmiyyətli addımlardan biri də Füzuli obrazının yaradıldığı bədii nümunələrdə görkəmli sənətkarın həyatı və yaradıcılığının daha geniş dairədə tanıdılmasıdır. Bu mənada Füzuli obrazının yaradıldığı, Füzuliyə həsr olunan çoxsaylı roman, povest, poema, şeir nümunələri vardır. Dahi sənətkarın mükəmməl obrazının yaradıldığı Oqtay Salamzadənin "Sevgi iztirabı" romanı bədii söz sənətində Füzuliyə ucaldılan möhtəşəm abidə olduğu kimi, tarixi mövzulu poemalarda da şairin ömür və sənət yolununun tarixi-bədii reallıqlar müstəvisində izlənilməsi də ədəbi fikir tariximizi zənginləşdirmişdir. Belə ki, uzunmüddətli

təcrübəsi formalaşmış tarixi poemalar içərisində Füzuliyə həsr olunmuş Xalq şairi Rəsul Rzanın “Uzaq yollardan gələn”, “Füzuli”, şair-ədəbiyyatşünas Rafiq Yusifoğlunun “Qəm karvanı” kimi poemaları öz estetik-bədii dəyəri, ideyası, işlənmə dərəcəsi, Füzuli sənətini bədii müstəvidə qiymətləndirməsi, dili, üslubi özəllikləri ilə diqqətəlayiq bədii nümunələr kimi ədəbi yaddaşda qalmaqdadır. Rəsul Rzanın 1958-ci ildə qələmə aldığı “Uzaq yollardan gələn” poemasında konkret olaraq Füzulinin bədii obrazı olmasa da, şair öz təxəyyül dünyasında ölməz şairə müraciətlə həm sənətkarın yaşadığı dövrün, həm də əsərin yazıldığı dövrün bir sıra ictimai, sosial problemlərini söz müstəvisinə çıxarır. Poemanın axıcı dili, təsvir və ifadə vasitələrindən məharətlə istifadə olunması, sənətkarlıq məziyyətləri ilə yanaşı, zəngin xalq yaddaşından, Füzulinin yaradıcılığından mətn daxilində məharətlə bəhrələnilməsi əsərin müsbət bədii məziyyəti kimi qiymətləndirilməlidir. Füzuli sənətinə dərin ehtiramın ifadəsi olan poemada Bağdada gedən qoca yolçunun duyğu və düşüncələri poetik incəliklə tərənnüm olunur:

*Gedir qoca yolçu,*
*Ömrün günlərini*
*Zamanın ovcundan*
*Yollara tökə-tökə* [108, s.162]

Zamanın sərt sınaqlarının yollara, qürbətə saldığı söz mülkünün sultanının yorğunluğu zəmanədəndir, qürbət həsrətindəndir, üz tutduğu ilahi eşq yolunda çəkdiyi çilələrdir və Rəsul Rza yaradıcılığının “əzab nöqtəsi” olan anlaşılmazlığındandır. Müəllif poemada Füzuli yaradıcılığından bədii planda yaradıcı şəkildə bəhrələnməklə əsərin tarixiliyini şərtləndirdiyi kimi, estetik təsir gücünü də artırmış olur. Zamanla üz-üzə dayanan qoca yolçunun dilindən verilən şeirlər yüksək təsir gücü formalaşdırır:

*“Tutuşdu qəm oduna*
*Şad gördüyün könlüm*” [108, s.162]

Yaxud Füzuliyə müraciətlə müəllifin söylədiyi fikirlər də bu qəbildəndir:

*Sən qapını açan səhər yelinə*
*Söylədin dərdini, həsrətini*

*Qəlbinin qanı ilə yazdığın*

*Məcnun eşqindən füzun olan*

*Böyük məhəbbətini* [108, s.162-163].

Müəllifin poetik axtarışlarının, poemanı yazmaq qayəsinin mətndə aşkarlanması da sənətkarın yaradıcı təfəkkürünün genişliyini təsdiq edir. Belə ki, Rəsul Rza uzun müddət Füzuli sehrində şairin yaradıcılığını incələyir, təkrar-təkrar oxuyur və müəllifi hərəkətə gətirən, ona milli vüqar hissini yaşadan, ürəyini dağa döndərən tapıntısını aşağıdaki misralarla poetikləşdirir:

*Mən yüz möhürlü sənədə vermərəm*

*öz əlinlə yazdığın*

*"bizim" və "el" sözlərini!* [108, s.163]

Poema boyu tarixin sərt sınaqlarından keçib bu günümüzə çatmış Məhəmməd Füzuli irsini oxuduqca Rəsul Rzanın "bivəfa zəmanəyə" minnətdarlıq duyğularının şahidi oluruq. Müəllif sanki bunu tarixin, gərdişin bir möcüzəsi, Azərbaycan xalqına bəxşişi olduğunu emosional ovqatda pıçıldadığını duyuruq:

*Ömrün yolu uzun…*

*Sən, əsrlərdən keçib*

*Canlı, dili nəğməli*

*Bu günlərə xoş gəldin.*

*Ey böyük oğlu*

*Qədim, müqəddəs yurdumuzun*! [108, s.164].

Klassik poeziyamızın dərd yükünü çiynində daşıyan dahi Füzuli həyatı, sənətinə poetik ehtiramın ifadəsi olan poemada Füzuli kədəri, həsrəti, nisgili təkcə bu poemada yox, Azərbaycan poeziyasında əsərlərin axtarışı kimi yaranan sualların cavabı kimi, axtarışı kimi poemada qarşımıza çıxır. Bəlkə də, Rəsul Rzanın poetik axtarışlarının, suallarının cavabı Əli Kərimin aşağıdakı misralarındadır:

*Dünya səni qocaltdı yaşıdın olsun deyə*

*Gömüldü dərdin yerə, ucaldı ahın göyə.*

*Dərdə şərik - dərd özü, sükut - suala cavab.*

*Qranit dağlar belə, gətirməzdi buna tab"* [148].

Dahi Füzuli sənəti uzun müddət Rəsul Rzanı düşündürmüş və Xalq şairi növbəti "Füzuli" poemasında da Şərqin dahi oğluna poetik müraciətini fərqli düşüncə strukturunda qurmuşdur. Rəsul Rzanın "Füzuli" poeması həcmcə yığcam olsa da, sənətkarlıq nöqteyi-nəzərindən, qəhrəmanın dəyərləndirilməsi baxımından diqqətəlayiqdir. Poemada şairin böyük ustad qarşısında hesabatı dolayı yolla Füzuliyə məhəbbət şəklində özünü büruzə verir. Bu hesabat bəzən müraciət formasında, bəzən ümidsizlik anında yeganə pənah yerinə üz tutmaq, inamsızlıqda inam yeri tapmaq istəyində üzə çıxır:

*"Səni axtarıram sözlər içində.*
*Yox, adına layiq söz axtarıram*
*Dərdini, naləni duyan bir ürək,*
*Möhnətini görən göz axtarıram* [109, s.149].

Füzuli obrazına müraciət edən, onun ruhundan məsləhət alan, onu həmişə canlı və qüdrətli görən R.Rza Füzulinin söz qüdrətini təkcə özünün deyil, bütün şairlərin ilhamverici güc mənbəyi hesab edir:

*Ürəyim şeirinlə doludur, ustad!*
*Yazıb-pozduqlarım varaq-varaqdır*
*Bu çətin yollarda mənzil başına*
*Məni məhəbbətin aparacaqdır* [109, s.143].

Rəsul Rza Füzuliyə müraciətlə dahi şairin qürbət dərdinə, nisgilinə sanki ağrıyır, bu ağrısını da misraların yaddaşına köçürür:

*Bilirəm el dərdi, vətən həsrəti*
*Quru sazaq kimi səni kəsibdir.*
*Hər vətən deyəndə yaşarıb gözün,*
*Dodağın titrəyib, dilin əsibdir* [108, s.149].

Müəllif vətən, yurd sevgisini Füzuliylə bölüşür, ustadla xəyali söhbətində vətən məhəbbətini belə ifadə edir:

*Nədəndir Arazın bulanıq suyu*
*Duru göz yaşından mənə təmizdir*? [108, s.150].

Rəsul Rzanın ustad Füzuli ilə dialoqu, xəyali dərdləşməsi üzərində qurulan “Füzuli” poeması ictimai mündəricəsi, yüksək milli qayəsi, bəşəri mahiyyəti, sənətkarlıq xüsusiyyətləri ilə tarixi mövzulu poema kimi ədəbi fikir tariximizdə özünəməxsus yer tutur. Ədəbiyyatşünas Ənvər Əhməd Rəsul Rzanın poema yaradıcılığından bəhs edərkən vurğulayır ki, *“Rəsul Rza istər lirik, istər lirik-epik, istərsə də epik sənətkar kimi kamildir, fikirdən, hissdən tutmuş ta bənzətməyə, mübaliğəyə, kinayə və ya digər poetik imkanlara, eləcə də daxili ifadə zənginliklərinə qədər - hər şey onun şeiriyyətində dolğun və ifadəlidir”* [34]. Həqiqətən də, şairin poema yaradıcılığı dolğun, fəlsəfi mahiyyəti ilə olduğu kimi, sənətkarlıq xüsusiyyətləri ilə də diqqətəlayiqdir.

Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuliyə müraciətlə yaradılan poemalardan biri də ədəbiyyatşünas-şair Rafiq Yusifoğlunun “Qəm karvanı” poemasıdır. Füzulinin "Mənəm ki, qafiləsalari-karivani-qəməm..." misrasının epiqraf kimi seçildiyi poemada Füzuli kədəri, şairin fəlsəfi düşüncələrinin dərki müəllifi poemanı yazmağa vadar etmişdir. R.Yusifoğlunun “Qəm karvanı” poeması haqqında mülahizələrini ifadə edən professor Yaqub Babayev bildirir ki, *“"Qəm karvanı" lirik poemadır. Çarpaz qafiyəli dördlüklər şəklində qələmə alınmışdır. Hər dördlük sanki mövzu obyektinin bir elementi, çaları və rəngi barədə duyumun, baxışın, təəssüratın, münasibətin, yorumun ifadəsidir”* [17]. Şair Füzuliyə poetik ehtiramı bu misralarla bildirir:

*Özüm də bilmirəm, axı nə sirdir,*
*İncə kəlamının dadı azalmır.*
*Bir şair ürəyi neçə əsrdir*
*Yanır için-için, odu azalmır* [149].

Poema Füzuli sənətinə, şəxsiyyətinə dərindən bələdliyin məhsuludur. Çünki əsərin fərqli bəndlərində Füzuli yaradıcılığından həm də yerli-yerində bəhrələnmənin şahidi oluruq. Müəllif təxəyyül dünyasında dahi sənətkarla sanki üz-üzə durur, min illərin gərdişini, zamanın min-min oyunlarını, fələyin gərdişini müzakirə edir. Geniş elmi təfəkkürün verdiyi imkanla müəllif Füzulinin təkcə yaradıcılığına deyil, həyatı və mühitinin bəlli məqamlarına da münasibət bildirir və maraqlısı budur ki, bu zaman

şair Rafiq Yusifoğlu təxəyyülü, fikrimizə görə, alim Rafiq Yusifoğlu təfəkkürünü üstələyir. Bu isə əsl mənada istedadın, poetik təbin göstəricisi kimi qiymətləndirilməlidir. Rafiq Yusifoğlu "Qəm karvanı" poemasında ustadla söhbətlərində bəzən öz dövrünün gerçəklərindən də söz açır, arzularını, istəklərini ustada çatdırır. Amma bütün hallarda bunlar giley müstəvisində deyil, Füzulinin özü demişkən, ilahi əzaba düçarlığın verdiyi nəşəyə təşnə şairin duyğu və düşüncələrinin ifadəsidir:

*Dərdimi duyana dərd oldu dünya,*
*Eşqimə bir nəfər gülən qalmadı.*
*Gözümün yaşında qərq oldu dünya,*
*Gözümün yaşını silən qalmadı* [149].

Öz poetik səciyyəsi, ifadə tərzi, ideyası, sənətkarlığı Füzuli sənətinə poetik bağlılığı ilə diqqəti cəlb edən R.Yusifoğlunun "Qəm karvanı" poeması da Azərbaycan tarixi poemasının dəyərli nümunəsi olmaqla yanaşı, uca Füzuli məqamına dərin ehtiramın da ifadəsidir.

Azərbaycan tarixi poemasının mövzu dairəsində Azərbaycan Səfəvilər dövlətinin qurucusu, hökmdar-şair Şah İsmayıl Xətaiyə həsr olunan dəyərli sənət nümunələrindən biri də təbli şair Eldar Baxışın "Çaldıran döyüşü" poemasıdır. Poema öz mövzu və ideyası, sənətkarlığı, dil-üslub xüsusiyyətləri ilə janrın diqqətəlayiq nümunəsi kim əhəmiyyətlidir. Poemada Xətaiyə müraciətlə müəllif həm Xətai dövrünün, həm də öz dövrünün bir sıra ictimai-siyasi məsələlərinə ayıq münasibətini ortaya qoyur. Eldar Baxış poeziyasında aparıcı istiqamət olan ictimai-siyasi motivlər onun poemasında da özünü göstərməkdədir. Məhz onun yaradıcılığının bu səciyyəsi tədqiqatlarda da öz əksini tapır: *"Yetmiş-səksəninci illərin siyasi lirikasında müşahidə olunan vətənpərvərlik motivləri Eldar Baxışın yaradıcılığı timsalında özünü dolğun, hərtərəfli təcəssümünü tapmaqdadır"* [94]. Eyni zamanda müəllif zəngin xalq yaradıcılığı xəzinəsindən olduğu kimi, Xətai lirikasından da məqamında yaradıcı şəkildə bəhrələnmişdir ki, bu da poemanın müsbət məziyyətlərindəndir. Poemada müəllif bədii təsvir və ifadə vasitələrindən məharətlə istifadə etməklə dövrün dolğun

mənzərəsini yaratmış, eyni zamanda şəxsiyyətin tarixi simasını rel tablolarda əks etdirə bilmişdir.

Beləliklə, orta əsrlərdə yaşayıb fəaliyyət göstərən görkəmli ədiblərimizin mükəmməl bədii obrazının yaradıldığı tarixi mövzulu poemalar ictimai fikir tariximizə öz töhfələrini verdi. Nizami, Nəsimi, Füzuli və digər sənətkarlarımıza həsr olunan poemaların yazılması, geniş oxucu kütləsinə çatdırılması bu sənətkarların həyatı, fəaliyyəti ilə bağlı olan, yalnız bəlli dairədə məlum olan gerçəklərin geniş dairədə aşkarlanması baxımından da əhəmiyyət daşıyır. Tədqiqata cəlb olunan hər bir poema oxucu yaddaşında iz qoyduğu kimi, ədəbiyyatşünaslığımızın da diqqətini cəlb etmiş, bu əsərlər haqqında qiymətli fikirlər səsləndirilmişdir. Orta əsr sənətkarlarımızın həyatı və yaradıcılığının mövzu alındığı poemalar ədəbi fikir tariximizin qiymətli incilərini təşkil etməklə bərabər, həm də ədəbi-tarixi yaddaşda yaşayacaqlar.

**II FƏSİL**

# XIX ƏSR - XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN ƏDƏBİYYATI NÜMAYƏNDƏLƏRİNİN BƏDİİ OBRAZI TARİXİ POEMALARDA

## 2.1. XIX əsrin ədəbi şəxsiyyətləri tarixi poemalarda

Azərbaycan tarixi poemasının mövzu dairəsində əhəmiyyətli yerlərdən birini də XIX əsr görkəmli ədəbi simaların obrazının yaradıldığı bədii nümunələr təşkil edir. XIX əsrdə yaşayıb-yaratmış görkəmli ədiblərin həyatı, mühiti, yaradıcılıq yolunun bədii müstəvidə canlandırılması ədəbi-tarixi zərurətin ifadəsi sayıla bilər ki, sovetlər dönəmində orta əsrlərdə yaşayıb-yaradan ədiblərimizin olduğu kimi, XIX əsrdə yaşayan ədiblərimiz haqqında da sovet ideologiyası müəyyən qadağalar qoymuşdu. Əsasən sovet dönəmində yazılan bu tipli əsərlərə milli müstəqillik illərinin baxışını formalaşdırmaq nə qədər zəruridirsə, XIX əsrin görkəmli simalarının obrazının milli prinsiplər əsasında canlandırılması da bir o qədər zərurət daşıyır. Məhz bu aspektdən yanaşaraq XIX əsrin görkəmli ədiblərinin obrazının yaradıldığı tarixi povstlərin yeni təfəkkür işığında qiymətləndirmək gərəyi duyulur. M.Ş.Vazehə, Ağabəyim ağaya, X.Natəvana və M.F.Axundzadəyə həsr olunmuş çoxsaylı tarixi poemalar zaman-zaman ədəbi tənqidin də diqqətini cəlb etmiş, fərqli yanaşmalar ortaya qoyulmuşdur. İctimai-fəlsəfi lirikanın, povest və dram əsərlərinin gözəl nümunələrini yaratmış bu sənətkarların dövrdən, zəmanədən, həyatın əzab-əziyyətlərindən, talelərindən narazılıq və şikayətlərini ifadə etmələri, azğın hakimlərə, riyakar ruhanilərə, bir sıra dini-sxolastik görüşlərə qarşı çıxmaları, humanist ideyalar tərənnüm etmələri, çar mütləqiyyətinin işğalçı siyasətinə qarşı çıxmaları tarixi poemaların başlıca ideya məzmununu təşkil edir.

Bu yarımfəsildə N.Xəzrinin və A.Abdullanın M.Ş.Vazeh haqqında yazdıqları “Heykəlsiz abidə” və “Vazeh”, N.Kəsəmənlinin Ağabəyim ağaya həsr etdiyi

“Yaddan çıxmaz Qarabağ...”, M.Rahimin və H.Arifin (Hüseynzadə) X.Natəvan obrazını canlandırdığı “Natəvan”, S.Rüstəmin M.F.Axundzadəyə həsr etdiyi “Səbuhini düşünərkən” poemalarının ədəbi-bədii məziyyətləri, struktur elementləri, dili, üslubi özünəməxsusluqları, bədii nümunələrdə tarixi reallıqların bədii əksi məqamları kimi istiqamətlər tədqiq və təhlil olunacaqdır.

N.Xəzrinin 1979-1982-ci illərdə lirik və epik elementlərin müştərək xüsusiyyətləri zəminində yaratdığı “Heykəlsiz abidə” [86] mənsur poeması şair-mütəfəkkir M.Ş.Vazehin keşməkeşli həyatına, dövrünə, onu əhatə edən mühitinin reallıqlarının əksi məsələlərinə həsr olunmuşdur. Müəllif Mirzə Şəfi obrazını tarixin və yaşadığı dövrün həyat həqiqətlərini şairin dünyagörüşü, mühiti və müasirləri fövqündə yaratmışdır. Əsər böyük rus yazıçısı L.N.Tolstoyun “Mirzə Şəfi” kitabı ilə tanışlıqdan sonra söylədiyi *“...Orda çox gözəl şeylər var*” və M.F.Axundzadənin *“...Mirzə Şəfi ürfanın bütün məsələlərini mənə təlqin etdi və qəflət pərdəsini mənim gözlərimdən açdı...”* epiqrafları ilə başlayır.

N.Xəzri öz vətənində ağır məhrumiyyətlərlə, əzab və işgəncələrlə üzləşən, uzaq ellərdə özgə başlarını çələng kimi bəzəyən Mirzə Şəfi haqqında çoxdan düşündüyü ədəbi abidəni yaratmağa nail olmuşdur. Bu məqsədini şair müsahibələrinin birində belə ifadə etmişdir: *“Bizim acı taleli şairlərimiz çox olub. Onlardan biri də Mirzə Şəfi Vazehdir. Biz Gürcüstana – onun qəbrini ziyarət etməyə getmişdik. Amma heç nə tapmadıq. Bununla bağlı mən Gürcüstanın o vaxtkı rəhbəri Eduard Şevardnadzeyə məktub da yazmışdım. Bu yaxınlarda eşitdim ki, Vazehin qəbrini tapıb qaydaya salıblar. Amma bilmirəm, abidə qoyublar, yoxsa yox...”* [150]. Nəbi Xəzri sələfinə həsr etdiyi poemadan başqa iki pyes – “Mirzə Şəfi”, “Mənsiz dünya” əsərləri ilə Mirzə Şəfiyə layiqli abidə ucaltmışdır.

“Heykəlsiz abidə” mənsur poeması əsrinin müdriki və zəkası sayılan M.Ş.Vazehin həyatının müxtəlif məqamlarını əks etdirən 26 hekayətdən və iki epiloqdan ibarətdir. Ədəbi qəhrəmanının tərcümeyi-halını mənsub olduğu millətin tərcümeyi-halı səviyyəsinə qaldıran müəllif şairin həyat tarixçəsini hekayətlərdən əvvəl verilmiş 6 sənədli ricətlə nəql edir, məramını ustadın xəyalən eşitdiyi səsi ilə ifadə edir: *“– Mən həyatda nə axtardım, nə tapdım? Həqiqət axtardım, tapa*

*bilmədim. Məhəbbət axtardım, tapdım, itirdim. Səadət axtardım, üzün görmədim. Bircə şöhrət axtarmadım. Şöhrət isə məni özü tapdı*" [86, s.7].

Tarixi hadisələrin bacarıqla ümumləşdirilməsi prinsipi N.Xəzrinin bu poemasında da səciyyəvi keyfiyyət kimi özünü büruzə verir. Bu məsələdə ədəbiyyatşünas Qurban Bayramovun fikri ilə tam razılaşmaq olar ki, "*Şair tarixi mövzuda yazdığı əsərlərində asan yolla – tarixi əsərə köçürmək yolu ilə getmir; o, keçmişə, olmuş hadisələrə yaradıcı yanaşır, onları müasir həyatın tələbləri ilə həmahəng verməyə çalışır, əsl sənətə məxsus bir yol ilə – bədii ümumiləşdirmə yolu ilə gedir"* [19].

M.Ş.Vazehin ömür sirləri "Məzar başında" adlanan hekayətlə başlayır, elə həmin başlıqla da bitir. Başlanğıcda Pakizə ilə Qaratel şairin məzarı üstündə görüşür, iki ürəkdə böyük bir ömrün əsrarəngiz kitabı sükutla, aram-aram vərəqlənir, sonda isə nəsillərə elm, savad verən, insanlara sədaqətlə sevməyi öyrədən, məhəbbət dərsi keçən şairin tək-tənha halına yanğıları dilə gətirilir.

M.Şəfinin böyük və mənalı ömrünün tarixçəsini yaradan, ürək döyüntülərini ifadə edən N.Xəzri əsərdə inamı, əqidəsi, baş verən hadisələrə münasibəti, dünyagörüşü ilə bir-birindən fərqlənən bir sıra xarakterlər yaratmışdır. Müəllif ədəbi qəhrəmanının varlığını və daxili aləmini onun mənəvi atası Hacı Əsədulla ilə, mülklərinə nəzarətlə bağlı yazı-pozu işlərini apardığı xan qızı Zübeydə xanımla, onun qızı Simuzərlə, müəllim dostları Həzin və Səlimlə, qəlbən bağlandığı Pakizə ilə, dərs verdiyi Qədir, Ələkbər və Qaratellə, şagirdi və dostu Fətəli ilə, alman Bodenştedlə ünsiyyətdə şairin həyat yolunu müəyyən edəcək düşüncələri ilə açır. Zübeydə xanımın M.Şəfi və Simuzərin talelərini birləşdirib sarayda yaşamaları haqqında arzusunu Hacı Əsədulla gənc şairə bildirəndə aldığı cavab onun mənliyini və həyat amalını xarakterizə edir: *"Zülmət hücrə mənim üçün zərli saraylardan qiymətlidir. Mən özümü burda azad və xoşbəxt hiss edirəm. Çünki mən özüm-özümə mənsubam*" [86, s.15].

N.Xəzri M.Şəfinin qaranlıq taleyini təsvir edərkən onun qanına damla-damla ulu insani keyfiyyətlər hopdurmuş, qəlbinə zərrə-zərrə nur səpmiş, xeyirxahlıqda ad çıxarmış Hacı Əsədullanın vəfatından sonra çəkdiyi əzabı, dünyada tənhalıqla qoşa

qaldığını alleqorik yanaşmada təsvirləndirir: *“...üfüqdən qapqara günəş asılmışdı... Bu dünyaya çökmüş kimsəsizlik və yetimliyin qapqara günəşi idi*” [86, s.34-35]. Qara gün – qara günəş, günəşin qaralması ifadələri poemada bir millətin, bir xalqın qara taleyinin rəmzinə çevrilir.

Mənəvi dayağını itirən M.Şəfi Hacı Əsədullanın qalan mirası ilə kasıb balalarını oxutmaq nəsihətinə əməl edərək onun evində məktəb açıb uşaqlara elm, kamal dərsi keçir. Onun şagirdləri arasında Fətəli də vardır. N.Xəzri Mirzə Şəfi ilə M.F.Axundzadənin – iki böyük sənətkar dostluğunun poetik tərənnümünü ifadə etmiş, bu iki ədibin ömür macəralarının doğma xalqa, vətənə namuslu xidmət məcrasına necə yönəldiyini ustalıqla əhatə etmişdir. Eyni dövrdə yaşayıb-yaratmış ustadların müəllim-şagird-dost münasibətinin əhəmiyyəti Mirzə Fətəlinin epiqrafdakı fikrində dəqiq ifadəsini tapmışdır. M.Şəfinin Fətəliyə nəsihətləri onun gələcək taleyini müəyyən etmişdir: “*Nadanlıq taxta çıxıb – ədalət, haqq tapdanıb gedir... Əgər sən molla olsan, ədalətə, haqqa xidmət edə bilməyəcəksən”* [86, s.40]; “Ən böyük insan – insanlara insanlıq öyrədəndir” [86, s.41]; *“...sənətkar doğma dililə ucalır, Fətəli. Xalq da öz böyük övladlarıyla böyük olur, Fətəli*” [86, s.42]. Müəllif xalq mifologiyasından bəhrələnərək ömrü boyu ağac rişələri yeyib allaha dua edən dindara Zərdüştün *“ – Sənin allah deyə, avara-avara səhraları dolaşmağına nə hacət. Get, səhrada bir ağac ək, becər, böyüt. Gəlib kölgəsində insanlar dincəlib sənə rəhmət oxusun. İyirmi illik duadan tək bircə kölgəli ağac yaxşıdır*” [86, s.41-42], – cavabı Fətəlini ayıldır, onun dini, elmi təsəvvürləri aydınlaşır, o, həyatı yenidən dərk edir.

Əsərdə M.Şəfinin Pakizəyə məhəbbəti onu əzablı həyatda yaşadan ən ülvi hiss kimi tərənnüm edilir. Onun şeir yazması da məhəbbətinə qovuşmaq uğrunda çarpıntılarının təzahürü, bir qanadı sınmış halda əsrin sərt qayalarına çırpılmış insanın iztirablı iniltilərinin ifadəsidir: *“...mən öz məhəbbətimdən dəhşətli səadətimə doğru addımlayıram. Sevirəm, çünki sevgisiz yaşaya bilmərəm. Şeir yazıram ki, bəlkə daş ürəkləri azacıq yumşalda bildim...”* [86, s.43].

N.Xəzri digər əsərlərində olduğu kimi, “Heykəlsiz abidə” poemasında da folklor motivlərindən, xalq yaddaşından istifadə etmiş, Pakizənin yuxusu ilə

M.Şəfinin gələcək taleyinə yol aça bilmişdir. Pakizə yuxuda görür ki, qayadan axan o büllur bulağın yanında Şəfi ona yaxınlaşıb əlindən tutur, onlar qaranlıq yollarda iki şüa kimi əl-ələ verib harasa uzaqlara baş götürüb getmək istəyirlər. Xalq təfəkkürünə söykənən epizodda yuxuda aşiq və məşuqun əbədi xoşbəxtliyini təsvir etməklə müəllif əslində bu cür sevginin məlum dövrdə mümkünsüzlüyünü, onların yalnız yuxularda xoşbəxt olacağı gerçəyini ifadə etmiş olur. Hadisələrin axarından məlum olur ki, M.Şəfi Pakizə ilə birlikdə Tiflisə qaçmağa cəhd etsə də, buna nail ola bilmirlər və onların xoşbəxtliyi yuxuda da qalır.

Mənbələrdən məlumdur ki, Mirzə Şəfi 1840-cı ildə Axundovun dəvəti ilə Tiflisə gəlir, burada müəllimlik edir, "Divani hikmət" ədəbi məclisini təşkil edir. N.Xəzri ədibin həyatının bu dövrünü həm də onun yeni tanışlıqlarına yol açan məqam kimi dəyərləndirir. M.Şəfinin Tiflisdə alman F.Bodenştedtə fars dilindən dərs verməsi, öz şeirlərini ona yazdırması, əlyazması halında olan şeir məcmuəsini ona hədiyyə verməsi bu qəbildəndir [78, s.169]. Azərbaycanlı şairin qərbdə tanınmasında alman aliminin "səyləri" tarixi-filoloji faktlara əsaslanılaraq təsvir olunur. Bu iki şəxsin timsalında Şərqlə Qərb mədəniyyətinin özünəməxsus dəyərləri Bodenştedtin müəllimi haqqında fikir və düşüncələrində, sonradan əməllərində ifadəsini tapır. F.Bodenştedt Vazehlə ilk tanışlığından şahidlik edir ki, "...Onun varlığında məni məftun edən hər şeydən əvvəl ondakı kamil təbiilik, mühakimələrinin məntiqi qüvvəsi" [86, s.111]; *"Onun çox gözəl, sağlam və nurlu təfəkkürü, hərtərəfli biliyi vardı"; "Onun inamına görə həqiqət nəcibliyə aparan ən böyük qüvvə məhəbbətdir... Sevgisiz insan – günəşsiz gün, ətirsiz gül, barsız ağacdır*" [86, s.112].

Məlumdur ki, Bodenştedt Tiflisdə olarkən Vazehin şeirlərini toplayıb 1846-cı ildə vətəninə aparmış və alman dilinə çevirərək dəfələrlə çap etdirmişdir. "Şeirlərin misilsiz şöhrətini görən F.Bodenştedt 1870-ci ildə "Mirzə Şəfinin sələfindən" adı altında ikinci bir kitabça çap etdirərək Mirzə Şəfi adı ilə bağlı şeirlərin onun özünə məxsus olduğunu və Mirzə Şəfinin onun "ədəbi təxəllüsü" olduğu fikrini söyləyir [18, s.10] "*Ədəbiyyatşünaslıq tarixində "Bodenştedt plagiatı" adlanan bu fenomen əslində Mirzə Şəfi Vazehin ədəbi irsinin daha da populyarlaşmasına və qorunub saxlanmasına*" [14] şərait yaratsa da, bütün dövrlər üçün mənəvi məğlubiyyət olan

faktdan yazar məharətlə istifadə etmişdir. N.Xəzri bu gerçəyi "*Mirzə Şəfi ölməzliyinin dünya etirafı, dünya təsdiqi, onun əzab və işgəncələrinə, məhəbbət və sədaqətinə bəşər övladının minnətdarlıq əlaməti, Azərbaycan xalqına, Azərbaycan sənətinə səcdəsi"* [86, s.116] kimi qəbul edir. *"...bu sahədə aparılan tədqiqat "Şərqilərin" həqiqi müəllifinin Mirzə Şəfi olduğunu təsdiq etdi. F.Bodenştedtin bu sahədə rolu ancaq Mirzə Şəfi şeirlərinin almancaya tərcümə etməkdən, bunları Qərbi Avropada yaymaqdan ibarət olduğu aydın oldu"* [78, s.170].

Poema dərdi-qəmi eyni olan Pakizə ilə Qaratelin Vazehin məzarı üstündə şairi xatırlamaları ilə başlayıb, bütün deyilənlərin nəqlindən sonra yenə də onların təsəlli dolu kədərli söhbətləri ilə yekunlaşır. *"Bu məzarda əbədi susmuş, şeirlərində isə əbədi döyünən bir ürək – indi onların da sinəsində çırpınırdı"* [86, s.116]. Müəllif M.Şəfi ömrünün özünə yetməmiş xoşbəxtliyinin və səadətinin ölümündən sonra neçə-neçə ömrü isitdiyini, nurlandırdığını qürurla bildirir. M.Ş.Vazehin şagirdi Qaratelin oğlu Şəfinin, yüksək zəka və yaradıcılıq qabiliyyətini duyduğu Fətəlinin, müəlliminin fəaliyyətini davam etdirən Ələkbərin ömründə yaşadığı, ölümsüzlük qazandığı təsdiqlənir.

Poema "Mirzə Fətəli Axundovun vəsiyyəti" və "Fridrix Bodenştedtin yüzillik iradəsi" adlı epiloqları ilə tamamlanır. Birincidə iki dahinin həyatda olduğu kimi, əbədi dünyada da yanaşı olmalarından razılıq, M.Şəfinin məzarından əsər-əlamət qalmamasından dərin üzüntü, ikincidə isə "*...torpaq altında da özgə şöhrəti ilə vidalaşmaq istəməyən*" [86, s.120] fikirləri ilə tamamlanır. Bodenştedtin son anında vicdanı qarşısında nə düşündüyünü öyrənmək arzusu ifadə olunur.

Azərbaycan ədəbi fikir tarixində özünəməxsus imzası olan sənətkarlardan biri də Abbas Abdulladır. A.Abdullanın tarixi mövzulu "Vazeh" poeması da görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazeh obrazının yaradıldığı dəyərli bədii nümunələrdəndir. Qeyd edək ki, Mirzə Şəfi haqqında çoxsaylı bədii nümunələr-roman, povest, hekayə, dram əsəri yazıldığı kimi, maraqlı poemalar da qələmə alınmışdır. Bu sırada Abbas Abdullanın poeması da görkəmli ədibin obrazının yaradıldığı bədii nümunə kimi vurğulanmalıdır. Düzdür, N.Xəzrinin poeması ilə müqayisədə nəzəri və bədii məziyyətlərinə bir qədər zəif olan poemada lirik ricət,

təsvir və ifadə ustalığı, obrazının psixologiyasını duymaq və canlandırmaq zəif olduğu kimi, tarixdəki Mirzə Şəfi eyniyyət təşkil edir. Bütün hallarda poema Mirzə Şəfi irsinin realist planda canlandırıldığı, görkəmli ədibin həyatı, mühiti, yaradıcılığı haqqında bitkin informasiya verdiyi, ən əsası Vazehi geniş oxucu kütləsinə bir daha tanıtdığı faktorları da nəzərə aldıqda Abbas Abdullanın tarixi mövzulu "Vazeh" poeması ədəbi fikrimizin maraq doğuracaq nümunələrindəndir.

Böyük ədəbi irsinin qaldığı iddia edilən, həyat və yaradıcılığı o qədər də dərindən araşdırılmayan, yazdıqları indiyədək toplanıb çap edilməyən, vətən həsrətli şeirləri sadəcə olaraq dildən-dilə keçərək bu günümüzə qədər gəlib çatan Ağabəyim ağa Cavanşir (1780-1832) haqqında mənbələrin verdiyi məlumatlar məhduddur: O, İbrahimxəlil xanın qızı olub, münasibətləri yaxşılaşdırmaq üçün onu Fətəli şaha ərə veriblər, o da İran sarayında həsrət şeirləri yazıb. Mehriban Vəzir 2019-cu ildə "Ağabəyim ağa Cavanşir" [120] adlı tarixi-sənədli romanında Azərbaycanın, eləcə də Türk dünyasının yetirdiyi ən möhtəşəm xanımlardan biri, dövrün siyasi fəsadlarını taleyində yaşamış, dözüm və əzm rəmzi Ağabəyim ağa haqqında müxtəlif mənbələrdə səpələnmiş məlumatları toplayıb ümumiləşdirmiş, mövcud boşluğu qismən də olsa, doldurmuşdur.

Dövrünün görkəmli şəxsiyyətlərindən olan Ağabəyim ağa Cavanşirin ədəbi obrazı N.Kəsəmənlinin "*Yaddan çıxmaz Qarabağ...*" [68] epik-dramatik poemasının predmetini təşkil edir. Əsərin süjet xətti aşağıdakı tarixi faktlar üzərində qurulmuşdur. 1797-ci ildə Ağaməhəmməd şah Qacar öldürüldükdən sonra taxta Fətəli şah çıxır. O, İranla Qarabağ xanlığı arasında münasibəti düzəltmək üçün İbrahimxəlil xandan qızı Ağabəyimi istəyir. Qarabağ xanı bu təklifi qəbul edir və 1801-ci ildə Ağabəyim ağanı İran hökmdarı Fətəli şaha ərə verir.

Poemaya epiqraf olaraq seçilmiş Ağabəyim ağanın "...Heç bilmədim ömrüm necə gəldi, necə getdi..." qəzəlindən olan misra Azərbaycanın bu böyük qızının, vətən təəssübkeşinin çətin, lakin mənalı həyatını tərənnüm etməklə yanaşı, əsərin də əsas ruhunu təşkil edir. Gözlərimiz qarşısında Ağaməhəmməd şah Qacarın Şuşa qalasına amansız hücumlarının təsviri, son həmləsinin də boşa çıxdığı, uğursuzluqdan

hiddətlənən qəddar sərkərdənin daxili yanğısı, şəhər müdafiəçilərinin iradəsi qarşısında acizliyi canlanır:

*Aciz görünürdü əsgərlər ona,*
*Bir qala səddini keçə bilmirdi.*
*Qana susamışdı o qatil, qana,*
*Doldurub doyunca içə bilmirdi* [68, s.207].

N.Kəsəmənli Qacarın "Bir xalqı doğramaq arzusunu", yaralı əsgərlərinə baxıb "Qulaqları boyda doğrayın" deməsini, ölkələr talan etdikcə, başlardan qala ucaltdıqca "qəlbinə sərin su çiləndiyini" göstərməklə ölkənin üzləşdiyi tarixi şəraiti önə çəkmiş, ədəbi obrazın gələcək taleyinin bünövrəsini hazırlamışdır. Epik məzmun daşıyan əsərdə dramatik hadisələr bir-birini əvəz edir, obrazların əməlləri və taleləri, aqibətləri ibrətamiz şəkildə ifadə olunur. Xüsusilə Qacarın qanlı niyyətlərinin puç olması, baş kəsməyə, qan tökməyə aludə olmuş zalımın ölüm səhnəsi, başlardan ucaltdığı qalanın "Bürcündə öz taclı başını" görməsi onun əməllərinin məntiqi nəticəsi kimi dəyərləndirilir:

*Qan ilə dolmuşdu qılıncın qını,*
*Başa gətirdiyi – başına gəldi.*
*Nəfəsi soydan buz yastığını*
*Son dəfə qanıyla isidə bil*di... [68, s.208]

Ağaməhəmməd şah Qacar Şuşada öldürüldükdən sonra buraya diz çökdürməyə gəlmiş qoşunun məğlub halda, sürünə-sürünə geri dönməsi, "məğlubedilməz" sərkərdənin tabutunu özləri ilə aparması, düşmən əsgərinin dilindən səslənən bayatı

*Ətəkdə lalələrə,*
*Zirvələrdə qara bax.*
*Unudular hər qada,*
*Yaddan çıxmaz Qarabağ...* [68, s.209]

bir tərəfdən xalqlara yalnız bədbəxtlik, ölüm-itim gətirən müharibələrə nifrət oyadır, digər tərəfdən talançı Qacar ordusunun Şuşanın qəhrəman müdafiəçilərindən aldığı dərsin heç zaman unudulmayacağını təsdiqləyir. Ümumiyyətlə, poemada tez-tez

işlədilən bu bayatı daha çox qürbətdə vətən həsrəti çəkən Ağabəyim ağanın dərdli ifadəsi olaraq səslənir.

İbrahimxəlil xan "Düşmən gedir!" xəbərini aldıqda "sevinmək tezdir", –deyə düşünür, çünki o, başsız qayıdan düşmənin bu məğlubiyyəti unutmayacağını, daha quduz nifrətlə yenidən hücum edəcəyini gözləyir. İbrahimxəlil xan yenidən qanlı müharibənin başlanmasının qarşısını almağa, məsələnin sülh yolu ilə həll edilməsinə çalışır. O, *"Qarabağ xanlığı ilə İran arasında münasibətləri düzəltmək üçün Fətəli şahın istəyini qəbul edərək qızı Ağabəyim ağanı ona ərə verməyi qərara alır*" [22, s.4]. Yenidən döyüşə girməyin nə ilə nəticələnəcəyini yaxşı təsəvvür edən İbrahim xan Qacarın cənazəsini böyük ehtiramla Tehrana göndərir. Fətəli şah onun bu hərəkətini məmnunluqla qarşılayır və "İbrahim xanla qohum olmaq niyyətini bildirir. Ürəyindən olmasa da, İbrahimxəlil xan da bu təkliflə razılaşmalı olur. Beləliklə, *"xan qızı 200-dən çox xidmətçisiylə birlikdə Qarabağdan Tehran sarayına göndərilir*" [153].

N.Kəsəmənli Ağabəyim ağanın qürbət yolunu emosional duyğularla vermiş, təsirli ifadələrlə qəlbinin ağrı-acısını dilə gətirmişdir. Poemanın ruhunu, canını təşkil edən Vətənə məhəbbət ideyası qəhrəmanın bütün düşüncə və hərəkətlərində öz əksini tapır. Doğma Qarabağı sevməyi, ona əsl övlad məhəbbəti ilə xidmət etməyi özünün yüksək idealı, müqəddəs borcu hesab edən Ağabəyim ağa yanıqlı bayatı çəkir:

*Şuşam qalamdır mənim,*
*Yurdum anamdır mənim.*
*Mən onun balasıyam,*
*O da balamdır mənim* [68, s.214].

Qeyd edək ki, epik-dramatik poemanın ideya-məzmununa uyğun olaraq, N.Kəsəmənli müəyyən parçaları, xüsusilə də ədəbi qəhrəmanının düşüncə və duyğularını, yaşantılarını bayatı formasında qələmə almaqla əsərin təsir gücünü daha da qüvvətləndirmiş, oxucunun ayrılıq, həsrət, vətən dərdi kimi hissləri daha dərindən hiss etməsinə müvəffəq olmuşdur. Ağabəyim ağanın Qarabağ sevgisi əsərdə özünəməxsus səciyyəvi, təbii və rəngarəng boyalarla vəsf edilmişdir. Vətən

məhəbbəti ideyasının poemadakı ifadə şəkillərindən biri də şairənin bayatılarından istifadə olunmasıdır.

Oxucunun nəzərində Ağabəyim ağa obrazı doğma diyarı odlu məhəbbətlə sevən, saf, səmimi, yaradıcılığında vətən məhəbbətini tərənnüm edən əməlpərvər, vətənpərvər bir şairə kimi canlanır. Əsl həqiqətdə də_Ağabəyim ağa öz vətənindən, doğmalarından uzaq düşsə də, Qarabağı ürəkdən sevən, daim öz torpağının həsrəti ilə yaşayan bir Vətən həsrətlisi olmuşdur. Taleyindən şikayətlənən şairə "Xan qızıydım, oldum kəniz" desə də, bu fədakarlığa vətəni, doğma eli üçün qatlaşdığından qürur duyur, təsəlli tapır:

*Mən gül əkib qəm biçdim ki,*
*O xalqsız mən bir heçdim ki,*
*Bu günü özüm seçdim ki,*
*Yaşasın ellərim mənim...* [68, s.216]

N.Kəsəmənli kədərilə barışmaq istəməyən Xan qızının Tehran sarayına gəlişinin ilk gününü, çəkdiyi əzabları ifadə edərkən qəhrəmanının "kədərli gündüzünü", "nəfəsinin qaralmasını", "üzüqoylu kədərinə yıxıldığını" və s. kimi daxili hissləri üzə çıxaran ifadə və birləşmələrdən istifadə edir, onu "Qızıl libas içində ölgün sonaya" bənzədir. Yuxuda ulduza çevrilərək buluddan-buluda uçmaq arzusu azadlığa can atan obrazın son ümidi qaranlıq dünyada parlayıb-sönən bir işıq kimi sönür. Səhərin açılması ilə əsərin qəhrəmanının yalvarışı üsyana çevrilir.

Poemada Ağabəyim ağanın ona toy libası geyindirməyə gəlmiş qarı ilə dialoqu, "Qarı nənə, libas yox, Kəfən yaraşır mənə", – deməsi, ondan imdad diləməsi, qarının öz başına gələnlərin Qarabağlı xanımın yaşamaması üçün əl atdığı tədbir ədəbi qəhrəmanın adıyla bağlı rəvayət əsasında qələmə alınmışdır. Adətə görə, gözəl xanımlar Fətəli şahın hərəmxanasına daxil olanda əvvəlcə çox bahalı və gözəl paltarlar olan otağa girməli, onlardan bəyəndiklərini seçməli və şahın hüzuruna getməli idi. Qarı Ağabəyim ağaya Fətəli şahın anasının libasını geyindirməklə ölümünü gözə alır. Fətəli şah Ağabəyim ağanı anasının paltarında görəndə özünü itirmiş, əhvalı dəyişmiş halda bu taləni quranın dərhal asılmasını tələb etmişdi.

Əsərdə Ağabəyim ağanın mərdliyi və cəsarəti, qürur və əyilməzliyi, özünü əsilzadə kimi aparması onun Fətəli şahla bəhsləşmələrində daha qabarıq üzə çıxır. Qarının libas seçimində günahı olmadığını qətiyyətlə şaha bildirir, kimliyini yada salır. Ağabəyim ağanın dilindən deyilən "Yaddan çıxmaz Qarabağ!" bayatısı şairənin qürbətdə çəkdiyi Qarabağ – vətən nisgilini çox təsirli ifadə edir. Qələm də, bayatı da, göz yaşları da vətən həsrətini ovuda bilmir. Rəvayətə görə, Ağabəyim ağanın könlünü açmaq, şənləndirib sevindirmək, Vətən həsrəti çəkməməsi üçün Fətəli şah Tehranda möhtəşəm bir bağ saldırır, Qarabağda, Şuşada bitən gül-çiçəkləri, meyvə ağacları əkdirir. Hətta bu bağçaya qulluq göstərənlər də Şuşadan gətirilir, gülüstanı "Vətən bağı" adlandırırlar. Ağaclar qol-qanad atır, güllər ətir saçaraq min rəngə boyanır. "Vətən bağı" Qarabağın bir guşəsini xatırlatsa da, Ağabəyim ağa bağı dolaşdıqca qəmlənir, güllərin arasında "Xarı bülbül" gülünü çox axtarır, tapmır, onun bağa gətirilmədiyini düşünür, bağbanlar köks ötürərək ona

*– Çox çalışdıq, neyləyək,*
*"Xarı bülbül" yad eldə*
*Bitmədi ki, bitmədi...* [68, s.226]

deyirlər. O andan Xan qızının nəğməsi "Vətən" deyib gözlərindən həsrət leysanı tökür, bülbülə "Sənə ki, yoxdur qadağa / Boylan Vətən sarı bülbül" deyən şairə qalan ömrünü yad diyarda Fətəli şaha girov olaraq çürüdür, ömrünün puç olduğunu dilə gətirir.

Poema nisgilli şairənin kədərli taleyini göz önünə gətirən gözəl sənət əsəri olmaqla yanaşı, Qarabağ mövzusunda yazılan ən yaxşı tarixi mövzulu əsərlərdən biridir. Nüsrət Kəsəmənlinin özünəməxsus poetik ilhamı, ifadə, təsvir məharəti əsəri oxunaqlı etməyə yetmişdir.

Öz yaradıcılığı ilə XX əsr Azərbaycan ədəbiyyatını əhəmiyyətli dərəcədə zənginləşdirən M.Rahim hələ gənc yaşlarından epik poeziyaya meyl salmış, *"həyatdan aldığı zəngin müşahidələrini öz hiss və həyəcanları ilə vəhdətdə, iri formalarda təqdim etməyə başlamışdır*" [64, s.4]. Yüksək sənətkarlıq nümunələri hesab edilən, klassik ədəbiyyatımızın və xalq sənətkarlarımızın nümayəndələrinə poemalar həsr etmiş Məmməd Rahim tarixi mövzulu poemaları ilə diqqəti cəlb edir.

Araşdırmalar göstərir ki, M.Rahim Qarabağın gözəl təbiəti və görkəmli şəxsləri haqqında əsər yaratmağı uzun illər ərzində düşünmüş, 1962-ci ildə "Natəvan" poemasını yaradaraq XIX əsr Azərbaycanın lirik şairi Xurşidbanu Natəvana poetik məhəbbətini ifadə etmişdir. 16 hissə və sonluqdan ibarət olan poemada M.Rahim lirik şair Natəvanın həyatını, taleyini, zəmanəsini canlandırmış, onun əsərlərindəki dövrdən narazılığının səbəbini açıb göstərərək ona ictimai məna vermişdir.

Müqəddimədə Qarabağ təbiətinin İsa bulağı, Cıdır düzü kimi möhtəşəmliyi poetik ilhamla vəsf olunur, ucalan Xanın səsi, "Qarabağ şikəstəsi" duyulur, müəllif oxucunu Qarabağ tablosunun aludəçisinə çevirə bilir. Əsər baharın ilk çağında Şuşanın bayram səhnəsi ilə açılır, ömür-gününü xalq üçün şam kimi əridən, insanların rifahı üçün çalışan Qarabağın sevimlisinin Şuşanın meydanına bulaq çəkdirməsi bayram edilir. M.Rahim əsər boyu Qarabağın təbiəti ilə ədəbi qəhrəmanı arasında mənəvi assosiativlik yaradır, doğma diyarın şairə ömrünə qatdığı gözəlliyi tərənnüm edir.

Təbiətin varlığına poetik baxış şairə imkan verir ki, təbiətlə həmahəng səslənən Natəvanın varlığını, poetik yaradıcılığını və xeyriyyəçilik fəaliyyətini poemanın müvzusuna çevirsin, şairənin hiss və həyəcanlarını, düşüncələrini olduğu kimi canlandıra bilsin. Poemanı qəhrəmanın xarakterik bitkinliyi, yaxşı qurulmuş süjet, hadisələrin dramatizmliyi və dialoqların təbiiliyi səciyyələndirir. Əsərdə Natəvanın daxili aləmi inandırıcı şəkildə açılır.

Poemada Natəvanın bioqrafik faktlarından geniş istifadə edilir, Xasay bəyin ondan ayrılması məqamı şairənin dilindən bağbanı Kamrana: - *Xasay bəy, zənnimcə, qapıldı hissə* ... [101, s.154] fikri ilə əsaslandırılır. Göz önündə bibisi Ağabəyimağanın yad diyarda ömür çürütməsi gerçəyi canlandırılır, talelər arasında poetik dillə körpü yaradılır. Əsl həqiqətdə isə Dağıstana çağırılan Hacı Xasay Şamil hərəkatının tamamilə yatırılması üçün bir sıra əməliyyatlara başçılıq etməli və dağlıları zorla Anadoluya köçürməli idi. Xasay bəy ailəsinə görə nə bu tapşırıqdan imtina edə, nə də onu yerinə yetirə bilməzdi. İki od arasında qalan Xasay ailəsinin gələcək təhlükəsizliyi naminə Natəvandan rəsmən ayrılır, onun yenidən ailə qurmasına, xoşbəxt olmasına rəvac verir.

Poemada Natəvan böyük bir ədəbi məktəb yaradan görkəmli söz ustadı kimi tərənnüm olunur. Ədəbiyyat tariximizdə məşhur olan "Məclisi-üns"ü yaratmaqla Natəvan Şuşa və Qarabağ şairlərini ətrafında toplamış, Məxfi, Məriz, Sadiq, Katib, Müştəri, Yusif, Növrəs və başqalarının Nizami, Füzuli, Nəvai, Hafiz, Xətai kimi klassiklərimizin yaradıcılığını öyrənmələri nəcib qadının başlıca xidməti olaraq dəyərləndirilir, şairənin dilindən maarifçi ideyaları belə ifadə olunur: "*Yatır şuşalılar dərin yuxuda"* [101, s.158].

Poemada "Məclisi-üns"ün şöhrətinə, "Beytüs-səfa" və "Məclisi-şüəra" ilə əməkdaşlığına diqqət yetirən M.Rahim Natəvanın o dövrün ədəbi mühitinin mahiyyətinə varmağa çalışmış, əsərin 4-cü hissəsini bu mərama yönəltmişdir. Poemada tarixlə səsləşən məqamlardan biri kimi Natəvanın özünə ustad olaraq Füzulini seçdiyinin şahidi oluruq, eyni zamanda şairənin S.Ə.Şirvani, Axundov, Məhsəti, Vaqif, Vidadiyə rəğbəti də ifadə olunur:

*Gəzinib otaqda astadan deyir:-*
*Dünyada varmıdır bir elə şair*
*Böyük Füzuliyə bərabər olsun?* [101, s.162]

Natəvan obrazını yaradan M.Rahim onu Nizami dövrünün Məhsətisi ilə yanaşı qoyur, bu iki qadın şairəni birləşdirən cəhətlərin həyat, ölüm, məhəbbət olduğunu vurğulayır, onların taleyindəki zamanın hökmlərinin verdiyi əzablar, iztirablar diqqət mərkəzinə çəkilir. Eyni zamanda poemada Natəvan şairə, maarifpərvər olmaqla yanaşı, həm də dövlət xadimi kimi də xarakterizə olunur.

Poemanın 6-cı hissəsində qızı Xənbikənin vaxtsız vəfatından dərin düşüncələrə dalan, nakam bala dərdi, zəmanə dərdi ilə təkbaşına qalan Natəvanın Hacı Səfər ağanın şairəyə "nüfuzlu qəhmər olmaq" istəyini ona çatdırmağa gələn Axund Səfa ilə söhbətində Azərbaycan adlı məmləkətin xanlıqlara parçalanmasına, xalqın, ellərin günahsız oda yanmasına, qan içində boğulan dərdinə çarə tapmaqda görür:

*Natəvan da bu gün öz sənətilə,*
*Xalqa olan dərin məhəbbətilə*
*İşıqlı günlərə yol açmalıdır* [101, s.169].

Məktəb açmağın yada salınmadığı, xalqı düşünüb qeydinə qalınmadığı, vicdanlılara qiymət verilmədiyi, azad fikirlilərin dara çəkildiyi dövrü şairə belə səciyyələndirir: *"Dövran simasızın, müxənnətindir"* [101, s.173].

Əsər boyu Natəvanın bir şair, ana, vətəndaş, dövrün görkəmli ziyalısı kimi dərdlərini, onun vətən yanğısını dilə gətirən M.Rahim o mövqedən çıxış edir ki, "Natəvanın dövrü demək olar ki, Qarabağın kədər dövrüdür. Dərin dərrakəli bu həssas qadın haman dərd və kədəri duymuş, onu gözəl qəzəllərində əks etmişdi" [64, s.96].

Natəvanın sağlığında şeirləri el-el, oba-oba dolaşıb Qarabağla yanaşı, Şəkidə, Şirvanda, Qubada və Bakıda məşhurlaşsa da, müəllifinə şöhrət gətirsə də, onun bədxahları da olmuş və şairəyə həcv yazaraq onu xalqın gözündən salmağa çalışmışlar. Mənbələrdəki bu kimi faktlar bədii mətndə də özünə yer tapır, qəhrəmanın mübarizə yolunun nahamarlığını ifadə etmiş olur. Natəvanın adını və şöhrətini ləkələmək istəyən bu qaragüruh adamlar Natəvanın nüfuzundan qorxaraq əməllərinin üstü açılar deyə xanlıq evində bəslənən bir göyərçinin ayağına məktub bağlayaraq şairəyə çatdırırlar. Xalq arasında hörmət və nüfuz sahibi olan Natəvana qarşı bu biabırçı hərəkət hamılıqla pislənir, M.Rahim Axund Səfanın şairəyə böhtan yağdırmasının, məscid əhlinin onu daş-qalaq etməyə yönləndirməsinin nəticəsiz qaldığını xeyir əməlin, niyyətin qələbəsi kimi simvolizə edir. Bu məqamda S.Ə.Şirvaninin Natəvanı ciddi surətdə müdafiə edərək Asiyə cavabı isə Natəvanın, onun kimi saf əməl sahiblərinin tənha olsa da, tək qalmadığını göstərir.

Natəvanın isə atılan böhtanlara, qarayaxmalara cavabı ürəyinin al-qanı ilə, dağları əridən fəryadı ilə yazılmış sözləri, taleyindən narazılıq ifadə edən *"Mənmi günahkaram, dövranmı yoxsa?"* düşüncələrində əks olunur [101, s.191].

Poema nikbin ruhla bitir, bu nikbinliyin cövhərini Natəvanın xalqına sərf olunan mənalı ömrü təşkil edir. Natəvanın xeyirxah, humanist ideyalarına, xalq məhəbbəti qazanmış yaradıcılığına sözlə abidə ucaldan M.Rahim şairəni zamanın övladı kimi qələmə alsa da, onun şəxsi nümunəsində bu günün oxucusuna üz tutmuş, xalqa və vətənə təmənnasız xidmətin, vətəndaşlıq yanğısının bu parlaq

mücəssəməsini bizim günlərin ictimai idealları mövqeyindən sənətə gətirməyi qarşısına məqsəd qoymuşdur.

Natəvan həyatda işıqlı bir şəxs, insanların dərdinə qalan bir ziyalı olmuşdur. M.Rahim də poemada onu tarixdəki simasına yaxın təsvir etmişdir. Qaragüruh qüvvələrin şairəyə qarşı fəsadları geniş lövhələrdə təsvir olunur ki, bir tərəfdən tarixi gerçəkliyə yaxın olan bu mənzərəni şair olduğu kimi canlandırdısa, digər tərəfdən də “sovet yazarı“ kimi M.Rahim dövrün ictimai ziddiyyətlərini qabartmaqla yaşadığı dövrün daha müsbət cəhətlərini yada salmaq istəmişdir. Fikrimizcə, axundlar, mirzələr çox çalışırlar ki, Natəvanı hörmətdən salsınlar, hətta onu xalq arasında biabır etmək istəyirlər. Ancaq çox çalışsalar da, buna nail ola bilmirlər. Axırda şairənin bir göyərçinini oğurlayıb, şair Asinin adından bir həcv yazıb, quşun ayağına bağlayır və səs yayırlar ki, Asi Natəvana həcv yazıbdır. M.Rahim qəzəblənir, ricətdə *“Neçə belə rəzalətin şahidisən, ey Qarabağ”,* –deyir. Ayağında məktub olan quşu tutub gətirirlər Natəvana. Müəllif bu həcvin şairəyə necə təsir edəcəyini duyur və ricətlə zamanı lənətləyir:

*“Sənə ancaq bu iş üçün*
*Qoy ar olsun, ey zəmanə!*” [101, s.176] deyir.

Poema müqəddimə ilə başlanır, son (epiloqla) bitir. Sanki müəllifin fəlsəfi düşüncələri ilə haşiyələnir. Müqəddimə əsərdə cərəyan edən hadisələr haqqında ümumiləşdirici təsəvvür yaradır, oxucunu məzmunun real görünümünə hazırlayır.

“Natəvan” poeması bədii quruluşca aydın süjet xəttinə və bitkin kompozisiyaya malik bir əsərdir. Hecanın on birlik ölçüsü burada bədii təhkiyəni, ifadə olunan fikirləri rəvan ifadə etməyə şərait yaratmışdır. Natəvan obrazı əsərdə istedadlı şairə, incə ruhlu qadın-ana, xeyirxah ictimai xadim, ali hisslərlə yaşayan milli heysiyyət sahibi kimi verilmişdir.

Natəvanın fransız yazıçısı Düma ilə görüş səhnəsi poemanın həyəcanla oxunan səhnələrindəndir. Natəvanla tanışlıq Dümanın müsəlman qadınlar haqqında olan fikirlərini alt-üst edir, Natəvanın timsalında dövrün mədəni, savadlı bir qadını ilə görüşür və heyranlığını gizlədə bilmir. Natəvan həm ona sitəm edənlərlə (Hacı Səfər,

Axund Səfa), həm də dost kimi münasibət göstərən Düma ilə görüşlərində bir qayda olaraq, milli ləyaqət sahibi kimi çıxış edir [101, s 131].

XX əsrin ikinci yarısı Azərbaycan poeziyasında mövzu dairəsi, sənətkarlıq məziyyətləri, canlı dili, kövrək ruhu, zərif duyğuları, incə deyimli ifadələri ilə diqqəti cəlb edən söz ustadlarından olan Hüseyn Arif (Hüseynzadə) 1971-ci ildə "Natəvan" poemasını oğlu Arifin kədərli taleyinə və əziz xatirəsinə həsr etmişdir. Taleyində Natəvan ömrünə düşmüş övlad itirməyin acısını yaşamış H.Arif təkcə özünün qalan ömrünün üzüntüsünü deyil, həm də övlad dərdinin bir nikbin ruhlu şairin yaradıcılığının qəm, kədər üzərində kökləndiyinin əyaniliyini yaratmışdır.

Lirik poema Natəvana müraciətlə başlanır, onun hər misrası şair-atanın dost göynədən, yar ağladan, dil titrədən qüssəsini ifadə edir, oxucuya bu dərdin ağırlığını hiss etdirir. H.Arif dərdinə dözümü Natəvanda arayır, onu özünə həyan olmağa səsləyir:

*Çox sınadım öz-özümü,*
*Başqadır şair dözümü.*
*Sənə çevirib üzümü,*
*Gətirmişəm güman bacım*
*Ay mənim, Natəvan bacım* [56, s.311].

Qüssə, kədər üzərində köklənən poema müəllifdə Natəvanın dözümünə bir heyrət oyadır, onun şairə kimi varlığını ölçüb-biçməkdə meyara çevrilir, onun dəyərini yəqinləşdirir:

*Şair məhəbbəti, şair ilhamı*
*Gözəllik eşqilə çağlayan çaydı.*
*Vaqifsiz qalardı Azərbaycanım*
*Onun "Natəvan"ı yaranmasaydı* [56, s.312].

Natəvanın "Xan qızı bulağı"ndan əsrlərlə su görməyən, gül bitirib bar verməyən boz torpağa nicat verməsindən, ağrılara, acılara dözə-dözə qanadsızlara qanad verməsindən, yatan elə həyatından həyat verməsindən söz açan H.Arif qarabağlı bacısını qürur və minnətdarlıqla anır, onun dünyaya yayılan şöhrətiylə öyünür:

*Təkcə Qarabağmı yurdum, məskənim?*

*Ölkələr fəxr edir doğma adınla.*

*Şirin qəzəllərin dillər əzbəri,*

*Könüllər isinib könül odunla* [56, s.315]

H.Arif Natəvan obrazını yaradarkən ədəbiyyatda bütün dövrlər üçün aktual sayılan insan həyatının mənasını, qurub-yaratmaqla tarixdə iz qoymasını əsas qayəyə çevirir. Elinə-obasına olan etimadı ilə bütün dövrlərin etimadını qazanan, ən yüksək insanlıq zirvəsinə ucalan, dərya kamalıyla Günəşə çatan, baxışları ilə zülmətin bağrını sökən Natəvanın bədii obrazı şairin beynində qərinələr arxasında canlanır.

Bədii obrazının əməllərini, yaşadıqlarını bir insan ömrünə sığmayan tale qisməti kimi dəyərləndirən H.Arif onların "sığışmaz varağa, sığışmaz dilə" qənaətinə gəlir, Natəvan irsinin lazımınca öyrənilməməsinə görə "yazanlar çoxunu yazmayıb hələ" elm və incəsənət adamlarını qınağa çəkir, sözü, söhbəti ilə Natəvan haqqında dastan yaradır:

*İnsandan söz açmaq istərəm yenə,*

*Səni düşündükcə bir insan kimi* [56, s.318].

Poemanın son bəndləri ana qucağında Xurşid, dövrün pəncəsində Natəvan olan şairənin xatirəsinə oda kimi səslənir, H.Arif sözün məna və təsir gücünü daha da artırır:

*Vaxt olur insanı vaxtından əvvəl*

*Təbiət öldürmür, əzab öldürür [56, s.323];*

*...Bədənin torpaqda daldalansa da,*

*Döyünən ürəyin sözündə qaldı [56, s.323];*

*...Vətəndə torpağa qarışan insan*

*Torpağa qoşulub yaşar vətəndə* [56, s. 324]

Şair poetik ehtiramını ifadə edərək Natəvana xalq məhəbbətini dilə gətirir, xan qızını "*Ana Məhsətinin yadigarı tək bir məmləkətin başının tacı*" adlandırır.

Lirik poemanın son misraları H.Arifin Natəvanın Bakıdakı heykəli qarşısında düşüncələrini əks etdirir. Bu sətirlər baharın gəlişi ilə, dünyanın yeniləşməsi ilə şairin də əhvalında baş verən pozitiv dəyişiklikləri, qüssə, kədərin yaşamaq, həyat eşqilə

əvəzlənməsini ehtiva edir. H.Arif həyatın bəd üzü ilə yanaşı, xoş anlarının olduğunu oxucuya çatdırır, yeni dünyamızda yenidən doğulan Natəvana gözaydınlığı verir və şairənin ruhuna ehtiramını metafizik düşüncələrlə ifadə edir:

*Üfüqdə gülən səhərə,*
*Daha işıqlı günlərə*
*Bizimlə bir addımlayan*
*Xan qızı Natəvan bacım* [56, s.325]

Hüseyn Arif çoxcəhətli yaradıcılığında xalqımızın görkəmli yaradıcı simalarına, söz ustadlarına, tariximizin ayrı-ayrı məqamlarına 30-dan çox poema həsr etmiş, bu janrın imkanlarından istifadə etməklə söz səltənətinə dəyərli töhfələr vermişdir. Şairin həyatında baş vermiş oğul müsibəti onun yaradıcılığına təsirsiz ötüşməmiş, Arif dərdini silsilə şeirlərdə dilə gətirmiş, bu doğma kədəri bir daha "Natəvan" poemasında yaşamışdır.

*"Hüseyn Arif poemada Natəvanın həyatını bütün genişliyi ilə canlandırmağı qarşısında məqsəd qoymuş bu xeyirxah və mənalı ömrün bəzi əlamətdar cəhətlərini qələmə alaraq, məzmunca dolğun, şeiriyyətcə gözəl, poetik lövhələrlə zəngin bir poema yarada bilmişdir*" [98, s.15]. Diqqət mərkəzinə çəkdiyimiz fikirlərdən də aydın olur ki, yüksək poetik ilhamlı, coşğun təbli, ortaq dərdin daşıyıcısı olan H.Arifin poeması xan qızı Natəvan ömrünə, sənətinə, kədərli taleyinə ucaldılmış dəyərli abidə kimi şeiriyyətini, sənətkarlıq dəyərini qoruyan mükəmməl bədii nümunədir.

1962-ci ilin oktyabr ayında yazılmış Azərbaycan və Yaxın Şərq ölkələrində ədəbi-ictimai fikrin ən gözəl, qabaqcıl ənənələri əsasında yetişən, yeni realist mədəniyyətin, teatrın, nəsrin, estetik-fəlsəfi fikrin yaranmasında və inkişafında böyük rol oynamış M.F.Axundovun ədəbi obrazı S.Rüstəmin "Səbuhini düşünərkən" və Tofiq Bayramın uzunmüddətli səmərəli axtarışlarının nəticəsi olan (1962-1982) "Yaralı nəğmə" adlı tarixi poemaları poetik axtarışların uğurlu bəhrələridir.

S.Rüstəmin "Səbuhini düşünərkən" poeması məzmun və forma baxımından janrın tələblərinə tam cavab vermədiyindən əsər daha çox süjetli şeiri xatırladır. 117 misralıq əsərdə Azərbaycan ədəbiyyatında dramaturgiyanın banisi M.F.Axundovun

millətin azadlığı uğrunda apardığı mübarizədə göstərdiyi fədakarlıqlar sadalanır və ədibin ümumiləşdirilmiş portreti canlandırılır.

Çoxdan düşündüyü ideyanı – Səbuhi haqqında əsər yazmağı qət edən S.Rüstəm mütəfəkkir-yazıçı kimi şöhrət tapan qəhrəmanının ictimai amal uğrunda mübarizəsinin başlıca xüsusiyyətini müəyyən etməklə təqdim edir. Şair Axundovun millətin azadlığı uğrundakı yorulmaz fəaliyyətini mənbələrə əsaslanaraq müşahidə etmiş, tarixi reallıqları təhrif etmədən nəzmə çəkmişdir. İlk misralardan Səbuhinin səciyyəvi xarakterini canlandırmağa çalışan S.Rüstəm epitet və təşbehdən istifadə edərək ədəbi qəhrəmanını

*Bir millətin dərdlərini ürəyində gəzdirən*

*...Əsrin ağır yüklərini kürəyində gəzdirən* [104, s.124]

millət fədaisi kimi dəyərləndirir, "Qatı qara buludların içindən Günəş kimi göründüyünü" ifadə edir. Əsərin ümumi ruhu M.F.Axundov timsalında deyir ki, hər kəs millət, xalq yolunda çalışmağın şərəf və ləyaqətini duymalı, millətin varlığını qorumaqda əziyyətdən çəkinməyərək əbədiyaşarlılıq qazanmağa can atmalıdır. Necə ki, Axundov əlindəki qələmini:

Qılınc kimi cəhalətin boğazına dayadı

*...Haray çəkdi təməlindən dəyişməkçin həyatı [104, s.124]*

*Hücum çəkdi qaranlıqlar dünyasına amansız [104, s.113]*

*Bircə an da yaşamadı azadlığa gümansız [104, s.125]*

S.Rüstəm M.F.Axundov yaradıcılığı, fəaliyyət yolundan bəhs edən qaynaqlara söykənərək şəxsiyyətin bitkinliyini, dövrünün real mənzərəsini təxəyyül imkanlarından istifadə edərək təsvir edir. Oxucunun nəzərində Axundov gənc yaşlarından qan ağlayan Şərqi azadlığa səsləyən mübariz kimi ucalır. Müəllif üz tutub Səbuhiyə: döyüşlərdə yağılardan min yara alsan da, *"Sən başını dik tutub, Ürəyinin ağrısını unudub Öz xalqının yarasını düşündün, Azad, xoşbəxt dünyasını düşündün"* [104, s.114-126] - deyir.

Səbuhini düşünən S.Rüstəm ədəbi qəhrəmanını qərinələrdən keçirib bu günümüzə gətirir. Burada iki yüz ilin o üzündə qalmış dünyadan XX yüzilliyə körpü salan sənətkar Axundov gerçəyini o qədər realist və milli planda təsvir etmişdir ki,

XXI əsrdə belə bu ideyalar təzəliyini, gərəkliliyini qoruyub saxlayır. Beləliklə, S.Rüstəmin düşüncələrində Səbuhi – M.F.Axundov cəmiyyətimizin mənəvi saflığı və sağlamlığı, millətin gözündən zülmət pərdəsinin qaldırılması uğrunda mübarizədə fəal vətəndaşlıq, milli ziyalılıq nümunəsi göstərir.

H.Arifin 1962-ci ildə çap olunan "Onlar görüşdülər" (poemadan fəsillər) əsərində M.F.Axundovun bədii obrazı onun mütərcim, rus ədəbiyyatının qabaqcıl nümayəndələri ilə əlaqələr və A.S.Puşkinin ölümünə həsr olunmuş "Şərq poeması"nın elmi-ədəbi dəyərinin poetik ifadəsi ilə tərənnüm edilmişdir. Əsərin süjet xətti M.F.Axundovun Tiflisdə, Qafqaz canişinliyi idarəsində baş mütərcim vəzifəsində çalışdığı dövrlərdən alınır. "Döz buna tərcüməçi", Axundov və Bakıxanovun dekabrist-yazıçı Bestujev-Marlinski ilə əlaqələri "İnsan insanı axtarır", "Dostlar" və M.F.Axundovun 1837-ci ildə Puşkinə həsr etdiyi poemanın vəsfi üzərində "Şərq poeması", "İki şeir" qurulmuş bölmələr poemanı oxunaqlı etdiyi kimi, ədəbi qəhrəmanın xarakterini, şəxsi keyfiyyətlərini, milli mübarizəsini də dolğunluqla əks etdirir.

Poema çarizmin xalqlarla amansız rəftarını, əsərin ümumi ruhunu müəyyənləşdirən interyerlə - dəftərxananın təsviri ilə başlanır:

*İmperatorun şəkli*
*baş tərəfdən asılmış* [55, s.29].

İlk misralardan M.F.Axundovun bir tərcüman kimi aclıq, soyuq, cəhalət, yalan, böhtan, xəyanət, xalq dərdini anladan şikayət məktublar, ərizələr, fərmanlar, göstərişlərlə rəftarını qəlb ağrısı ilə göstərən H.Hüseynzadə (Arif) də ədəbi obrazının gələcək fəaliyyətinin bünövrəsini qoyur, mütəfəkkir-filosofun və yazıçı-dramaturqun necə, hansı şərtlər altında yetişdiyini göz önünə gətirir. Dünyaya qarşısında qalaq-qalaq yığılan, xalqın can yanğısı, göz yaşıyla yazılan şikayət məktublarından boylanan Səbuhi xidmətdə rəğbət qazansa da, *"ruhən çarizmin tərəfində durmamış, onun tərəfdarı olmamışdır"* [78, s.262]. Gözünün qabağında yığılan kağızlar zülmə məruz qalan bir millətin əzab və iztirablarının, ah-naləsinin vətəndaş-ziyalı düşüncələrində doğurduğu təbəddülat kimi qələmə verilir.

“Döz buna tərcüməçi” adlanan birinci fəsildə gənc Mirzə Fətəlinin yanına gəlmiş gözləri çuxurda, saçları dümağ, dodaqlarının rəngi qaçmış qocayla söhbəti, onun dərdini dinləməsi səhnəsi oğlunun nahaqdan arxadan su açdığına görə bəy tərəfindən tutulmasından şikayət edən kəndli ilə ünsiyyəti, məmurun insanlığı şikayətçini heyrətləndirir, indiyədək burda belə hörmət görmədiyindən təsirlənir, ümidini ona bağlayır:

*Yaz, oğul: Deyirlər sən yazan şey*
*Daşdan, dəmirdən keçir* [55, s.30].

Yeni realist Azərbaycan ədəbiyyatının banisi M.F.Axundovun formalaşmasında Tiflis ədəbi mühitinin, o cümlədən zaman-zaman siyasi fəaliyyətlərinə görə Qafqaza sürgün edilmiş rus ədəbiyyatı nümayəndələrinin roluna, onun xüsusilə Bestujev Marlinski ilə yaxınlaşmasına əsərdə əhəmiyyətli diqqət yetirilir. M.F.Axundova həsr olunmuş əsərlərdə onun müasirləri olan rus ədiblərinin obrazının yer alması onunla bağlıdır ki, Azərbaycan-rus ədəbi əlaqələrinin möhkəmlənməsi üçün onun böyük xidmətləri olmuşdur.

H.Arif isə əsərdə gənc M.Fətəlini daim düşünən, zülmət içində boğulan nəsillərin ömürləri möhnət içində çürüyən adamların xilası üçün yollar axtaran maarifpərvər mütəfəkkir-filosof kimi təsvir edir. Əsərin başlıca ideyasını da məhz M.F.Axundovun bütün çoxcəhətli fəaliyyətinin xalqa xidmət etməyin misilsiz nümunəsi təşkil edir. Əsərdə M.F.Axundovun Azərbaycan ədəbiyyatının inkişafı uğrunda mübarizəsi, onun rus ədəbiyyatı ilə tanışlığı, rus cəmiyyətində baş verənlərə diqqəti və reaksiyası müəllif tərəfindən əhatəli verilmişdir. H.Arif ədəbi qəhrəmanının Puşkinin ölümünə həsr etdiyi “Şərq poeması” nı Azərbaycan və rus ədəbiyyatşünaslığı kontekstində qiymətləndirir, Səbuhinin öz ürək ağrılarını, rus mədəniyyətinə üz vermiş ağır itkidən təsirləndiyini göstərir, bu cinayətin təkcə rus xalqına deyil, bəşər mədəniyyətinə qarşı törədildiyinə etirazını ifadə edir.

Əsərdə M.F.Axundovun “Şərq poeması” “amansız çarın başının üstündə çaxan ildırım” adlandırılır, yüksək qürur hissi ilə Axundovun Puşkin və rus ədəbiyyatı haqqında geniş təsəvvürünü alqışlayır və tərənnüm edir.

Poemanın sonuncu "İki şeir" fəsli əslində poemanın qayəsinin açılmasına xidmət edir. Müəllif Puşkinin ölümünə yazılmış iki əsəri – yatağına sığmayan, coşqun bir ümman kimi dil açan M.Y.Lermantovun "Şairin ölümü" və Səbuhinin "Şərq poeması"nı onlarla ithaf arasından seçib xüsusiləşdirmişdir.

H.Hüseynzadə (Arif) poetik dildə hər iki əsərin başlıca qayəsini onların "qətl olunan şairin qanını tələb etməsi" ilə müəyyənləşdirir. Qoca Şərqin dahi rus şairinə olan sonsuz məhəbbətini şairanə dildə ifadə edən "Şərq poeması" ilə "Şairin ölümü" və digər hər hansı bir əsər arasında "yaxınlıq" arayanlara tutarlı cavab verir.

H.Hüseynzadənin (Arif) tamamlanmamış "Poemanın fəsilləri M.F.Axundovun azadlıq və səadət axtarışlarında olan gənclik illərinin poetikasını yaradır, bədii ifadəsini əks etdirir". Heykəl önündə Mirzə Fətəlini düşünən müəllif onu dərin-dərin düşüncələrə dalan görür, geniş sinəsi qabarmış, ürəyi sözlə dolu görür. Müəllifin bu yozumunda ədəbi obrazın ürəyində deyilməmiş sözü qaldığı, demək istədiklərindən, yazmaq istədiklərindən hamısını deyə, yaza bilməməsi anlaşılır.

*Ayrılmır bircə an*
*Səbuhi kitablardan,*
*qaynayır dəniz kimi,*
*onunladır Nizami.*
*Vaqif, Füzuli, Puşkin,*
*Sədi, Xəyyam, Karamzin* [55, s. 57].

Poemanın "Onlar hara gedirlər?" fəslində Azərbaycanın iki əkiz oğlu – A.Bakıxanovla M.Fətəlinin Tiflisin dolaşıq küçələri ilə irəli addımlamaları, millətin dərdindən danışmaları, birgə çarə axtarmaları əsas yer tutur. Məllif ustad-şair münasibətinin mahiyyətinə varır, onların istəklərini bu şəkildə dilə gətirir:

*Şərqin sinəsinə çökmüş ətalət,*
*Qönçətək açmadan solur oğul-qız.*
*Cəhalət içində boğulur millət,*
*Çoxdur maarifə ehtiyacımız* [55, s. 58].

Əsərdən gətirilən bu misralarda XIX əsr Azərbaycanın dərdinin miqyası görünür, əlacsızlığın insanı və bütövlükdə cəmiyyəti düçar etdiyi ağrının, kədərin

çəkilməzliyi dərk olunacaq səviyyədə təqdim olunur. Bu hisslər gənc Fətəlinin qismətinə düşən insan gücündən artıq sınaq qarşısında qaldığını ifadə edir.

Poemanın əsas çəkisini onun ayrı-ayrı fəsillərində M.Fətəlinin üzərinə düşən məsuliyyətinin aydın dərki daşıyır. Əsərin baş qəhrəmanı kimi o, mənsub olduğu xalqın faciəsini, Vətənin dərdini, yurdun ağır gününün bədbəxtliyini açıq-aşkar anlayır, öz missiyasını onda görür ki,

*Vaxtsız üstümüzü aldı toz-duman,*
*Günümüz qaradır, saçımız ağdır.*
*Biz də oyatmasaq, xalqı yuxudan,*
*Kim onu səsləyib qaldıracaqdır?!* [55, s.59]

Bu fikirdə millətin inkişafı yolunda M.Fətəlini millət fədaisi kimi görən hər kəs özünü Vətənə xidmətə səfərbər etməlidir. Bu mənada M.F.Axundovun yaradıcılığı və mübarizəsi Vətən dərdinə yanmağın bariz nümunəsi himni deyilmi?

H.Hüseynzadə (Arif) poemada zaman-zaman ədəbi qəhrəmanının insansevər xarakterini qabardır, onu “arxasızın dirəyi”, hamının “güman yeri”, “dar gündə köməyi” və s. ifadələrlə təsvir edərək qürurlanır, lakin “Dağları çiynində gəzdirən” Fətəlinin “əyilməz qəddini möhnət əyibdir” fikrilə təəssüflənir. Biri-birini təkzib edən fikirlərin özü də qəhrəmanın yaşadığı şərtlərə baxmayaraq, onun mətnliyini, mübarizliyini göstərmək gücündədir. Poemada M.Fətəlinin müəllimlik fəaliyyəti, onun xalqın maariflənməsi yolunda mübarizəsi obrazın xarakterik məziyyətlərini müəyyənləşdirən cəhətlər kimi diqqət mərkəzinə çəkilir. “O yenə qayıtdı” fəslində xalqını cəhalət yuxusundan ayıltmaq üçün dərs deməklə kifayətlənmir, həm də şagirdlərinin və valideynlərinin təfəkkürünü yeniləşdirməyə çalışan əzabkeş insanı görür, xalqımızın milli-mədəni dəyərlərini qoruyub yaşadan ən görkəmli nümayəndələrindən biri ilə canlı ünsiyyət bağlayır.

Axundov obrazının yaradıldığı qiymətli bədii nümunələrdən biri də istedadlı şair Tofiq Bayramın “Yaralı nəğmə” tarixi mövzulu poemasıdır. Məzmununda epik nəqlolunma və epik təsvirlərdən geniş istifadə olunduğu T.Bayramın “Yaralı nəğmə” poeması da Azərbaycan dramaturgiyasının banisi, böyük mütəfəkkir M.F.Axundovun ədəbi ictimai fəaliyyətinin ilk dövrlərinə həsr olunmuşdur. 8 hissədən ibarət yazılmış

poema müəllifin M.F.Axundovdan gətirdiyi "*Biz behiştə bərabər olan vətənimizin şərafətini əhya etməliyik"* epiqrafı ilə başlanır və ədəbi qəhrəmanın fəaliyyətinin, istək və arzularının ifadəsinə, geniş oxucu kütlələrinə çatdırılmasına xidmət edir.

T.Bayram da poemanı dövrün xarakteristikası ilə, lakin daha ətraflı və təsirli verməklə başlayır. Hər cür istismar və təhqirlərə məruz qalan, yüzbaşının, kəndxudanın, bəyin zülmünə dözməyən, ən adi insani hüquqlardan məhrum olan kəndlinin vəziyyəti bütövlükdə xalqın keçirdiyi ağır həyat şəraitinin, dözülməz dərdlərinin ifadəsi baxımından ictimai, sosial mahiyyəti ilə diqqəti cəlb edir:

*Yazıq necə qayıtsın*
*Külfətinin yanına?*
*Həyat onu çəkmişdi*
*Aclıq imtahanına* [20, s.251].

Bir qarış torpağını itirən kəndli kimə əl açacağını, kimə pənah gətirəcəyini bilmir. "Yerdə itən haqqını Göydən ala bilməyəcəyini" anlayan kəndli kəndin qoca mirzəsinə məktub yazıb Tiflisə, baş divanxanaya dərdinə çarə tapmağa göndərir:

*Kənddən çapar gedir ayda bir kərə,*
*Gözləsə külfəti, ölər acından.*
*Özü yola düşdü o qərib yerə,*
*Danışsın dərdindən, ehtiyacından* [20, s.253].

Poemada oxucu Mirzə Fətəli ilə 3-cü hissədə görüşür. T.Bayram ədəbi qəhrəmanından söz açmazdan əvvəl onun haqqında xalqda olan təsəvvürlərdən, vali divanında "haqq" məmurundan söhbət açır. Başı lovlu, ürəyi dağlı kəndlinin *"Bir vətən qeyrətli, kişi papaqlı İnsana əşhədü-ehtiyacı var*" [20, s.124] misralarının arxasından Axundovun xəyali obrazı canlansa da, yalnız 3-cü hissədə Axundovla qarşılaşırıq. Bura qədərki hissələrdə isə yazar özünəməxsus süjet modeli ilə Axundovun obrazını əməlləri, xalq arasında ona olan münasibətilə formalaşdırmışdır.

Əvvəlki hissələrdə xalqın dərdlərini önə çıxaran müəllif Axundovun gələcək fəaliyyəti üçün bir növ zəmin hazırlayır. Məktub aparan kəndli "Torpaq gətir, ay dədə, çörək gətir, ay dədə",- deyə imdad edən övladının səsini özü ilə Tiflisə aparır. O məktubda bir dərdli ananın "yoxsul varlının əlindən qan udur" fəryadı eşidilir. Ən

böyük dərd isə “Yadlar əlifbasıyla Azərbaycan fəryadının” yazılması, ana dilində məktəb, mədrəsənin olmamasıdır.

*Dövrün zülmünə bax:*
*Qanını ovuc-ovuc*
*İçirlər doymayırlar*
*Dərdini öz dilində*
*Deməyə qoymayırlar* [20, s.256].

“Dilsiz” millətin dil dərdini T.Bayram ədəbi qəhrəmanının əsas mübarizəsi hesab edərək ön plana çıxarır. Bu fikrində ona əsaslanır ki, *“M.F.Axundov ədəbiyyatın bir sıra janrlarında ana dilində əsər yazmağa ilk dəfə təşəbbüs etməklə xalqın zəngin dil xəzinəsini üzə çıxarmış və sübut etmişdir ki, Azərbaycan xalqının da gözəl və zəngin dili vardır, bu dildə xalqın bütün istək və arzularını bədii şəkildə ifadə etmək mümkündür*” [81].

Bəllidir ki, ictimai-ədəbi fikir tariximizdə milli əlifba layihəsinin ən böyük cəfakeşi, təbliğatçısı, bu istiqamətli əməli fəaliyyətin sahibi olan Mirzə Fətəli Axundovun əlifba layihəsi və bu sahədəki fəaliyyətinə poemada yer verilsə də, milli əlifbanın yaradılmasının zərurəti lazımi şəkildə açıqlanmır. Başa düşüləndir ki, poema sovetlər dönəmində yazılmışdır, rejim heç bir ziyalıya bu məsələləri qabartmağa imkan vermirdi, Axundov və digər ziyalılarımızın milli fəaliyyəti, əlifba mübarizəsinə dair araşdırmalar kifayət qədər yox idi, yaxud geniş kütləyə açıq deyildi, o zaman Tofiq Bayramın poemada Axundovun “əlifba mübarizəsi”ndən geniş bəhs etmək imkanı yetərli qədər deyildi.

Bu hissə Axundovun yaşayıb işlədiyi Tiflis şəhərinin məğrur, uca qala divarlarının pəhləvan tək şəhər üstünə sinə gərməsi, Kür çayının qayalara çırpıldıqca yaralanmış bir aslan tək nəriltisi, iti bürclərin nizə kimi sıx dumanı parçalayıb doğan günəşə yol açması, dan şəfəqinin su yerinə axan qanı yerdən yığıb öz rənginə qarışdırması, günəşin qıpqırmızı ürək kimi sallanması və s. mənzərəsi ilə başlanır. Burada təşbeh və başqa bədii təsvir vasitələri əsərin bədii ruhunu, “*öz şəxsi həyatının mənasını ümumin mənafeyinə xidmət etməkdə görən və öz qarşısına məhkum, məzlum xalqları qaranlıqdan işıqlı bir aləmə çıxarmaq məqsədini qoyan mübariz*

*mütəfəkkirin"* [27, s.35] düşüncələrinin mahiyyyətini tamamlayır. Bu arzular poema qəhrəmanında narahatlıq, həyəcan hissləri doğurur, onda yazıb-yaratmaq, xalqı maarifləndirmək, sabahı işıqlı və xoşbəxt görmək istəyi oyadır.

T.Bayram Kürün Tiflisi xəncər kimi yarı bölməsini, talelərin də ikiyə bölünməsini - sağ sahilin daxmalarının yerə çökməsini, sol sahilin yükünün də o evlərə düşməsini dövrün, zamanın fitvası kimi qəbul edir, qiymətləndirir, sətraltı ifadələrdə gizlənən mətləblər simvolik çalarları ilə diqqəti cəlb edir:

*Yox, yox, çayın nə günahı?*
*Üzüqara*
*Zəmanədir ayrılığın günahkarı*
*Həyat qənim kəsiləndə*
*Kasıblara qan ağlayır,*
*Çaya dönür göz yaşları* [20, s.268].

Əsərdəki konflikt xalqı əsarətdə saxlayan rejimlə Mirzə Fətəlinin milləti azadlığa, səadətə çıxarmaq arzusu arasındakı mübarizədən doğur. Əsər boyu Qafqazın şeir, sənət mərkəzi olan Tiflis şəhərinin sağ sahili ilə sol sahili varlı zadəganlarla kasıb xalq kütlələri arasında qarşıdurmanın motivlərini özündə daşımaqla faktoru diqqət mərkəzində saxlayır:

*Tiflis – nağıl*
*Tiflis – cənnət əvəzidir.*
*Pulun varsa, bu cənnəti buyur, yarat*
*Pulun yoxsa,*
*Hərr yer sənə cəhənnəmdir* [20, s.269].

Tiflisin müsəlman məhəlləsinin, qaynar qazan kimi aşıb-daşan Şeytanbazarın, bazar əhlinin təsviri, güllə kimi şaqqıldayan qamçı səsi, dilənçilərlə rəftar bu təzadı daha da gücləndirir. Burada şair epik təsvirə üstünlük verir. Dilənçilər yol keçən xanımlara əl açaraq tifillərə çörək pulu dilənirlər. Gümüş pullar yerə səpələnir. "Yardım" verən xanımların əlləri ilə neçə nakam yetim qəlbi yaralanır. Keçən çar əsgərləri əlləri yerdə pul axtaran dilənçini əzib keçir:

*Qəpik gəzən gözlərinə*

*Təpik dəyir,*

*Qızıl qanı parıldayır*

*Daşlar üstə* [20, s.272].

T.Bayram burada adi hal sayılan bu faciəyə ətrafdakıların münasibətini müxtəlif tərzdə bildirir: ah çəkənlər, göz yaşı axıdanlar, dodaq büzüb gözucu baxanlar arasında bulud kimi dolan, qaynar gözlərindən alov yağan, palıd kimi əyilməz, zər paqonlu, qanadları yarı bağlı qartalın uğursuz dilənçinin ölümünə yandığını, sanki özünün yaralandığını hiss edən məmur yaxın gəlib pul uzadır hamballara ortalıqdan götürməkçin və dəfn etməkçin o meyidi. Süjetin sonrakı inkişafı ölənin divanxanaya məktub gətirən kəndli, ona mərhəmət edən isə Mirzə Fətəli olduğunu ortaya çıxarır:

*Fətəlidir pənahımız,*

*Köməyimiz*

*Dar ayaqda yapışmasa,*

*Əlimizdən*

*Əldən çıxar olub qalan*

*Çörəyimiz* [20, s.279].

Tapdanaraq ölmüş kəndlinin üzərində göz yaşları, qan ləkəsi olan məktubu poemada obraz səviyyəsində təqdim olunur, məktub – ümid, xalq dərdinin ifadəsi və qan örtüklü Vətən kimi dəyərləndirilir. T.Bayram Fətəlinin məktuba münasibətini belə mənalandırır:

*Yox, Fətəli məktub kimi*

*Baxmır ona,*

*Baxır üzü qan örtüklü*

*Vətən kimi* ... [20, s.279].

Bu misralardan sonra poema müəllifi Axundovun millətin nicat yolunun tapılmasında axtarış və düşüncələrinin mahiyyətinə varır, şeirin ahəngi qəhrəmanın ruhi vəziyyətinə uyğun şəkildə dəyişir – daxili düşüncələr qətiyyətli addımlarla əvəzlənir. Millətinin fəryadına dözə bilməyən, onu qəflət yuxusundan oyatmağa çalışan Mirzə Fətəli özündə ildırım gücü hiss edir, qəsidə, qoşma yazmağın millətin

yarasına məlhəm olmadığını anlayır, şeir günəşi Nizaminin cahanşümul sənətinə arxalanıb genişlik, asiman, zirvələrə uçmaq üçün bir qanad istəyir, özündə xalqa işıq saçmaq istəyən üsyan, qəzəb, kin duyur, şüurlarda inqilab, mübarizə üçün sənət meydanını axtarır. Poemada müəllifin diqqət mərkəzinə çəkmək istədiyi iki mətləbin üzərində durmaq gərəyi vardır. Birincisi budur ki, Tofiq Bayram Axundovun klassik ədəbi irsə, saray ədəbiyyatına, qəzəl, qəsidə yaradıcılığına birmənalı münasibəti olmaması gerçəyini diqqət mərkəzinə çəkmək istəyir. İkincisi isə müəllif Tiflisin iki məhəlləsi arasındakı kəskin fərqi qabartmaqla bir tərəfdən Axundovu türk-müsəlman xalqların pənahı kimi daşıdığı tarixi missiyanı qabardır, digər tərəfdən isə azərbaycanlıların da yaşadığı Tiflisdə çar rejiminin idarəçiliyi dövründə müsəlmanlara ayrımçı münasibət bəsləndiyini, ikinci məhəllədə isə insanların daha rifahla yaşadığı gerçəyini göz önünə gətirir. Eyni zamanda da Tofiq Bayram XIX əsrdə müsəlman-xristian faktorunun doğurduğu real nəticəni göstərir, rus şovinist siyasətinin türk-müsəlman xalqlarına münasibətini bir şəhərin realist mənzərəsində diqqət mərkəzinə çəkir. Özlüyündə böyük ictimai-siyasi mətləblərdən xəbər verən bu müqayisəli təsvir deməyə əsas verir ki, Tofiq Bayram milli təfəkkürünün ifadəsi olan bu gerçəyi dilə gətirmək sovet dövründə sadəcə cəsarət istəyirdi və bu məqam əsərin ən çox tarixi-siyasi əhəmiyyət daşıyan mərhələsidir.

Bir millətin azadlığının buxovlanması, arzularının sinələrdən qoparılaraq oda atılması ədəbi qəhrəmanda o fikri oyadır ki, ağrılardan oğulları vulkan kimi püskürməyən, haqq yolunda qasırğalı ümman kimi hayqırmayan

*O millətin ürəyində*
*Məhkumluğa nifrət olmaz,*
*Zalımını, düşmənini*
*Tanımayan bir millətdən*
*Tayfa olar, millət olmaz* [20, s.289].

T.Bayram bu fikirlərlə Axundovun mənəvi aləmini, məqsəd və məramını müəyyənləşdirir, onun həyat amalını düzgün təyin edir: "Bu dövranı dəyişməli, Bax bu yolda "Vətən" deyib döyüşməli!"

M.F.Axundov şəxsiyyətini geniş planda təqdim edən T.Bayram bədii obrazın həyatındakı çətinlikləri təsvir etməklə onun fəaliyyətinin görünən və görünməyən tərəflərini ilk baxışda ziddiyyətli təsir bağışlayan məqamlarına işıq tutur. Bu çətinliklərin bir qismi Axundovun dini-əfsanəvi rəvayətləri, xalqın şüurunu zəhərləyən zövqünü korlayan hər cür dini fanatizmə qarşı çıxması ilə bağlıdırsa, digəri onun məmurluq fəaliyyəti ilə şərtlənir. Bu mənada Mirzə Fətəliyə öz dövrünün ikili münasibətinə fikir aydınlığı gətirilir, poemada onun alicənab keyfiyyətləri məharətlə tərənnüm olunur, xalqına dərin məhəbbətini T.Bayram iftixarla ədibin ilham mənbəyi hesab edir. Yaşamağın, yaratmağın çətin olduğu bu dövrdə bərkiyən, mətinləşən obrazın

*Çiyni çarın olsa da,*
*Qəlbi millətin oldu* [20, s.304].

fikri Axundov dühasının mahiyyətini, *"Əynindəki hərbi geyim, Sıxır onu zindan kimi"* təşbehi isə onun xalqına xidmət etmək arzusunu ifadə edir. Əsərin son iki hissəsində T.Bayram Axundovun öz dövründə geniş xalq kütlələrinin xəyalını hərəkətə gətirmək, onların zövqünü cilalandırmaq, mənəviyyatlarını zənginləşdirmək üçün şeirdən drama, kiçik ədəbi formadan böyük formalara keçmək arzusuna və həmin janrda müasir ruhlu ilk pyes yazmasına diqqət yetirir:

*Bu nə həyat, nə dövrandır?*
*Təməli qan, hökmü qandır.*
*Haqq deyənin mükafatı*
*Ya güllə, ya dar ağacı* [20, s.311].

Dövrü səciyyələndirən müəllif bunu "təməli, hökmü qan olan" dövranın tələb etdiyini, dövrün ictimai-siyasi mənzərəsini xalqın savadsızlığını, yaşamaq adı altında ömür sürən Günəşi də gizli görən ana-bacıların "Necə məni oxusun bəs?" düşüncəsini əsas götürən Axundovun istəyini, çıxış yolunu onda görür ki,

*Şeir yazmaq fayda verməz,*
*Roman yazmaq fayda verməz,*
*Güzgü kimi düz göstərən*
*Səhnə gərək indi bizə* [20, s.315].

Yalnız bu yolla millət gözünü açıb o güzgüyə baxar, özünə nəzər salıb özünü tanıya bilər. T.Bayram Səbuhinin bunları dərindən anladığını, qəlbində zamanın dərdlərilə vuruşunda bircə qələminə arxalandığını, Tiflisdə oturub Azərbaycanı güzgü kimi göstərdiyini, sənətdə inqilab yaratdığının müjdəsini verir, onun ilk əsərinin zamanla vuruşunu qəflət dünyasına od vuran qığılcım, Şərqin fırtınası adlandırır:

*Onun damarında coşub qaynayan*
*Qeyrət bulağıdır, kişilik qanı.*
*Səssiz küçələrlə yeriyir bu an*
*Şərqin fırtınası, Şərqin tufanı* [20, s.320].

S.Rüstəmin "Səbuhini düşünərkən", H.Arif (Hüseynzadə) "Onlar görüşdülər" və T.Bayram "Yaralı nəğmə" tarixi poemaları M.F.Axundovun ilkin yaradıcılıq və fəaliyyət dövrlərini əhatə etsə də, hər bir poemada güclü müəllif mütaliəsi, milli yanğı, vətəndaşlıq qayəsinin istedadla birləşməsi nəticəsində mütəfəkkir dramaturqun bədii obrazı tarixi reallıqları təhrif etmədən yaradılır. Axundov obrazının yaradıldığı bəhs etdiyimiz tarixi poemalar yalnız yazıldığı dövrdə deyil, bu gün də ədəbi-bədii dəyərini itirməmiş, orijinal strukturu, təsvir və ifadə gözəlliyi, bədii təsvir və ifadə vasitələrindən yerində istifadəsi, mövzu və ideyası ilə diqqəti cəlb edir, ədəbi-nəzəri fikrin olduğu kimi, oxucu kütləsinin də marağına xidmət edir.

## 2.2. XX əsrin əvvəlləri realist ədəbiyyatımızın klassiklərinə həsr olunmuş tarixi poemaların əsas xüsusiyyətləri

Azərbaycan milli-demokratik ədəbiyyatının görkəmli simalarından sayılan, *"...ədəbiyyatda və ictimai həyatda Azərbaycanın milli oyanışı, dirçəlişi və müstəqilliyi uğrunda mübarizənin möhkəm bünövrəsini yaradan"* [48, s.12] Cəlil Məmmədquluzadənin ədəbi irsi çoxsaylı dissertasiya və monoqrafiyalarda geniş şəkildə araşdırıldığı kimi, onun həyatını, mühitini mövzu alan bir sıra bədii əsərlər də yazılmış, ədibin dolğun bədii obrazı yaradılmışdır. Mirzə Cəlil obrazının yaradıldığı tarixi poemalar da ictimai məzmunu, ədəbi-nəzəri dəyəri ilə ədəbi-bədii fikrimizi

zənginləşdirmişdir. Böyük ədibin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2019-cu il tarixli sərəncamı ustad sənətkar irsinə yenidən qayıdış motivlərini ifadə etmək baxımından tarixi əhəmiyyət daşıyır. Sərəncamda deyilir: *"Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmışdır"* [29].

Mirzə Cəlil obrazının yaradıldığı tarixi poemalar sırasında öz estetik-bədii məziyyətləri, ideya bədii xüsusiyyətləri ilə seçilən nümunələr sırasında Əliağa Kürçaylının "Durnalar cənuba uçur" və Rüstəm Behrudinin "Daha gülə-gülə ağlamaq olmur" tarixi poemaları xüsusilə diqqəti cəlb edir.

Ə.Kürçaylının xalqımızın böyük oğlu Mirzə Cəlilin anadan olmasının 100 illiyinə həsr olunmuş "Durnalar cənuba uçur" poeması 1967-ci ildə "Gənclik" nəşriyyatında çap olunmuşdur. Poema ithaf və on dörd hissədən ibarət olmaqla C.Məmmədquluzadənin yaradıcılığının Tiflis mərhələsini və "Molla Nəsrəddin" jurnalının buradakı nəşr dövrünü əhatə edir. Bu da onunla izah olunur ki, həmin dövrdə *"bir sıra mütərəqqi ziyalılar, eləcə də Cəlil Məmmədquluzadə özü 1903-cü ilin dekabr ayından etibarən Qafqazın əsas inzibati və mədəni mərkəzi sayılan Tiflis şəhərində yaşayıb işləmişdir"* [49, s.78].

Poemanın müqəddiməsində Ə.Kürçaylı parçalanmış Vətən dərdini, qardaşın qardaşa həsrətini dövrün haqsızlığı, işğalçı dövlətlərin özbaşınalığı kimi dəyərləndirir, bu ayrılığın ananın öz balasından ayrı düşməsinin faciəsindən, sevgililəri ayıran hicrandan, cəlayi-vətən olmuşların həsrətindən daha acı və məşəqqətli olduğunu təsdiqləyir, ikiyə bölünmüş bir ölkənin dərdini adlandırmaqda çətinlik çəkir:

*Qoca tarix hər xalqa öz adını verəli*
*Bir torpağı ikiyə bölməmişdir heç zaman.*
*Heç vaxt ayırmamışdır qardaşı qardaşından* [71, s.139]

Şair poemanın hissələrini adlandırmasa da, epiqraf kimi başlığa çıxardığı fikirlərlə hər bir hissənin məzmununa oxucunu cəlb edir, bu ədəbi priyom əsərin sonuna qədər izlənilir.

Tiflisin Şeytanbazarında şəhər "bunların əlindən bezardı, qardaş", deyən bir tacirlə təbrizlinin çəkişməsini atası, qardaşı məşrutəçi deyə dar ağacından asılan, kiçik bacıları acından ölən, Tiflisə pənah gətirən Savalan yatırmağa çalışır. Tehranda darülfununu bitirən, lakin ömrü boyu yer qazan, dülgərlik, bağbanlıq edən, milli-azadlıq hərəkatına qoşulan, Səttarxanın fədaisi olan Savalan senzur Ağa Nazimin bağbanı olmağa məcbur qalır... C.Məmmədquluzadənin bədii obrazı poemada o taylı-bu taylı Azərbaycanın ağrılı problemləri fonunda yaradılmışdır.

Əsərdə müəllifin Vətənə olan məhəbbətindən, vətəndaş mövqeyindən, Vətən və xalq taleyindən, Azərbaycanı parçalayan qəsbkarlara nifrətindən geniş söz açılır. Xalq şairi X.R.Ulutürk Ə.Kürçaylının poema yaradıcılığını qiymətləndirərək yazırdı: "*Bu poemalar xalqımızın inkişafı tarixində bir sıra mərhələlər haqqında aydın təsəvvür yaradır, dünənki və bugünkü hadisələrin ictimai, siyasi, bədii icmalını verir. Kürçaylının tarixi poemalarında tarixi həqiqət, dövrün ictimai-siyasi mənzərəsi, milli kolorit öz ifadəsini tapdığı kimi, müasir poemalarında yeni həyatın geniş mənzərələri aydın rəsm edilmişdir*" [105].

"Durnalar cənuba uçur" poemasının 3, 4, 5, 6, 9 və 10-cu hissələri Mirzə Cəlilin "Molla Nəsrəddin" jurnalının Tiflisdə hazırlanması, nəşri, qarşılaşdığı çətinlikləri əks etdirir. "Dərd nədir? – dünyada dərd çəkən bilər" epiqrafı ilə başlanan üçüncü hissədə senzur dəftərxanasından qol çəkilmədən, möhür vurulmadan qaytarılan məcmuənin çapa təsdiq edilməsilə bağlı C.Məmmədquluzadə ilə senzur Ağa Nazimin dialoqu ədibin üzləşdiyi ağırlığı tam təsəvvür etməyə imkan yaradır. Senzur Ağa Nazimin:

*– Şəkildə çəkmisiz iri bir yamaq,*
*Bu adi yamağa bənzəmir ancaq* [71, s.150]

sözlərinə cavab olaraq Mirzə Cəlil

Düşünür: *"Bu döşü medallı adam*
*Xidmət göstərməkdə lap əldən gedir...*
*Yeni bir medal da qazansın deyə,*
*Ürəkdən qol çəkir hər rəzilliyə"* [71, s.151].

Söhbət millətin, xalqın dərdini azaltmaqdan, insanları əsarət, zülmət və nadanlıq girdabından, cəhalətdən qurtarmaqdan gedəndə senzur Ağa Nazim "Xeyriyyəyə toplamışıq ianə də" "Lazım gəlsə pul verərik biz yenə də" , – deyir. Cavabında:

*– İanəylə sağalsaydı elin dərdi*
*Küçələrdə əl açardı, dilənərdi!*
*– Bəs nə olsun?*
*– Son qoyulsun bu cəhalət dünyasına*! [71, s.155]

Ə.Kürçaylı beşinci hissədə Mirzə Cəlilin Oskar Şmerlinqlə birgə jurnalın məqsədini gerçəkləşdirmək yolunda gərgin axtarış və fəaliyyətini bütün incəlikləri ilə göstərə bilmişdir.

C.Məmmədquluzadənin millət, xalq yanğısını, ürəyindən keçənləri karikatura vasitəsilə xalqa çatdırmaq istəyini, məmurların Vətənə biganəliyini, Ağa Nazimlərin zülm içində boğulan elin dərdini duymadığını, bir əcnəbi rəssamın isə bunları yaxşı anladığını Ə.Kürçaylı təsirli vasitələrlə ifadə etmişdir. "Molla Nəsrəddin"in növbəti sayı üçün ağzı köpüklənə-köpüklənə millətdən dəm vuran, cəmiyyəti-xeyriyyəyə beş manat verməklə öyünən, əslində isə hökumətin qayğısını çəkən, ona can-başla xidmət göstərən millət vəkillərinin timsalında senzur Ağa Nazimin karikaturasının çəkilməsi ilə də Şmerlinq Mirzə Cəlili tam razı salır:

*– Çək, əzizim Şmerlinq, bu da düzəldi...*
*...Kişi, ürəyimi oxumusan sən.*
*Lap bu nömrə verək bu iki şəkli!*
*"Parçalanmış palaz", "Millət vəkili!"* [71, s.158]

Şmerlinqin jurnalın nəşri tarixindəki xidmətlərini nəzərə alan Akademik İ.Həbibbəyli yazır: *"Şmerlinqin yozumunda Molla Nəsrəddinin müdrikliyi və uzaqgörənliyi, yüksək vətəndaşlıq keyfiyyətləri böyük məharətlə canlandırılıb*" [49, s.9]. Müəllif də bu aspektdən yanaşaraq Mirzə Cəlil və Şmerlinq münasibətlərini reallıqda olduğu kimi təqdim etməyə çalışmışdır.

Poemanın altıncı hissəsi M.Cəlilin Səttarxanın fədaisi, Fəryadi ləqəbi ilə xalqı azadlığa səsləyən, zəmanəni qamçılayan, Sabiranə şeirlər yazan Savalanla məcmuə

redaksiyasında ünsiyyəti əsərin başlıca tematikasının vəhdət xəttini təşkil edir. Milli-azadlıq hərəkatının süqutundan sonra min-min fədai kimi təqib olunan, doğma yurddan didərgin düşən və Tiflisdə bağbanlıq etməyə məcbur olan Savalan silahı yerə qoysa da, ideyasından əsla əl çəkmir, xalqın oyanışı naminə şeirlər yazır, "Molla Nəsrəddin"lə əməkdaşlıq edir, Mirzə Cəlilin təbirincə, böyük Sabirin üslubunu davam etdirir:

*– Bəli, qardaş, çox ağırdır zamananın imtahanı.*
*Lakin göyün al günəşi qaralsa da birdən-birə,*
*Səttarxanın fədaisi silahını qoymaz yerə*! [71, s.161]

Ə.Kürçaylı bütövlükdə jurnalın fəaliyyətini, Fəryadinin satirik gücünü Savalanı ittiham edən senzur Ağa Nazimin baxışı ilə dəyərləndirir, məcmuəni nəzərdə tutaraq müəllifin kimliyini bilməyərək bir lağlağının, hoqqabazın dünyanı qarışdırdığını söyləyir:

*Bir az sakitlik idi Sabir öləndən bəri,*
*Daha yazan yox idi elə acı sözləri.*
*İndi Fəryadi adlı bir şair icad edib,*
*Budur, son nömrəsində yenə bir şeiri gedib.*
*Millət vəkillərinə sataşır açıq-aydın,*
*Zəhərdir hər kəlməsi, bir özün oxuyaydın* [71, s.168]

Senzurun fikrində jurnalın Türkiyədə, Təbrizdə, Aşqabadda, Misirdə, Buxarada, Bağdadda hakim dairələrin qəzəbinə tuş gəldiyini bildirən sözlər əslində Şərqin müsəlman dünyasında onun geniş şöhrət tapdığından və sevilməsindən xəbər verir. *"Molla Nəsrəddin" jurnalı nəşrə başladığı gündən türk-müsəlman xalqlarının həyatında baş verən mühüm ictimai-siyasi, ədəbi-mədəni hadisələri diqqət mərkəzində saxlamış və həmin məsələlərə fəal münasibət bildirmişdir. Məhz buna görə də məcmuədə Azərbaycan mövzusundan sonra İran və Cənubi Azərbaycan məsələsinə xüsusi diqqət yetirilmiş və orada baş verən ictimai-siyasi, milli-mənəvi proseslər geniş işıqlandırılmışdır"* [49].

Ancaq tarixi həqiqət budur ki, jurnalın tərəfdarları ilə yanaşı, əleyhdarları da olmuşdur. Dəfələrlə "Qeyrət" mətbəəsində, C.Məmmədquluzadənin mənzilində

axtarışlar aparılmış, "Molla Nəsrəddin"in nəşri dayandırılmış və müsadirə olunmuşdur. Hətta C.Məmmədquluzadə Tiflis qubernatoru tərəfindən hədələrə, təhdidlərə məruz qalmışdır. Belə axtarışların birində ədibin polis məmurlarına cavabı çox məntiqli səslənməklə, həm də onun millətin azadlıq yolunda böyük düşüncələrə malik olduğunu göstərir:

*Əqidə yerləşməz çamadanlara,*
*Yox, yox bu axtarış tamam nahaqdır!*
*Kim mənim qəlbimi, beynimi yarsa,*
*Sənin gəzdiyini o tapacaqdır!* [71, s.170]

Professor Rafiq Yusifoğlu bu poema barədə bir irad yazır. Poemanın üçüncü hissəsində Mirzə Cəlil ilk dəfə Ağa Nazimlə söhbət edərkən mövzu ilə bağlı Sabiri də xatırlayır və "Sabirə rəhmət" deyir. Anlaşılır ki, Sabir artıq vəfat edib. Onuncu hissədə isə Mirzə Cəlil Həmidəyə deyir ki, hələ çox işim var, "Ölülər"i tamamlamalıyam. "Məlumdur ki, Cəlil Məmmədquluzadə "Ölülər"i 1907-ci ildə yazmağa başlamış, 1909-cu ildə isə əsəri bitirmişdir. Sabir isə 1911-ci ildə vəfat etmişdir. Poemanı oxuyanda belə çıxır ki, guya "Ölülər" Sabirin ölümündən sonra tamamlanmışdır" [123, s.259]. Ədəbi-tarixi reallıqları nəzərdə tutanda haqlı görülən iraddır, amma yazarın oxunaqlılıq xatirinə, bədii şərtilikdən istifadə etməsi ilə yaradılan və süjetdə tarixilik prinsipini pozan bu kimi məqamlar əsərin müsbət dəyərini yox etməsə də, hər halda bu məqamlar əsərin ümumi ruhuna kölgə salır.

Sonuncu, on dördüncü hissə payızda qatarlaşıb Cənuba uçan, göylərin yolçusu qərib durnaların əlvida səslərinin insanda yaratdığı həsrət duyğuları fonunda Təbrizdən Tiflisə pənah gətirmiş fədailərin geri dönmələri ilə yaşadıqları daha bir ayrılığı simvolizə edir. Onları yola salanlar arasında olan C.Məmmədquluzadə Savalandan təbini söndürməməsini, zülmü, əzabı, azadlıq uğrunda mübarizəni qələmə almasını, Sabiranə şeiriyyətini qorumasını, yazdıqlarını məcmuə üçün Tiflisə göndərməsini arzulayır.

Bu, vətəni və xalqı hərtərəfli tərəqqiyə qovuşdurmaq, onu müasir dünyanın qabaqcıl xalqları sırasına çıxarmaq arzusu ilə yaşayıb-yaratmış dahi Mirzə Cəlilin ən ümdə arzusu idi.

Əliağa Kürçaylının lirik və epik janrı bir araya gətirdiyi, *“Milli poeziyamızın əbədiyaşar nümunələrindən”* [30] sayılan*, “fikir və düşüncə ilə yoğrulan”* [127] “Durnalar cənuba uçur” poeması yaradıcılığı və milli məfkurəsi ilə insanları qəflət yuxusundan oyandırmağı özünə həyat amalı seçmiş C.Məmmədquluzadənin insan və yazıçı xarakterinin açılması baxımından olduqca əhəmiyyətlidir. Poema janrın diqqətəlayiq nümunəsi kimi orijinal strukturu, deyim və ifadə tərzi, mövzu və ideyası ilə bu gün də oxunaqlıdır.

Mübarizə meydanında dövrün, zamanın gərdişinə mərdliklə sinə gərən Mirzə Cəlilin bədii obrazı, yaradıcılığı sırf milli məsələlərə, mənsub olduğu xalqın problemlərinə həsr olunmuş Rüstəm Behrudi poeziyasında da canlandırılmışdır. Onun 1980-1985-ci illərdə yazdığı “Daha gülə-gülə ağlamaq olmur” adlı poeması böyük demokrat ədibin xalqın oyanışı uğrunda mədəni mübarizəsinin poetik ümumiləşdirilməsidir.

R.Behrudinin Cəlil Məmmədquluzadənin yaradıcılıq ideallarına dərin inam və ehtiram bəsləməsinin, qüdrətli sənətkara üz tutaraq “Ustad Mirzə Cəlilə” epiqrafı ilə “Ölüm, xoş gəldin” adlı şeir və “Daha gülə-gülə ağlamaq olmur” poema yazmasının “cövhərində dayanan iki əsas mətləbdən birincisinin milli azadlıq, digərinin isə yüksək vətəndaşlıq mövqeyi” olduğunu vurğulayan akademik İsa Həbibbəyli şairin “*hələ Sovet hakimiyyəti dövründə cavan yaşlarında “Salam, dar ağacı” şeirini yazmaqla azadlıqdan danışmaq qorxusunu böyük ədəbiyyatın canından çıxarmışdır*” fikrini təsdiqləmişdir [47].

Böyük mütəfəkkir ustadın dilindən sonrakı nəsillərə və müasir dövrə xitab kimi səslənən publisistik poema R.Behrudinin ədibin heykəli önündə poetik düşüncələrini əks etdirməklə səkkiz fəsildən ibarətdir və hər fəslə, məzmunun ruhuna uyğun yazıçının fikirləri epiqraf seçilmişdir. Yalnız II fəsildə (“Qəlbimdən gələn səs”) Sokratın “Qəlbimdən gələn səslər mənə çox zadlar öyrədir” fikri epiqraf kimi verilmişdir.

İlk misralardan ustada müraciətən qəribə bir zaman gəldiyini, daha gülə-gülə ağlamağın mümkünsüzlüyünü dilə gətirən R.Behrudi Azərbaycanın taleyi üçün

narahatlığını ifadə edir və əsər boyu kağıza, sözə sığmayan dərdlərin səbəblərini, onların yaratdığı fəsadları ustadla dərdləşə-dərdləşə, ittihamla açıb göstərir:

*Gəldim dərdlərimlə verim baş-başa,*
*Deyim – hər yaranı bağlamaq olmur.*
*Ustad, bir qəribə zaman gəlibdi,*
*Daha gülə-gülə ağlamaq olmur!* [21, s.117]

Poema Cəlil Məmmədquluzadəyə həsr olunsa da, onun dilindən xitab kimi səslənsə də, Azərbaycanın bütün dövrlərinin dərdi-səri xatırladılır. Yazıçı-kulturoloq Aydın Xanın göstərdiyi kimi, "Daha gülə-gülə ağlamaq olmur" poemasında R.Behrudi sanki Zərdüştdən üzübəri – özü də daxil olmaqla – millət sevgisindən göynəyən qəlblərin yanğılarını şeirə-ədəbiyyata çevirən bütün qələm adamlarına poetik abidə qoyur" [13].

Poemanın dördüncü fəsli C.Məmmədquluzadənin "köhnə dərdi" – Şərq qadınının acı taleyi əsasında qurulub və "Köhnə dərdim" adlanır. "Köhnə dərdi" "Təzə dərd" kimi mənalandıran şair dövrü xarakterizə edən "yalan alqışlarla", "qarğış təriflə" düz sözün dadının, həqiqətin unudulmasından, hər yerdə yalanın yürüməsindən, *"heykəli ucaldılan qadının bir heykəl boyunca ucalmamasından"* təəssüflənərək ustada şikayət edir:

*Ay ustad, dərdinə köhnə dərd dedin,*
*Bu gün də o dərdim təzədi, neylim?!*
*Bu məddah şairlər – vaxt şairləri,*
*Dərdimi sevinctək bəzədi, neylim?!* [21, s.126]

Mirzəcəlilsayağı "Övrət məsələsi"ndən söz açan şair məqsədini *"Susduğum yetməzmi, daha vaxtdı gəl, Sənin də halını oturum yazım"* [21, s.127] ifadəsi ilə kamala çatdırır, bugünkü Nazlını, Zeynəbi sabahın nələr gözlədiyindən xəbər verir, torpağın üzünü ağardan qızın bəxtini kimin qara yazdığını açmağa çalışır. Burada "Rüstəm Behrudinin insan sevdası öz millətinə olan sevda ilə tərənnüm olunur" [138].

4 hissədən ibarət olan və əsərin əsas məna yükünü daşıyan "Ölülər" fəslində müəllif ustadın məşhur "Sizi deyib gəlmişəm" fikrini başlığa çıxararaq millətin

dərdlərini saf-çürük edir, "özümüzdən" gələn dərdlərin "özgədən" gələnlərdən daha dəhşətli olduğunu təsdiqləyir, hələ də nadanların M.Cəlili dərk etmədiklərini dərdlərin ən ağırı hesab edir:

*"Ölülər" anlamır səni bu gün də,*
*Dərd budu, dərd budu, dərd budu, ustad*! [21, s.131]

"Daha gülə-gülə ağlamaq olmur" fikrinin səbəbi poemanın "Ölülər" fəslinin 4-cü – "Ar olsun..." hissəsində şair öz dövrünün əlləri qabarlı, haqqı yeyilən fəhləsinin, yenə Cəfər ağalara əvvəlki Novruzəli olan kəndlinin, hər ay yuxarı haqq aparmağa gələn rəhbər işçinin, müfəttiş gələndə puluna minnət deyən satıcının, həqiqət dalınca getməyi lüzumsuz sayan alimin, kimliyindən Allahın da baş aça bilmədiyi, min üzlü, min sifətli şairin, qanunu qanuna salıb pozan qanun keşikçisinin, dərsi öz xalqına qənim olan müəllimin, içdiyi andı çoxdan unudub cərrah bıçağı cəllad qılıncına dönmüş həkimin, ustaddan xeyir-dua gözləyən tələbənin dili ilə dövrün səciyyəvi xarakteristikasını yaradır:

*Yalanlar öyrətdim... Nəyin xətrinə?!*
*Mənim yalanımın allahı yoxdur.*
*Müəllimi mənimtək olan millətin,*
*Bu günü olsa da, sabahı yoxdur* [21, s.138].

Xalqın dərdlərini dilə gətirən müəllifin poemada vətən, millət segisi hər an hiss olunur. Şair xalqın gələcəyini onun keçmişindən və bu günündən ayırmır, özünü həmişə onunla birlikdə görür. Çünki *"Rüstəm Behrudi poeziyasında xalqdan və millətdən ayrıca bir şair ömrü yoxdur. Şairin yaşadığı hiss və duyğular millətin həyatı, xalqın taleyi ilə vəhdətdədir. Onun yaradıcılığında şair şəxsiyyəti ilə millət obrazının birliyi yaranır"* [42].

Poemada milli dərdlərimiz içində ana dilimizin (VI fəsil, "Anamın kitabı") də dərd çəkdiyi, bu dərdin sirri müəllifin ustadı qarşısındakı poetik düşüncələrində yer alır. Hər bir dövrün özünün dünyaya baxışını, özünün təfəkkür üslubunu və müvafiq olaraq özünün zaman və məkan konsepsiyasını yaratdığını əsas götürən R.Behrudi min il açıqlanmamış bu sirrin həqiqətindən danışaraq "ölülərin ərəbcə duaya möhtac, dirilərin yad dilə meylini", dilimizin çoxlarına yad olduğunu, milli-mənəvi

dəyərlərimiz kimi, dilimizin də sovet dönəmində təqiblərə məruz qaldığını oxucuya vətəndaşlıq yanğısı, hərarətlə çatdırır:

*– "Anamın kitabı" çoxuna yaddı,*
*Deyərəm nə üçün, səbrini gəl bas.*
*– Yurd boyu kəhər at oynadanların*
*Anası kim olub? Bizans, ərəb, fars...* [21, s.141]

Milləti yandıran ən ağır dərd isə iki yüz ilə yaxın davam edən vətənin bölünməsidir. Əsərdə şair iki əsrdir hamını düşündürən, hələlik cavabı yox suallara cavab axtarır, *"torpağı zaman-zaman xalqın al qanı ilə yoğrulan parçalanmış Azərbaycanın birliyindən sabaha, gələcək nəsillərə cavabımız nə olacaq?",* - deyə milləti düşünməyə çağırır:

*Bölünür can Arazda, dərdlərim qucaq-qucaq,*
*Qisasımdan heç qorxmur canımdan can aparan*
*Cavabımız sabaha, görəsən nə olacaq,*
*Ey sabaha bölünmüş Azərbaycan aparan?!* [21, s.147-148]

Şairin tarixin dərslərindən çıxardığı yeganə qənaət o olur ki, azadlığın yolunda *"Özgə bir çarəmiz yox, ümid qalır qılınca!"* [21, s.148]. Bu misrada millətin, Vətənin birliyi uğrunda candan keçmək istəkləri əks olunur. Beləcə, R.Behrudi *"Azərbaycan xalqının tarix boyu azadlıq hərəkatını dərin səmimilik və mənəvi təmizliklə təsvir edən, öz xalqının ən səciyyəvi xüsusiyyətlərini, onun gücünü və zəifliyini həm şair, həm filosof kimi qələmə almağa qadir olduğunu sübut edir"* [117].

C.Məmmədquluzadəyə həsr olunmuş Ə.Kürçaylının "Durnalar cənuba uçur" və R.Behrudinin "Daha gülə-gülə ağlamaq olmur" poemalarında dahi yazıçının bədii obrazı millətimizin tarix boyu üzləşdiyi faciəvi hadisələrlə sıx təmasda yaradılmışdır. Ustad Mirzə Cəlilə ünvanlanmış, onun xeyir-duası ilə yola çıxaraq yazılmış hər iki tarixi poema janrın, tarixi mövzunun haqqını verməkdədir desək, yanılmarıq. Yanılmarıq ona görə ki, hər iki poemada süjet və hadisələr şəxsiyyətin ədəbi, tarixi missiyasını tarixi missiyaya uyğun şəkildə canlandırır, Mirzə Cəlil dünyasına oxucunu rahatlıqla apara bilir, bu dünyanın şirin nağılını, acı həqiqətini oxucuya sevdirə bilir.

Məmməd Arazın da müxtəlif vaxtlarda qələmə aldığı “Mən də insan oldum” (1962) və “Qayalara yazılan səs” (1976) poemalarının orbitində sənətlə həyatın təması, sənətkar və zaman məsələləri işıqlandırılır. Sənətin həyata və insanlara göstərdiyi təsirin necə güclü olduğunu adı çəkilən əsərlərdən aydın duymaq olur. Birinci poemada M.Araz dahi Sabirin böyüklüyünə, sənətinin ölməzliyinə inanır, “Eh, Sabirim, bu gün sən / Nə qədər də gərəksən”, - deməklə sənətkarın hər zaman lazım olduğuna və xalq arasında mənəvi ömrünə inam hissi bəsləyir. “Mən də insan oldum” poemasında Məmməd Araz yaşadığı dövrün sərt rejiminə baxmayaraq, örtülü vasitələrlə mənsub olduğu xalqın azadlığı və müstəqilliyi haqqındakı arzularını dolğunluğu ilə ifadə etmişdir.

“Qayalara yazılan səs” poemasında yenə də sənət, həyat, xalq – bunların vəhdəti – təbiətin gözəlliyi, dağların, qayaların, bulaqların və bu yerlərdə yaşayan mərd insanların timsalında verilmişdir. Poemanın əvvəlində qartalın təsviri ilk baxışda təsadüfi təsir bağışlasa da, poemanın sonunda o söhbətlər ilə, təsvirin çobanların yada saldıqları böyük bir insanla mənalı, bir də unudulmaz xatirələri ilə əlaqədar olduğunu oxucu asanlıqla duyur. Böyük şair S.Vurğunun bu dağlara qonaq gəlməsi, çobanlar üçün şirin xatirəyə çevrilməsi, su içdiyi bulağa “Vurğun bulağı” adının verilməsi, qayalarda isə şairin səsinin əbədi qalması bu poemanın əsasını, ruhunu və canını təşkil edir. Poema el-obanın, xalqın sənətə və sənətkara bəslədiyi dərin məhəbbətin ifadəsindən ibarətdir.

Məmməd Araz Səməd Vurğun böyüklüyünü, poeziyasının ölməzliyini hələ gənclik illərində dərk etmişdi. Onun S.Vurğuna həsr etdiyi şeirlər də bunu sübut edir. Bunlar silsilə şeirlər idi və bu silsilədə S.Vurğun Füzuli, Nəsimi, Vaqif kimi klassiklərin ölməz ənənələrinin davamçısı, xalqın sevimli sənətkarı kimi vəsf olunur.

“Sən tələsmədin” şeiri Səməd Vurğunun “Mən tələsmirəm” şeirinin təsirilə onun anadan olmasının əlli illiyi münasibətilə qələmə alınmışdı və cavan şair şeirin son misralarını Səməd Vurğunu yüz yaşında görəcəyi arzusu ilə bitirirdi.

S.Vurğunun vaxtsız vəfatını böyük hüzn və kədərlə qarşılayan M.Araz xalqımızın bu ölümdən sarsıldığını dilə gətirir, dolayısı ilə bu böyük söz ustadını qoruya bilmədiyimizə görə hamını, cəmiyyətimizi, şairin çox sevdiyi təbiəti belə

ittiham edir. Məmməd Arazın Səməd Vurğuna olan sevgisi hələ onun keçən əsrin altmışıncı illərində yazdığı "Səməd Vurğunla söhbət" şeirində daha bariz şəkildə nəzərə çarpır. Həmin şeirdə Məmməd Araz Səməd Vurğunun vəfatından sonra şeirimizdə baş verən keyfiyyət dəyişikliklərinə, şeir dilinin maksimum şəkildə xalq dilinə yaxınlaşmasına, yeni meyl və tendensiyalara öz münasibətini bildirirdi.

Səməd Vurğuna bir oxucu, bir vətəndaş şair kimi rəğbəti Məmməd Arazın "Qayalara yazılan səs" poemasında özünü daha rəngarəng büruzə verir. Poema Səməd Vurğun şəxsiyyətini, onun tükənməz ədəbi-bədii irsini hərtərəfli əhatə etmək və yenidən qiymətləndirmək baxımından dərin maraq və əhəmiyyət kəsb edir. Səməd Vurğun Məmməd Arazın yeni yanaşmasında ədəbiyyatşünas V.Yusiflinin vurğuladığı kimi, "yaddaş obrazı" [128] timsalında iştirak edir. Poema qəhrəmanı qoca bir çobanın xatirəsindən, yaddaşından bir nur kimi, işıq kimi axıb gəlir. Müəllif S.Vurğunun çobanla görüşü zamanı söhbətini incəlikləri ilə xatırladır və bu xatirədə Səməd Vurğun Məmməd Araz sayağı heykəlləşir, qayalaşır, xalqın əbədi yaddaşına həkk olunur. Məmməd Arazın özünün ustadı hesab etdiyi Səməd Vurğun haqqında əvvəllər ona həsr etdiyi şeirlərində S.Vurğunun yoxluğundan doğan dərin bir nigarançılıq hissi, bu hissin yaratdığı emosional gərginlik diqqəti cəlb edirdisə, "Qayalara yazılan səs"də şairin ölməzliyi ideyası, bu ölməzliyi ölməzlik zirvəsinə ucaldan məqamlar ön plana çəkilir. Məmməd Araz əminliklə və tam haqlı olaraq təsdiqləyir ki, Səməd Vurğun təkcə insanların xatirəsində, yaddaşlarında, ürəklərində deyil, həm də təbiətin özündə, bulaqda, dağda, qayada, küləkdə yaşayır və hər zaman anılır.

Sabir sənətinin vətəndaşlıq cəsarəti, Səməd Vurğun şeirinin yüksək ilhamı özünəməxsus şəkildə Məmməd Araz poeziyasında cəmləşmiş, yaradıcı yanaşmaların sayəsində yeni keyfiyyətlərlə zənginləşmişdir. Məmməd Araz adları çəkilən ustad sənətkarlardan yaradıcılıqla öyrənmiş, onların ədəbi portretlərini məhəbbətlə yaratmışdır. İnsan mənəviyyatının dərin qatlarının poetik kəşfi, fəal vətəndaşlıq mövqeyi və müasirlik, milli taleyimizin əhatəli təqdimi M.Arazın bu poemalarının ana xəttini səciyyələndirir.

Bədii axtarışında poema janrının əsas yer tutduğu xalq şairi Hüseyn Arif (Hüseynzadə) də ədəbi şəxsiyyətlərin obrazının yaradılmasında qələmini sınamışdır. 1962-ci ildə çap etdirdiyi və S.Vurğunun ömür yolundan bəhs edən "Yolda" poeması onun yaradıcılığında ayrıca mərhələ təşkil edir. Poemanın əvvəlində S.Vurğun M.P.Vaqif poeziyasının mükəmməl davamçısı, sələfinin ənənələrini yaşadan və inkişaf etdirən sənətkar kimi təsvir edilir. "Yolda" poemasının əsas qayəsini isə S.Vurğunun vətən torpağına, sadə zəhmət adamlarına, doğma vətənin taleyinə mənəvi bağlılığının sirrini açmağa yönəlmiş yozum təşkil edir. Hüseyn Arif Vurğun şeirinin, şəxsiyyətinin mərhələlər üzrə yüksəliş yollarını açıb göstərməklə kifayətlənmir, bu böyük ustadın zaman-zaman haqsız tənqid və hücumlara məruz qaldığını, böhtanlarla üzləşdiyini göstərir və onlara obyektiv münasibətini bildirir.

Klassik irsimizə, xalqımızın mənəvi-əxlaqi dəyərlərinə, milli idrakına və mənəviyyatına sağlam münasibət, görkəmli ədəbi şəxsiyyətlərimizin layiq olduqları səviyyədə qiymətləndirilməsi poemanın əsas məzmununu və ideyasını təşkil edir. Elə buna görə də Hüseyn Arifin "Yolda" poemasını, onun ədəbi qəhrəmanı S.Vurğunu xalqımızın mənəvi simvolu kimi səciyyələndirmək mümkündür.

Beləliklə, diqqət yetirdiyimiz Azərbaycan tarixi poemaları onu göstərir ki, Azərbaycan ədəbiyyatının sonrakı inkişaf mərhələsi üçün çox zəngin ilkin mənbələr və ədəbi-mənəvi şərait mövcuddur. Xalqımızın bu zəngin ədəbi-bədii irsi artıq yüz illərdir ki, öz milli-mənəvi dəyərləri və poetik inciləri ilə dünya mədəniyyəti xəzinəsini zənginləşdirməkdədir. Ədəbi şəxsiyyətlərimizin bədii obrazlarının zaman-zaman canlandırılması Azərbaycanın zəngin ədəbi irsinə münasibətin aydın göstəricisidir. Buna görə də milli şüurun və milli təfəkkürün əsaslı şəkildə yeniləşdiyi və yüksəldiyi indiki yeni dövrdə xalqımızın ədəbi irsini təşkil edən tarixi poemalarda klassik şairlərimizin bədii obrazının öyrənilməsi və tədqiq edilməsi yeni məna və dəyər qazanır.

Azərbaycan ədəbiyyatı tarixində poema janrının maraqlı, zəngin tarixi inkişaf yolu olduğu kimi, tarixi mövzulu poemaların da xüsusi çəkisi danılmazdır. Görkəmli ədəbi şəxsiyyətlərin obrazının yaradıldığı, yaxud şair və yazıçılarımıza ünvanlanan çoxsaylı bədii nümunələr içərisində xalqımızın tarixi taleyində mühüm rol oynayan,

maarifçilik ideyaları ilə xalqın savadlanmasında yorulmaz fəaliyyət göstərən, öz ömrünü Sabir kimi xalqının yolunda şam kimi əridən sənətkarların obrazının yaradıldığı tarixi mövzulu poemaların mövzu dairəsində XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərən ədiblərimizə həsr olunan poemalar da ədəbi-estetik dəyəri ilə seçilir. Bu mənada Mollanəsrəddinçi ədib, görkəmli satira ustası Mirzə Ələkbər Sabirin obrazının da yaradıldığı tarixi poemaları ədəbi, nəzəri dəyəri ilə diqqəti cəlb etdiyi kimi, bu poemaların tədqiqi, milli təfəkkür işığında öyrənilməsi öz aktuallığını saxlayır.

Rəsul Rzanın Sabir obrazının yaradıldığı "Xalq şairi" poeması öz orijinal strukturu, bədii məziyyətləri ilə diqqətəlayiqdir. Poemada təsvir olunur ki, Sabir kənddə müəllimdir. Min bir əziyyətlə millət balalarına təhsil verməyin, onların gözünü açmağın yollarını fikirləşir. Onun tərzi-halını ifadə etmək üçün R.Rza şairin öz şerlərindən məqamında istifadə edərək poemanın bədii tutumunu artırır. Dərs davam edir, Bəndalı koxa məktəbə gəlib bu saatda nə etdiklərini soruşanda ona

"*Nikolay padşaha*
*Dua oxuyuruq" dedi*
*"Nikolay?!*
*Oxuyun, oxuyun!*
*Padşah bəndələri*" [108, s.167]

Beləcə, cəhalət mühitinə aydın səma kimi doğan Sabirin maarifçilik ideyaları şairin təsvir etdiyi qaranlıq Şamaxı kəndində çoxlarına dərd olmuşdu. Poemanın axarında oxuyuruq ki, günlərin birində Sabirin – müəllim Əlinin məktəbi və sığındığı daxması yandı külə döndü. Müəllim Əli isə hər şeydən çox mavi üzlüklü şeirlər olan dəftərin yanmağına yanırdı. Rəsul Rza süjet boyu ümidli, pozitiv enerjini qorumağa çalışır. Belə ki, mavi üzlüklü şeirlər dəftərində olan şeirləri kəndin sakinləri əzbərdən deyirlər, bu isə böyük şairə müsbət mənda güc verir, nəticədə yanmış dəftərdəki şeirlərin yenidən yazıya alınması prosesini Rəsul Rza belə təsvir edir:

*Müəllim əlində mavi dəftər*
*Qara qələm, hazırdı.*
*Kəlmələri, sətirləri*

*Bir-bir yazırdı!*
*Az keçdi, çox keçdi*
*Canlandı günə gün;*
*Yanmış kitab yenidən yazılıb*
*Tamamlandı bütün* [108, s.174].

Poemanın sonunda müəllif maraqlı ədəbi forma seçir və məlum olur ki,

*Deyirlər söz çox,*
*Şeir çox,*
*Kitab bir imiş.*
*Deyirlər kitabı yazan*
*Mirzə Ələkbər Sabir imiş* [108, s.174].

1960-70-ci illərdə qələmə alınan poemada ədəbi şərtilikdən istifadə edən müəllif Sabirin mühitini, mühitin eybəcərliklərini, geriliklərini təsvir etmənin ən yaxşı yolu olaraq dahi şairin öz şeirlərindən istifadə yolunu seçir və oxunaqlı ədəbi nümunə ərsəyə gətirir. Ümumilikdə Rəsul Rzanın poema yaradıcılığından bəhs olunarkən vurğulanır ki, *"Rəsul Rza xalqın, vətənin taleyi üçün "mühüm mövzuları" qələmə aldığına görədir ki, "şeirimizin şöhrəti"ni mütərəqqi dünya miqyasında səsləndirə bilmişdir. Əlbəttə, hər bir sənətkarın böyük ürəyi, xalqa böyük məhəbbəti və mühüm mövzular seçməsi də onun hələ yetkin bir sənətkar kimi formalaşmasını təmin edə bilməz"* [30]. Bəli, Rəsul Rza yetkinliyi ondadır ki, poemada Sabir mühiti, həyatı, şəxsiyyəti, sənəti haqqında bitkin fikir sahibi olmaqla yanaşı, sənət, ədəbiyyat yanğısı ilə Sabir dünyasına səyahət edirdi. Rəsul Rza məhz yaradıcılıq əzabının, ağrısının diqtəsi ilə böyük Sabirə abidə ucaltdı. Sabir mövzusu böyük çəkilidir və böyük də məsuliyyət tələb edir. Şairin özünün də dediyi kimi, *"Böyük mövzular böyük yetkinlik tələb edir. Elə mövzular var ki, bir ağrı kimi səndən əl çəkmir, rahatlıq vermir, öz təzahür və ifadəsini tapmayınca insanı rahat buraxmır. Bu, xüsusi bir ağrıdır. Bu ağrı insanın bütün varlığına yayılır. Bu fikir ağrısı, hiss ağrısı, yaradıcı ana ağrısıdır. Bu ağrı böyük məhəbbət kimidir, verdiyi bütün iztirabla şirin və qiymətlidir. Mən belə bir ağrını böyük sənət əsərləri yazmağın daxili tələbini inadla hiss etdiyim zaman duydum"* [34].

Azərbaycan tarixi poemasının diqqətəlayiq nümunələrindən biri də Xalq şairi Bəxtiyar Vahabzadənin satirik şair Sabir obrazını yaratdığı “Ağlar güləyən” poemasıdır. 1962-ci ildə Sabirin anandan olmasının 100 illiyi ərəfəsində qələmə alınan poema 4 hissədən ibarətdir. Müəllif hər bölmədə Sabir həyatı və mühitinin bir dövrünü diqqət mərkəzinə çəkir, bölməyə uyğun olaraq, Sabirin şeirlərindən epiqraf kimi istifadə edərək süjetdə qaldırılan problemə uyğun seçilmiş epiqraflar məzmunu dolğunlaşdırmağa xidmət edir. Sabirin mühitini, yaradıcılıq yolunu dərindən incələyən Bəxtiyar Vahabzadə ədəbi fikrimizin iki nəhəng siması olan Sabir və Abbas Səhhət dostluğunu, səmimiyyətini, sədaqətini bahar çağında, Sabirin Şamaxıdakı balaca bağçasında açılan süjetdə belə ifadə edir:

*Səhhət, Sabir... iki qəlb*
*Səslənir, bir-birinə*
*Köklənən simlər kimi.*
*Bir nəğmənin eşqinə*
*Bir dinən simlər kimi* [119, s.96]

Sabir onu sıxan mühitin ictimai buxovlarına etirazını dilə gətirərək zəmanədən, hakim çar rejiminin amansız idarəçiliyindən, xalqının savadsızlığından, buxovlanan azadlığından və daha nələrdən qövr eləyən ürəyinin səsini dilə gətirir:

*Min arzu bəsləyirəm,*
*Mən, axı, hər nəfəsdə,*
*Qanadım var, göyüm yox,*
*Necə uçum qəfəsdə?..* [119, s.97]

Abbas Səhhət dialoqda Sabirə *“məgər görməmisən damcı necə daş dəlir*”, -deyərək zamanla bütün dərdlərin dərmana çatacağı ümidi ifadə etdiyi zaman böyük Sabir “Dəlir, çox yavaş dəlir” [101, s.97] deyirsə, Abbas Səhhət bu dövrün mühitinə yeni can verən “Molla Nəsrəddin” gerçəyini və Mirzə Cəlil xidmətlərini yada salır:

*Dəqiqələr, saatlar*
*Axır dönüb il olur.*
*Dama-dama göl olur.*
*"Molla Nəsrəddin"ə bax,*

*Onu zaman yaratdı.*
*Mirzə Cəlil damcıdan*
*Axı, ümman yaratdı.*
*İndi o böyük ədib*
*Səni çağırır, səni –*
*Deyə Səhhət cibindən*
*Çıxartdı məcmuəni* [119, s.98-99].

Aydın olur ki, zaman Mirzə Cəlilin Sabiri "Molla Nəsrəddin"ə cəlb etdiyi zamandır. Müəllif Sabir amalını, Sabirin vətən sevgisini poetik tutumu ilə seçilən misralarda həssaslıqla ifadə edərək məzmunu dolğunlaşdırır, Sabir dünyasının gerçəklərini gözlərimiz önünə sərir:

*Vətənin*
*dərdlərilə*
*Yandı,*
*Alışdı Sabir*
*Dərdin dodaqlarıyla*
*Dindi,*
*Danışdı Sabir* [119, s.100].

Böyük ideyalar, bəşəri, milli duyğuların məngənəsində sıxılan Sabir müəllif təfəkküründə üsyankardır, ona görə ki, şair görür ki, millətlərə azadlıq verilmir, azadlıq alınır. Bütün yaradıcılığı ilə istiqlal, milli birlik ideyalarına xidmət edən Bəxtiyar Vahabzadə də "Ağlar güləyən" tarixi poemasında Sabirin obrazını milli təfəkkür işığında qələmə alır:

*Bizdən sonra oyanan*
*Ala bildi haqqını,*
*Biz hələ ağlayırıq,*
*Tarixin təkərinə*
*Hey ümid bağlayırıq"* [119, s.102].

Sabir və Şamaxı mühitinin gerçəklərini ön plana çıxaran müəllif poetik incəliklə Şamaxıda hökm sürən cəhalətin, nadanlığın sanki hüdudlarını göz önündə

canlandırır, Sabirə bazarda ət satmayan qəssabla sanki böyük şairi üz-üzə qoyur. Müəllif dövrün ictimai reallıqlarını, sosial problemlərini qabartmaqla qəhrəmanının mübarizə əzmini ortaya qoyur, təəssüf hissi ilə milləti haqq yoluna çağırana millətin "yolsuz" deməsi gerçəyini ifadə edir, Sabir mühitinin ən ağrıdıcı məqamı kimi onu ömür-gün yoldaşının da başa düşməməsini aşağıdakı misraların yaddaşına köçürür:

*Çağırdı elləri o, haqq yoluna,*
*Məslək yolçusuna el "yolsuz" dedi.*
*O, böyük insanı qəssab bir yana,*
*Ömür yoldaşı da başa düşmədi* [119, s.104].

Poemanın ikinci hissəsində Bəxtiyar Vahabzadə daha çox Şamaxı mühitinin o dövrkü gerçəkliklərini bədii planda təqdim etməklə Sabirin yaşayıb fəaliyyət göstərdiyi, yazıb-yaratdığı mühitin mahiyyətinə varır, bir tərəfdən Sabirin tarixi simasını bədii plana köçürürsə, digər tərəfdən qəhrəmanın mənəvi-psixoloji durumunu, sosial mühitdə ona qarşı olan münasibəti diqqət mərkəzinə çəkir. Müəllif Sabirə qarşı təzyiqlər göstərilməsini, sabun bişirmək üçün ona yağ satılmamasını fərqli aspektdə dəyərləndirir:

*Sabun - çörək üçündür.*
*Şeir - ürək üçündür* [119, s.108].

Böyük külfətin yükünü zorla daşıyan Sabir çətin sınaq-imtahan qarşısındadır, çörək-ürək, həyati reallıq-sənət, ədəbiyyatın ülviyyəti, şəxsi mənafe-ictimai mənafenin qarşı-qarşıya dayandığı, təzadların dilə gəldiyi bu bölməni müəllif "İmtahan" adlandırır. Həyatın acımasızlıqları qarşısında mətanətlə dayanan Sabiri müəllif böyük iradə sahibi, milli təfəkkürün daşıyıcısı, bəşəri ideyaların carçısı kimi təqdim etməklə böyük şairin milli məfkurəyə xidmətlərini geniş zaman müstəvisində dəyərləndirir:

*O, könlünü, eşqini*
*Vətənə, xalqa verdi,*
*Çörəyi də ürəklə*
*Qazanmaq istəyirdi* [119, s.108].

Həyatın acı gerçəyi ilə üz-üzə qalan Sabirin taleyinə onunla birlikdə sarsılan müəllif poemada bir neçə dəfə süjetə müdaxilə edərək müəllif fikri adı altında yaranmış situasiyaya sanki qiymət verərək deyir:

*Şairim, düz deyirsən.*
*Mən səni anlayıram.*
*Düzü, müəllimliyi*
*Mən bütün peşələrin*
*Ən ucası sayıram* [119, s.108-109].

Sabirin tərcümeyi-halından da məlumdur ki, o eyni zamanda müəllimlik peşəsi ilə də məşğul olmuş, hətta Balaxanıda da bir müddət pedaqoji fəaliyyətini davam etdirmişdir. Sabirin həyatının bu dövrü və pedaqoji fəaliyyətindən bəhs edən tədqiqatlarda yazılır: "Görkəmli söz ustası Mirzə Ələkbər Sabirin məktəb həyatından söz açan tədqiqatçıların çoxu onun əvvəlcə bir neçə il mollaxanada, sonra isə 1874-cü ildə Şamaxıda açılmış "*Məclis məktəbi*"ndə oxuduğunu yazır [91]. Aydın olur ki, Sabirin pedaqoji görüşləri bu illərdən formalaşmışdı və həmin araşdırmada qeyd olunur ki, *"Sabir maarifçilik ideyalarını təbliğ edən şeirlərinin müəyyən hissəsini hələ müəllimlik etmədiyi illərdə yazmışdır"* [91]. Böyük demokrat ədibin həyatı və mühitinə B.Vahabzadənin dərindən bələd olmasının göstəricisidir ki, ədəbi qəhrəmanını həyatının məhz Bakıya qədərki dövründə səriştəli pedaqoq kimi təqdim etmişdir. Poemadakı bu kimi nüanslar bədii əsərin tarixiliyini, sənədliliyini şərtləndirir, dövrün tarixi gerçəkliklərini bədii planda dolğun şəkildə əks etdirir. Yüksək emosional ovqatda təsvir edilən növbəti məqamda Sabir onu dinsiz adlandıranlar qarşısında imtahan verərək şəriət müəllimi vəsiqəsi alır. B.Vahabzadənin poemanın ikinci hissəsində nəzərdə tutduğu imtahan əslində Sabir və onu imtahan edən şəriət xadimlərinin qarşılaşmasındakı təzadlardan doğur. Müəllif bu məqamı təsvir edən misralarda sanki Sabirin dilindən fəryad edir:

*Taleyə bax, günə bax,*
*Zamanın hökmünə bax!*
*Zaman öz loğmanını*
*Pəncəsində inlədir* [119, s.110].

Hadisələrin davamında Sabirin şəriət xadimləri qarşısında "Cəhənnəmin xəyali qapılarını" sayması isə bu təzadlı mənzərənin fəlsəfi-bədii təfəkkürdəki dərkini mümkünsüzləşdirir. Yüksək şeiriyyət dili, dövrün reallıqlarına dərindən hakim olmaq, həyatın təzadlı qütblərinin dialoqunu qurmaq sənətkarın təfəkkür, təxəyyül gücünün zənginliyini ortaya qoymaqla yanaşı, Sabir dünyasının sanki yenidən dərkinə imkan yaradır. Bu da sözün əsl mənasında Bəxtiyar Vahabzadə sənətinin poetik gücünü, estetik-bədii mahiyyətini aşkarlamağa imkan verir. İstər Azərbaycan tarixi poemasının keçdiyi inkişaf yolunda, istərsə də Sabir obrazının yaradıldığı bədii nümunələrdə obrazın psixologiyasını, dövrün ictimai, sosial mənzərəsini bu qədər incəliklərinə qədər duyub yaradan poemaların sayı o qədər də çox deyil. Müəllif yaratdığı ziddiyətli situasiyada Sabirlə onu imtahan edən şəriət xadiminin müqayisəsini geniş planda qurmaqla qarşı tərəflərin bərabərsizliyini oxucu gözündə canlandırır.

Poemanını 4-cü bölməsi "Ümid" adlandırılır və bu bölmədə müəllimlik şəhadətnaməsi alan Sabirin pedaqoji fəaliyyətində, yaradıcılığında həyatın ağır imtahanından sonra gələn, gözlənilən ümidin izi ilə müəllif qəhrəmanını yeni müstəviyə daşıyır:

*Qanmaq öyrətdi Sabir,*
*Qandırdıqca onlara*
*Yanmaq öyrətdi Sabir* [119, s.113].

Dərs dediyi körpələrin dünyasına günəş kimi doğan ədəbi qəhrəmanın zəmanəsindən gözləntisi yalnız bu balaların timsalında qurulacaq yeni cəmiyyətə ümidini bağlayan təkcə Sabir deyil, həm də poemanın müəllifidir. "Yaşasın şəhriyari hürriyət!" epiqrafı ilə yola çıxan müəllif Sabir dünyasının ziyasını, onun bəşəri duyğularını, milli təssübkeşliyini poetik dillə təsvir edir. Poemanın 4-cü bölməsini "Amal" adlandıran müəllif Sabirin amalını ifadə məqamında böyük şairin misrasını epiqraf kimi verir: "Bənzərəm bir qocaman dağa ki, dəryadə durar". Bu bölmədə qəhrəmanının ədəbi, ictimai fikir tariximizdəki xidmətlərini yüksək qiymətləndirən B.Vahabzadə Sabiri dəryada zamanın burulğanlarına sinə gərən dağ timsalında təsvir edir. Ədəbi qəhrəmanının mənalı, əzablı ömür yolunun hər bir iztirabını yanaraq

misraların yaddaşına köçürən sənətkar yaşadığı dövrlə Sabirlər, Mirzə Cəlillər dövrünün müqayisəsində sanki özünü qınayır:

*Biz hara gedirik, gül, çiçək, alqış,*
*O, hara gedibsə, min təhdid, hədə.*
*Bizimtək hörmətlə qarşılanmamış,*
*Qəlbini gizlədib onu sevən də* [119, s.115].

Bu cür narahat düşüncələrin girdabında sıxılan B.Vahabzadə sanki öz misraları ilə təsəlli tapır:

*Öz qəlbinin səsi mükafatıdır,*
*Bir amal yolunda yaradanların* [119, s.115].

Poemanın sonunda “Dərman”ı tapılmayan, “Arizi qəmlər əlindən ürəyi şişmiş” şairin nakam taleyi təsirli misralarla ifadə olunur. Sabirin vaxtsız ölümünü Azərbaycan ədəbiyyatının böyük itkisi kimi qiymətləndirən B.Vahabzadə onun ölümünə görə həkimləri qınayır, zəmanəni qınayır, insanları qınayır və bu qənaətə hasil olur ki,

*Həkimlər bilmədi, dərdli şairin*
*Dərmanı - azadlıq, loğmanı – eldir* [119, s.116]

Mənalı həyatını xalqının maariflənməsi, tərəqqisi yolunda sərf edən, bütün yaradıcılığı ilə milli məfkurəyə xidmət edən, ədəbi fikir tariximizdə “Sabir məktəbi” formalaşdıran Mirzə Ələkbər Sabir obrazının yaradıldığı Bəxtiyar Vahabzadənin “Ağlar güləyən” tarixi poeması janrın ən diqqətəlayiq nümunəsi kimi bu gün də tarixi, ədəbi-nəzəri dəyərini qoruyub saxlamışdır, Sabir irsinə dərin ehtiramın ifadəsi kimi yadda qalmaqdadır.

Böyük demokrat ədib, görkəmli satira ustası Mirzə Ələkbər Sabirin anadan olmasının 100 illiyində onun obrazının yaradıldığı tarixi mövzulu poemalardan biri də Nəbi Xəzrinin “Dağlar dağımdır mənim” poemasıdır. Poema tarixi mövzulu poemalar içərisində öz estetik-bədii dəyəri ilə diqqəti cəlb etdiyi kimi, mövzu aldığı dövrü əhatə etməsi, Sabir irsi və şəxsiyyəti barədə mənbələrə uyğun, tarixilik prinsipini pozmadan dolğun məlumat verməsi baxımından da orijinal bədii nümunədir. Qeyd edək ki, Nəbi Xəzri yaradıcılığına aid edilən aşağıdakı fikir onun

epik poeziyasının da ana xəttini təşkil edir*: "N.Xəzri yaradıcılığına xas olan üslubi xüsusiyyətlərdən biri də onun obrazın xarakterini, təbiətini, daxili aləmini atalar sözü və məsəllər vasitəsilə daha dəqiq qiymətləndirərək sərrast ifadə etməsidir"* [25, s.120].

Poema böyük bir nigarançılığın Azərbaycan mühitində doğurduğu rezonansla başlayır - "Sabir, deyirlər ki, ağır xəstədir!". Müəllif fərqli təbəqədən olan insanların yanaşmasında məsələyə münasibəti ortaya qoymaqla dövrün bir sıra eybəcərliklərini də aşkarlamış olur: şəriət xadimləri sevinir, kimisi təəssüflənir, kimlər sevincini gizlədir, kimlər də xəbərin acısını bütün qəlbi ilə yaşayır. N.Xəzri "Molla Nəsrəddinin" Sabir xəstədir fəryadını bədii mətnə gətirməklə Sabir-Mirzə Cəlil münasibətlərini diqqət mərkəzinə çəkir. Mühitin gerçək üzünü tam mənası ilə ifadə edən bu misralar müəllifin dövrə dərindən bələdliyinin ifadəsi kimi səslənir:

*Çörək satan da var, şərbət satan da,*
*Millətin içində millət satan da* [87, s.2]

Hadisələrin axarında Şamaxıya gedən kiçik uşaqla qoca faytonçunun söhbətlərindən aydın olur ki, faytonçu tanımadığı şairin şeirlərindən misal gətirir, uşaq Sabirin onun müəllimi olmasından ehtiramla danışır. Balaca uşaq cibindəki bir manatla sevimli mülllimінин ziyarət etmək üçün Şamaxıya gedir. Sanır ki, cibindəki bir manat Sabirin dərmanına yetəcəkdir. Yola körpü salan qoca faytonçunun dilindən səslənən *"Dağlar dağımdır mənim; Qəm oylağımdır mənim; Dindirməyin dərdliyəm; Axır çağımdır mənim"* misraları qoca dünyanın gərdişinə bir haray kimi səslənərək yüksək emosional ovqat formalaşdırır.

Xəstə yatağında yatan Sabirin baş ucunda Abbas Səhhət dayanıb ona ürək-dirək verir, onların dialoqunda Sabirin möhnətli ömür yolunun səhifələri canlandırılır. Sabirə el məhəbbətinin təzahürü olan, onun sağalması üçün ianə edən Bakı fəhləsi, Batumda çəkməçi, Kiyevdə balaca qız, Həştərxan, Düşənbə, Dərbənd, Aşqabaddan və daha haralardan xəbər verən müəllif bir tərəfdən Sabirə olan xalq məhəbbətini ifadə edirsə, digər tərəfdən böyük şairin hələ sağlığında bütün türk dünyasında, Orta Şərqdə tanınmasını dilə gətirir. Müəllif digər qütbdə isə avam kütlənin dərdlərini dilə gətirən satira ustasını kafir adlandıranların Sabirin xəstəliyinə sevinməsini qələmə

almaqla ictimai mühitdə hökm sürən daha böyük yaranı ifadə etmiş olur. Emosional ovqatda təsvir olunan Sabirin son nəfəsdəki arzusunu A.Səhhətə bildirməsi - "Sənə tapşırıram "Hophopnamə"ni" deməsi və onu ən əziz balası adlandırması ədəbi qəhrəmanın son nəfəsində də yaradıcılıq amalına sadiqliyini nümayiş etdirir. N.Xəzri poemada Sabirə olan ümumxalq məhəbbətini geniş planda göstərmək naminə qoca faytonçu ilə balaca Arzunun Şamaxı səfərində onların qarşısına faytonçunun qanlı düşməni olan qaçaqları çıxarır. Qaçaqlarla faytonçunun qarşıdurmasına Sabirin xəstə olması son qoyur. Sabir dərdinə sanki təbiət də ağlayır:

*Dağlar Sabir yazdı göyə dumanla,*
*Çaylar pıçıldadı ahla-amanla...* [87, s.14].

Balaca Arzu Şamaxıya çatanda öz sevimli müəllimini son mənzilə yola salırdılar. Böyük şairin ölümü bütün Şamaxını matəmə qərq etmişdir. Kiçik bir detal vasitəsi ilə böyük bir düşüncəyə yol açan hadisəni müəllif o qədər emosional ovqatla tərənnüm edir ki, misralar dilə gələrək deyir:

*Arzunun cibində qalan tək manat*
*Yandırır əlini od-alov kimi* [87, s.14].

Dahi şairin ölümünü dözülməz dərd misalında təsvir edən sənətkarın Sabir şəxsiyyətinə, sənətinə poetik ehtiramını bu misralarla ifadə edir.

*Gülərək ağlayan dahi insanın*
*Ellər ağlayırdı məzarı üstdə* [87, s.15].

Poemanın sonluğu da maraqlı hadisələrin düzümü ilə diqqəti cəlb edir. Belə ki, qaçaqlarla qoca faytonçu illərlə davam edən ədavət, düşmənçilik hisslərindən əl çəkir, son pənahı Sabir olan balaca Arzunu faytonçu oğulluğa götürür.

N.Xəzrinin "Dağlar dağımdır mənim" poeması axıcı bir dillə, üslubi özünəməxsusluqla qələmə alınmışdır. İstər sənətkarlıq məziyyətləri, istərsə də ədəbi-bədii dəyəri ilə diqqəti cəlb edən, böyük Sabirin anadan olmasının 100 illiyinə töhfə olan tarixi mövzulu "Dağlar dağımdır mənim" poeması ədəbi tənqidin də, Azərbaycan oxucusunun da diqqət və marağına səbəb olmuş, bu gün də ədəbi-estetik dəyərini saxlamaqdadır. Ümumilikdə Nəbi Xəzri yaradıcılığına verilən dəyərin ifadəsi olan aşağıdakı fikirlər də dediklərimizi təsdiqləməkdədir: *"Nəbi Xəzrinin*

*lirikası, poemaları, bütün bədii əsərləri, publisistik çıxışları ictimaiyyətimiz tərəfindən, xalqımız tərəfindən sevilir"* [99, s.290]. Şairin yaradıcılığına yüksək qiymət verən, həm də onun epik poeziyasını dəyərləndirən bir tədqiqatda qeyd olunduğu kimi, *"Nəbi Xəzrinin poeziyası özünün müasirliyi və mübarizliyi ilə seçilməkdədir. Müasirlik isə hər cür bədii əsər üçün ən böyük məziyyət, ən müqəddəm keyfiyyət kimi mənalandırılmalıdır. Çünki istər lirik, istərsə də epik poeziyada ilkinlik, lirik başlanğıc və hərarət əsas və aparıcı bir xüsusiyyət kimi təzahür etməkdədir"* [100, s.182].

Azərbaycan ədəbiyyatı tarixində Mirzə Ələkbər Sabir obrazı yaradılan bədii nümunələrin sayı onlarladır. Amma Sabirin ədəbi şəxsiyyət kimi obrazının yaradıldığı tarixi mövzulu poemalar öz ədəbi dəyəri, sənətkarlıq məziyyətləri içərisində özünəməxsusluğu ilə diqqəti cəlb edir. Sabirin həyatı, şəxsiyyəti, yaradıcılığından bəhs edən dəyərli sənət nümunələrindən biri də Xalq şairi Məmməd Arazın "Mən də insan oldum" poemasıdır. Məmməd Araz yaradıcılığında poema janrının xüsusi çəkisi danılmaz olduğu kimi, Sabirdən bəhs edən bu tarixi mövzulu poemada da böyük şairin yaradıcılığı, həyatından alınmış faktlardan sənətkarlıqla bəhrələnilmişdir. Poemanın başlanğıcında Sabirin "Fəhlə, özünü səndə bir insanmı sanırsan?" misraları ilə başlanan şeirindən epiqraf verilir və Məmməd Araz dilinin yeyinliyi ilə fəhləyə müraciətlə orijinal yanaşma nümayiş etdirilir, həm Sabir dövrü, həm də Məmməd Araz dövründə "fəhlə"yə ictimai, sosial mühitdəki münasibətin köklərinə enilir. Bəhs olunan dövrün reallıqlarını poetik dillə tərənnüm edən M.Araz ötən əsrin əvvəllərindəki Azərbaycan insanının acınacaqlı həyatı, məişəti, fəhlə sinfinə münasibət kimi məsələləri sosial düşüncə kontekstində dəyərləndirir və məsələni bir fəhlənin həyatından daha çox millətin taleyində yaşanan gerçəkləri Sabirə müraciətlə dilə gətirir:

*Millət çılpaq idi, millət ac idi,*
*Millətin çörəyi ehtiyac idi* [8, s.78].

Millətin taleyini öz taleyi bilən vətəndaş şairin bütün yaradıcılığına hakim kəsilən istiqlal ideyaları bu poemada da qabarıq şəkildə özünü göstərir. Demokrat ədib Sabirə

müraciətlə söylədiyi fikir bir mənada da Məmməd Arazın Sabir dünyasına səyahəti təsiri bağışlayır. Müəllif Sabirə müraciətlə deyir:

*Qoy bir də oxuyum, o şeri bir də,*
*Bir fəhlə özüylə üz-üzə dursun.*
*Mənim bu günümü görən Sabir də*
*Qoy bu gün yanımda gəlib otursun* [8, s.78].

Sənətkar poemada qaldırdığı ictimai problemə fərqli aspektdən yanaşaraq fəhləyə müraciət edir və deyir:

*Bir ayıl, ey başı bəlalı fəhlə,*
*Bir ayıl, sinəsi yaralı fəhlə!*
*Bir ayıl qəflətdən, taleyinə bax,*
*Özünü-özünlə döyür o ancaq!* [8, s.79].

Davamında şair təəssüf hissi ilə dilə gətirir ki, fəhləni döyən əl əslində öz millətindən olan insanın əlidir:

*Qamçısının dili, dilindir sənin,*
*Qamçısının sapı qolundur sənin!* [8, s.79].

Şair məsələyə daha geniş planda baxaraq ötən əsrin əvvəllərində – çar idarəçiliyi dövründə mərkəzin qərarlarını icra edən yerli idarəçilər bu xalqın içindən seçilmiş şəxslər idi və cəhalət, milli təəssübkeşlik hissini unutmuş adamlar öz millətinin kasıb, kimsəsiz, fəhlə nümayəndələrinə acımasız şəkildə davranır, onu alçaldır, təhqir edir, heysiyyəti ilə oynayırdı. Məmməd Araz fikir axınında ötən əsrin sonrakı mərhələlərini xatırlayır, milli istiqlal duyğularının hakim kəsildiyi, milli özünündərkin formalaşdığı dövrün fəhləsi misalında özünü görərək onun dilindən danışır:

*Mən gözü tutulan bir bulaq idim,*
*İşığa çıxmağa yollar gəzirdim.*
*Elə bil kim isə əlini atdı.*
*Gözümə tıxanan daşı çıxartdı,*
*Axdım yer üstündə yollar açaraq,*
*Hər yana şaxəli qollar açaraq*

*Sızqa bulaqları özümə qatdım,*

*Cilovsuz çaylara qarışdım, artdım* [8, s.80].

Məmməd Araz fikir dünyasında Sabirlə dialoqa girərək "fəhlənin də insan olduğu günləri" öz qələmi ilə dilə gətirir və böyük ustada müraciətlə təəssüfünü dilə gətirir:

*Əfsus ki, görmədin o günləri sən,*

*Yazmadın o günü fəhlə qanıyla.*

*Yox, səni eşitdik ön cərgəmizdən*

*Silahlı bir şair həyəcanıyla* [8, s.80].

Beləcə, Məmməd Araz Sabirə müraciətlə qələmə aldığı poemada həm Sabir dövrü, həm də özünün yaşadığı dövrün bir sıra ictimai, siyasi, sosial gerçəkliklərini narahat düşüncələri fonunda poetikləşdirir, böyük ustada müraciətlə gah sevincini, gah kədər və ələmini, iztirablarını bölüşür. İctimai motivlərin güclü olduğu poema dili, ifadə imkanları, sənətkarlıq xüsusiyyətləri, üslubi səciyyəsi ilə bitkin bir sənət əsəri kimi diqqəti cəlb edir, poemada qaldırılan bir sıra ictimai problemlər öz dəyəri, milli gərəkliliyi ilə bu gün də aktuallığını qoruyub saxlayır, milləti birliyə, həmrəyliyə, milli məfkurə ətrafında sıx birləşməyə səsləyir. Məmməd Araz yaradıcılığı ümumilikdə istiqlal ideyalarının carçısı olmaqla yanaşı, XX əsr fəlsəfi lirikasının da ən kamil nümunələri hesab olunur. Şairin poema yaradıcılığı öz məndəricəsi, mövzu dairəsi ilə də diqqəti cəlb edir. Bu aspektdən yanaşılan bir tədqiqat əsərində oxuyuruq: *"Şeir yaradıcılığında olduğu kimi, poemaları ilə də Məmməd Araz təkrarsızdır. Onun "Üç oğul anası", "Araz axır", "Mən də insan oldum", "Paslı qılınc", "Əsgər qəbri", "Atamın kitabı" poemaları hər şeydən əvvəl insan mənəviyyatının mürəkkəbliyi, tarix və müasirlik, milli tale və tarixi yaddaşın bərpası kimi fundamental məsələlərə həsr olunub"* [155].

Böyük Azərbaycan şairi Mirzə Ələkbər Sabirin həyatı, yaradıcılığını mövzu alan, yaxud ona müraciətlə yazılan qiymətli tarixi poemalardan bir də Fikrət Sadığın "Ömrün bir günü" poemasıdır. Poema lirik ricət şəklində qurulsa da, müəyyən məqamlarda təbiətin səsinə qulaq asan müəllif Sabir dərdlərini gecənin səssizliyinə bənzədir, yaxud böyük şairin zülmətə qərq olunmuş dünyası ilə gecənin qaranlığı,

səssizliyi arasında bir bağ görür. Fikrət Sadıq Sabir dünyasının məşəqqətlərini özündə ehtiva edən gecənin zülmətini o qədər lirik tonda, sentimental ovqatda təqdim edir ki, oxucu hardasa məişət problemləri, yaradıcılıq iztirabları, dövrün geriliklərinin, zamanın ağır yükünü çəkən Sabirin bir günlük əhvalını öz taleyində yaşayır:

*Gecə aysız, ulduzsuz,*
*Gecə qatrandan qara.*
*Bulud kimi yayılıb,*
*Dərələrə, dağlara.*
*Gecə ölüm rənglidir,*
*Gecə kömür rənglidir... [*111, s.452].

"Şair yenə kədərli, Şair yenə pərişan" misraları ilə Sabir dünyasına səyahət edən müəllif görkəmli satira ustasının hayından bir gün alır, bu günə sənətkarın ömür yükünü, çəkdiyi əzabları, sıxıntıları, iztiabları, məişət problemlərini sığdıra bilir. Fikrət Sadığın və mənsub olduğu dövrün ədəbi mühitində sənətkarın yeri və fərdi yaradıcılıq üslubunun səciyyəsini verən araşdırmada göstərilir ki, *"Düzdür, göstərilən zaman çərçivəsində poema və epik növün digər işlək janrlarına da şairlər müraciət edir və diqqətəlayiq əsərlər yazırdılar"* [38, s.35]. Belə bir dövrdə poema yaradıcılığına müraciət etsə də, Fikrət Sadığın istər lirik, istərsə də epik yaradıcılığında diqqəti cəlb edən məqam lirik, psixoloji yanaşmanın ön plana çıxmasıdır deyə bilərik. Məhz sənətkarın yaradıcılığında lirikanın spesifikasını müəyyənləşdirən ədəbiyyatşünaslıq tədqiqatlarında vurğulanır ki, *"... onun yaradıcılığında analitik-psixoloji üslub və onun müxtəlif çalarları...rast gəlmək olar" [38, s.35].* Fikrət Sadıq yaradıcılığının ümumi ruhuna sirayət edən qeyd olunan özəlliklər məhz haqqında danışdığımız satira ustası M.Ə.Sabirə ünvanlanaraq qələmə alınan "Ömrün bir günü" poemasında da özünü qabarıq şəkildə büruzə verir.

Ədəbi fikir tariximizdə Sabir obrazının yaradıldığı, yaxud Sabirə müraciətlə qələmə alınan maraqlı süjeti, hadisələrin axarı və dinamikası, yazı tərzi, üslubi səciyyəsi ilə diqqəti cəlb edən bədii nümunələrdən biri də Nəriman Həsənzadənin "Heybədə gəzən şeir" poemasıdır. Poemanın ideya-bədii xüsusiyyətləri, mövzusu, sənətkarlıq məziyyətlərindən bəhs olunduğu zaman vurğulanır ki, *"Çoxşaxəli və*

*rəngarəng yaradıcılığa malik olan şair poemalarının birini də tanınmış klassiklərdən olan, yazıb-yaratdıqları hər əsrdə təzə-tər səslənən, mövzu dairəsi geniş, tiplər silsiləsi zəngin, təsvir və səciyyələndirmə üsulları orijinal, mütəfəkkir və novator şairimiz M.Ə.Sabirə həsr etmişdir. O görkəmli satirik haqqında nə qədər fundamental monoqrafiyalar, məqalələr, xatirələr, şeirlər yazılsa da, həmin poemanın özünəməxsus yeri var. N.Həsənzadə "Heybədə gəzən şeir" poemasında Sabir irsinin zəngin mündəricəsini, misilsiz bədii təsir qüvvəsini açıb oxuculara göstərməyə çalışır, hərarətli sözlərlə gəncliyi təhsilə, yeniliyə, intibaha səsləyir. Sevindirici haldır ki, M.Ə.Sabirin şeirləri təkcə Heybədə deyil, yaddaşda, qəlblərdə, bəşəriyyətin duyğularında gəzir"* [131]. Akademik Nizami Cəfərov Nəriman Həsənzadə yaradıcılığından bəhs edəndə onun yaradıcılığında tarixi mövzuların işlənmə həssaslığını göz önündə tutaraq qeyd edir ki, *"Nəriman Həsənzadə yaradıcılığının müasirliyi tarixilikdən təcrid olunmayan bir müasirlikdi; Şair Azərbaycan tarixinin ən qədim dövrlərinə müraciət edəndə də, orta əsrlərdən, XIX əsrdən, XX əsrin əvvəllərindən danışanda da olduqca müasirdir, olduqca bu günün şairidir"* [28, s.4]. Yaxud akademik şairin yaradıcılığındakı tarixiliyi nəzərə alaraq vurğulayır: *"Nəriman Həsənzadə, doğrudan da, yalnız şair kimi deyil, araşdırıcı-tarixçi kimi də orijinaldır- onun tarixi poemaları... Azərbaycan cəmiyyətinə milli tarixin heç bir peşəkar tarixçinin verə bilməyəcəyi həcmdə faktını, başlıca olaraq isə məntiqini təqdim edir"* [24, s.5]. Qeyd edək ki, Nəriman Həsənzadə yaradıcılığında tarixi mövzuların işlənmə məqamına verilən qiymət onun Sabirə müraciətlə qələmə aldığı tarixi mövzulu "Heybədə gəzən şeir" poemasını da əhatə edir, poema janrın dəyərli nümunəsi kimi ədəbi fikir tariximizi zənginləşdirən əhəmiyyətli bədii nümunədir.

Görkəmli ədiblərimizin obrazının yaradıldığı, bədii məziyyətləri ilə diqqəti cəlb edən tarixi mövzulu poemalardan biri də görkəmli yazıçı-dramaturq, ictimai xadim olan Nəriman Nərimanova həsr olunmuş Rəsul Rzanın "Xalq həkimi" poemasıdır. Əsər Bakının yaraşıqlı binalarının, xiyabanlarının, xüsusilə də Nərimanovun adını daşıyan xiyabanın təsviri ilə başlayır. Şair Nərimanovun xiyabanda adının verildiyi lövhə qarşısında xəyala dalır, xəyalı onu çox illər əvvələ,

uşaqlıq illərinə – Göyçaya aparır. O vaxta ki, onda Rəsul Rza 10 yaşında idi və Göyçayda böyük izdiham var idi, insanlar toplaşır, biri-birinə pıçıldaşırdı - Leninin dostu, Xalq həkimi gəlib. Müəllif geniş lövhələrlə ötən əsrin əvvəlini-inqilabdan əvvəlki həyatın dolğun mənzərəsini yaradır. Aclıq, səfalət, cahillik, savadsızlıq, insanların acınacaqlı həyatı fonunda xalqın işıqlı ideyalar carçısı olan ümid yerlərindən biri - Xalq həkiminin gəlişi bayram təntənəsinə çevrilir. Kasıb, səfil həyat sürsələr də, Nərimanova böyük rəğbət bəsləyən, ona açıq ürəklə qulaq asan, onu öz kasıb daxmasında qonaq ertmək üstündə mübahisə edən bu sıradan insanların portreti xalqın yüksək qonaqpərvərliyinin, əxlaqi-mənəvi dəyərlərə, adət-ənənələrə verdiyi dəyərin ifadəsi kimi povest də maraqla qarşılanır. Rəsul Rza həssaslıqla ötən əsrin əvvəllərinin tarixi reallıqlarını bədii planda əks etdirməklə oxucunu məlum dövrə səyahət etdirir. Xalqın ümid yeri olan Nərimanı bir qadın təlaşla axtarır, çünki oğlu xəstədir. Xəstənin yanına gətirilən Nəriman soruşduqda dövrün bir sıra gerilikləri aşkarlanır, batil inancların, fanatik din xadimlərinin "kəramətindən"- paslı mismarın və digər əşyaların qatıldığı suyu içdiyi üçün bədənində iltihab yaranmış uşaq bütün bu geriliklərin qurbanı kimi ön plana çıxarılır. Bu yerdə müəllif ədəbi qəhrəmanına "Pir"ləri xatırladır. Həssaslıqla seçilmiş məqamda Nərimanovun "Pir" povestindəki mühitin eynisi Doktor Nərimanın qarşısına çıxır. Müəllif bu məqamda daha kəskin boyalarla dövrün canlı mənzərəsini yaradır:

*Azadlığı dustaq,*
*Taleyi yad əllərdə oyuncaq,*
*Dili ali məclislərdə yasaq,*
*Səadəti qaçaq,*
*Bir millətin yaraları.*
*Yarpaq-yarpaq çevrilir*
*Ömrün varaqları* [54, s.202].

Müəllif oğlunu öz əlləri ilə ölümə tərk edən, cəhalətin qurbanı olan ananın fəryadını dinlədikcə, onun ah-naləsinə qulaq asdıqca emosional ovqatda sanki pıçıldayaraq "yalnız anasını itirəndə adam yetim qalmır, balasını itirən analar da yetim qalır", –deyir. Körpə uşağın ölümü, ananın nalələri qarşısında mütəəssir olan

Nəriman Nərimanovun dilindən verilən sözlər bir silah gücündədir və təsvir olunan mühitə qamçı kimi təsir edir. Nəriman deyir: "*Budur avamlığın bəhrəsi!*" [54, s.203]. Rəsul Rza Nərimanlı günlərdən böyük ağrı ilə ayrılıb poemanı yazdığı dövrün mənzərəsini gözlərimiz önündə canlandırmağa və öz oxucusunu sovet cəmiyyətinin yaratdığı "firavanlığa" qiymət verməyə çağırır. Söyləyir ki, bir vaxtlar burda "Heyva piri" vardı, naəllac, ümidsiz, cahil insanlar öz əskiparasını buraya bağlayırdı, amma kimsə burdan nicat tapmadı. Şair bu qənaəti hasil edir ki, milli tərəqqinin, maarifçiliyin, dünyəvi inkişafın mövcud olduğu cəmiyyətdə fanatizm hökm sürə bilməz. Şair düşünür ki, bəlkə də uzaq-uzaq illərdən boylanıb Nəriman bu günləri görür, görür ki, bir vaxtlar pirlərdən mədəd uman biçarə insanlar həmin pirin yerindəki xəstəxanada öz dərdlərinə əlac arayırlar. Beləcə Nəriman buradan ayrılır, şair isə vurğulayır ki,

*O gedir,*
*Ürəklərdə nə qədər*
*Alışdırdığı*
*Arzu, inam közü qalır* [54, s.205].

Bəli, Nəriman ürəklərdə bir ümid işığı səpib gedir, özününsə ürəyində min-min ümidlər, görməli işlər vardır. Poemanın sonunda Nərimanı aparan qatarın səsləri qulaqlarda cingildəyir. Müəllif yol ümiddir, yol gələcəkdir ideyası ilə poemanı sonlandırır. 1965-ci ildə - sovet rejiminin hələ də sözünü dediyi ildə tamamlanan poemada ideoloji diqtənin təsiri duyulur, Rəsul Rza belə qənaət formalaşdırır ki, 50-60 il müddətində sovet rejimi Azərbaycanın ucqar bölgəsinə yeni həyat gətirdi. Sovet dönəmində yazılan əsərdə hardasa bu belə olmalı idi, başqa cür yaza bilməzdi. Amma gerçək bu idi ki, poemanın sonunda Nərimanı aparan qatarın cingiltisi hardasa həyəcan təbili idi. Çünki dövrün sənədlərində də əks olunduğu kimi, bu qatar Nəriman Nərimanovu uzağa-Moskvaya-ölümə aparırdı. Gerçəkdə isə Nərimanova mərkəzin münasibəti heç də birmənalı olmamış, ölümündən sonra *"Uzun müddət Azərbaycanda onun adının belə çəkilməsi yasaq edilmişdi. 1950-ci illərin ortalarından Nərimanova "ictimai və siyasi bəraət" istiqamətli tədqiqat işləri dərc edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və*

*qətiyyəti sayəsində Nəriman Nərimanovun ictimai-siyasi fəaliyyəti layiqli qiymətini almış, anadan olmasının 100 illiyi təntənə ilə qeyd olunmuş, Bakıda əzəmətli abidəsi ucaldılmış, Xatirə muzeyi yaradılmışdır"* [156]. Ümumilikdə Rəsul Rzanın poema yaradacılığı ədəbi fikirimizdə yüksək qiymətləndirilir: *"... "Xalq həkimi", "Qız qalası", "Son gecə" və s. poemalarında insanpərvərlik, humanizm, nəciblik kimi ali məziyyətlər qabardılır, laqeydlik, biganəlik qınağa çəkilir"* [139]. Yaxud bir başqa tədqiqatda Rəsul Rza yaradıcılığında poema janrının imkanlarından bəhs edən tədqiqatçı vurğulayır ki, "Azərbaycan poeziyasında poema janrının inkişafında xüsusi xidməti olan qüdrətli sənətkarlardan biri də Rəsul Rzadır. Böyük sənətkar üslub orijinallığı ilə seçilən, obrazların zənginliyi, insan xarakterlərinin dərin təhlili baxımından sanballı, ədəbi ictimaiyyətin həmişə diqqətini cəlb edən poemalar yazmışdır. Şairin müxtəlif vaxtlarda qələmə aldığı "Bir gün də insan ömrüdür", "Anamın gəlin qızı", "Qız qalası", "Babək", "Füzuli", "Hilal", "Son gecə", "Lenin", "Xalq həkimi", "Qızılgül olmayaydı" yüksək ideya xüsusiyyətlərinə, kolorit gözəlliyinə, daxili dinamika və dramatizminə görə diqqətə layiqdir" [133]. Həm ədəbiyyatşünaslıqda, həm də oxucu yaddaşında izi qalan Rəsul Rzanın poema yaradıcılığı, xüsusilə də "Xalq həkimi" poeması öz ədəbi-bədii dəyəri, mövzu və ideyası, sənətkarlıq xüsusiyyətləri ilə hələ də təravətini itirməmişdir.

Görkəmli dövlət xadimi, maarifçi, həkim, yazıçı-dramaturq Nəriman Nərimanov obrazının yaradıldığı tarixi mövzulu poemalardan biri də Nəriman Həsənzadənin "Nəriman" poemasıdır. Poema uzun müddət ictimai fikirdən uzaq tutulmuş, haqqında qadağalar qoyulmuş, irsinin, həyat və fəaliyyətinin öyrənilməsinə maneə olunmuş Nəriman Nərimanova həsr olunmuş, böyük milli təəssübkeşliyin ifadəsi olan, ədəbi-nəzəri quruluşu, dili, üslubi özünəməxsusluğu ilə seçilən, Nəriman Həsənzadə üslubuna məxsus olan həzinlik səmimiyyətlə qələmə alınmış dəyərli bədii nümunədir. Nəriman Həsənzadənin poema yaradıcılığı ədəbiyyatşünaslıqda çoxsaylı tədqiqatların mövzusu olmuş, onun tarixi mövzulu əsərlərində tarixilik və müasirlik problemi diqqət mərkəzinə çəkilmiş, əsasən onu tarixi reallığa "sədaqətli" ədib kimi qiymətləndirmişlər. Bu aspektdən yanaşan araşdırmaların birində vurğulanır ki, "*N.Həsənzadə tarixə güvənən sənətkardır. O, qədim və ulu bir xalqın oğludur, onun*

*mənsub olduğu xalqın qəhrəmanlıqla dolu zəngin tarixi irsi var. O həm də bir sənətkar kimi güclü tarixilik duyğularına malikdir. Bu onun fərdi təfəkkür tərzi, üslubi özünəməxsusluğudur. Belə ki, tarixə arxalanan müasirliyi daha aydın görər və səhv etməz. N.Həsənzadə keçmişin gözəl dəyərlərini, yaradıcı və qurucu şəxsiyyətlərini unutmamağı, unudulmuş tarixin milli-ictimai şüurda bərpası probleminə toxunur. Məsələn, Azərbaycanın müasir həyatında böyük rol oynamış N.Nərimanovun taleyi onu həmişə düşündürmüş, bir sıra əsərlərinin mövzusu olmuşdur. Bu mənada "Nəriman" poeması N.Həsənzadə yaradıcılığının mükəmməl bədii abidəsidir və fikrimizcə, o, həmişə yaşayacaqdır"* [131]. Ədibin "Nəriman" poeması öz estetik-bədii dəyəri, mövzu və ideyası ilə ədəbi-tənqidin diqqətini cəlb etmiş, görkəmli dövlət xadiminin obrazının yaradıldığı poema haqqında təkcə ədəbiyyatşünaslıq yox, eyni zamanda tarixçilər, bütün ictimaiyyət yüksək fikirlər söyləmişdir. Poemada Doktor Nərimanın həyatının bəlli dövrü, ədəbi fəaliyyəti, maarifçilik və həkimlik fəaliyyəti, mühüm dövlətçilik fəaliyyəti və ən əsası xalqımızın tarixi taleyindəki mühüm xidmətləri qaynaqlara dayanaraq, tarixi reallıqları təhrif etmədən bədiiləşdirilmişdir. Poemada Nərimanovun yaradıcılığından olduğu kimi, xalqımızın zəngin mədəni dəyərlərindən, məişətindən, adət-ənənəsindən, bəhs olunan dövrün ictimai, sosial reallıqlarından yaradıcı şəkildə bəhrələnən şair-dramaturq ən əsası ədəbi qəhrəmanına tükənməz sevgisini kövrək misraların dili ilə ifadə edə bilmişdir. Bu kimi müsbət məziyyətlərini nəzərə alaraq tarixçi alim Musa Quliyev qeyd edir: *"Şairin "Nəriman" poeması xalqımızın böyük oğlu, bütün şüurlu həyatını qətrə-qətrə millətin, Vətəninin yolunda əridən, görkəmli dövlət xadimi, şöhrətli yazıçı-dramaturq Nəriman Nərimanovun həyatına həsr olunmuşdu. Bu, poema yox, özünün bədii dolğunluğuna, məzmununa, əhatə dairəsinə görə nəzmlə yazılmış roman idi. Bu əsər böyük Nərimana bədii heykəl idi. Sonralar şair bu poema əsasında "Qoy bütün Şərq eşitsin" adlı pyes də yazdı. Poema kimi pyes də çox uğurlu oldu. Bakıda və Moskvada yüksək mükafatlara* layiq görüldü..." [134].

Qeyd edək ki, ötən əsrin ortalarında Nərimanov adı ətrafındakı tor pərdəsi hələ də saxlanılırdı. Nəriman Həsənzadənin bu mövzuda poema yazması müəllifi də çətin

sınaqlar qarşısında qoyur. Görkəmli dövlət xadimi haqqında lazımi sənədləri ona vermirlər, poemanın nəşrinə mane olurlar, o dövrün senzurasında isə poema ixtisar olunur. Azərbaycan elminin, ədəbiyyatının hamisi, Ulu Öndər Heydər Əliyevin tapşırığı əsasında poemanın ixtisarsız nəşri nəzərdə tutulsa da ixtisas olunan yerlər tapılmış, Xalq şairi bu hadisələri öz dilindən ifadə edərək deyir: *"Ulu Öndərimiz bürodakı çıxışlarının birində demişdir ki, poema necə yazılıbsa, eləcə də çap olunmalıdır. Lakin artıq gec idi. O zamankı senzura ixtisar etdiklərini elə "gizlətmişdi" ki, yuxarıda dediyim o misraları bərpa edə bilmədim. Sonralar bu poemanın əsasında "Bütün Şərq bilsin" adında məzmun pyes yazdım"* [132]. "Nərimanlaşmaq yox, Leninləşmək lazımdır" deyərək onu ittiham edirlər, silinən 1400 misranın aqibəti isə bəlli olmur. Poemada XX əsrin xalqımızın taleyində ən ziddiyətli dövrünün ictimai-siyasi reallıqlarından cəsarətlə bəhs edən mətnində müəllifin ayrı-ayrı obrazların dilindən verdiyi ifadələr böyük iradənin nəticəsi idi. Şair yazırdı:

*İstəməm ingilis azadlığını,*
*ya rusun aferit azadlığını* [54, s.22].

Bəllidir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də, Cümhuriyyət devrildikdən sonra da Azərbaycanda ayrı-ayrı xalqlar öz işğalçılıq niyyətlərini həyata keçirməyə çalışırdılar. Arxivlərdə rastlaşdığı tarixi gerçəkləri obrazların dilindən cəsarətlə təqdim edən müəllif milli təəssübkeşliklə hadisələrə ayıq münasibət formalaşdırır və eyni zamanda qeyd edir ki, torpaqlarımıza qarşı olan işğalçı niyyətlərin arxasında "neft" faktoru dayanırdı. Bütün bu siyasi proseslərin mərkəzində olan, xalqını əzmlə qoruyan, milli tərəqqiyə bütün ömrünü həsr edən Nərimanovun yaşadığı dövrün ictimai münasibətlərini ürək ağrısı ilə qələmə alan şair təbii sərvətimiz olan neftə münasibətdə həssas şair qəlbinin diqtəsi ilə deyirdi:

*Bəlkə su çıxsaydı yerin dibindən,*
*Ayaqlar altında qalmazdı vətən* [54, s.14].

Nərimanovun xalqımız qarşısındakı mühüm xidmətlərini arxivlərin saralmış vərəqlərindən oxuduqca müəllifdə ədəbi qəhrəmanına könül bağı formalaşır, sanki

obrazın sevinci ilə sevindiyi kimi, ağrılarını da canında duyurdu, öz dili ilə desək, "Nərimanlaşırdı".

*"Nəriman" dedikcə nərimanlaşıb,*
*özüm də dəyişdim bu neçə ildə [*54, s.16].

Poemanın strukturunu izlədikcə əsərin yazılma prosesində sənətkarın yaradıcılıq iztirablarının da şahidi oluruq. Əsər yazıldıqca, təzyiqlər artdıqca müəllif sanki dövrə, zəmanəyə, hakim rejimə etiraz səsini bir az da ucaldır və obrazların dilindən deyirdi:

*Bu heykəl qoyanın əli qırılsın,*
*qaldı torpağımız daşımız üstə* [54, s.19].

Sovet rejiminin güclü bir vaxtında adının yasaq olunduğu görkəmli dövlət xadimi Nəriman Nərimanova poema həsr etmək, onun dövlətçilik, ədəbi-bədii yaradıcılıq, maarifçilik, doktorluq fəaliyyətindən tarixi reallıqlarla üst-üstə düşən faktları bədii planda əks etdirmək böyük cəsarət nümunəsi olduğu kimi, poemada bəhs olunan dövrlə yanaşı, müasir dövrün də ictimai-siyasi reallıqlarına ehtiraz səsini ucaltmaq sənətkardan böyük məharət istəyirdi və Nəriman Həsənzadə məsuliyyəti daşıdı. Həm ictimai əhəmiyyəti, həm ədəbi-bədii dəyəri, həm də mövzu və ideyası, sənətkarlıq xüsusiyyətləri ilə tam olan Nəriman Həsənzadənin "Nəriman" tarixi poeması ədəbiyyatşünaslıqda öz yüksək dəyərini aldığı kimi, oxucu yaddaşında da silinməz iz qoydu.

Ümumilikdə XX əsr realist ədəbiyyatımızın görkəmli nümayəndələrinin obrazının yaradıldığı tarixi mövzulu poemaların tədqiqi deməyə əsas verir ki, bir tərəfdən klassik ədəbi irsimizin bəzəyi olan poema janrı XX əsrdə də öz dəyərini saxlamış, digər tərəfdən forma və məzmun, ideya cəhətdən zənginləşmişdir. Eyni zamanda ədəbi şəxsiyyətlərin mükəmməl obrazının yaradıldığı tarixi mövzulu poemalar əsasən sovetlər dönəmində qələmə alınsa da, bu peoamalarda milli yaddaş problemi mükəmməl şəkildə qoyulmuş, görkəmli ədiblərimizin həyatı, mühiti, yaradıcılığı geniş şəkildə işıqlandırılmış, həyatı, şəxsiyyəti ilə yanaşı, görkəmli sənətkarların irsinin tədqiqi, təbliği baxımından bu bədii nümunələrin əhəmiyyəti böyük olmuşdur.

# III FƏSİL
# SOVET DÖVRÜNÜN ƏDƏBİ ŞƏXSİYYƏTLƏRİ TARİXİ POEMA MÜSTƏVİSİNDƏ

## 3.1.Repressiya qurbanlarının xatirəsinə poetik ehtiram

Azərbaycan xalqının tarixi taleyində çoxsaylı dərin yaralardan biri olan repressiya gerçəkliyi öz hüdudsuzluğu ilə soyqırımlar, müharibələr, kütləvi qırğınlar qədər ağrıdıcı və boşluğu çətin doldurulan bir tarixi, siyasi gerçəklikdir. Təəssüflər olsun ki, bu gerçəkliyi xalqımız XX əsrdə yaşmalı oldu, çoxsalı ziyalılar, fikir adamları, cəmiyyətin aydınları rus-sovet dəyirmanının qurbanına çevrildi, Azərbaycan ziyalılığına qarşı yönəldilən bu repressiya siyasəti əslində milli yaddaşa, milli təfəkkürə, milli özünüdərkə vurulan zərbə idi. Zor gücünə yaradılıb adının humanizm, xalqlar dostluğu, kommunizm qoyulduğu bu rejimin ən böyük qorxularından biri bu rejimə qarşı xalqların milli mübarizəsi idi. Bütün bu tarixin gerçəkliklərinə baxmayaraq, Azərbaycan xalqı, Azərbaycan ziyalılığı hardasa sovet rejiminin bütün dövrlərində milli mübarizəsindən əl çəkmədi, zaman-zaman cümhuriyyətin müsavatçıları, istiqlalçıları və başqa adlar altında mübarizəsini davam etdirdi. Rejimin qılıncının iti kəsdiyi dövrlərdə belə milli düşüncənin dəyirmanı işlədi, millilik, türkçülük düşüncəsinə xidmət edən fəaliyyətlər gerçəkləşdirildi, əsərlər yazıldı, tarixin bu qara ləkəsi unutdurulmadı. Unutdurulmadı ona görə ki, yüzlərlə Azərbaycan ziyalısının - Cavidlərin, Cavadların, S.Mümtazların, Müşfiqlərin, Çəmənzəminlilərin ruhu qarşısında götürülən bir öhdəliyimiz var idi. Olsun ki, Cavid əfəndinin adını mətbuatda, ədəbiyyatşünaslıqda çəkmək olmazdı, amma onun irsi milli təfəkkür sahiblərinin gərgin əməyi sayəsində quruldu, 1956-cı ildəki kütləvi bəraətlərdən sonra repressiya qurbanlarına kütləvi qayıdış da xalqın iradəsinin ifadəsi oldu. Ədəbiyyatşünaslığımız repressiya qurbanlarının irsini tədqiq

edib gələcək nəsillərə ərmağan qoyduğu kimi, yazıçı və şairlərimiz də repressiya qurbanlarının həyatı, fəaliyyəti, şəxsiyyətini öyrənən, öyrədən bədii nümunələr yaradaraq bu ziyalılar qarşısındakı mənəvi borclarını müəyyən qədər yerinə yetirdi. Bu mənəvi borcun ifadəsi idi ki, Xalq şairi Rəsul Rza "Qızılgül olmayaydı", Zəlimxan Yaqub "Cavidin qız balası", Nafilə Abuzərli "Eşq mələyi", Nizami Muradoğlu "Bu dünyanın məzarları ağlamaz" və s. çoxsaylı tarixi-sənədli poemalar yazdılar. Repressiya qurbanlarına həsr olunan bədii-sənədli, tarixi əsərlərin toplanması bir ensiklopediya səviyyəsində olar desək, azdır. Dissertasiyanın bu yarımfəslində ədəbi-bədii, estetik-nəzəri tutumu ilə daha çox diqqəti cəlb edən tarixi poemalardan bir neçəsinin tədqiq və təhlilinə yer verəcəyik.

Repressiya siyasətinin mahiyyətini daha dəqiq ifadə edən bir araşdırmada oxuyuruq: *"Azərbaycan Respublikası ərazisində insan hüquqlarına zidd qanunlar əsasında totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə günahsız insan əsasən milli özünüdərk və milli dövlətçilik əqidəsinə, siyasi rejimin diqtəsinə deyil, milli hissiyyatla düşündüyünə görə repressiyalara məruz qalmışdır"* [137]. Sovet rejiminin apardığı repressiya siyasətinin mahiyyəti zaman-zaman fərqli düşüncə müstəvisində dəyərləndirilmiş, törədilmiş akta qiymət verilmiş, kütləvi qırğınların ədəbi, elmi mühitdəki təsiri dəyərləndirilmişdir. "Qırmızı terror" kimi qiymətləndirilən repressiya siyasətinin mahiyyətini akademik Ziya Bünyadov belə təsnif edirdi: *"Milli kadrları tamamilə məhv etmək, ilk növbədə, dünyaca məşhur, daim düşünən, mütaliə edən yeni fikirli alimləri, mütəfəkkir və intellektləri aradan götürmək! 30-cu illərdə ölkəni idarə edən rəhbər klanın – qabaqcıl olan hər şeyi caynaqlayan qara əllərin niyyəti belə idi"* [23, s.14]. Yaxud bir başqa ziyalı mövqeyində professor N.Şəmsizadə A.Kənanın "XX əsrdə repressiyalara məruz qalanlar" [6] kitabının "Tarix həqiqətləri təsdiq edir" sərlövhəli giriş hissəsində repressiya anlayışını aşağıdakı kimi açıqlayır: *"Repressiya – yad təfəkkürün, əcnəbi əxlaqın və onu ehtiva edən totalitar ideologiyanın millətin genefonduna qarşı yönəldilmiş siyasi qəstdir"* [118, s.3].

Tarixin sonrakı inkişaf mərhələlərində Stalin repressiyalarına düzgün siyasi qiymət verilmiş, repressiya qurbanları haqqında bəraət və əhv aktları çıxarılmışdır.

Ədəbiyyatda isə repressiyaya məruz qalmış, əksinqilabi fəaliyyətdə, antisovet təbliğatında yanlışlıqla şübhəli bilinən, təqsirləndirilən, layiq olmadıqları halda ən ciddi cəzalara məhkum olunaraq məhv edilmiş yaradıcı şəxslər haqqında müxtəlif janrlarda ədəbi əsərlər yaranmaqda davam edir.

Zəlimxan Yaqubun "Cavidin qız balası" və Rəsul Rzanın Mikayıl Müşfiq haqqında yazdığı "Qızılgül olmayaydı" poemalarını elmi-ədəbi təhlil prizmasından dəyərləndirmək, bu ədəbi şəxsiyyətlərin bədii obrazlarının sənətkarlıq xüsusiyyətlərini araşdırmaq, o dövrün siyasi mənzərəsinə əsərlərin məzmunu baxımından münasibət bildirmək elmi-ədəbi fikrimizin əhəmiyyətli istiqamətlərindəndir.

M.Müşfiq isə XX əsrin əvvəllərində milli poeziyamızı yaratmış və inkişaf etdirmiş görkəmli şairlər nəslinə mənsubdur. Akademik Rafael Hüseynovun M.Müşfiqin 110 illiyinə həsr olunmuş "Ədəbi şeirin yaşarı Müşfiq" mövzusunda məruzəsində vurğuladığı kimi, *"O, qısa ömür yolunda cəmi on il poetik fəaliyyətlə məşğul olmasına baxmayaraq, ədibin qələminin məhsulu olan lirik şeirlər və poemalar, dünya ədəbiyyatından tərcümələr bədii irsimizdə dərin və silinməz izlər qoyub"* [135].

Yeni tip Azərbaycan milli lirikasının inkişafına əvəzsiz töhfə vermiş əsərlərinin yazılmasına M.Müşfiqin cəmi on illik yaradıcılığı kifayət etmişdir. Xalq şairi S.Rüstəm Müşfiqin milli təfəkkürü, onun yaradıcılığında klassik irsə münasibət, bəhrələnmə məqamını qiymətləndirərək yazırdı: *"Mikayıl Füzuli, Nəsimi, Vaqif, Seyid Əzim və Sabir kimi klassiklərimizin əsərlərini dərindən öyrənmiş, klassik şeir yaradıcılığının əsaslarını – əruzu mükəmməl mənisəmişdir. Lakin o, yeni şeir formaları və ifadə vasitələri axtarır, xalq poeziyasının mənbəyi olan folklora geniş müraciət edirdi"* [136].

R.Rzanın 1956-1960-cı illərdə həyata keçirilən repressiyanın isti izi ilə M.Müşfiq haqqında yazdığı "Qızılgül olmayaydı" poeması poema-monoloq, poema-etiraf formasında yazılmışdır. Vətəndaş şair o dəhşətli illərdə Müşfiqi və digər repressiya qurbanlarını şərin və qara qüvvələrin pəncəsindən qurtara bilmədiyinə görə özünü və müasirlərini ittiham edir. Stalin rejiminin xofu insanların canından hələ

çıxmadığı bir dövrdə qələmə alınan poema ölkədə tüğyan etmiş repressiyaların – sosial faciənin nəticələrinə münasibət bildirmək, günahsız insanların ən ağır cəzalara məruz qalmalarının səbəb-nəticələrini açıb göstərmək, mədəniyyətimizə vurulmuş zərbənin miqyasını müəyyən etmək missiyasını həyata keçirir.

Rəsul Rzanın "Qızılgül olmayaydı" poeması haqqındakı tədqiqatlardan birində yazılır: "R. Rzanın "Qızılgül olmayaydı" poemasında M. Müşfiqin unudulmaz obrazı yaradılıb. Rəsul Rza "qüvvətli fitri istedad", çağlar poetik təbə, həm ötkəm, çılğın, həm də kövrək, romantik bir təbiətə, kəskin və müstəsna hafizəyə malik olan Mikayıl Müşfiqə həsr etdiyi "Qızılgül olmayaydı" poemasında onun xarakteri haqqında səmimiyyətlə yazır: *O hamıdan sadəydi, hamıdan açıq ürək. Yetim kimi kövrək Dilindəydi çox zaman acığı, qəzəbi"* [100, s.83-84].

Poema min bir əziyyət görmüş Dilbər xanımın müəllifin qapısını xəyalən döyməsi ilə başlayır. Lakin tamamilə tanınmaz hala düşmüş və dəyişilmiş, bir zamanlar özünə və ailəsinə yaxın olan "xalq düşməni"nin həyat yoldaşını tanımaq müəllif üçün asan olmur:

*Mümkündürmü bir ağır*
*qəbir daşı altından,*
*insanı qaldıralar,*
*bu günə gətirələr?* [109, s.206]

Bu o idi, onun, Mikayılın Dilbəri. Aralığa dərin bir sükut çökdü, bu sükut o qədər dözülməz idi ki, insanı vahiməyə salırdı. Bu susqunluğun arxasında baş verənlərə cavab axtarılır, bu mənzərə qarşısında hər kəs, hər şey günahkardır. Müəllif gəlişin məqsədini, Dilbər xanımın axtarışını Müşfiqlə "Gənc işçi"də tanışlığından başlayaraq onun son günlərinədək davam edən dostluğunu, baş verənləri xəyalında canlandırır.

R.Rza Müşfiqin bir şair və vətəndaş kimi portretini təqdim edir, onun hamıdan sadə, açıqürək, dosta sadiq, ülfəti yumşaq olduğunu, cavan ömrünü Vətənə qurban verdiyini bildirir, "Kaş onuntək Vətənə sadiq olaydı hamı!",- deyə etiraf-arzusunu ifadə edir. Poemada Müşfiqin xalq tərəfindən necə sevildiyi hər misrada özünü göstərir:

*Salon susub durardı,*
*alovlu misraları*
*o, məclisə tökəndə:*
*"Oxu, tar, oxu, tar!*
*Səni kim unudar!"* [109, s.221]

Müşfiq tarsız, kamançasız və nağarasız təsəvvür olunmayan milli musiqini yaxşı bilir və onu böyük məhəbbətlə sevirdi. Özü boş vaxtlarında tarda çalır və mahnı oxuyurdu. Bu kimi milli musiqi alətlərimiz yeni ideologiyanın qəzəbinə tuş gəldikdə şair onların müdafiəsi üçün söz deməyə bilməzdi. Onun məşhur "Tar" şeiri əsil həqiqətdə milli musiqi alətlərimizin əhəmiyyətini azaltmağa çalışanlara layiqli cavab idi. Şairin qələm yoldaşlarının və müasirlərinin bu şeirin dərc olunduğundan dərhal sonra ən geniş oxucu kütlələri arasında necə marağa səbəb olduğunu, onun xalq arasında necə şöhrət tapdığını o dövrün mənbələri tam dolğunluğu ilə təsdiq edir. *"İlk dəfə "Tar" şeirini o, bir neçə yüz dinləyicinin toplaşdığı Maarif evində oxudu. Biz hamımız və bütün zal sanki özümüzü güclü, qarşısıalınmaz dalğanın hakimiyyəti altında hiss edərək, Müşfiqi böyük şövqlə alqışlayırdıq. "Tar" şeiri tribunadan məşəl kimi hər tərəfə hərarət və nur kimi yayılırdı"* [129]. Akademik, Xalq yazıçısı M.İbrahimov o anları belə xatırlayırdı. Əlbəttə, o qanlı-qadalı illərdə belə cəsur şeirin yazılması Müşfiqdə vətəndaşlıq hisslərinin nə qədər güclü olduğunu, onun öz xalqına möhkəm bağlılığını sübut edir. Lakin Müşfiq əleyhdarları şairin bu kimi şeirlərini sovet ideologiyasına yad ünsür kimi qiymətləndirməyə çalışaraq, hər cür ittiham və böhtanlara əl atırdılar. Bu o vaxtlar idi ki, ölkədə Stalin repressiyaları geniş tüğyan edirdi. "Şübhəli" şəxsləri ifşa edənlərin hər cür mükafatlandırıldığı 1930-cu illərin ikinci yarısında ədəbi əsərlərə senzura xüsusilə kəskinləşmiş, yüz minlərlə istedadlı adam nahaqdan cəzalandırılmışdı. M.Müşfiq də amansız repressiyanın qurbanı oldu.

Repressiya gerçəyini poetik dillə təsvir edən A.Kənanın *"Öz-özünü yandıran şair"* [6, s.31-47] adlı məqaləsində qeyd olunduğu kimi, bu dövrdə Yazıçılar İttifaqında bir-birinin ardınca nəhayətsiz iclaslar, plenumlar keçirilir, yazıçı və şairlər arasında antisovet, əksinqilabçılar axtarılırdı. H.Cavidin, M.Müşfiqin bədxahları, onların paxıllığını çəkənlər özlərini, ailələrini xilas etmək naminə onlara millətçi,

xalq düşməni damğası vurulmasında vasitəçilik edirdilər. Müşfiqin əsərlərində hökumət orqanlarını narahat edə biləcək fikirlər olmasa da, onlar şairə əksinqilabçı kimi baxaraq ona "vətən xaini" damğası vurdular və güllələdilər.

Poemada M.Müşfiqin adi günləri, yazıb-yaratmaq eşqi, sabaha inamı, gələcək planları ətraflı təsvir olunur. Lakin onun ömrü kimi, yaradıcılığı da yarımçıq qalır.

*Bir axşamüstü*
*vədələşdik, ayrıldıq*
*-Sabah görüşərik, - deyə.*
*"Sabah" gəldi.*
*O gəlmədi...* [109, s.226]

Daha doğrusu, gələ bilmədi. 1937-ci ilin 4 iyun gecəsi Müşfiq həbs olunur. O, Stalin repressiyası illərində qətlə yetirilənlərdən ən gənci idi, bu zaman onun 30 yaşı belə tamam olmamışdı. Hərbi kollegiya onu ən ağır cəzaya – güllələnməyə məhkum etmiş, hökm 5 yanvar 1938-ci ildə yerinə yetirilmişdi. Ə.Cavad, S.Hüseyn və başqaları kimi, Müşfiqin də məzarı belə yoxdur, onu Nargin adasında güllələyib cəsədini dənizə atırlar.

R.Rza Dilbər xanıma müraciətən o ağır gündən sonra Müşfiqlə dostluğunu danmadığını, onun cinayəti nədir, - deyə düşündüyünü dilə gətirir:

Bu cavabsız suallar
indi də, əziz bacım,
duz basılmış yara kimi
ürəyimi göynədir, - deyir.

Şair etiraf edir ki, "*Mircəllad cəlladın əlini sıxıb ədalətə qənim çıxanda*" [109, s.230], qanunları pozanda haqq səsini ucaldıb bağırmaq olardımı? Bu elə bir dövr idi ki, Xorenlər iş başındaydı, Topuridzelər, Markaryanlar millətə qan uddururdu, elə bir zaman idi ki, tanrısı "Gözəllik və sevgi" olan Cavid xalq "düşməni" olmuşdu, Borşovlar istədikləri kimi dustaqxananı  doldurub, boşaldırdılar.

Təxminən 20 il sonra, 1956-cı ilin 23 may tarixində SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası Müşfiqin və digər repressiya qurbanlarının işlərinə yenidən baxaraq başqaları kimi, Mikayıl Müşfiq Mirqədir oğlu İsmayılzadənin tamamilə əsassız

olaraq mühakimə olunduğu, işində cinayət tərkibinin olmadığı haqqında qətnamə çıxarmış, onun barəsində yanlışlıqla çıxarılmış ölüm hökmünü ləğv etmişdi.

Poemada Mikayıl Müşfiqdən qalma xəyali dəftərə, burdakı müxtəlif səpkili şeirlərə münasibət bildirilir, onların şairin yaradıcılığını bütövlükdə xarakterizə etdiyi vurğulanır. Bu əsərlərin hamısı Bakını, Xəzəri, gələn Baharı, müqəddəs Ananı, dostluğu vəsf edir. Bunların müqabilində Müşfiqin qurban getməsi tükənməz təəssüf doğurur:

*...ancaq*
*elin qəmli gəlini,*
*qızılgül olmayaydı,*
*saralıb solmayaydı...* [109, s.247]

Finalda səslənən bu bayatı dünyanın təzad və ziddiyyətlərini əks etdirməklə həyatdan nakam getmiş H.Cavidin, M.Müşfiqin ömür və yaradıcılıq salnaməsi üçün yalnız bir təsəllidir.

Həyatı erkən dərk etmək bir çox görkəmli istedadların nəsibi olmuşdur. Bunun başlıca səbəbini isə ictimai quruluşun törətdiyi fəsadlarda görmək mümkündür. Dünya ədəbiyyatında buna dair çoxlu faktlar göstərmək olar. H.Cavidin, M.Müşfiqin və digər şair və yazıçılarımızın qətlinə fərman verənlər ədəbiyyatımıza və mənəviyyatımıza ciddi zərbə vurdular. Təhlilini apardığımız Z.Yaqubun "Cavidin qız balası" və R.Rzanın "Qızılgül olmayaydı" poemalarında əsər müəlliflərinin də cavab tapmağa çalışdıqları "Nə idi bu istedadlı şairlərimizin günahı?!" sualı bu gün də hər kəsi məşğul edir, onların timsalında vaxtilə insan hüquqlarına zidd qanunlar əsasında totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə günahsız insanın qətlə yetirildiyi dövrün mənzərəsini canlandırır. Bu günahsız qurbanların sonradan bəraət almaları belə dəymiş ziyanı ödəməyə, xalqın ən müxtəlif təbəqələrinin ağrısını azaltmağa yetmir. Bəlkə də təsəlli ondadır ki, vaxtilə Cavidi, Müşfiqi mühakimə edən imperiyanın özü süqut etdi, bu və ya digər söz ustadlarımızın xalqımızı azad, insanlarımızı xoşbəxt görmək istəkləri isə əbədi yaşarlıq qazandı, onların haqlı olduğunu zaman sübut etdi. Burada dahi S.Vurğunun məşhur "Dünən fərman verən, bu gün can verir" kəlamı mənzərəni daha aydın ifadə

edir. Cavidin, Müşfiqin insan ləyaqətini, sevginin ucalığını, yüksək həyat eşqini tərənnüm edən poeziyası qərinələr durduqca yaşayacaq, bəşəriyyətə xidmət edəcəkdir. Onlar haqqında tarixi poemalar yazmış müəlliflərin də başlıca məqsədi oxuculara bunları çatdırmaq olmuşdur.

H.Cavid və M.Müşfiq haqqında yazılmış xalq şairləri Zəlimxan Yaqubun "Cavidin qız balası" və Rəsul Rzanın "Qızılgül olmayaydı" tarixi poemaları ədəbiyyatın bu janrının nəhəng sosial hadisələrdən söz açmaq, "xalq" mövhumunu təsdiq etmək, çoxsaylı və zəngin xarakterli qəhrəmanlar yaratmaq, tarixi hadisələrə obyektiv qiymət vermək kimi xüsusiyyətlərinə söykənərək onların yaşadıqları ziddiyyətli dövrün fəsadlarını açıb göstərmək, bu dahilərin timsalında bütöv bir xalqın faciəsinə poetik münasibət bildirmək amalı daşıyır. Z.Yaqub Turan Cavidə həsr etdiyi poemanın məqsədini belə ifadə edir:

*Ata faciəsini,*
*Ana fəlakətini,*
*Bacı sızıltısını,*
*Qardaş müsibətini,*
*Ellərə yaymaq üçün,*
*Açmışam ürəyimi, vermişəm qələmə sirr* [122, s.288].

Daha sonra şair müasir oxuculara repressiya illərinin fitnə-fəsadını, günahsız xalqın nahaq təqiblərə məruz qalmasını, ayrılıq, ölüm, sürgün, qan-qada ilə yadda qalan 1937-ci ilin dəhşətlərini 50 il sonra qələmə almağın belə nə dərəcədə dəhşətli olduğunu vurğulayır:

*Dəhşətə bax, dərdə bax,*
*Dərd adlı namərdə bax!*
*Başına gələnləri yazırsan, varaq yanır,*
*Dinirsən, dil alışır, deyirsən, dodaq yanır!* [122, s.293]

Poema müəllifinin bir vətəndaş şairin, bir söz ustadının əsassız ittihamlarla günahlandırılmasını və Sibirə sürgün olunmasını tək bir şəxsin, bir ailənin yaşadığı faciə deyil, haqlı olaraq bütöv bir xalqın faciəsi kimi qiymətləndirdiyindən yaşanmış o dəhşətli illərin ağrı-acısını tam dolğunluğu ilə göstərmək üçün poemada öz düşüncələrini

ifadə edə biləcək və obrazların həyatının ayrı-ayrı məqamlarını əks etdirən və ümumi məzmunu təşkil edən parçalardan istifadə etmişdir.

Bütövlükdə seçilmiş mövzunu – xalqımızın tarixinin dəhşətli repressiya illərini əks etdirən, poemanın təsir gücünü artıran bayatılar istisna olmaqla şərti olaraq bir-birini ideya və məzmunca tamamlayan 7 hissəyə ayırmaq olar: 1) Turanın qayğısız uşaqlıq illərinin təsviri; 2) H.Cavidin həbsi; 3) Şairin sürgünə göndərilməsi; 4) Cavidin sürgündə ölümü; 5) Ərtoğrol Cavidin faşizmlə müharibədə həlak olması; 6) Repressiya qurbanlarının əfvi 7) H.Cavidin vətəninə "qayıdışı". Hər hissənin sonunda "Cavidin qız balası" rədifi yeni məzmun və məna ifadə etməklə bitir və obrazın faciəsinin hüdudlarını genişləndirir: "Cavidin sonbeşiyi", "Şairin ər çiçəyi", "Cavidin ərköyünü", "Şairin ümid yeri", "Cavidin həsrətlisi", "Cavidin silahdaşı", "Cavidin Turan qızı". İkinci hissədən başlayaraq Turanın açılan hər sabahdan daha ağır zərbələr aldığı ürək sıxıntısıyla bildirilir:

*Səhəri axşam oldu, gündüzü zülmət gecə,*
*Bu dözülməz itkiyə,*
*Bu çəkilməz ağrıya,*
*İyirmi yaşlı bir qız necə dayansın, necə?!*
*Ömrü boyu dünyada qəm sazını çalası,*
*Yurdumun qəmgin qızı, Cavidin qız balası!* [122, s.189].

Dahi şairə necə yazmağı öyrədənlər, onun gələcək yaradıcılığını müəyyənləşdirənlərin də aqibəti məhz quruluşa olan sadiqliyinin nəticəsi idi ki, onların da həyatlarının sonu faciə ilə nəticələnir. Daha sonra respublika mətbuatında sistemli şəkildə H.Cavidə qarşı yazılar təşkil olunur, onun hər bir əsərində əksinqilabi, millətçilik meyilləri axtarılırdı. Gecələr qapıların döyülməsindən ürəklərə min bir şübhə damması, qapı döyənlərin əlindən evlərin təngə gəlməsi, hər gecə əjdahaya çevrilib ağzını açan və hər gün yeni-yeni qurbanlar tələb etməsi və gözü doymayan namərdlərin yaratdığı xofun təsiri, 37-ci il kabusu poemanın hər misrasında açıqca hiss olunur. Çünki o dövrdə "xalq atası" öz xalqının saysız oğullarına hər cür divan tuturdu:

*Həyatın dostlarına neçə qəbir qazdılar,*

*Ayılıb düşünənə ölüm hökmü yazdılar* [122, s.179].

A.Kənanın məlum əsərinin H.Cavidə həsr olunmuş "Vətənə qayıdış" [6, s.22-30] adlı məqaləsində hələ 1934-cü ildən başlayaraq ayrı-ayrı dövlət məmurlarının, yazıçılar ittifaqının üzvlərinin, şair və yazıçıların şair-dramaturqa qarşı yönəlmiş qərəzli mövqelərini, hədə-qorxu gəlmələrini yazıçıların qurultay, plenum və müxtəlif iclaslarının arxiv sənədləri əsasında oxucular qarşısında canlandırır, günahsız insanlara "vətən xaini", "xalq düşməni" damğalarının vurulma proseslərini açıqlayır.

Z.Yaqub poemada H.Cavidin başına gətirilənləri həqiqətin böhtan qarşısında aciz qalması, dərdin dərd üstəələnməsi, cəmiyyətdə qopan tufanların insanlara necə fəlakət gətirməsi, xəyanətin taxta çıxması, həqiqətin pərdələnməsi nəticəsində yaranan ictimai faciə səviyyəsinə qaldırır və ittiham edir, 37-ci ildən sonra gələn illərə ağrı, nisgil, intizar, acı xatirə qaldığını təsdiqləyir:

*Dağdan bir qaya kimi qopardılar Cavidi!*
*Gecələrin birində apardılar Cavidi!*
*Nələr gördü dünyadan gözü eynəkli Cavid,*
*Nadanlar tənəsindən qəlbi göynəkli Cavid!*
*Sıxdı şair qəlbini qara əllər, pəncələr,*
*Başladı, nə başladı əzablar, işgəncələr!*
*Böhtan işini gördü,*
*Tufan işini gördü, şair getdi sürgünə,*
*Həqiqət çox can atdı,*
*Çıxammadı bir yana, çıxammadı bir günə* [122, s.280]

O dövrün qanlı-qadalı mənzərəsini oxucunun gözləri qarşısında canlandıran müəllif yığın-yığın suallara cavab axtarır, "repressiya qurbanlarının nə idi günahı", – deyə hamını düşündürən sual qarşısında düşünür, dünyada ən böyük dəhşət nədir? sualını cavablandırmağa çalışır ki, onun cavabı hamını qane etmiş olsun:

*Ən böyük dəhşət nədir?*
*Bir insan ömrü qədər həsrətin uzanması!*
*Arzuların puç olub, ümidlərin yanması!*
*Nisgilli baxışların qapıya dikilməsi!*

*Təbəssümün, gülüşün,*

*Yağlı bir əppək olub göylərə çəkilməsi*! [122, s.283]

*"Poemada H.Cavidin ölümqabağı düşüncələri, "günahının" nədən ibarət olması, vətəndən uzaq düşmüş can verən bir insanın daxili iztirabları incə poetik duyumla ifadə olunur"* [43, s. 78]. Z.Yaqub xalqın ayrı-ayrı nümayəndələrini vaxtında şairi qoruya bilmədiklərinə, ona sahib çıxmadıqlarına, sürgündə olduqda isə onun dərdindən, dərmanından, sızıldayan canından, tutulan gözlərindən xəbərsiz olduqlarına görə bir növ ittiham edir. Vətəndən, el-obasından, ailə üzvlərindən, məsləkindən, əsərlərindən, yaradıcılığından ayrı düşmüş H.Cavidin son nəfəsdə çəkdiyi ağrı-acının tərənnümü insan qəlbini riqqətə gətirir, poema müəllifi anlamağa çalışır ki, görəsən, son anında - qarın, buzun içində üşüyəndə, donanda kim yetişdi halına?.. Dünyadan köçərkən Cavid:

*Çəkir sorğu-suala,*

*Yerdəki bəndəsini, göydəki Allahını,*

*Biləmmir təqsirini, biləmmir günahını!*

*Buluda qarışdırır,*

*Canının yanğısını, ürəyinin ahını,*

*Tapammır günahını*! [122, s.285]

Z.Yaqub ölməz Cavidin və minlərlə repressiya qurbanlarının "günahını" ümumi qaydada belə xarakterizə edir:

*Cavid ata! Bağışla, mən deyim günahını,*

*Sən doğru danışdığın sözün günahkarıydın.*

*Əyrilər tanəyərəq,*

*Lap bu gün də yaşayır,*

*Sən isə həqiqətin, düzün günahkarıydın!* [122, s.286]

Ata yurdunun ocağı, qoru olan Turan atasının adını təhqirlərdən, tənələrdən qorudu, ata dərdi azıymış kimi sonra qardaş dağını çəkdi. Ərtoğrol qanlı cəbhədə, faşistlərlə müharibədə həlak oldusa da, onu həyatdan aparan faşistin süngüsü yox, düşmənin gülləsi yox, ata nisgili, ata dərdi oldu:

*Ciyərində kök atan ağrı, vərəm apardı!*

*Daşıdığı ağır yük, çəkdiyi qəm apardı*! [122, s.287]

Z.Yaqub Turanın çəkdiklərini bayatıya çevirib onun dilindən səsləndirir. Bu bayatılar Cavid atanı, Ərtoğrol qardaşı itirən gənc qızın yanıqlı sinəsindən qalxaraq onların ölümünə səbəb olan zəmanəyə, bu zəmanədə özbaşınalıq edən, başçının oyunbaz, xalqın isə oyuncaq olduğu dövrana qarşı ah-naləyə, nifrətə çevrilir:

*Bu ocağa gəlin gəlməz,*
*Vayım dönməz toya, qardaş!*
*Bir həsrətdi, bir də mənəm,*
*Vermişik boy-boya qardaş!*

*Bu ocağın qızı köçməz,*
*Zəhər içən şərbət içməz!*
*Bu dünyanı gözüm seçməz,*
*Çatan olmaz hoya, qardaş*! [122, s.288-289]

Repressiyanın bir dəhşəti də ondadır ki, haqlı-haqsız təqibə məruz qalanın ailə üzvləri, yaxın qohumları da ondan yaxa qurtara bilmir, faciə bütöv bir nəslin məhvinə gətirib çıxarırdı. Ata dağına, qardaş faciəsinə özünü qurban verən Turan

*Qəlbini heç kəsə yox, o ancaq qəmə verdi,*
*Sükuta, sakitliyə, yasa, matəmə verdi.*
*Çoxunun ürəyindən arzu kimi keçsə də,*
*O, heç kəsə sevgili, heç kəsə yar olmadı!* [122, s.290]

Poemanın sonunda öz zərif çiyinlərində yaşadığı dövrün bütün məşəqqətlərini daşımaq məcburiyyətində qalan, ata, qardaş faciəsinə dözən, həyat amalını "Ya qələbə çalmalı, ya təslim olmalıyam!" prinsipində tapan, yalnız ulu Cavidin təmiz adını böhtanlardan qorumaqda, onu əbədi yaşatmaqda görən Turanın daxili aləmi, həyat düşüncələri öz şəxsi xoşbəxtliyindən belə imtina edən qəhrəman obraz səviyyəsində təqdim olunur:

*Turan – ata yurdunun çırağını yandıran!*
*Tufanların içində sal qayanı andıran!*
*Cavid öz taleyiylə*

*Daşa çevrilən insan, insana çevrilən daş,*
*Turan – ata heykəli yaradan heykəltəraş!*
*Turan – qardaş əvəzi, rəssam, şair, bəstəkar,*
*Dərdini danışanda Müşfiqin çaldığı tar!*
*Turan – tale çiçəyi, yalqız qalan bənövşə,*
*Gül ömrünü yaşamaq – bəlkə ən çətin peşə!* [122, s.299]

Beləliklə, 1987-ci ildə qələmə alınan Z.Yaqubun "Cavidin qız balası" poeması 1937-ci il repressiyaları dövründə neçə insan ömrünü, yaradıcılığını yarımçıq qoyan, övladlarını göz yaşına boğaraq ömürlük həsrət və intizar çəkməyə məcbur edən, xalqın düşüncə və təfəkkürünə, mənəviyyatına və əxlaqına ağır zərbə vuran, xalqı susdurmağa, onun ən görkəmli nümayəndələrini öz məkrli ideyaları naminə məhv edən yüksək dövlət orqanlarına, onların "cəfakeş" məmurlarına kəskin və haqlı ittiham, repressiya qurbanlarına isə poetik ehtiramın təcəssümü, möhtəşəm abidədir.

Öz yaradıcılığında milli-mənəvi dəyərlərimizə, klassik ədiblərimizə hörmətlə yanaşan Nizami Muradoğlunun 2010-cu ildə qələmə aldığı, yenidən işlənərək ikinci dəfə 2012-ci ildə nəşr olunan "Bu dünyanın məzarları ağlamaz" sənədli-lirik poeması Ərtoğrol Cavidə həsr olunmuşdur. Hüseyn Cavid və ailəsi, repressiya qurbanları, 1930-cu illərin dəhşətləri, xalqımızın milli-mənəvi dəyərlərinə vurulan zərbələr əsərin əsas mövzusunu təşkil edir.

AMEA-nın müxbir üzvü Rəfael Hüseynov N.Muradoğlu yaradıcılığında Cavidlər mövzusunu dəyərləndirərək yazır: *"Poemanın baş qəhrəmanı Ərtoğrol Cavid olsa da, biz burada da Hüseyn Cavidin, Müşkünaz ananın, Turan xanımın və digər personajların yüksək bədii sənətkarlıqla işlənmiş surətləri ilə tanış oluruq*" [60, s.8].

N.Muradoğlu 1987-ci ildə Ərtoğrolun faciəsi haqqında *"Bu dünyanın məzarları ağlamaz" adlı şeir yazır, onun 90 illik yubileyinin qeyd olunduğu 2009-cu ildə şairdə Cavidlərlə bağlı yeni düşüncələr yaranır, il ərzində poema yazılır, sonradan təkmilləşdirilmiş halda çap olunur* [157].

Poema Ərtoğrol Cavidin həyat xronikasına əsaslanır, onun anadan olmasından başlayaraq şair, bəstəkar və rəssam kimi qısa həyat və yaradıcılıq yoluna, ağır

xəstəliyə mübtəla olaraq dünyasını dəyişməsinə qədər olan anları bədii lövhələrlə tərənnüm olunur. Onun kədərlərlə dolu həyatı 39 hissəli sənədli-lirik poemada təsvir olunur. “İlk övlad” və “Cocuq” hissələrində Cavidlər ailəsində ilk övladın – Toğrolun dünyaya gəlməsinə, uşaqlıq illərinə və ailənin xoşbəxt dövrünü, “İşğal” – 1920-ci ildə Azərbaycanın sovet ordusu tərəfindən işğalını, sonrakı hissələr – “Qızcığaz” və “İki qönçə” Cavidlər ailəsində iki qız uşağının dünyaya gəlməsini, “30-cu illər” – ölkədə tüğyan edən repressiya illərini, “Sürgün” və “Son nəfəs” Hüseyn Cavidin Sibirə sürgününü və orada vəfatını, “Armud ağacı”, “Əcəl”, “Ağrı” Ərtoğrolun dərdlərlə baş-başa keçirdiyi ömrünün son günlərini, “Acı xəbər”, “Ana düşünür”, “Turan” başlıqları ər, oğul, ata və qardaş itirən ana və bacının şərə, şeytana min lənət bəsləmələrini ifadə edir.

Sənədli-poema ailə xronikası və dövrün tarixi hadisələrinə uyğun ardıcıllıqla qurulmaqla ədəbi qəhrəmanların bioqrafiyalarını dəqiqliklə şair təxəyyülünün və düşüncələrinin süzgəcindən keçirilərək orijinal üslubda yazılmışdır. Bu mənada əsər Cavidlər ailəsi haqqında tarixi və ədəbi salnamə adlandırıla bilər. Lirik poemanın məzmununda ardıcıl bir süjet və epik təhkiyə izlənilir. Bu struktur poemanın forma zənginliyinə də dəlalət edir. Tədqiqatçı Ağaverdi Xəlil də təsdiqləyir ki, *“Əsərin təhkiyə tərzində həm klassik divan ədəbiyyatının məsnəvi tipindən, həm də xalq yaradıcılığından gələn şeir formalarından istifadə olunub”* [158].

Poemada sadalanan tarixi və bioqrafik hadisələrin əsasını Cavidlər ailəsinə qarşı aparılan repressiyanın törətdiyi faciə, 30-cu illərin dəhşətləri dayanır.

*Gəldi qara illər, gəldi, nə gəldi!*
*İblisin istəyi, şəri dirçəldi.*
*Qan ilə üzməkdi onun niyyəti,*
*Çəkdirdi bəşərə zülmü, zilləti* [84, s.128]

Poemada 30-cu illərdə ölkədə cərəyan edən repressiya fonunda Ərtoğrolun həyatı, yaradıcılığı və amansız dərdlərlə mübarizəsi öz bədii ifadəsini tapır. Nizami Muradoğlu kiçik yaşlarından Ərtoğrolun vətənimizə, soy-kökümüzə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə bütün varlığı ilə bağlı olduğunu, hələ uşaq ikən

taleyinə yazılan ağır dərdlər çəkdiyini önə plana çıxarmaqla qəhrəmanın xarakterini səciyyələndirir:

*Ərtoğrol düşünür, nə etmək olar?*
*Üzünə bağlanıb bütün qapılar.*
*Babası tutulub, ana nigaran,*
*Sıxılır, ağlayır balaca Turan* [84, s.137].

Ərtoğrolun gələcək yolunun müəyyənləşməsi, onun kimliyi, nə etməli olduğu şairin diqqət verdiyi başlıca məsələlərdəndir. Ömrünün mənası yaratmaq olan, babasını Günəş sayan, türk adlı bir millətin onu tarixdə yaşadacağına inanan Ərtoğrol dövrün təzyiqi ilə insanların onlara ögey münasibətini, unutqanlığını anlamaqda çətinlik çəkir:

*Dostları onları artıq unudub,*
*Ən yaxın qohumlar yad eləmirdi,*
*Bu qədər dərdiynən bu zəif vücud,*
*Daha dözəmmirdi, tab eləmirdi* [84, s.148].

Bu sətirlər həm də onun ifadəsidir ki, Cavid və onun ailə üzvləri kimi, yaradıcılığı da təqib olunaraq, bilərəkdən təhrif olunur, yanlış yozulurdu, təəssüf ki, o *"yalnış fikirlər H.Cavid sənətinin düzgün dərkinə mane olmuş, bu sənətə müəyyən mənada kölgə salmışdır"* [41, s.58].

Əsərdə Ərtoğrulun - rəsm, musiqi, ədəbiyyat sahəsində fitri istedada malik gəncin obrazı lirik-psixoloji planda əks etdirilir. Müəllifin yaratdığı Ərtoğrul obrazı tarixi şəxsiyyət kimi vətənpərvər və yaradıcı olmaqla yanaşı, xarakterik cizgiləri ilə də təsirli və güclüdür.

Gürcüstanda fəhlə batalyonunda xidmət edən, atasının ölümündən xəbərsiz olan Ərtoğrolun xəstəliyi daha da ağırlaşır, ciyərlərindən qan axır. Bu halında belə daim doğmalarını düşünən Ərtoğrol hər gün doğmalarına məktub yazır, atasından xəbər almaq arzusu ilə alışıb-yanır, dərdinə dərman diləyir:

*Oğul məktub yazır, dərman istəyir,*
*Yarımcan anadan o can diləyir* [84, s.157].

Poemada tarixi və bioqrafik faktlara müəllifin münasibəti və yanaşması böyük maraq ifadə edir. Şair baş verənləri qələmə alarkən faktların dərinliyində yeni mənalar gəzir, o, bədii yozumunda hadisələrin milli motivlərinə üstünlük verir. Ərtoğrolun dünyaya gəlişi ilə (oktyabr, 1919) Cavidlər ailəsinin xoşbəxtliyini *“Azərbaycan Xalq Cümhuriyyətinin gətirdiyi hürriyyət günəşinin müqəddəs enerjisini Cavidlər ailəsinə isti və hərarət gətirən bir motiv kimi dəyərləndirir”* [158]. Bu kimi məqamlar müəllifin poetik təfəkkürünün zənginliyini göstərməklə yanaşı, Cavidlər ailəsinin nakam taleyini dərin duyum və həssasiyyətlə oxucu gözündə canlandırır.

Əksinə, “Anım günü” hissəsində 1956-ci ilin 26 fevral günündə Müşkünaz anaya Bakıda ev verilən günü ana yenidən dünyaya gəlir.

Poemanın sonrakı inkişaf xəttini davam etdirən “Şeytanın nökərləri”, “Bəraət”, “Bu dünyanın məzarları ağlamaz”, “Rəhmət sənə, Ərtoğrol” və digər hissələr Cavidlər ailəsinin son nümayəndəsi – ata, qardaş, ana itkisinin ağırlığını daşıyan Turan xanımın Cavidsiz, Ərtoğrolsuz, Müşkünaz anasız keçən günlərinə, onların bəraət almalarına, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin səyləri ilə əvvəlcə Cavidin cənazəsinin gətirilib Naxçıvanda dəfn olunmasına, sonra məzarı üstündə məqbərə ucaldılmasına, Ərtoğrol və Müşkünaz xanımın da buraya köçürülməsinə, yubileylərinin qeyd olunmasına həsr olunmuşdur. 2004-cü ilin sentyabrında Turan xanım da dünyasını dəyişdi və əbədi olaraq uzun illər həsrətini çəkdiyi incə ruhlu, gülərüzlü babasının yanında məskən saldı.

Poemada Ərtoğrol Cavid qeyri-adi istedada malik rəssam, bəstəkar, şair kimi tərənnüm olunur. Nizami Muradoğlu oxucunu Ərtoğrol dramının seyirçisinə deyil, qısa ömründə dəhşətli faciələr yaşamış ədəbi qəhrəmanının yaşadıqlarının iştirakçısına çevirir. Bu tezis öz təsdiqini professor Kamran Əliyevin fikrində belə tapır: *“Ərtoğrol Hüseyn Cavidin övladı olmaqla yanaşı, həmçinin əsl bədii qəhrəmana çevrilir, yəni bioqrafiyası məlum olan və bioqrafiyası ilə şöhrətlənən bir obrazdan bədii düşüncənin yaratdığı başqa bir obraz səviyyəsinə yüksəlir”* [40, s.82].

Cavidlər ailəsinə həsr olunmuş tarixi poemalar bədii sözün təsiri ilə oxucuya bu fikri əyaniliklə çatdırmağa müvəffəq oldu ki, *“30-cu illərin analoqu olmayan repressiya kabusu təkcə isdedadlı, vətənpərvər adamları tragik şəkildə həyatdan,*

*sevdiyi sənətdən ayırmadı..., həm də xalqın şüurunu dəyişdi, onu tərəqqidən saxladı, mənəviyyata, tarixi-etnik düşüncəyə ağır zərbə vurdu..."* [35, s.186]. Bu tarixi-siyasi gerçəkliyin bədii ədəbiyyatda əksi də söz sənətimizdə yeni səhifələrin yaranmasını labüdləşdirirdi. Cavid, Müşfiq, Cavad və çoxsaylı repressiya qurbanlarına həsr olunan hər bir əsər bu söz dühalarının adına, sənətinə, irsinə ehtiramdan yoğrulduğu üçün hər bir bədii nümunə həm ədəbi-nəzəri fikirdə, həm də oxucu yaddaşında əbədilik qazandı.

## 3.2.Ədəbi şəxsiyyət və lirik-epik düşüncə

Azərbaycan ədəbiyyatı tarixində aparıcı janrlardan olan poema janrının keçdiyi inkişaf yolunda əhəmiyyətli yerlərdən birini təşkil edən tarixi mövzulu poemalar ədəbi fikir tariximizi zənginləşdirən qiymətli nümunələrdir. Tarixi poemaların mövzu dairəsində sovet dövrü ədəbiyyatımızın dəyərli simalarının obrazının yaradıldığı bədii nümunələr öz ədəbi-bədii dəyəri, tarixi şəxsiyyəti bədii müstəvidə əks etdirmə səviyyəsi, dil-üslub özəllikləri ilə diqqəti cəlb edir. Sovet dövrü ədəbiyyatımızın görkəmli şəxsiyyətləri haqqında yazılan çoxsaylı pomalar içərisində tarixi yaddaşda daha çox iz qoyan, zamanın "sınağından" çıxan poemalardan bəzilərini bu paraqrafda tədqiqata cəlb edəcəyik. M.Hadi, C.Cabbarlı, S.Vurğun, R.Rza, Ə.Kərim, M.C.Paşayev və s. sənətkarlarımız haqqında yazılan poemalar yazıldığı dövrdə böyük maraqla qarşılandığı kimi, ədəbi-tənqidin də diqqətini cəlb etmişdir. Bu sırada Cabir Novruzun "Cəfərlə görüş" poeması müəllifin təxəyyül gücünün genişliyini, şair-dramaturq Cəfər Cabbarlının tarixi-ədəbi simasını dolğun şəkildə əks etdirməsi baxımından qiyməti bədii nümunədir.

Epik poeziyamızda bədii obrazı yaradılan, yaxud yaradıcılığına müraciətlə, əsərlərindən bəhrələnilərək yazılan poemalar içərisində Səməd Vurğun obrazının yaradıldığı Balaş Azəroğlunun "Ayrılarmı könül candan?", Məmməd Arazın

“Qayalara yazılan səs”, Hüseyn Arifin “Yolda”, İsa İsmayılzadənin “Bir ömürlük gecə” poemaları daha çox diqqəti cəlb edir.

Epik poeziyamızda bədii obrazı yaradılan görkəmli ədəbi şəxsiyyətlərdən biri də nakam şair Məhəmməd Hadidir. Qeyd edək ki, Məhəmməd Hadiyə həsr olunan ayrı-ayrı şeirlərin sayı onlarladır. Şairin nakam taleyi, əzablarla keçən ömür yolu şairlərimizin şeirlərində olduğu kimi, epik-lirik əsərlərində də əks etdirilmişdir. Belə ki, Xalq şairi Nəriman Həsənzadənin “Nəriman” poemasındakı “Hadi və əsgər” bölməsində görkəmli ədibin əzablarla keçən ömür yolu, müharibədə iştirakı, zamanında ona qiymət verilməməsi həssas qəlbli Nəriman Həsənzadə təfəkküründə təəssüflə dilə gətirilir. Cəbhədə bir əsgərin Hadiyə müraciətlə dediyi “tanıdım, şairim, nədir möhnətin, sən əziz oğlusan bir məmləkətin” misraları ilə sənətkar ömrünə keçid edən müəllif Hadinin dilindən deyir:

*Hankı məmləkətin, hankı millətin?*
*varmı elə bir şey…sən nə söylədin?!*
*Saldat, istəyirsə məni məmləkət,*
*De, neyçin səfillər padşahıyam?* [54, s.22].

Suallar qarşısında acizliyini ifadə edən müəllif Hadiləri, Sabirləri ehtiyac məngənəsində yaşadan zəmanəyə, gərdişə, o dövrün ictimai-siyasi reallığına üsyan səsini ucaldır:

*Nə şeirə, nə sözə hörmət etdilər,*
*bir şair görəndə niftər etdilər.*
*Ölü ürəklərdə həvəs görmədim,*
*bir isti, bir doğma nəfəs görmədim* [54, s.22].

Poemadakı bu kiçik hissədə Azərbaycan romantik poeziyasının zirvə nöqtələrindən biri olan Məhəmməd Hadi şəxsiyyəti, sənətinə yüksək ehtiramın şahidi oluruq. Yüksək şeiriyyət dili ilə diqqəti cəlb edən bədii nümunə sənətkarlıq xüsusiyyətləri ilə də orijinaldır.

Hüseyn Arifin coşğun təblə, Səməd Vurğun poeziyasına dərin ehtiramla, həm də görkəmli şairin şəxsiyyət olaraq mükəmməl obrazını yaratdığı “Yolda” poeması yüksək sənətkarlıq nümunəsi kimi ədəbi tənqidin və oxucu kütləsinin diqqətini cəlb

etmişdir. Poema maraqlı bir girişlə başlayır. Hüseyn Arif (Hüseynzadə) müəllif obrazı kimi iki istiqamətdə görünür - Səməd Vurğunun qoruduğu ənənələri davam etdirmək; Səməd Vurğunu müdafiə mövqeyində dayanmaq. Poemanın əvvəlində müəllif Səməd Vurğunun Vaqifə ucaltdığı söz abidəsinin əhəmiyyətindən bəhs edir, nəsillər arasındakı mənəvi bağın ifadəsidir ki, Hüseyn Arif də Səməd Vurğuna epik-lirik abidə ucaldır. İkinci planda ədəbi qəhrəmanına tükənməz el məhəbbətindən bəhs edən müəllif Səməd Vurğuna qarşı olan haqsız hücumları müqayisə edir. Hadisələrin axarında Səməd Vurğuna olan dərin xalq məhəbbətinin təzahürlərindən olan, dövrü xarakterizə edən gerçəklikləri göz önünə gətirən müəllif haqlı olaraq vurğulayır ki, onu "çobanların şairi" adlandıranlar xalq məhəbbətinin mahiyyətini başa düşməyən qaragüruhçulardır, əsl həqiqətdə sənətin böyüklüyünün başlıca ifadələrindən biri də xalq yaddaşına söykənməsi, xalq həyatını tərənnüm etməsi, xalq tərəfindən sevilməsidir. Müəllif daha sonra qarşı qütblərin ikincisinə - Səməd Vurğunu tənqid edənlərə üzünü tutaraq sanki böyük şairin müdafiəsinə qalxır, onun "Aygün", "Muğan" poemalarını tənqid atəşinə tutanları elə sənətkarın misraları ilə cavablandırır və istedadlı şairin misralarını xatırladır: "Kosmopolit tənqidçilər ömrü boyu dandı məni". Azərbaycan sovet ədəbiyyatının bitməyən kosmopolitistlərinə, nihilistlərinə müəllifin Səməd Vurğunun müdafiəsində dediyi fikirlər isə daha çox maraq doğurur:

*Nihilist yatmayıb əli varaqda*
*Nələr uydururdu, nələr deyirdi*
*Lakin öz qadını başqa otaqda*
*"Aygün"dən parçalar əzbərləyirdi* [57, s.186].

Ədəbi qəhrəmanının dövrünə dərindən bələd olan, Səməd Vurğunun mübarizələrlə dolu həyat yolunun mənəvi əzablarını öz canında duyan şair qəhrəmanının duyğu və düşüncələrini epik-lirik düşüncə müstəvisində dəyərləndirərək qeyd edir ki,

*Elə zənn etməyin yer üzündə siz*
*Hamardır şairin keçdiyi yollar.*
*Sakit görünsə də çox zaman dəniz,*

*Orda çovğun da var, fırtına da var...* [57, s.182].

Hüseyn Arifin (Hüseynzadə) "Seçilmiş əsərləri"nə yazdığı "Hüseyn Arif şeirinin cazibəsi" adlı ön sözündə professor Camal Mustafayev ədibin "Yolda" tarixi poemasının ədəbi, estetik-bədii dəyərinə toxunaraq vurğulayır ki, "Hüseyn Arif "Yolda" poemasında əslində Səməd Vurğunu xalqın mənəvi simvolu kimi səciyyələndirir. O, özü Vurğunun şair varisi olduğunu yenidən təsdiqlədi. Zaman irəlilədikcə bu tükənməz mövzunun daha dərin açılacağına ümid bəsləməklə poemanı bitirmişdir:

*Çoxdur açılmamış incə nöqtələr,*
*Xalq əziz oğlunu hey anacaqdır.*
*Vurğunun haqqında ən böyük əsər*
*Hələ indən belə yazılacaqdır*" [57, s.6].

Poemanın yüksək şeiriyyəti, üslubi özünəməxsusluğu, Səməd Vurğun şəxsiyyətinə formalaşdırdığı dərin məhəbbət diqqətdən kənarda qalmamış, *"1957-ci ildə M.F.Axundov adına Opera və Balet Teatrında, "Yolda" poeması əsasında yazdığı eyniadlı pyesi 1974-cü ildə Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulub"* [161].

Belə də oldu, Səməd Vurğun irsinə, şəxsiyyətinə müraciətlə çoxsaylı ədəbi nümunələr qələmə alındı. Belə poemalardan biri də Balaş Azəroğlunun "Ayrılarmı könül candan?" əsəridir. Əsər şairin 1978-ci ildə nəşr olunmuş "Dünənim, bu günüm, sabahım" kitabında nəşr olunmuşdur. Poema Səməd Vurğun yaradıcılığından, xüsusilə də Səməd Vurğunun "Azərbaycan" şeirindən təsirlənilərək qələmə alınmışdır. Ötən əsrdə milli şeirimizin ən dəyərli nümunələrindən olan "Azərbaycan" şeiri axıcı dili, milli ruhu etibarilə çoxsaylı bədii nümunələrin yaranmasına stimul olduğu kimi, Balaş Azəroğlunun "Ayrılarmı könül candan" poemasının yaranmasına səbəb olmuşdur. Poema yüksək şeiriyyəti, üslubi səciyyəsi ilə diqqəti cəlb etdiyi kimi, ölməz şairə poetik ehtiramın ifadəsi baxımından da əhəmiyyət daşıyır. Düzdür, poemada Səməd Vurğun obraz olaraq görünməsə də, şairin yaradıcılığından, dövrün bir sıra ictimai, sosial problemlərindən yaradılan canlı mənzərədə böyük şairin portreti oxucu gözündə canlandırılır. Balaş Azəroğlu yaradıcılığı milli, siyasi

motivləri ilə diqqəti cəlb etdiyi kimi poemada da milli ruh qabarıqdır, müəllif yeri gəldikcə yaşadığı əsrin siyasi mənzərəsindən də söz açır, müəllif qənaətlərini yüksək şeiriyyət dili ilə qələmə alır. Ümumilikdə Səməd Vurğuna müraciətlə, onun şəxsiyyəti və yaradıcılığından təsirlənilərək yazılan poemalar içərisində Balaş Azəroğlunun "Ayrılarmı könül candan?" poeması ədəbi-bədii dəyəri ilə diqqəti cəlb edir. Balaş Azəroğlunun bütövlükdə yaradıcılığı olduğu kimi, onun "Ayrılarmı könül candan?" [10] poeması da ədəbiyyatşünaslığın və Azərbaycan oxucusunun maraqla oxuduğu əsərdir. Balaş Azəroğlunun poema yaradıcılığı haqqında maraqlı fikirlərdən birində deyilir: *"Bu poemaların hər birində hər şeydən əvvəl onun müəllifinin vətəndaşılq mövqeyi, siyasi-ictimai mənşəyi və sabit poetik istiqaməti hiss edilir. Epik-lirik üslubi istiqamətdə yazılan həmin poemalar bədii siqləti, sənətkarlıq gücü və forma xüsusiyyətləri ilə də diqqəti cəlb edir"* [11, s.6].

Azərbaycan epik poeziyasında diqqətəlayiq nümunələrdən biri də Məmməd Arazın Səməd Vurğuna həsr etdiyi "Qayalara yazılan səs" poemasıdır. Məlum olduğu kimi, M.Araz özü də Xalq şairi S.Vurğun ədəbi məktəbinə mənsub olmuş, onun şeirlərinin təsir gücü ilə ədəbiyyata gəlmişdir. Bir neçə əsərində S.Vurğuna xüsusi rəğbət və münasibətini ifadə edən M.Araz adıgedən poemada onu uca dağlar və mavi səmalarda süzən qartala bənzətmişdir. Bunu da unutmaq olmaz ki, S.Vurğun özü də məşhur "Ölüm sevinməsin qoy" misralı əsərində Azərbaycanın qüdrətli bəstəkarı və yazıçısı Üzeyirbəy Hacıbəyovu qartala bənzətmişdi. Poemanın əsas ruhunu böyük el şairi olan Səməd Vurğunun əziz xatirəsinin bütün ana təbiətdə yaşaması fikri təşkil etmişdir. Hətta böyük şairin vaxtilə suyunu içdiyi bulaqlardan birinə "Vurğun bulağı" adının verilməsi də Xalq şairinə el məhəbbətinin əyani sübutudur. Öz elinə, ana təbiətinə məhəbbtinin nişanəsi olan "Vurğun" imzası da xalq tərəfindən dərin rəğbətlə qiymətləndirilmiş, şairə ehtiramın nümunəsi olaraq xatirələrini ayağı dəydiyi hər yerdə adını əbədiləşdirməklə yaşatmışlar.

Məmməd Araz Səməd Vurğun böyüklüyünü, poeziyasının ölməzliyini hələ gənclik illərində dərk etmişdi. Onun S.Vurğuna həsr etdiyi şeirlər də bunu sübut edir. Bunlar silsilə şeirlər idi və bu silsilədə S.Vurğun Füzuli, Nəsimi, Vaqif kimi klassiklərin ölməz ənənələrinin davamçısı, xalqın sevimli sənətkarı kimi vəsf olunur.

Xalq şairi Məmməd Arazın “Sən tələsmədin” şeirinin də müraciət ünvanı Səməd Vurğun şəxsiyyəti, onun obrazıdır. Böyük ustadın xatirəsinə olan rəğbətini bu şeirində də yüksək poetik ruhla əks etdirən şair M.Araz bu əsərini Səməd Vurğunun anadan olmasının əlli illiyi münasibətilə ərsəyə gətirmiş, qüdrətli sənətkara olan məhəbbətini ifadə etmişdi.

S.Vurğunun vaxtsız vəfatını böyük hüzn və kədərlə qarşılayan M.Araz xalqımızın bu ölümdən sarsıldığını dilə gətirir, dolayısı ilə bu böyük söz ustadını qoruya bilmədiyimizə görə hamını, cəmiyyətimizi, şairin çox sevdiyi təbiəti belə ittiham edir. Məmməd Arazın Səməd Vurğuna olan sevgisi hələ onun keçən əsrin altmışıncı illərində yazdığı “Səməd Vurğunla söhbət” şeirində daha bariz şəkildə nəzərə çarpır. Həmin şeirdə Məmməd Araz Səməd Vurğunun vəfatından sonra şeirimizdə baş verən keyfiyyət dəyişikliklərinə, şeir dilinin maksimum şəkildə xalq dilinə yaxınlaşmasına, yeni meyl və tendensiyalara öz münasibətini bildirirdi.

Səməd Vurğuna bir oxucu, bir vətəndaş şair kimi rəğbəti Məmməd Arazın “Qayalara yazılan səs” poemasında özünü daha rəngarəng büruzə verir. Poema Səməd Vurğun şəxsiyyətini, onun tükənməz ədəbi-bədii irsini hərtərəfli əhatə etmək və yenidən qiymətləndirmək baxımından dərin maraq və əhəmiyyət kəsb edir. Poema qəhrəmanı qoca bir çobanın xatirəsindən, yaddaşından bir nur kimi, işıq kimi axıb gəlir. Müəllif S.Vurğunun çobanla görüşü zamanı söhbətini incəlikləri ilə xatırladır və bu xatirədə Səməd Vurğun Məmməd Araz sayağı heykəlləşir, qayalaşır, xalqın əbədi yaddaşına həkk olunur. Məmməd Arazın özünün ustadı hesab etdiyi Səməd Vurğun haqqında əvvəllər ona həsr etdiyi şeirlərində S.Vurğunun yoxluğundan doğan dərin bir nigarançılıq hissi, bu hissin yaratdığı emosional gərginlik diqqəti cəlb edirdisə, ”Qayalara yazılan səs”də şairin ölməzliyi ideyası, bu ölməzliyi ölməzlik zirvəsinə ucaldan məqamlar ön plana çəkilir. Məmməd Araz əminliklə və tam haqlı olaraq təsdiqləyir ki, Səməd Vurğun təkcə insanların xatirəsində, yaddaşlarında, ürəklərində deyil, həm də təbiətin özündə, bulaqda, dağda, qayada, küləkdə yaşayır və hər zaman anılır. 1976-cı ildə qələmə alınan poemada sonluqda Səməd Vurğun sevgisinin əbədiliyi əmin misralarla ifadə olunur:

*Onu sevib, onu deyib, onu duyanlar*

*Onun qaya yaddaşına həkk olunurmuş* [8, s.214].

Səməd Vurğun sənətinə poetik ehtiramın bir digər nümunəsini də istedadlı şair İsa İsmayılzadə qələmə almışdır. Poema "Bir ömürlük gecə" adlanır. Fərqli nəzəri strukturda qurulan poema Vaqif Səmədoğluna ithaf olunur. Yüksək şeiriyyəti ilə diqqəti cəlb edən poemada Səməd Vurğunun bürünc heykəli önündə dayanan şairin oğlu Vaqif Səmədoğlu ilə böyük şairin bir gecəlik dialoqu, xəyali görüşü təsvir olunur. Vaqif 30 illik ayrılığın, həsrətin nisgili ilə gözləri uzaqlara zillənmiş atasına müraciət edir. Poema elə strukturda qurulmuşdur ki, sanki Vaqif Səməd Vurğunsuz dünyada otuz ilin hesabatını verir böyük şairə. Kimsəsiz bir gecədə, yatmış Bakının səssizliyində ata şairlə oğul şairin görüşünü həssas, emosional ovqatda tərənnüm edən İsa İsmayılzadə Səməd Vurğun yaradıcılığına, şəxsiyyətinə olan tükənməz xalq sevgisini dilə gətirməklə ustad sənətkara sayğısını bildirir, onun yaradıcılığının təsir dairəsində yazmağın sevincini ifadə edir. Müəllif xəyali görüşdə Səməd Vurğunun oğluna gileyini də dilə gətirir:

*Otuz ildi eşitmirəm*
*Yadımdan çıxıb adım...*
*Gül çiçəklə,*
*təbəssümlə*
*gələn olub yanıma;*
*Amma, nə deyirsən, de*
*Bircə səsə, bircə sözə*
*Möhtac idim-*
*Heç kəs məni dindirmədi,*
*Danışdırmadı heç kəs* [8, s.322-323].

Yaxud Səməd Vurğunun dilində yaradıcılığında olduğu kimi həyat eşqi ilə dolu misraların verilməsi onun yaradıcı dünyasına məhəbbətin ifadəsi kimi də maraq doğurur:

*İndi daş olub ürək...*
*Daş olmaq, heykəl olmaq-*
*İstər bürüncdən olsun,*

*İstər qızıldan olsun-*

*Mənim nəyimə gərək?...* [8, s.323]

Müəllif 80 yaşlı Səməd Vurğunla oğlu Vaqifin xəyali görüşündə çox incə bir məqamı da dilə gətirir. Deyir ki, oğlun Yusif Səmədoğlu sənin yaşına çatdı, əlli yaşı oldu. Pərtdir, nigarandır Yusif, ona görə ki, bu dünyada səndən artıq yaşamaq sıxır bizi:

*Heykəlinə baxa-baxa*

*Səndən artıq yaşamağa*

*Elə bil ki, haqqımız yox...* [8, s.323]

Səməd Vurğunun Vaqifə təsəlli verərək dediyi sözlər əslində böyük şairin həyat fəlsəfəsidir və müəllif bu məqamı uğurlu şəkildə epik poeziyaya gətirmişdir:

*Sözün yaşayırsa, dünya sənindir*

*Yaşaya-yaşaya unudulan var* [8, s.326].

Yaxud bir başqa məqamda şairin dilindən verilən misralar da ibrətamizliyi ilə diqqəti cəlb edir:

*Babaların oylağında,*

*Şeir-sənət yığnağında,*

*Bu dünyanın qulağında*

*Bircə sözüm qalar olsa-*

*Mən ölmərəm, heykəl ölər-* [8, s.331]

Vaqif dövrünün yeniliklərindən, otuz ilin hesabatından danışarkən vurğulayır ki, bir də təzə xəstəlik var - vaxt qıtlığı. Müəllif xəyali görüşdə yaşadığı reallığın da dolğun mənzərəsini sözlə yaradarkən bir sıra məqamları dilə gətirir:

*Zaman əlində raket*

*Uşaq kimi qovur bizi* [8, s.335]

Zamanla yarışın insanlıqdan bir çox dəyərləri almaq üzrə olduğunu narahat düşüncələrlə ifadə edən müəllif zəmanəsinin getdiyi narahat yola da fərdi münasibətini bildirir. Poemanın sonunda "Heykəl şeir deyirdi" misralarının təkrarlanması yüksək emosional ovqatda bir şair ömrünə bir gecəlik səyahətin, bir gecəlik yuxunun doğurduğu hiss və duyğular axıcı şeir dili ilə bədiiləşdirilir, sanki

oxucu dilində "Bu gecə bitməyəydi" misraları təkrarlanır. Poemanın yer aldığı kitabına yazdığı ön sözdə ulu Məmməd Araz yazır: *"Onun elə şeirləri, poemaları var ki, misraları güllə kimi açılacaq gücə malikdir"* [9, s.6]. Bəli güllə təsirinə malik misralarla Səməd Vurğun şəxsiyyətinə, sənətinə, ailəsinə ucaldılan söz abidəsi estetik-bədii dəyəri ilə nəsillərə ərmağan olaraq qalacaqdır.

Azərbaycan tarixi poemaların mövzu dairəsində Rəsul Rza, Əli Kərim və digər XX əsrdə yaşamış sənətkarlara həsr olunan bədii nümunələr də vardır ki, janrın, tarixi mövzulu poemaların içərisində dəyəri ilə diqqəti cəlb edir. Bu mənada Balayar Sadiqin "Çinar simfoniyası" poeması Rəsul Rza irsinə, sənətinə, şəxsiyyətinə məhəbbətin ifadəsi kimi maraq doğurduğu kimi, böyük şairin bədii portretinin yaradıldığı bu poemada sənətkarlıq xüsusiyyətləri, bədii şərtilikdən məqamında istifadə, üslubi özünəməxsusluq, axıcı dil, tarixi koloritin canlandırılması kimi məqamlar ədəbi-nəzəri prinsiplərə uyğunluğu ilə diqqəti cəlb edir.

Epik poeziyamızda Əli Kərim irsinə və şəxsiyyətinə poetik ehtiramın ifadəsi olan Cabir Novruzun "Əli Kərim xatirəsi", Yusif Həsənbəyin "Əli Kərim", Balayar Sadiqin "Nar ağacının gülöyşə yuxusu" kimi poemaları da janrın diqqətəlayiq nümunələridir.

Rəsul Rzaya müraciətlə yazılan, ustad sənətkarın "Dədə çinar"a bənzədildiyi, müəllifin Rəsul Rzayla xəyali görüşü, ona ünvanladığı fikirlərinin geniş yer aldığı Balayar Sadiqin "Çinar simfoniyası" poeması öz orijinal quruluşu, zəngin fikir axımı, təsvir və ifadə vasitələri ilə diqqəti cəlb edir. Müəllif qəhrəmanına müraciətlə onun mübarizələrlə dolu ömür, sənət yolunun səhifələrini misraların yaddaşına köçürür, onun sənət yolunu mübarizə yolu kimi qiymətləndirir:

*"Mübarizə bu gün də var"*-
*Şimşəklər sənin qələmin,*
*Ulu göylər vərəqlərin..*
*Dədə çinar!*
*Hikmətindən hürküb qaçan*
*Yenə qaçır sənə sar*ı [110, s.155].

2002-ci ildə yazılan poema müəllifi Rəsul Rza sənətinə vurğunluğunu poetik təfəkkür hadisəsi kimi axıcı misralarla ifadə etməklə epik poeziyanın zəngin ənənələrinə sadiqliyini ifadə etməklə yanaşı, Rəsul Rza sənəti, şəxsiyyətinə də məhəbbətini kövrək, bir o qədər də cəsarətli misralarla dilə gətirir. Poemada maraqlı fikirlər, özünəməxsus deyimlər əsərin dil-üslub zənginliyindən xəbər verir. Məsələn, müəllif yazır: *"Alın yazısına indi qar yağır"; "Nakam şairlərin məzarı üstə ürəyi partlayıb qərənfillərin"; "Kimə başsağlığı verim, bilmirəm / lüb sözümüzün dədəsi, Dədə"; "Hamı məzələnir söz bazarında/ Nəsimi təzədən soyulur, Dədə".* Bir növü şəyirdin ustada gileyi mənziləsində olan güclü fikir axını yaradan misralar müəllifin "Şerimizin xan çinarı" Rəsul Rzaya zəmanədən, ədəbi mühitdən gileyi kimi təsiri bağışlayır. Poemanın növbəti bölməsində müəllif ədəbi qəhrəmanına Qarabağ dərdindən, nisgilindən, ağrısından, fəryadından danışır. Balayar Sadiqin gileyli misralarında sızlayan Qarabağ həsrəti artıq bitib, doğma torpaqlar Azərbaycan ordusunun gücü ilə geri qaytarılıb, Füzuli qürbətdən artıq torpaq harayına gəlmir, Bülbülün naləsi yox, xoş sədası duyulur qarabağdan. Və Rəsul Rzaya – ustada - Dədə çinara gileylənən kövrək qəlbi də Rəsul Rza ruhunun aram tapdığı kimi aram tapıbdır, çünki Qarabağ Azərbaycandır!

Cabir Novruzun "Əli Kərimin xatirəsinə" adlı poemasında birbaşa olaraq Əli Kərim obrazı yoxdur. Amma istedadlı şairin şəxsiyyətin, yaradıcılığına dərin ehtiramın ifadəsi olan poemada şairin yaradıcı dünyasının, yaradıcılığının təsir dairəsinin incə məqamları epik-lirik düşüncədə yüksək həssaslıq, dəqiqliklə ifadə olunmuşdur. Cabir Novruz 1992-ci ildə nəşr olunan "Şeirlər, poemalar" kitabına yazdığı "Yaradana yaratdıqları əzizdir" başlıqlı qeydində bildirir ki, *"...ən əsası odur ki bu şeir və poemaların hər sətrində belə həqiqətə xəyanət, həyatı təhrif yoxdur*" [93, s.3]. Bütün yaradıcılğına yaradıcı şəxsiyyətin səmimi etirafı olan fikirləri onun Əli Kərimə həsr etdiyi poemasında da müşahidə etmək olur. Sözə sədaqəti, səmimiyyəti ilə seçilən Cabir Novruz yaradıcılığında Əli Kərim irsinə dərin bağlılıq, səmimi münasibət poemanın yaranması ilə nəticələnmiş, poema oxucu marağı qazanmışdır.

Poeziyamızın istedadlı nümayəndəsi olan Əli Kərim şəxsiyyətinə və irsinə dərindən bələdliyin, böyük məhəbbətin, vəfa borcunun misralara çevrildiyi

poemalardan biri də Balayar Sadiqin "Nar ağacının gülöyşə yuxusu" əsəridir. Əsər müəllifin narahat düşüncələrinin, Əli Kərim itkisinə etirazının ifadəsi kimi səslənsə də, poemanın mükəmməl strukturu, ədəbi-nəzəri çəkisi deməyə əsas verir ki, bu poema ədəbi fikir tariximizin qiymətli nümunəsidir. Poema Əli Kərim itkisinə haray mənziləsində olan bu misralarla başlayır:

*Sözün*
*İnfakt günüydü...*
*Ağrıdan ürəyini tutub*
*Varaqlar üstə*
*Yıxılmışdı misralar...*
*Rəngi avazımış duyğuların*
*Kirpiklərindən asılmışdı*
*Əcəl portreti...* [110, s.163].

Əli Kərim ölümünü şair aşağıdakı poetik misralarla ifadə edirdi:

*Uzaqlarda bir nar ağacının*
*gülöyşə yuxusu*
*38 yerdən çatladı.*
*O gün 38 yaşın köynəyi*
*dar gəldi*
*Əli Kərimin əyninə.*
*Ağrıya-ağrıya*
*son dəfə içindəki ağrıya*
*dirsəkləndi Əli Kərim.*
*Göyçayda*
*nar ağaclarının*
*alov-alov çiçəkləri,*
*Əli Kərimin ölümünə*
*üsyan bayrağı qaldırmışdı* [110, s.163-164].

Yaxud

*Ustad Rəsul Rza şeirinin*

*Misra-misra gözləri doldu* [110, s.165].

Müəllif Əli Kərimlə bu xəyali söhbəti şəklində qurulan poemada Əli Kərim yaşında - 38 yaşında danışır. Müəllif öz köhnə dostuna müjdəli xəbər də verir:

*Gözün aydın, Əli Kərim,*
*Vətən bir oğul doğdu*
*Azadlıqdır adı...* [110, s.168].

Vətən sevgili, vətən aşiqi iki şairin kövrək notlar üzərində dərdləşməsi ötən əsrin poeziyasının yetirdiyi nəhənglərdən biri kimi Əli Kərim sənətinin, sözünün misilsizliyini, təkrarsızlığını bir daha Balayar Sadiq sözündə, düşüncəsində ədəbi təsdiqini tapır. Maraqlı sonluqla bitən poemada müəllif Əli Kərim misrasını, sözünü belə qiymətləndirir:

*Və bir ovuc*
*Göyçay torpağıdır*
*Əli Kərimin son misrası* [110, s.170].

Azərbaycan poeziyasına bir ovuc Göyçay torpağı kimi gələn, bir ovuc Göyçay torpağı kimi də gedən, poeziyamızda misilsiz iz qoyan Əli Kərim şəxsiyyətinə, sənətinə səmimi məhəbbət hissləri aşılayan "Nar ağacının gülöyşə yuxusu" poeması Balayar Sadiq yaradıcılığının da ədəbi şəxsiyyətlərə həsr olunmuş poemaları içərisində seçilməkdədir. Ədəbiyyatşünas Vaqif Yusifli Balayar Sadiqin "Nar ağacının gülöyşə yuxusu" poemasını sənət hadisəsi kimi qiymətləndirərək yazır: "*Mən onun Əli Kərimin unudulmaz xatirəsinə həsr etdiyi poemadan bəzi yerinə düşən, fikrin poetik ifadəsini, sanbalını qüvvətləndirən misallar gətirmək istəyirəm: Sözün infarkt günüydü. Əli Kərimin son anlarını təsvir etmək üçün bundan yaxşı ifadə ola bilərdimi? Gecənin qara gözləri üşüyürdü pəncərədə hıçqıran lampa işığında. Gözəl tapıntıdır!"* [160].

Beləliklə, XX əsr ədəbi fikrimizin Səməd Vurğun, R.Rza, Ə.Kərim və s. görkəmli sənətkarlarının obrazı tarixi poemalarda geniş epik-lirik planda təsvir olunmaqla yanaşı, bu əsərlərdə həm nəzəri məziyyətlər janrın tələbləri səviyyəsindədir, həm də ədəbi-tarixi şəxsiyyətin həyatı, mühiti, şəxsiyyəti, dövrü haqqında bitkin fikir yaradır.

# NƏTİCƏ

- Poema janrının inkişafı sayəsində tarixi poema da yaranaraq janrın çoxçeşidliliyinə təkan vermişdir.

- Azərbaycan ədəbiyyatında mədəni-tarixi irsin və onu yaradanların ehtiramı və qorunub-hifz olunması məqsədi daşıyaraq tarixi poemalar ərsəyə gəlmiş, Xaqani, Məhsəti, Nizami, Nəsimi, Xətai, Füzuli, Vaqif, M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Hadi, H.Cavid, M.Müşfiq, S.Vurğun və b. ədəbi şəxsiyyətlərə həsr olunmuş poemalar yaranmışdır. Ədəbi şəxsiyyətlərin həyatı və taleyi mövzu edildiyi poemalarda ədəbi şəxsiyyətlər və tarixi-mədəni məsələlər konkret tarixi faktlar fonunda təsbit və inikas olunduğu kimi, müəllif mövqeyi etibarilə sərbəst yanaşmalar da olmuşdur. Müəlliflər ədəbi şəxsiyyətlər barəsində poema ərsəyə gətirən zaman dərindən və əhatəli araşdırmalar aparmış, tarixi-mədəni dövrə həm tarixin, həm də müasir dövrün prizmasından yanaşmış, konkret faktlarla bərabər el rəvayətləri və şəxsi təxəyyül gücü ilə əsərləri bəzəmiş, ədəbi şəxsiyyətlərin bitkin obrazını yaradan əsərlər ortaya qoymuşlar.

- M.Rahimin "Sarı Aşıq", H.Kürdoğlunun "Aşıq və Yaxşı", H. Arifin "Dilqəm", İ.Səfərlinin "Ələsgər" tarixi poemalarında el sənətkarlarının şəxsiyyəti, taleyi, mühiti, müasirləri, dünyagörüşü, yaradıcılığı müəlliflərin poetik qənaətləri fonunda yer almış, həm aşıq sənəti, onun mənəvi dəyərləri, milli miraslıq əhəmiyyəti göz önünə gətirilmiş, həmçinin müəlliflərin şəxsi düşüncə və qənaətləri janrın imkanları daxilində ortaya qoyulmuşdur. El sənətkarlarına tarixi poemalarda göstərilən poetik ehtiram bir tərəfdən xalqın mədəni həyatında onların tutduğu mövqe və oynadıqları rol ilə bağlı yer almışsa, digər tərəfdən müəlliflərin həmin ədəbi şəxsiyyətlərə və onların bənzərsiz, milli sərvət təşkil edən yaradıcılığına bəslənilən məhəbbət və verilən qiymətlə əlaqədar mövqe tutmuşdur.

- Orta əsrlərdə yaşayıb fəaliyyət göstərən görkəmli ədiblərimizin mükəmməl bədii obrazının yaradıldığı tarixi mövzulu poemalar bu sənətkarların həyatı, fəaliyyəti ilə bağlı olan, yalnız bəlli dairədə məlum olan gerçəklərin geniş dairədə aşkarlanması və kütləviləşməsi baxımından da ictimai fikir tariximizə öz töhfələrini vermişlər.

- M.Ş.Vazehə, Ağabəyim ağaya, X.Natəvana və M.F.Axundzadəyə həsr olunmuş çoxsaylı tarixi poemalarda ciddi axtarışlar, fərqli yanaşmalar kontekstində müəlliflər əsərdə dövrdən, zəmanədən, həyatın əzab-əziyyətlərindən, taledən narazılıq və şikayətləri, azğın hakimlərə, riyakar ruhanilərə, dini-sxolastik görüşlərə, çar mütləqiyyətinin işğalçı siyasətinə və s. qarşı mübarizələrini, humanist ideyalarını əks etdirmişlər.

- N.Xəzrinin "Heykəlsiz abidə", A.Abdullanın "Vazeh", N.Kəsəmənlinin "Yaddan çıxmaz Qarabağ", M.Rahim və H.Arifin X.Natəvan obrazını canlandırdıqları "Natəvan", S.Rüstəmin "Səbuhini düşünərkən", H.Arifin "Onlar görüşdülər", T.Bayramın "Yaralı nəğmə" poemalarında XIX yüz il kimi mühüm tarixi, ədəbi-mədəni dövrün görkəmli şəxsiyyətlərinin obrazları, aparıcı məsələləri və müəllif qənaətləri ifadə edilmişdir.

- XX əsrin ədəbi şəxsiyyətlərindən olan C.Məmmədquluzadə, M.Ə.Sabir, S.Vurğun və başqaları haqqında yaradılan poemalarda ədəbi şəxsiyyətə ehtiramla ciddi ictimai fikirlər bir arada özünə yer almış və müəlliflərin fikirlərini ifadə etmə vasitəsinə çevrilmişdir.

- Əliağa Kürçaylının "Durnalar cənuba uçur", Rüstəm Behrudinin "Daha gülə-gülə ağlamaq olmur", Məmməd Arazın "Mən də insan oldum", "Qayalara yazılan səs", H.Arifin "Yolda", R.Rzanın "Xalq şairi", B.Vahabzadənin "Ağlar-güləyən", N.Xəzrinin "Dağlar dağımdır mənim", F.Sadığın "Ömrün bir günü", N.Həsənzadənin "Heybədə gəzən şeir", "Nəriman", R.Rzanın "Xalq həkimi" tarixi poemaları özünün epik vüsəti, problematikası və ciddi ictimai məzmunu ilə Azərbaycan epik şeiri tarixində mühüm yer tutur.

- Əsər müəllifləri yaşadıqları dövrün sərt rejiminə baxmayaraq, mənsub olduqları xalqın azadlığı və müstəqilliyi haqqındakı arzularını məhz janrın imkanları və bədii obrazlar vasitəsilə dilə gətirmişlər.

- Azərbaycan poemasında repressiya qurbanlarının şəxsiyyətinə bəslənilən ehtiram və ifadə edilən ciddi ictimai məzmun və faciə də yer almışdır. Tarixi-sənədli poemalar repressiyanın acı faciələrini yaşamış ədəbi şəxsiyyətlərə həsr edilən, obrazları yaradılan və ictimai problemlərin ehtişamlı yer aldığı əhəmiyyətli

əsərlərdəndir.

- Tədqiqatda bu qənaətə gəlinmişdir ki, ədəbi şəxsiyyətlərin obrazının yaradıldığı tarixi poemalarda ədəbi şəxsiyyətə, tarixi dövrə müəllif yanaşması bədii nümunənin ideya-məzmun xüsusiyyətlərində əksini tapdığı kimi, yazarın yaşadığı dövrün problemlərini ifadə etmək baxımından da mühüm rol oynayır. Müəyyənləşdirilmişdir ki, dövrün despotik idarəçiliyinin təsirləri, məlumatların ziddiyyətliyi və kasadlığı poemalarda ədəbi şəxsiyyətlər haqqında fikirlərin təhrif olunmasına, obrazların tarixi şəxsiyyətlə üst-üstə düşməməsinə gətirib çıxarmışdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. Abdullayev C. Lirika və zaman / C.Abdullayev. − Bakı: Yazıçı, −1982. −179 s.
2. Abdullazadə A. Od nə çəkdi / A.Abdullazadə. –Bakı: Azərnəşr, −1990. −208 s.
3. Abdurəhmanova F. Lirikada psixoloqizm / F.Abdurəhmanov. –Bakı: Nərgiz PB, −2014. −152 s.
4. Ağabalayeva S. Zamanla üz-üzə / S.Ağabalayeva. – Bakı: Təhsil, −2013. −176 s.
5. Akimova E. İlin poema mənzərəsi: aydınlığa doğru. Ədəbi proses-2014 / E.Akimova. −Bakı: Hədəf nəşrləri, −2015. −399 s.
6. Aslan Kənan. XX əsrdə repressiyaya məruz qalanlar / K.Aslan. –Bakı: Azərnəşr, −2011. −296 s.
7. Araslı Həmid. Böyük Azərbaycan şairi Füzuli / H.Araslı. − Bakı: Uşaqgəncnəşr, −1958. −312 s.
8. Araz M. Seçilmiş əsərlər: [IV cilddə] / M.Araz. −Bakı: Ozan, −c.4. −2003. −356 s.
9. Araz M. İsa İsmayılzadənin Seçilmiş əsərlərinə ön söz-Şair taleyi / M.Araz. − Bakı: Azərnəşr, −1991. −350 s.
10. Azəroğlu B. Dünənim, bu günüm, sabahım / B.Azəroğlu. − Bakı: Gənclik, −1978. −240 s.
11. Azəroğlu B. Seçilmiş əsərləri: [II cilddə] / B.Azəroğlu −Bakı: Azərnəşr, −c.1. −1991. −325 s.
12. Azərbaycan ədəbiyyatı tarixi: (Ali məktəblər üçün dərslik) / −Bakı: Maarif, −1974. −488 s.
13. Aydın Xan. Şaman kimi sğzlərdən mən tale toxuyuram // Ədəbiyyat. −2007, 28 sentyabr.
14. Axundova A. Azərbaycan poeziyasının klassiki Mirzə Şəfi Vazehin yaradıcılığı Azərbaycan ilə Avropa arasında ədəbi-mədəni əlaqələrin inkişafında mühüm yer tutur // "525-ci qəzet". −2014, 15 oktyabr.
15. Azərbaycan xalq dastanları: / tərt. ed. Ə.Axundov; red. A. Nəbiyev. −Bakı: Yazıçı, −1980. − 250 s.

16.Azərbaycan yazıçıları (Ensiklopedik məlumat kitabı): Tərtibçi Teymur Əhmədov. −Bakı: Önər, −1995. −637 s.
17.Babayev Y. Sələfin kədəri xələfin poeziya tablosunda // 525-ci qəzet. − 2019. − 1 may. −s. 21.
18.Bayramov Akif. Fridrix Bodenştedtin Mirzə Şəfi Vazeh haqqında xatirələri / A.Bayramov. −Gəncə: −2014. −160 s.
19.Bayramov Q. Unutmayaq!! - Həmişə müasir şair - Nəbi Xəzri // Ədəbiyyat. −2017, 17 yanvar.
20.Bayram T. Seçilmiş əsərləri / T.Bayram. −Bakı: Lider, −2005. −328 s. S. 250-320
21.Behrudi R. Şaman duası. Şeirlər və poema / R.Behrudi. – Bakı: Yazıçı, −1989. −152 s.
22.Bəxtiyar N. Xarı-bülbül əfsanəsi və Ağabəyim ağanın hüznlü taleyi // 525-ci qəzet. – 2016, – 24 iyun. – s.4.
23.Bünyadov Z. Qırmızı terror / Z.Bünyadov. –Bakı: Azərnəşr, − 1993. −331 s.
24.“Cahana sığmayan şair”: biblioqrafik göstərici: / tərt. ed. N.Cəfərova, N.Axundzadə, M.Əliyeva; red. Əhmədova Y. – Sumqayıt: −2014. − 50 s.
25.Cəfərov A. Nəbi Xəzrinin poetik dili / A.Cəfərov. − Bakı: Elm və təhsil, −2012. −144s.
26.Cəfər M. Estetik zövq haqqında / M.Cəfər. −Bakı: Maarif, − 1965. −72 s.
27.Cəfər M. Mütəfəkkirin şəxsiyyəti // “Azərbaycan” jurnalı. −1962, №10. − s. 34-45.
28.Cəfərov N. Nəriman Həsənzadənin Seçilmiş əsərlərinə yazdığı “ön söz” / N.Cəfərov. − Bakı: Şərq-Qərb, −2004. −336 s.
29.Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2019-cu il tarixli sərəncamı // “Azərbaycan” qəz., 18 yanvar 2019.
30.Cəmil A. Mənim tanıdığım Kürçaylı // Ədəbiyyat. −2018, 21 fevral.
31.Dilbazi M. Seçilmiş əsərləri: [2 cilddə] / M.Dilbazi. –Bakı: Gənclik, −c.2. −1968. −262 s.
32.Ədəbiyyatşünaslıq terminləri lüğəti : / Tərtib edən Əziz Mirəhmədov. −Bakı: Maarif, −1978. −105 s.

33.Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. (Pedaqoji institutların tələbələri üçün dərslik) / P.Əfəndiyev. – Bakı: Maarif, −1981. −404 s.
34.Əhməd Ə. Rəsul Rza yaradıcılığında poema janrının sənətkarlıq xüsusiyyətləri https:// 525.az/news/110744-resul-rza-yaradiciliginda-poema-janrinin-senetkarliq-xususiyyetleri
35.Əhmədov B. Ədəbiyyat və repressiya: xarakteri, genezisi və yanaşma meylləri // “Azərbaycan” jurnalı, −2012, № 3, −s. 176-186.
36.Əkbərov. Z. Klassik irs və müasir ədəbiyyat / Z.Əkbərov. − Bakı: Yazıçı, − 1988. −184 s.
37.Əliyeva G. Çağdaş poeziya və klassik irs / G.Əliyeva. –Bakı: Azərnəşr, −2000. −172 s,
38.Əliyeva İ.S. Fikrət Sadıq poeziyasının janr xüsusiyyətləri // Bakı Universitetininxəbərləri (humanitar elmlər seriyası), −2007, № 1, −s. 34-39.
39.Əliyeva İ.S. Musagöydən başlanan ömür // Bakı universitetinin xəbərləri. Humanitar elmlər seriyası, −2013, № 1, −s. 38-43.
40.Əliyev K. Hüseyn Cavidə böyük məhəbbətlə / Muradoğlu Nizami. Bu dünyanın məzarları ağlamaz / K.Əliyev. – Bakı: “MBM” MMC, −2010. −96 s.
41.Əliyev K. Hüseyn Cavid və ədəbi tənqid / Əliyev K. Tənqidin poetikası / K.Əliyev. – Bakı: Elm və təhsil, −2012. −208 s.
42.Əliyev K. Ruh poeziyası, yaxud Rüstəm Behrudinin özü haqqında bilmədikləri // Ədəbiyyat. −2016, 15 oktyabr.
43.Əlizadə S. Azərbaycan tarixi poemalarında repressiya qurbanlarının xatirəsinə poetik ehtiram // NDU Elmi əsərlər. Humanitar elmlər seriyası. −2018, № 5 (94), −s. 73-81.
44.Əlizadə S. Qabilin “Nəsimi” poemasında filosof-şairin bədii obrazı // NDU Elmi əsərlər. Humanitar elmlər seriyası, −2020, № 1 (102), −s. 59-66.
45.Elçin. Ədəbiyyatımızın yaradıcılıq problemləri / Elçin. −Bakı: Təhsil, −1999. −564 s.
46.Həbibbəyli İ. Böyük Azərbaycan şairi Nizami Gəncəvi //Respublika. −2017, 8 dekabr.
47.Həbibbəyli İ. Bütövlük və genişlik // “525-ci qəzet”. −2015, 12 sentyabr.

48.Həbibbəyli İ. Cəlil Məmmədquluzadə (Tanıtma kitabı) / İ.Həbibbəyli. –Naxçıvan: Əcəmi, −2009. −170 s.
49.Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri / İ.Həbibbəyli. – Naxçıvan: Əcəmi, −2009. −424 s.
50.Həbibəyli İ. Ədəbiyyatşünaslıqda faydalı örnək / Q.Paşayev. Hüseyn Kürdoğlunun poetik dünyası / İ.Həbibbəyli. −Bakı: Sabah, −2017. −288 s.
51.Həbibbəyli İ. Romantik pafosdan lirizmə //Azərbaycan. – 2013, 7 mart. −№ 52 (6327).
52.Həşimli H. Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri / H.Həşimli. − Bakı: Elm və təhsil, −2012. −92 s.
53.Hüseyn A. Dilqəm. Şeirlər və poemalar / A.Hüseyn. –Bakı: Yazıçı, −1984. −240 s.
54.Həsənzadə N. Nəriman / N.Həsənzadə. −Bakı: Azərnəşr, −1968. −48 s.
55.Hüseynzadə H. Söylə, yadındamı? / H.Hüseynzadə. –Bakı: Gənclik, −1972. −205 s.
56.Hüseynzadə H. Ömür gözləsə / H.Hüseynzadə. –Bakı: Gənclik, −1978. −352 s.
57.Hüseyn Arif. Seçilmiş əsərləri / H.Arif. − Bakı: Şərq-Qərb −2004. −224 s.
58.Hüseynov R. "Məhsəti" poeması haqqında (fraqment) / Ağabalayeva S. Zamanla üz-üzə / R.Hüseynov. –Bakı: Təhsil, −2013. −176 s.
59.Hüseynov R. Keçmişin, indinin və gələcəyin şairi / Gəncəvi Məhsəti. Rübaidən rübaiyə / R.Hüseynov. –Bakı: Elm və təhsil, −2012. −208 s.
60.Hüseynov R. Redaktordan / Muradoğlu Nizami. Yaşayan Cavidlər / R.Hüseynov. –Bakı: Elm və təhsil, −2012. −192 s.
61.Xəlilov F. Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər / F.Xəlilov. − Naxçıvan: Əcəmi, −2017. −248 s.
62.Xəlil Z. Əsrim, taleyim mənim. Şeirlər və poemalar / Z.Xəlil. – Bakı: Azərnəşr, −1978. −252 s.
63.Xəlil Z. Gəncə qartalı // "Azərbaycan" jurnalı, −1975, № 6, −s. 90-125.
64.İfrat Əliyeva. Ön söz. Məmməd Rahim. Seçilmiş əsərləri: [II cilddə] / İ.Əliyev. −Bakı: Avrasiya press, −c.1. −2006. −272 s.
65.İki ömrün işığı : ədəbiyyatşünaslıq: / tərt.ed. R. Hüseynov, H. Şəmsizadə ; red. Z. Şahsevənli. − Bakı: Gənclik, −1987. −551 s.

66.İslam Ə. Haqq aşığı. / Aşıq Ələsgər. Əsərləri / İ.Ələsgər. –Bakı: Şərq-Qərb, −2004. −400 s.
67.Kənan A. XX əsrdə repressiyaya məruz qalanlar / K.Aslan. −Bakı: Azərnəşr,−2011, −296 s.
68.Kəsəmənli N. Hamısı sevgidəndir... / N.Kəsəmənli. – Bakı: Gənclik, −1991. −296 s.
69.Kürdoğlu H. Seçilmiş əsərləri: [2 cilddə] / H.Kürdoğlu. –Bakı: Sabah, −c.2. − 2011. −508 s.
70.Kürçaylı Ə. İnsan qüdrətinin tərənnümü // Ədəbiyyat və incəsənət. – 1976, – 3 aprel, № 14.
71.Kürçaylı Ə. Durnalar cənuba uçur /Ə.Kürçaylı. –Bakı: Gənclik, −1967. −256 s.
72.Qabil. El şairinin surəti // Ədəbiyyat və incəsənət. – 1963, 26 yanvar. −№ 4 (1205).
73.Qabil. Nəsimi. Poema / Qabil. –Bakı: Yazıçı, − 1980. −407 s.
74.Qarayev Y. Ön söz / Məmməd Araz. Seçilmiş əsərləri: [II cilddə] / Y.Qarayey. – Bakı: Lider nəşriyyatı, −c.1. −2004. −224 s.
75.Qarayev Y. Poeziya və nəsr / Y.Qarayev. −Bakı: Yazıçı, −1979. −198 s.
76.Qasımlı M. Bayatılarımızın heyrət heykəli // Ədəbiyyat. −2015, 5 sentyabr. −№ 49 (5004). s. 20-21.
77.Qasımzadə Q. Mətanət və zəriflik / Kürdoğlu Hüseyn. Seçilmiş əsərləri. [II cilddə] / Q.Qasımzadə. −Bakı, “Sabah”, −c. 2. −2011, −508 s.
78.Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi / F.Qasımzadə. –Bakı: Maarif, −1974. −488 s.
79.Qocayeva L. Rəsul Rzanın poemalarında süjet və qəhrəman. (XX əsr Azərbaycan ədəbiyyatı məsələləri) / L.Qocayev. −Bakı: Elm, −2006. −428 s.
80.Quliyev K. Lirika, müasirlik və qəhrəman / K.Quliyev. −Bakı: Yazıçı, −1983. −197 s.
81.Qurbanov Ş. Ədəbi dostluq (Zaqafqaziyanın rusdilli mətbuatında Azərbaycan ədəbiyyatı məsələləri) / Ş.Qurbanov. −Bakı: Yazıçı, −1980. −190 s.
82.Məmmədov E. İslam Səfərli poeziyasında folklor // Naxçıvan. İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal, −2013 № 26, −296 s.
83.Məmmədov Ə. Qabil – 85. Əbədiyaşar sənətkar // Ədəbiyyat. – 2011, 12 avqust. – № 30.

84.Muradoğlu N. Yaşayan Cavidlər / N.Muradoğlu. – Bakı: Elm və təhsil, −2012. −192 s.
85.Mustafayev C. Hüseyn Arif şerinin cazibəsi / Hüseyn Arif. Seçilmiş əsərləri / C.Mustafayev. –Bakı: "Şərq-Qərb", −2004. −224 s.
86. Nəbi Xəzri. Heykəlsiz abidə / Ağ şimşəklər / N.Xəzri. –Bakı: Yazıçı, −1986. −517 s.
87. Nəbi Xəzri. Seçilmiş əsərləri Poemalar və tərcümələr: [IV cilddə] / N.Xəzri. –Bakı: Yazıçı, −c. 4. −1984. −263s.
88.Nəbiyev B. Meydan kiçik olsa da... / Kürdoğlu Hüseyn. Seçilmiş əsərləri: [ 2 cilddə] / B.Nəbiyev. –Bakı: Sabah, −c.2. −2011. −508 s.
89.Nəbiyev B. Ön söz / Qabil. Seçilmiş əsərləri / B.Nəbiyev. –Bakı: Şərq-Qərb, − 2004. −248 s.
90.Nəbiyev B. Təzə izlər sorağında / B.Nəbiyev. −Bakı: Yazıçı, −1979. −216 s.
91.Nəsrəddinov N. Mirzə Ələkbər Sabir müəllim kimi // https://525.az/news/38457-mirze-elekber-sabir-muellim-kimi
92.Nizami Gəncəvi. Sirlər xəzinəsi / N.Gəncəvi. –Bakı: Lider, −2004. −264 s.
93.Novruz C. Şerlər, poemalar / C.Novruz. −Bakı: Yazıçı, −1992. −208 s.
94.Novruzova S.Ş.Vətənpərvərli lirikası (Eldar Baxışın yaradıcılığı əsasında) // Bakı Universitetinin Xəbərləri(Humanitar elmlər seriyası), −2008, № 1, –s. 2-7.
95.Paşayev M.C. Azərbaycanda ədəbi məktəblər(1905-1917) /M.C.Paşayev. −Bakı: Nurlan, −2004. −391 s.
96.Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları / M.C.Paşayev,P.Xəlilov. –Bakı: Maarif, −1972. −280 s.
97.Paşayev Q. Hüseyn Kürdoğlunun poetik dünyası / Q.Paşayev. −Bakı: Sabah, −2017. −288 s.
98.Pənahova G.P. Hüseyn Arifin yaradıcılığı: / filologiya elmləri namizədi alimlik dis. avtoreferatı. −Bakı, 2007. −24 s.
99.Pənah G., Əhmədli S. Azərbaycan ədəbiyyatı məsələləri (müasir ədəbi mühitə ümumi baxış) / G.Pənahi, S.Əhmədli. –Bakı: UniPrint, −2014. −616 s.
100. Pənah G., Əhmədli S. Sənət, sənətkar və zaman / G.Pənahi, S.Əhmədli. −Bakı: UniPrint, −2014. −602 s.

101. Rahim M. Məhəbbət dastanı. Şeirlər və poemalar / M.Rahim. –Bakı: Azərnəşr, −1974. −260 s.
102. Rəfibəyli N. Seçilmiş əsərləri / N.Rəfibəyli. –Bakı: Şərq-Qərb, −2004. −392 s.
103. Rüstəmova A. Azərbaycan epik şerinin inkişaf yolları / A.Rüstəmova. −Bakı: Elm, −1975. −229 s.
104. Rüstəm S. Seçilmiş əsərləri: [III cilddə]. / S.Rüstəm. –Bakı: Şərq-Qərb, −c.2. −2005. −328 səh.s. 112-116.
105. Rza X.U. Vətəndaş poeziyası uğrunda //Ədəbiyyat və incəsənət. −1967, 23 iyun.
106. Rza X. Tarixi-romantik poema // Ədəbiyyat və incəsənət. – 1972, 29 iyul, – № 31.
107. Rza R. Güneylər, quzeylər. Şeirlər, poemalar / R.Rza. –Bakı: Azərnəşr, −1977. −199 s.
108. Rza R. Seçilmiş əsərləri: [V cilddə] / R.Rza. −Bakı: Öndər, −c. 4. −2005. −336 s.
109. Rza R. Seçilmiş əsərləri. [V cilddə] \ R.Rza. –Bakı: Şərq-Qərb, −c.4. −2013. −308 s.
110. Sadiq B. Allahın unutduğu adam / B.Sadiq. −Bakı: Yazıçı, −2010. −202 s.
111. Sadıq F. Halbuki / F.Sadıq. −Bakı: Nərgiz, −2010. −392 s.
112. Salahzadə Ə. Od heykəli. Şeirlər və poema / Ə.Salahzadə. –Bakı: Gənclik, −1970. −107 s.
113. Sarı Aşıq. Seçmə bayatılar: / Tərtib və ön söz: Hüseyn Kürdoğlu. −Bakı: Sabah, −1993. −120 s.
114. Səfərli İ. Əbədi beşik. Şeirlər və poemalar / İ.Səfərli. –Bakı: Yazıçı, −1978. −225 s.
115. Səfərli Ə.Q. XVII-XVIII əsrlər Azərbaycan epik şeri / −Bakı: Yazıçı, −1982. −266 s.
116. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi /Ə.Səfərli, X.Yusifli. – Bakı: Ozan, −2008. −696 s.
117. Sultan X. İnam şairi, zaman şairi, şaman şairi // 525-ci qəzet. −2012, 10 aprel.

118. Şəmsizadə N. Tarix həqiqətləri təsdiq edir / Kənan Aslan, XX əsrdə repressiyaya məruz qalanlar / N.Şəmsizadə. –Bakı: Azərnəşr, −2011. −296 s.
119. Vahabzadə B. Seçilmiş əsərləri: [II cilddə] / B.Vahabzadə. –Bakı: Öndər nəşriyyat, –c.2. −2004. −320 s.
120. Vəzir M. Ağabəyim ağa Cavanşir / M.Vəzir. –Bakı: Pergament Yayın Evi, −2019. −218 s.
121. Yaqub M. Dövrün dəyirmanı. Poemalar, şeirlər / M.Yaqub. –Bakı: CBS, −2012. −576 s.
122. Yaqub Z. Əsərləri [XIII cilddə] / Z.Yaqub. –Bakı: Şərq-Qərb, −c.9. −2013. −376 s.
123. Yusifoğlu R. Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri / R.Yusifoğlu. −Bakı: ADPU nəşriyyatı, −2010. −486 s.
124. Yusifli C. Ədəbi ilin yekunları-2016. (Ədəbi proses-2016) / C.Yusifli. −Bakı: Hədəf, −2017. −461 s.
125. Yusifli X. Rəvayətlər dumanı arxasından boylanan sənətkar / Məhsəti Gəncəvi. Rübailər / X.Yusifli. –Bakı: Lider nəşriyyatı, −2004. −144 s.
126. Yusifli V. Şəhidliyin zirvəsi... Azərbaycan ədəbiyyatında Nəsimi obrazı // Ədəbiyyat. – 2019, 02 fevral. −№ 4 (5179).
127. Yusifli V. Dünya səndən kimlər keçdi: Əliağa Kürçaylı haqqında söz // “525-ci qəzet”. – 2012, 15 sentyabr.
128. Yusifli V. Məmməd Arazın Səməd Vurğun sevgisi // 525-ci qəzet. – 2013, 20 dekabr.

## Rus dilində

129. Бабаева З. Как жаль, что его расстреляли (Азербайджан отмечает столетие своего величайшего поэта Микаила Мушфига / Газ. Reqion plus. 01.07.2008
130. Рустамов Ю. Поэзия Насими – религия любви к истине // Литературный, научный, переводческий журнал «Мутарджим», 2006, № 3-4, с. 115-124.

## İnternet resursları

131. Elmira Əliqızı Mustafayeva https://docplayer.biz.tr/107532198-N@riman-h@s@nzad@nin-poetik-axtarislari.html
132. Gülnarə Eynullaqızı Nəriman Həsənzadə: O poemaya görə həyat yoldaşımı itirdim...https://yenicag.az/neriman-hesenzade-o-poemaya-gore-heyat-yoldasimi-itirdim/
133. Gülşən Behbud. Rəsul Rza poemalarının bədii xüsusiyyətləri. https://kaspi.az/az/resul-rza-poemalarinin-bedii-xsusiyyetleri
134. Musa Quliyev. Xalqın sevimli şairi. https://ikisahil.az/post/197416-xalqin-sevimli-shairi
135. M.Müşfiqin 110 illik yubileyində ak. Rafael Nüseynovun məruzəsindən. http.science.gov.az./news/open/8364
136. M.Müşfiqin 110 illik yubileyində çıxışdan http://regionplus.az/ru/ articles/view/4477)
137. Repressiya qurbanları haqqında http://aydinliga-dogru.com/node/686
138.Şamil Sadiq. Millət kimi adam http://shamilsadig.com/millət-kimi-adam/ (R.Behrudinin yaradıcılığı haqqında
139. Zemfira Məhərrəmli. Rəsul Rza fenomeni. https://525.az/news/97466-resul-rza-fenomeni
140. https://kayzen.az/blog/edebiyyat/21321/poema.html
141. http://mct.gov.az/az/umumi-xeberler/13241
142. http://anl.az/down/meqale/xalqcebhesi/2012/dekabr/281965.htm
143. http://anl.az/down/meqale/medeni_heyat/2013/dekabr/456.pdf)
144.https://niyamet.wordpress.com/2015/05/27/arasdirma-azərbaycanda-əxilik-birliyi-haqda/
145. https://president.az/articles/30722 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 noyabr 2018-ci il tarixli "Böyük Azərbaycan şairi İmadədin Nəsiminin 650 illik yubileyinin qeyd olunması haqqında" sərəncamı.
146. http://modern.az/az/news/122622#gsc.tab=0(Qurban Bayramov. Həmişə müasir şair - Nəbi Xəzriədəbi oçerk

147. http://www.anl.az/down/meqale/edebiyyat/2011/avqust/195374.htm (Professor Tofiq Hacıyev Qabil yaradıcılığı haqqında
148. https://kulis.az/news/24889
149. https://525.az/?name=xeber&news_id=119582
150. http://harayli.blogfa.com/post/70
151. https://modern.az/az/news/122622
152.https://azertag.az/xeber/Azerbaycan_poeziyasinin_klassiki_Mirze_Sefi_Vazehin_yaradiciligi_Azerbaycan_ile_Avropa_arasinda_edebi_medeni_elaqelerin_inkisafinda_muhum_yer_tutur-58327
153. http://www.baymedia.az/news.php?id=29005#.XOJoFW4zYdU
154.https://525.az/news/110744-resul-rza-yaradiciliginda-poema-janrinin senetkarliq-xususiyyetleri
155. https://portal.azertag.az/az/node/18094
156. http://www.tarixinstitutu.az/personalities/view/96
157.http://icxeberler.info/medeniyyet/6947-k-esrin-sharnizami-muradoğlu.html (N.Muradoğli ilə müsahibə)
158. http://www.xalqcebhesi.az/news/literature/9075.html (Xəlil Ağaverdi. Ey Araz boyunca bölünən Vətən…N.Muradoğlu yaradıcılığı haqqında)
159. http://www.xalqcebhesi.az/news/literature/9075.html (Xəlil Ağaverdi. Ey Araz boyunca bölünən Vətən…N.Muradoğlu yaradıcılığı haqqında)
160. Yusifli V.Ə.Bir şair dünyası. https://525.az/news/32544-bir-sairin-dunyasi
161. https://xalqqazeti.com/mobile/az/news/49862
162. http://www.anl.az/down/meqale/edebiyyat/2011/avqust/195374.htm
163. Müstəqilliyimiz əbədidir / I c. https://files.preslib.az/projects/heydaraliyev/musteqillik_ebooks.pdf
164. “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının növbəti iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin giriş sözü [Elektron resurs] // https://lib.aliyev-heritage.org/print.php?lang=az&page=18862